ISSN: 2664-4975

# GEOSTRATEGİYA

2022
№5 (71)

BAKI-2022

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Александр Пухкал (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Müslüm Nəzərov (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***“GEOSTRATEGİYA”*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında
Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında dissertasiyaların
***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

ISSN: 2664-4975

# GEOSTRATEGY

2022
№5 (71)

BAKU-2022

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Muslum Nazarov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***"GEOSTRATEGY"*** journal is included in the list of periodicals recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan to publish the main results of the dissertations of the Republic of Azerbaijan on ***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.*** The international socio-political, scientific-theoretical journal is published six times a year.

Siyasi elmlər

UOT 327; 930.22

**SULTAN ZAHİDOV**
*Bakı Dövlət Universitetinin Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının dissertantı*

*E-mail: sultanzahidov@gmail.com*

# TÜRKİYƏNİN MÜASİR YAXIN VƏ ORTA ŞƏRQ SİYASƏTİNƏ TÜRKİYƏ-SURİYA MÜNASİBƏTLƏRİ PRİZMASINDAN BAXIŞ

Yaxın və Orta Şərq regionu, şübhəsiz ki, həm geostrateji mövqeyinə görə, həm enerji resursları, həm də ki, tarixi və mədəni əlaqələr baxımından Türkiyə üçün böyük əhəmiyyət kəsb edir. Regionu Türkiyə üçün vacib edən faktorlardan biri də burada böyük və regional dövlətlərin bir-birlərilə ifrat dərəcədə rəqabət aparmaları və öz siyasi oyunlarını oynamağa cəhd göstərmələridir. Qeyd olunmalıdır ki, uzun illər Türkiyə xarici siyasətdə özünütəcridə üstünlük verərək regiondakı proseslərdən kənarda qalmışdır. Ələlxüsus, "soyuq müharibə" dövründə NATO-dakı müttəfiqi ABŞ-ın yanında mövqe alan Türkiyə Cümhuriyyəti Kamalizm doktrinasına əsaslanan qərbyönümlü siyasət yürütmüş və bununla da regionda öz nüfuzunu artırmaq imkanından lazımınca faydalana bilməmişdir. Qeyd olunmalıdır ki, əsasən 80-ci illərdə Türkiyədə Turqut Özalın başçılığı ilə neo-liberal siyasətə üstünlük verən rəhbərliyin hakimiyyətdə olması ilə Türkiyədə ixracat yönümlü iqtisadiyyat inkişaf etmiş və Türkiyənin xaricdə yeni bazarlara çıxış əldə etmək istəməsi fonunda Yaxın və Orta Şərq regionu dövlətləri ilə münasibətlərə üstünlük verilmişdir. 1990-cı illərdə isə ölkə daxilindəki problemlər və ordunun siyasətdə daha qüvvətli olması səbəbindən Türkiyə yenidən qərbyönümlü və əsasən milli təhlükəsizliyin təmininə yönəlik Yaxın Şərq siyasətinə üstünlük vermişdir. 2002-ci ildə Ədalət və İnkişaf Partiyasının (AKP) hakimiyyətə gəlişi ilə Türkiyənin xarici siyasətində əsaslı dəyişiklik baş vermiş və Türkiyə region dövlətlərinə münasibətdə "Qonşularla sıfır problem" siyasətini həyata keçirməyə başlamışdır. Əhməd Davudoğlunun "Strateji dərinlik" konseptinə əsaslanan bu siyasətin mahiyyəti tarixi, mədəni, dini və etnik bağlardan istifadə edərək region dövlətləri ilə münasibətlərin inkişaf etdirilməsi idi. Bəzi mütəxəssislər tərəfindən "Yeni-Osmanlıçılıq" adlandırılan bu siyasət "Ərəb baharı"ndan sonrakı dövrdə kifayət qədər effektiv olmamış və nəticə etibari ilə Türkiyə xarici siyasətində növbəti dəyişikliklərə əl atmalı olmuşdur. Həmin dönəmdə Türkiyənin bölgə dövlətləri ilə yaşadığı gərginliklər, o cümlədən regionda baş verən vətəndaş müharibələri və terror təhdidi Türkiyənin fərqli siyasət yürütməsinə rəvac verərək Türkiyə xarici siyasətində yeni bir dönəmin başlanğıcını qoymuş oldu.

Məqalədə "ərəb baharı"ndan sonra xaos və anarxiyanın hökm sürdüyü və Türkiyənin təhlükəsizlik prioritetlərinin təminində strateji önəm daşıyan Suriya ilə Türkiyənin münasibətlərinə və bu münasibətlərin Türkiyənin ümumi Yaxın Şərq siyasətinin formalaşmasında roluna diqqət ayrılır.

Türkiyə - Suriya münasibətlərinin tarixi kifayət qədər gərgin dönəmlərə şahid olmuşdur. Belə demək olarsa, 1920-ci illərdə Suriyanın Fransa mandatı olmasından 1998-ci ildə PKK rəhbəri Abdullah Öcalanın Suriyadan çıxarılmasınadək Türkiyə - Suriya münasibətlərində ciddi irəliləyişlər baş verməmişdir. Hətta, 1957-ci ildə gərginlik o səviyyəyə çatmışdı ki, Türkiyə Suriya ilə sərhədə minlərlə hərbçi göndərməli olmuşdu. İki dövlət arasındakı münasibətlərin inkişafını əngəlləyən faktorlar sırasında Hatay məsələsini (Suriyanın Hatay bölgəsinə ərazi iddiasında olması), su mübahisəsini və Suriyanın PKK-nı dəstəkləməsini göstərmək olar. 1980-ci illərdə Türkiyə - Suriya münasibətlərində müəyyən müsbət məqamlar baş versə də, ümidlər bu dəfə də özünü doğrultmadı. Belə ki, 1987-ci ildə Türkiyə və Suriya arasında imzalanan iki protokol razılaşmasına görə Suriya PKK-ya olan dəstəyini dayandırmalı, əvəzində isə Türkiyə hər il 500m$^3$/san suyu Türkiyə-Suriya sərhədinə buraxmalı idi. Bununla belə, Suriya bəhs olunan razılıqlara əməl etməmiş və növbəti 10 ildə də PKK-ya olan dəstəyini davam etdirmişdir. Türkiyənin prezidenti Süleyman Dəmirəlin 1993-cü ildə Dəməşqə səfəri zamanı Suriya hökuməti ilə təhlükəsizlik protokolunun imzalanması və daha sonra Suriyanın PKK-ni terrorçu təşkilat elan etməsi də Suriyanın PKK-ya olan dəstəyini kəsməmiş və Suriya PKK-dan su məsələsinə qarşı "kozır" olaraq itifadə etməyə davam etmiş və bu da Türkiyə - Suriya münasibətlərində mənfi ab-havanın hökm sürməsinə şərait yaratmışdır (4, səh. 31).

Bu ab-hava 20-ci əsrin sonlarına qədər davam

etmiş və nəhayət, 1998-ci ilin 20 oktyabr tarixində tərəflər arasında Adana razılaşmasının imzalanması ilə iki ölkənin münasibətlərində yeni səhifə açılmışdır. Bu razılaşmaya görə, Suriya öz ərazisində PKK-nın düşərgələr yaratmasına icazə verməməli və PKK-nı terrorçu təşkilat kimi tanımalı idi. Bundan əlavə, sazişə görə, Suriya öz ərazisində Türkiyənin təhlükəsizliyinə və sabitliyinə təhdid yaradacaq fəaliyyətlərə imkan verməməlidir. Eyni zamanda, razılığa görə, Suriya bu öhdəlikləri pozarsa, Türkiyə PKK ilə mübarizə aparmaq üçün Türkiyə-Suriya sərhədindən 5 km məsafədə Suriya ərazisinə girmək hüququ qazanacaqdı. Sazişdən əvvəl PKK rəhbəri A.Öcalanın ölkədən çıxarılması Türkiyə-Suriya münasibətlərində müsbət tendensiyanın formalaşmaqda olduğunun işarəsi idi (8).

Bir çoxları Suriya prezidenti Hafiz Əsədin ölümündən sonra oğlu Bəşər Əsədin hakimiyyətə gəlişi ilə Türkiyə - Suriya münasibətlərində də yeni dövrün açılmasını bəyan etsələr də, 2011-ci ilin Suriya böhranından sonrakı proseslər deyilənlərini əksini sübut etmiş oldu. Bununla belə, Suriya böhranına qədərki dövrü Türkiyə - Suriya münasibətlərinin ən parlaq dövrü adlandıra bilərik. Bu dövrdə Türkiyə və Suriya arasında siyasi əlaqələrlə yanaşı, ticari-iqtisadi, hərbi, mədəni, elmi əlaqələr də inkişaf etməyə başladı. Öncəki dönəmdə siyasi gərginlik fonunda iqtisadi münasibətlərdə yaşanan durğunluq dövrü yeni dövrdə canlanma imkanı əldə etmiş oldu. Ümumiyyətlə desək, 1998-ci ildə imzalanan Adana razılığından 2011-ci il Suriya vətəndaş müharibəsinədək olan dövrdə Türkiyə-Suriya münasibətləri yüksələn xəttlə inkişaf etmişdir. Bu dönəmdə iki ölkə arasında müxtəlif səpgili ticari-iqtisadi, hərbi razılıqlar əldə edilmiş, dövlətlər arasında qarşılıqlı inam və etimad formalaşmış, dövlətlərarası əməkdaşlıq perspektivləri daha da genişləndirilmişdir. Bu cür razılıqlara misal olaraq 1999-cu ildə imzalanan dəmiryolu, hava və su nəqliyyatının müştərək şəkildə inkişaf etdirilməsi protokolunu, 2002-ci ildə bağlanan hərbi təhsil sahəsində əməkdaşlıq razılaşmasını misal göstərmək olar (1, səh.650).

Bu dönəmdə Türkiyə və Suriyanı bir-birinə yaxınlaşdıran başlıca məqamlardan biri də 2003-cü ildə ABŞ-ın İraqa müdaxiləsi oldu. Belə ki, hər iki dövlət eyni səbəblərdən bu müdaxilənin əleyhinə idi. ABŞ-ın İraqa müdaxiləsi İraqın şimalında müstəqil kürd dövlətinin yaradılması ehtimalını artırmaqla bərabər, həmin ərazidəki neft resurslarının da kürdlərin nəzarətinə keçməsi imkanını yaratmış olurdu. Hadisələrin bu cür gedişatı həm Türkiyə, həm də Suriyanın milli maraqlarına xidmət etmirdi. Məhz bu səbəbdən İraq müdaxiləsindən sonra Türkiyə və Suriya arasında siyasi-hərbi səviyyədə təmaslar sürətlənmiş və iki ölkə arasında İraq ətrafında intensiv müzakirələr geniş vüsət almışdı. 2003-cü ildə Suriyanın baş naziri Məhəmməd Mustafa Mironun Ankaraya səfər etməsi dövlətlər arasında münasibətlərdə xüsusi əhəmiyyətə malikdir. Belə ki, bu səfər 17 ildən sonra Suriya baş nazirinin Türkiyəyə etdiyi ilk rəsmi səfər idi. Səfər zamanı tərəflər arasında müxtəlif səpgili məsələlər, ələlxüsus ABŞ-ın İraqa müdaxiləsi müzakirə edilmişdi. İki ölkə arasındakı əlaqələrdə zirvə nöqtəsi kimi isə 2004-cü ildə Suriya prezidenti Bəşər Əsədin Türkiyəyə rəsmi səfərini qeyd edə bilərik. Bu səfər Suriya dövlət başçısının Türkiyəyə ilk rəsmi səfəri kimi tarixə həkk olundu. Bir qədər sonra Türkiyənin baş naziri Təcəb Tayyib Ərdoğanın Dəməşqə səfər etməsi də münasibətlərin daha da möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edirdi. Görüş zamanı Bəşər Əsədin Ərdoğandan Suriya-İsrail münasibətlərində vasitəçi olmasını rica etməsini regionun geosiyasi konfiqurasiyasının yenidən şəkillən-dirilməsinin əlaməti hesab oluna bilər. Belə ki, uzun illər bir-birinə düşmən münasibətlər bəsləmiş Suriya və İsrailin yaxınlaşmasına vəsilə olmaq Türkiyənin Yaxın və Orta Şərq regionunda xüsusi çəkiyə malik olduğunu nümayiş etdirirdi. Həqiqətən də, Ədalət və İnkişaf Partiyasınn (AKP) hakimiyyətdə olduğu dövrdə Türkiyə xarici siyasətdə fundamental dəyişikliklərə yol vermiş və xüsusilə Yaxın və Orta Şərq regionunda daha fəal xarici siyasət yürütməyə başlamışdı. Bəzi tədqiqatçılara görə, özündə "Yeni Osmanlıçılıq" elementlərini birləşdirən bu yeni xarici siyasət xətti Türkiyənin bölgədə güclü və nüfuzlu aktora çevrilməsini şərtləndirirdi. Suriyanın bu baxımdan, Türkiyənin Yaxın və Orta Şərq siyasətində özünəməxsus rolu vardır. Belə ki, bölgədə öz nüfuzunu artırmaq istəyən Türkiyə üçün qonşuluğunda yerləşən və ərəb dünyasının qapısı hesab olunan Suriya ilə əlaqələrin inkişafı xüsusi əhəmiyyətə malik idi. Məhz bu səbəbdən AKP-nin hakimiyyəti dönəmində Türkiyə "qonşularla sıfır problem" konsepsiyası çərçivəsində qonşularla, o cümlədən Suriya ilə münasibətləri düzəltməyə meyilli siyasət yürütməyə başladı. Proseslərin məntiqi nəticəsi olaraq, 2004-cü ildə baş nazir Ərdoğanın Suriyaya səfəri zamanı tərəflər arasında azad ticarət sazişi imzalanmış və bu saziş 2007-ci

ildə qüvvəyə minmişdir(9). Nəticədə, 2007-2010-cu illər arasında Türkiyədən Suriyaya ixracatı 3 dəfə artmış və Suriya Türkiyənin regiondakı ən böyük ticari tərəfdaşlarından birinə çevrilmişdir. Bundan əlavə, 2009-cu ildə Türkiyə və Suriya arasında viza rejiminin qaldırılması və Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması da ölkələrarası münasibətləri inkişaf etdirən faktorlar sırasındadır (2, səh. 28). Həmin dönəm Türkiyə, Suriya-İsrail və Suriya – İraq arasında münasibətlərin yaxşılaşdırılmasında vasitəçilik missiyasını öz üzərinə götürmüş, birinci halda müvəffəqiyyət qazanmasa da, Suriya – İraq arasındakı gərginliyin aradan qaldırılmasında böyük rola malik olmuşdur. Suriya və İraq arasında əldə olunan razılıq Türkiyənin Yaxın və Orta Şərq regionunda sabitləşdirici funksiyasını ilkin nəticələrindən hesab oluna bilər.

Türkiyə-Suriya münasibətlərinin parlaq dövrü "Ərəb baharı" prosesləri və bu proseslərin Suriyadakı inikası ilə bitmiş oldu desək, yanılmarıq. 2011-ci ildə baş tutan "Ərəb baharı" Türkiyənin Suriyaya yönəlik siyasətinə yenidən baxış keçirməyə vadar etdi. "Ərəb baharı"nı regionun demokratikləşdirilməsi və demokratiyanın Türkiyə modelinin Yaxın və Orta Şərqə "ixrac" olunması baxımından böyük imkan hesab edən Ərdoğan hökuməti Bəşər Əsədi kəskin tənqid edərək, Suriyadakı vətəndaş müharibəsində müxalif qüvvələrə dəstək verməyə başladı. Həmin dönəmdə sünni dövlətlər, ABŞ və qərbin yanında yer alan Türkiyə özünü Rusiya və İrandan uzaqlaşdırdı. Türkiyəni Suriyada narahat edən məsələlər sırasına Suriyadan Türkiyəyə kütləvi qaçqın axınını və yeni yaranan İŞİD qruplaşmasını da əlavə etsək, vəziyyətin Türkiyə üçün heç də qənaətbəxş olmadığı nəticəsinə gəlmiş olarıq. Siyasi tədqiqatçı Françesko D'Alemonun fikrinə görə, Suriyadakı vətəndaş müharibəsindən sonra "qonşularla sıfır problem" diplomatiyasından imtina edən Türkiyə demokratiyanın carçısı roluna üstlənərək regiondakı nüfuzunu artırmağa çalışsa da, hadisələri düzgün qiymətləndirə bilmədiyindən müəyyən problemlərlə üzləşdi (5). Bu problemlər, ilk növbədə aşağıdakı faktorlarla bağlıdır:

1. Suriya münaqişəsi fonunda ölkəyə axın edən yüz minlərlə qaçqın Türkiyənin sosial-iqtisadi durumuna mənfi təsir göstərdi.
2. Türkiyənin Suriyada İŞİD və PYD-YPG kimi qruplaşmalarla mübarizəsi fonunda ölkə daxilində ard-arda baş verən terror aktları dövlətin təhlükəsizliyinə böyük zərbələr vurdu.
3. AKP daxilindəki Ərdoğan-Davutoğlu arasında ziddiyyətlər sonuncunun istefa verməsi ilə nəticələndi.
4. 2016-cı ilin 15 iyulunda Türkiyədə çevriliş cəhdi ölkədəki siyasi, sosial-iqtisadi həyatı iflic vəziyyətinə qoydu.

Suriyadakı üsyanları yatırmaq üçün Bəşər Əsədin gücdən istifadə etməsi və heç cür ölkədə əsaslı islahatlar tətbiq etməyə meyilli olmaması Türkiyənin tədricən Suriya hökuməti ilə bütün bağları qoparmasına gətirib çıxartdı. Artıq iş o yerə gətirdi ki, Suriyanı öz daxili məsələsi hesab edən Ərdoğan rəsmən Bəşər Əsədi xalqına zülm edən biri kimi qələmə verərək, onu tezliklə istefa verməyə səslədi. Bir sıra tədqiqatçıların fikrincə, 2011-2012-ci illərdə Türkiyənin Suriya siyasətini 3 mərhələyə bölmək olar:

1. Əsad hökumətinə konstitusional islahatlar həyata keçirməsi üçün təzyiq göstərilməsi.
2. Müxalif qrupları bir araya gətirmək yönündə səylər.
3. BMT-nin həll yollarını dəstəkləmək (3, səh.450).

İki ölkə arasındakı münasibətlərdə əsas qırılım nöqtəsi isə 2012-ci ildə Türkiyə F-4 təyyarəsinin Aralıq dənizində Suriya tərəfindən vurulması və elə həmin ildə Türkiyənin Ağcaqala şəhərində düşən raketlər nəticəsində aralarında qadın və uşaqların olduğu 5 mülki şəxsin həyatını itirməsi oldu. Bu hadisələrdən sonra Türkiyə nizamnamənin 4-cü maddəsinə istinad edərək NATO-nun fövqəladə iclasını çağırdı və "Patriot" Hava Hücumundan Müdafiə sistemlərinin Türkiyə ərazisində yerləşdirilməsinə nail oldu.

Suriyadakı müharibə döyüşən tərəflərin artması və hökumət-müxalifət qruplaşmalarından əlavə radikal dini ünsürlərin də müharibəyə qoşulması ilə daha intensiv xarakter almağa başladı. Bütün bu hadisələrə əlavə olaraq xarici güclərin də ölkədəki maraqları və bu maraqlar fonunda fərqli qruplaşmalara dəstək göstərməsi Suriya böhranında çıxılmaz vəziyyət yaratmış oldu. Proseslərə İŞİD, YPG/PYD kimi terrorçu qruplaşmaların cəlb olunması, milyonlarla qaçqın və məcburi köçkünün meydana gəlməsi ölkədəki xaosun yalnız Suriyaya deyil, qonşu ölkələr, o cümlədən Türkiyəyə də keçəcəyinin işarəsi idi. Beləcə, Türkiyə hər vəclə, diplomatik və lazım gələrsə, hərbi vasitələrlə proseslərə müdaxilə etmək məcburiyyətində qalmış oldu. Bu zaman üstünlük, sözsüz ki, ilk növbədə diplomatik vasitələrə verilir və Türkiyə də, bu mənada öncə Suriyadakı sülh prosesinin fəal iştirakçısına çevrildi. 2012-ci ildə Cenevrədə baş tutan danışıqlarda Türkiyə də Suriyada keçid hökuməti-

nin yaradılmasını dəstəkləyən dövlətlər sırasında idi. Bundan əlavə, Türkiyə Ərəb Dövlətləri Liqasının sülh təşəbbüsünü və Kofi Annanın 6 maddəlik planını dəstəkləmiş oldu. 2014-cü ildə baş tutan II Cenevrə danışıqlarında da Türkiyənin mövqeyi dəyişməz qalmışdı. Təəssüflər olsun ki, Cenevrə danışıqları, o cümlədən Ərəb Dövlətləri Liqası və Annan planları lazımi nəticələr vermədiyindən Türkiyə fərqli formatda danışıqlar prosesinə qoşulmağa üstünlük verdi. 2017-ci ildən etibarən Türkiyə Rusiya və İranla bərabər Astanada Suriyada döyüşən tərəflər arasında danışıqlar prosesində daimi şəkildə iştirak etməyə başladı. Beləcə siyasi ədəbiyyatda "Astana prosesi" ilə xatırlanan mərhələnin əsası qoyulmuş oldu (10). 2017-ci ilin may ayında Astanada baş verən növbəti görüşdə Rusiya, İran və Türkiyə arasında Suriyada de-eskalasiya zonalarının yaradılması barədə razılıq əldə olundu. Razılığa görə bu zonalarda hərbi əməliyyatlar dayandırılmalı, insanlara humanitar və tibbi yardım göstərilməlidir. 2018-ci ilin sentyabrın 17-də Soçidə Rusiya prezidenti Vladimir Putin və Ərdoğan arasında Suriyanın İdlib regionunda Suriya qoşunları və üsyançılar arasında 15-20 km-lik hərbsizləşdirilmiş bufer zonanın yaradılması barədə razılıq əldə olundu. Razılığa görə bölgədən ağır artilleriya çıxarılmalı və bölgə hava hücumlarına məruz qalmamalıdır. Sazişin məqsədi Suriyanın İdlib bölgəsində yerləşən 3 milyona yaxın mülki şəxsin təhlükəsizliyini təmin etməkdi (11).

Suriyada yaranmış xaos və anarxiya fonunda milyonlarla qaçqının Türkiyəyə axın etməsi və bölgədə terror təhdidinin artması milli təhlükəsizliyini təmin etmək üçün Türkiyəni hərbi yollara əl atmağa vadar etdi. Bu baxımdan, Türkiyənin Suriyada keçirdiyi üç hərbi əməliyyat xüsusi əhəmiyyət kəsb edir. Türkiyənin Suriyada həyata keçirdiyi ilk hərbi əməliyyat "Fərat Qalxanı" adlanır. Türkiyəni bu əməliyyata vadar edən əsas səbəb Suriyanın şimalında YPG/PYD və İŞİD kimi terrorçu qruplaşmaların nüfuz dairəsinin genişlənməsi və bunun Türkiyənin milli təhlükəsizliyinə ciddi təhdid törətməsidir. Türkiyə yaranmış problemin həlli üçün sərhəddən 30 km dərinlikdə təhlükəsiz zona yaradılmasını təklif etsə də, digər dövlətlər bu addımı müsbət qarşılamadılar. Bu zaman Türkiyəyə yalnız hərbi yola əl atmaq seçimi qalırdı. Hərbi əməliyyatın məqsədi Suriya sərhəddindən 30 km-lik məsafədəki əraziləri İŞİD və YPG birləşmələrindən təmizləyərək orada qaçqınların yaşaması üçün təhlükəsiz zona yaratmaqdı. Hərbi əməliyyatda Türkiyə qoşunları ilə yanaşı Azad Suriya Ordusunun qüvvələri də iştirak etmişdi. Əməliyyat 2016-cı ildə başlamış və 2017-ci ildə müvəffəqiyyətlə sona çatdırılmışdır (12).

2018-ci ilin 20 yanvar tarixində Türkiyə bölgəni YPG və Suriya Demokratik Qüvvələrindən azad etmək üçün növbəti əməliyyata başladı. Əməliyyatın adı "Zeytun Budağı" və ya sadəcə "Əfrin" əməliyyatıdır. Belə ki, əməliyyatın əsas məqsədi Türkiyənin Suriya ilə sərhəddəki ərazilərinə daim təhdid törədən YPG-nin Əfrindəki qruplaşmalarını zərərsizləşdirməkdi. Düz 58 gün davam edən hərbi əməliyyat 2018-ci ilin martın 18-də Əfrin şəhərinin bütün terror ünsürlərdən təmizlənməsi ilə bitmiş elan olundu (13).

Türkiyənin Suriyada həyata keçirdiyi sonuncu genişmiqyaslı hərbi əməliyyat "Sülh Bulağı" adlanır. 2019-cu ilin oktyabr ayında PYD/YPG birləşmələrinə qarşı başlanan hərəkat nəticəsində Rəsulayn və Tel Abyadın da daxil olduğu bir sıra ərazilər Türkiyə silahlı qüvvələrinin nəzarəti altına keçmişdi. Hərbi əməliyyatlar oktyabrın 17-də Türkiyə və ABŞ arasında PYD/YPG birləşmələrinin bölgədən çəkilməsi ilə bağlı razılıq əldə olunması ilə sonlanmışdır (14). Daha sonra Türkiyə və Rusiya arasında əldə olunan II Soçi razılaşması ilə Rusiya YPG-nin Türkiyə sərhəddindən 32 km kənara çəkiləcəyinə və Türkiyəyə təhdid törətməyəcəyinə zamin oldu.

Qeyd olunmalıdır ki, Suriyadakı əməliyyatlar Türkiyənin təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir. Bunu Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğan 2018-ci il aprelin 4-də İstanbulda Rusiya və İran rəhbərləri ilə görüşdə də bildirmişdi. Suriya münaqişəsinin həlli ilə bağlı baş tutan görüşdə Ərdoğan "Suriyada sülh olmasa, Türkiyədə də sülh olmaz" ifadəsini işlətmişdi (6). Ərdoğan 2019-cu il oktyabrın 5-də Ankarada keçirilən bir müşavirədə isə "Sülh Bulağı" əməliyyatı haqqında danışarkən qeyd etmişdir ki, hərbi əməliyyatın məqsədi Türkiyəni terror təhdidindən qorumaq üçün Fərat çayının şərqində təhlükəsiz zona yaratmaq və 2 milyon qaçqını həmin yerlərə köçürməkdir (7).

Bəhs olunan əməliyyatların uğurla həyata keçirilməsinə baxmayaraq, Suriyanın şimal-şərq bölgəsi terrordan tamamilə təmizlənməmiş və Türkiyənin təhlükəsizliyinə təhdid törətməyə davam etmişdir. Bu səbəbdən Türkiyə son dönəmlər bölgədə yeni hərbi əməliyyat həyata keçirmək niyyətində olsa da, regionda digər maraqlı dövlətlər, ələlxüsus Rusiya və İran bu yolda ona əngəl törətməyə çalışırlar. 2022-ci ilin

iyulunda Türkiyə, İran və Rusiya rəhbərlərinin iştirakı ilə Astana prosesi dövlətlərinin Tehranda baş tutan 7-ci sammiti çərçivəsində Ərdoğan növbəti dəfə Suriyada anti-terror əməliyyatının keçirilməsinin zəruri olduğunu vurğulasa da, Rusiya prezidenti Putin və İranın ali dini rəhbəri Xamenei buna qarşı çıxmışdılar. Xamenei sammitdəki çıxışında hərbi əməliyyatın bölgənin sabitliyinə mənfi təsir göstərəcəyini qeyd etmiş, Ərdoğan isə cavab olaraq Türkiyənin terrora qarşı mübarizəsinin davam edəcəyini vurğulamışdı (15).

Yekun olaraq qeyd olunmalıdır ki, Türkiyənin müasir Yaxın və Orta Şərq siyasətində Suriya faktoru önəmli rola malikdir. Ərəb dünyasının qapısı rolunda çıxış edən Suriyada Türkiyənin bir sıra maraqları mövcuddur. Bu maraqların başında Türkiyənin öz milli təhlükəsizliyini təmin etmək marağı dayanır. “Soyuq müharibə” dövründə əsasən gərginliklərlə yadda qalan Türkiyə - Suriya münasibətləri ötən əsrin sonlarından etibarən yaxşılaşmağa başlamış və xüsusilə, AKP-nin hakimiyyəti dövründə ən parlaq mərhələsini yaşamışdır. Həmin dönəm AKP hökumətinin “Qonşularla sıfır problem” siyasəti qonşu dövlətlərlə, o cümlədən Türkiyə üçün strateji əhəmiyyətə malik Suriya ilə münasibətlərin inkişaf etdirilməsini özündə ehtiva edirdi. Yeni Osmanlıçılıq konsepsiyasına əsaslanaraq regionda öz nüfuzunu artırmaq niyyəti güdən Türkiyənin xarici siyasəti əsas diqqəti ərəb dünyasına yönəltmiş və beləcə, region dövlətləri ilə əməkdaşlığı genişləndirmişdir. Bununla belə “Ərəb baharı” sonrasında baş verən hadisələr və “Suriya böhranı” Türkiyəni Suriya siyasətinə əl gəzdirməyə vadar etmişdir. Bu mərhələdən sonra Türkiyə Suriya ilə “0 problem” siyasətindən vaz keçərək Əsəd hökumətini tənqid etməklə yanaşı Suriyada hərbi və diplomatik kanallarla öz maraqlarını təmin etməyə köklənmişdir. Bu minvalla müxtəlif vaxtlarda 3 hərbi əməliyyat həyata keçirən Türkiyənin əsas məqsədi Suriyanın şimalını terrorçu ünsürlərdən təmizləyərək öz milli təhlükəsizliyini təmin etmək olmuşdur.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Arı T.A. Geçmişten Günümüze ORTA DOĞU: Siyaset, Savaş ve Diplomasi. İstanbul: ALFA Basım Yayım Dağıtım Ltd.Şti, 2004, 876 s.*
2. *Ayhan V. Türkiye-Suriye İlişkilerinde Yeni Bir Dönem: Yüksek Düzeyli Stratejik İşbirliyi Konseyi, Orta Doğu Analiz, Cilt:1, Sayı:10, oktyabr 2009, ss.38-51.*
3. *Çomak H., Sancaktar C., Yıldırım Z. Uluslararası Politikada Suriye Krizi. İstanbul: Beta Basım A.Ş., 2016, 676 s.*
4. *Sarıaslan F.K Orta Doğu ve Türkiye: Tarih, Krizler ve Dış Politika: Ankara, Nobel Akademik Yayıncılık, 2019, 258 s.*
5. *http://www.iai.it/sites/default/files/iaiwp1728.pdf*
6. *https://www.washingtonpost.com/world/iran-russia-and-turkey-meet-over-syrias-future-as-trump-mulls-troop-withdrawal/2018/04/04/c607e27c-3770-11e8-af3c-2123715f78df_story.html?noredirect=on&utm_term=.18a8adbe2823*
7. *https://www.bbc.com/turkce/haberler-turkiye-50017159*
8. *https://www.arabnews.com/node/1441931*
9. *https://www.bilaterals.org/?turkey-syria-free-trade-agreement*
10. *https://www.theguardian.com/world/2017/jan/22/russia-syria-talks-astana-kazakhstan-*
11. *https://www.theguardian.com/world/2018/sep/17/russia-and-turkey-to-set-up-idlib-buffer-zone-to-protect-civilians*
12. *https://www.hurriyetdailynews.com/turkey-can-start-new-operation-if-necessary-as-euphrates-shield-ends-pm—111401*
13. *https://www.bbc.co.uk/news/world-middle-east-43447624*
14. *https://www.middleeasteye.net/news/us-and-turkey-reach-agreement-temporarily-suspend-military-operation-syria*
15. *https://www.nytimes.com/2022/07/19/world/europe/putin-ayatollah-erdogan-summit.html?searchResultPosition=2*


## XÜLASƏ


Türkiyənin müasir Yaxın və Orta Şərq siyasətində Suriya faktoru önəmli rola malikdir. Ərəb dünyasının qapısı rolunda çıxış edən SuriyadaTürkiyənin bir sıra maraqları mövcuddur. Bu maraqların başında Türkiyənin öz milli təhlükəsizliyini təmin etmək marağı dayanır. Soyuq müharibə dövründə əsasən gərginliklərlə yadda qalan Türkiyə - Suriya münasibətləri ötən əsrin sonlarından etibarən yaxşılaşmağa başlamış və xüsusilə AKP-nin hakimiyyəti dövründə ən parlaq mərhələsini yaşamışdır. Həmin dönəm AKP hökumətinin “Qonşularla sıfır problem” strategiyası qonşu dövlətlərlə, o cümlədən Türkiyə üçün strateji əhəmiyyətə malik Suriya ilə münasibətlərin inkişaf etdirilməsini özündə ehtiva edirdi. Yeni Osmanlıçılıq

konsepsiyasına əsaslanaraq regionda öz nüfuzunu artırmaq niyyəti güdən Türkiyənin xarici siyasəti əsas diqqəti ərəb dünyasına yönəltmiş və beləcə region dövlətləri ilə əməkdaşlığı genişləndirmişdir. Bununla belə, "Ərəb baharı" sonrasında baş verən hadisələr və "Suriya böhranı" Türkiyəni Suriya siyasətinə əl gəzdirməyə vadar etmişdir. Bu mərhələdən sonra Türkiyə Suriya ilə "0 problem" siyasətindən vaz keçərək Əsəd hökumətini tənqid etməklə yanaşı Suriyada hərbi və diplomatik kanallarla öz maraqlarını təmin etməyə köklənmişdir. Bu minvalla müxtəlif vaxtlarda 3 hərbi əməliyyat həyata keçirən Türkiyənin əsas məqsədi Suriyanın şimalını terrorçu ünsürlərdən təmizləyərək öz milli təhlükəsizliyini təmin etmək olmuşdur.

**Açar sözlər:** *Türkiyə, Yaxın və Orta Şərq, Yeni Osmanlıçılıq, "Ərəb baharı", Suriya böhranı, "Qonşularla sıfır problem" siyasəti.*

## РЕЗЮМЕ

Сирийский фактор играет важную роль в современной ближневосточной политике Турции. Турция имеет ряд интересов в Сирии, которая служит воротами в арабский мир. Во главе этих интересов стоит заинтересованность Турции в обеспечении собственной национальной безопасности. Отношения между Турцией и Сирией, которые в основном запомнились напряженностью во время холодной войны, начали улучшаться с конца прошлого века и пережили свою яркую фазу, особенно во время правления ПСР. Политика «ноль проблем с соседями», реализуемая в то время правительством ПСР, предусматривала развитие отношений с соседними государствами, в том числе с Сирией, имеющей стратегическое значение для Турции. Внешняя политика Турции, которая намерена усилить свое влияние в регионе на основе концепции Неоосманизма, сосредоточила свое основное внимание на арабском мире и тем самым расширила сотрудничество с государствами региона. Однако события, произошедшие после «арабской весны» и «сирийского кризиса», побудили Турцию вмешаться в сирийскую политику. После этого этапа Турция отказалась от политики «0 проблем» с Сирией и, критикуя правительство Асада, сосредоточилась на обеспечении своих интересов в Сирии по военным и дипломатическим каналам. Таким образом, основной целью Турции, осуществившей в разное время 3 боевые операции, была очистка севера Сирии от террористических элементов и обеспечение ее национальной безопасности.

**Ключевые слова:** *Турция, Ближний Восток, Неоосманизм, «арабская весна», сирийский кризис, политика «ноль проблем с соседями».*

## SUMMARY

The Syrian factor plays an important role in Turkey's modern Middle East policy. Turkey has a number of interests in Syria, which acts as the gateway to the Arab world. At the head of these interests is Turkey's interest in ensuring its own national security. Turkey-Syria relations, which were mainly remembered for tensions during the Cold War, began to improve from the end of the last century and experienced their brightest phase especially during the AKP's rule. The policy of "Zero Problems with the Neighbors" implemented by the AKP government at that time included the development of relations with neighboring states, including Syria, which is of strategic importance for Turkey. Turkey's foreign policy, which intends to increase its influence in the region based on the concept of New-Ottomanism, has focused its main attention on the Arab world and thus expanded cooperation with the regional states. However, the events that took place after the "Arab Spring" and the "Syrian crisis" prompted Turkey to intervene in Syrian politics. After this stage, Turkey gave up the policy of "0 problems" with Syria and, while criticizing the Assad government, focused on securing its interests in Syria through military and diplomatic channels. Thus, the main goal of Turkey, which carried out 3 military operations at different times, was to clear the north of Syria from terrorist elements and ensure its national security.

**Keywords:** *Turkey, Middle East, New-Ottomanism, Arab Spring, Syrian crisis, Policy of "Zero Problems with the Neighbors».*

UOT328; 342.5; 351/354

# VİTSE-PREZİDENTLİK İNSTİTUTUNUN YARANMASI VƏ FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

**LALƏ QARAYEVA**
*Bakı Dövlət Universitetinin doktorantı*

*E-mail: lale.qarayeva2014@mail.ru*

Azərbaycanda institusional sferanın, idarəetmənin təkmilləşdirilməsini, daha çevik və səmərəli komandanın formalaşmasını, demokratik dəyişikliklərə hüquqi əsaslar yaradılmasını özündə ehtiva edən siyasi islahatlar aparılır. Müasirləşməni strateji hədəf seçən Azərbaycan Respublikası idarəetmə sahəsində reallaşdırılan islahatlarda da qabaqcıl ölkələrin təcrübəsinə istinad edir. Dövlət idarəçiliyini bir dəfə qurulan və heç vaxt dəyişməyəcək mexanizm kimi təsəvvür etmək əsla düzgün deyil. Qloballaşma şəraitində isə belə yanaşma zərərlidir, milli maraqlara, təhlükəsizliyin təmin olunmasına təhdidlər yaradır. Bu baxımdan da dövlət idarəetməsində, siyasi sistemin təkmilləşdirilməsində əksər inkişaf etmiş ölkələr maraqlı olduğu kimi, ölkəmiz də lazımi addımlar atır və siyasi strukturda, o cümlədən digər siyasi sistem sahələrində dəyişikliklər edir. Siyasi sistemlərdə aparılan əsas dəyişikliklərdən biri, sözsüz ki, vitse-prezidentlik sisteminin idarəetməyə əlavə edilməsi oldu. Belə ki, bu sahədə işlər 2017-ci ildən yekunlaşdı və bir çox strukturlara vitse-prezidentlik də əlavə olundu. Bunlardan ən əsası və deyərdim ki, birincisi Azərbaycan Respublikasının vitse-prezidentlik institutun formalaşdırılması və ilk vitse-prezidentin təyin olunması oldu. Daha sonra isə ardıcıl şəkildə digər Heydər Əliyev Fondu kimi, digər strukturlara da vitse-prezidentlik əlavə olundu. Bu, ölkəmizin siyasi sisteminin formalaşdırılması və inkişafında vacib addımlardan hesab olunur. Qeyd etmək yerinə düşərdi ki, ölkəmizin ilk vitse-prezidenti Mehriban xanım Əliyeva təyin olunmuşdur. Mehriban xanım Əliyeva hazırda qüdrətli, nüfuzlu dövlətə çevrilmiş Azərbaycanın gələcək inkişafı, xalqımızın firavanlığı naminə çoxşaxəli fəaliyyətini əzmlə davam etdirir.

Zaman ötdükcə, yeni reallıqlar yarandıqca qarşıya çıxan tələblər də dəyişir. Ölkəmizdə reallaşdırılan institusional islahatlar da milli idarəetmə sisteminin dövrün dəyişən tələblərinə uyğun qurulmasını özündə ehtiva edir. Bütövlükdə idarəetmə sisteminin səmərəli qurulması, öz növbəsində, ölkənin qarşıya qoyulan yeni hədəflərə doğru inamla irəliləməsini və yeni nailiyyətlər qazanmasını şərtləndirir. Aparılan islahatlar institusional təsisatların, müvafiq dövlət qurumlarının daim dəyişən çağırışlara adekvat addımlar atmaq iqtidarında olmasına münbit zəmin yaradır. Məhz 2016-cı il sentyabrın 26-da respublikamızda Konstitusiya islahatları ilə bağlı keçirilən referenduma əsasən dövlət idarəçiliyində yeni təsisatın - Birinci vitse-prezidentlik institutunun yaradılması böyük aktuallıq daşıyırdı. Beləliklə də, dövlət idarəçiliyində funksional vahid kimi Birinci vitse-prezidentlik institutunun yaradılması Azərbaycanın müasir simasının yeni və mütərəqqi bir əlamətidir.

**Bəs, vitse-prezidentlik institutu nədir?**

Vitse-prezidentlik elmi baxımdan iki mühüm istiqaməti əhatə edə bilir: birincisi, dövlət rəhbərinin müəyyən məqamlarda əvəz olunması, səlahiyyətlərinin icrasını həyata keçirmək; ikincisi, səlahiyyətlərin rəhbər-köməkçilər kimi bölünməsini təmin etmək (13). Anlayışın elmi əsasları onu deməyə əsas verir ki, vitse-prezidentlər prezidentin öz vəzifəsini icra edə bilmədiyi hallarda onun vəzifə səlahiyyətlərini icra edən şəxslərlə yanaşı, konstitusion səlahiyyətlərinin həyata keçirilməsi üzrə köməkçi rəhbər şəxslərdir. Bu yanaşma həm də məfhumun təyinatı funksiyasını şərtləndirir. Elmi tərkib onu deməyə əsas verir ki, onlar hakimiyyət qolları üzrə prezident səlahiyyətlərinin icrası ilə məşğul ola bilərlər (4).

Vitse-prezidentlik institutunun fəlsəfi anlayışının iki baza xətti mövcuddur: hakimiyyətin ali pilləsində siyasi idarəçilikdə rəngarəngliyin formalaşdırılması və ali idarəçiliyin dərinləşdirilməsi və şaxələndirilməsi-şaquli və üfiqi iyerarxiyanın həm sadələşdirilməsi, həm də çoxçalarlı olması (1). Hər iki xətt vəhdətlik yaradır, bütövlüyü və möhkəmlənməni təmin edir. Vitse-prezidentlik dövlət idarəçiliyində mövcud olan daxili piramidaların birləşməsindən yeni məzmunlu ali piramidaları meydana gətirən şərtləndirici dayaq elmenti rolunu oynayır (8). Vitse-prezidentlik sayəsində pikdə birləşən piramidaların sayı artır və həm də böyümüş formada olur. Vitse-prezidentlik

yeni piramidal xətlərin meydana gəlməsini və həcmcə daxili iri piramidaları yaradır (3).

Təsadüfi deyil ki, bu yolu illər öncə keçən Amerika Birləşmiş Ştatları, Cənubi Afrika Respublikası, bəzi Avropa və Latın Amerikası ölkələri dövlətin cəmiyyətin həyatında daha fəal iş aparmaq üçün məhz vitse-prezidentlik institutuna müraciət ediblər. ABŞ-da və Bolqarıstanda hətta vitse-prezidentlər seçki yolu ilə müəyyənləşirlər. Hər bir prezidentliyə namizəd işləmək istədiyi vitse-prezidentin də namizədliyini irəli sürür. Prezident və vitse-prezident seçildikdən sonra dövlət idarəçiliyini həyata keçirirlər. Lakin vitse-prezidentlərin prezidentin siyasətinə qarşı çıxmaq hüququ yoxdur. İsveçrə Konfederasiyasında da prezident və vitse-prezident seçilir, lakin federal məclis tərəfindən (5).

Ölkəmizdə isə vitse-prezidenti həm də Milli Məclisə də rəhbərlik etdiyi üçün onun hakimiyyətin icraedici, yoxsa qanunverici qoluna mənsub olması mübahisəlidir (2). İrəliləyən dövrlərdə bu məsələnin də aydınlaşdırılması üçün yeni araşdırmalar aparılacaqdır.

İdarəçilik sahəsində mütərəqqi sistem olaraq qəbul edilən vitse-prezidentlik institutu Azərbaycanda da formalaşdırılıb. Artıq tarixə dönən 2017-ci il referendum yolu ilə təsdiqlənən Konstitusiya islahatlarının reallaşdırılması istiqamətində mühüm il olub. Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixində imzaladığı müvafiq Sərəncama əsasən Mehriban Arif qızı Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunub (7). Təhlükəsizlik Şurasının iclasında Birinci vitse-prezidenti təqdim edən Prezident İlham Əliyev deyib: “Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır”.

Dövrün sosio-siyasi tələbinə müvafiq dəyişikliklərin tərkib hissəsi olaraq Birinci vitse-prezident institutunun təsisçiliyi dövlətçilik sistemində yeni mərhələ idi. Xanım Mehriban Əliyevanın Birinci vitse-prezidentliyə təyin olunması 1918-ci il AXC-nin qadınlara seçib-seçilmək hüququnun verilməsindən qaynaqlanan ənənənin davamı olaraq ulu öndər Heydər Əliyevin dövlət qadın siyasətinin uğurla həyata keçirilməsi, Prezident İlham Əliyevin imzaladığı “Gender bərabərliyinin təminatı” Qanununun reallaşdırılması yönündə tarixi bir hadisə oldu. Xanım Mehriban Əliyevanın istər ölkəmizdə, istərsə də beynəlxalq aləmdə tərəqqidə işgüzar mövqeyi onun ulu öndər Heydər Əliyevin dövlətçilik institutunun sadiq və bacarıqlı yetirməsi olduğunu təsdiq etmişdir (7).

Ötən dövr ərzində Birinci vitse-prezidentin komandası formalaşdırılıb. Artıq Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Birinci vitse-prezidentlik institutu funksional təsisat kimi uğurla fəaliyyət göstərir. Ötən qısa müddət dövründə əldə olunan uğurlar onu bir daha təsdiqləyir ki, Birinci vitse-prezidentlik institutu idarəetmənin çevikliyini, operativliyini, keyfiyyətliliyini və səmərəliliyini artırıb, buna görə də onu siyasi sistemin təkmilləşdirilmiş və inkişaf etmiş modeli kimi qiymətləndirmək tam yerinə düşərdi. Təbii ki, burada Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xarizması, yüksək idarəçilik təcrübəsi, ən əsası isə bu sahənin inkişafına xüsusi diqqət yetirməsi, çalışması mühüm rol oynayıb. Prezident İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında Mehriban xanım Əliyevanın malik olduğu yüksək keyfiyyətlərə diqqət çəkib: “Qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır”.

Qeyd etmək yerinə düşər ki, Azərbaycan cəmiyyəti Mehriban Əliyevanın ölkənin Birinci vitse-prezidenti vəzifəsində çoxşaxəli fəaliyyətinə böyük maraq göstərib. İnsanlar inandıqları, etimad bəslədikləri Mehriban xanım Əliyevanın təyinat aldığı yeni məsuliyyətli vəzifədə Azərbaycan naminə fədakar fəaliyyətini təqdir edirlər. Mehriban xanım Əliyeva mütəmadi olaraq cəmiyyətin həssas təbəqələrinin problemlərini həll etməyə, ana nəvazişinə ehtiyac duyan uşaqları sevindirməyə, zəngin mədəniyyətimizi təbliğ etməyə, müxtəlif istiqamətlərdə yeni layihələr reallaşdırmağa böyük səy göstərir. Yeni funksional təsisatın rəhbəri vəzifəsində gördüyü bu kimi genişmiqyaslı işlər isə cəmiyyətdə onun nüfuzunu daha da artırıb (6).

Ümumiyyətlə, Azərbaycanın Birinci vitse-prezidenti və birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva çoxşaxəli fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da böyük rəğbət və nüfuz qazanmışdır. Bunun səbəbi təkcə tutduğu yüksək vəzifə və mövqe ilə bağlı deyil. Onu köməyə və qayğıya ehtiyacı olan insanların, xüsusilə uşaqların yanında tez-tez görmək olar. Talassemiyalı uşaqlar, erməni işğalı nəticəsində yurd yerindən didərgin salınmış məcburi köçkünlər Mehriban Əliyevaya pənah yeri kimi baxır və öz ümidlə-

rində yanılmırlar.

Ötən beş ildə Birinci vitse-prezident Mehriban Əliyeva dövlət başçısının və ona ümid bəsləyən insanların etimadını layiqincə doğruldub. O, əsas diqqətini sosial problemlərin, əhalinin aztəminatlı təbəqələrinin problemlərinin, ölkəmizdə maddi rifah halının daha da yaxşılaşdırılması kimi məsələlərin həlli üzərində cəmləşdirib.

Mehriban xanımın Birinci vitse-prezident kimi bir sıra fəaliyyətlərini diqqətinizə çatdırmaq istəyərdim (7):

Fondun mədəniyyətimiz, incəsənətimizlə bağlı layihələri isə mənəvi, tarixi, mədəni irsimizin qorunması işində müstəsna rola malikdir. Azərbaycanın birinci xanımı ölkəmizdəki qədim tarixi abidə və ziyarətgahların, məscid və ibadətgahların, dini abidələrimizin bərpası və yenidən qurulması, abadlaşdırılması istiqamətində misilsiz xidmət göstərir. Müstəqillik tariximizin əlamətdar hadisələrini, ölkəmizin böyük uğurla ev sahibliyi etdiyi birinci Avropa Oyunları, eləcə də IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat komitələrinin sədri kimi fədakar fəaliyyəti Mehriban Əliyevanı xalqının gözündə bir daha ucaldıb.

O, əzmkar fəaliyyətini həm də sivil dünyada sülhün, sabitliyin, sivilizasiyalararası dialoqun, bir sözlə, insanlığın tərəqqisinə yönələn ali ideyaların reallaşdırılmasına, bu sahələrdə səylərin birləşdirilməsinə yönəldib (9).

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın humanitar layihələri sərhəd tanımır, xeyriyyəçilik tədbirləri bir sıra ölkələri, qitələri əhatə edir. Pakistanda qızlar üçün yeni məktəbin tikintisi, İslamabadda, eləcə də Pakistanın digər əyalətlərində silsilə humanitar aksiyalar bu sıradandır (7). Onun rəhbəri olduğu Fond uzun illərdir ki, Azərbaycanın humanitar və mədəni diplomatiyasının səlahiyyətli nümayəndəsinə çevrilib və bu fəaliyyət hər şeydən əvvəl dünyada Azərbaycanın təqdim olunması və ölkəmizin beynəlxalq arenada lazımi şəkildə təbliğidir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva siyasi karyerası və ictimai fəaliyyəti dövründə başladığı bütün işlərin öhdəsindən böyük məharətlə və ustalıqla gəlir. Hər kəs inanır ki, Mehriban xanım hazırda qüdrətli, nüfuzlu dövlətə çevrilmiş Azərbaycanın gələcək inkişafı, xalqımızın firavanlığı naminə çoxşaxəli fəaliyyətini bundan sonra da əzmlə davam etdirəcək (12).

Qeyd olunanlar vitse prezidentlik institutunun ölkəmiz üçün vacibliyini və fəaliyyətinin yüksək qiymətləndirildiyini bir daha göstərir (10). Gələcəkdə də öz fəaliyyət istiqamətləri və bir çox yeni sahələrdə vacib addımlar atılacağı indidən aydın şəkildə görünür (11).

Sonda bir daha qeyd edək ki, vitse-prezident hökumətin icraedici strukturunda əhəmiyyətinə görə ölkə prezidentindən sonra ikinci məsul şəxs hesab olunur. Vitse-prezidentin əsas funksiyası ondan ibarətdir ki, o, prezidentinin vəfatı, istefası və ya hakimiyyətdən uzaqlaşdırılması hallarında prezidenti əvəz edir (2).

**Açar sözlər:** *Mehriban Əliyeva, vitse-prezident, vitse-prezidentlik institutu, siyasi sistem, institut, mədəniyyət, institut.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Abbasbəyli A., Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Dərslik. Bakı; "Mütərcim", 2007, 208 s.*

*2. az.wikipedia.org/wiki/Vitse-prezident*

*3. Beynəlxalq əlaqələr üzrə bələdçi. Walter Carlsnaes, Thomas Risse və Beth A.Simmons-un redaktəsi ilə. Bakı, 2005*

*4. Ələkbərova N. Siyasi elmin müasir problemləri. Ali məktəblərin magistratura pilləsi üçün dərslik Bakı, "Elm və Təhsil", 2013*

*5. İsgəndərzadə M. Politologiyanın əsasları. Dərs vəsaiti. Bakı, 2012*

*6. president.az/az/pages/view/first-vice-president/services*

*7. science.gov.az/az/news/open/19916*

*8. Арон. Р Демократия и тоталитаризм, М. Текет,1993*

*9. Зеленков М.Ю. Конфликтология. Москва; Дашков и К, 2013*

*10. Иванов В. Теория государства. М: Изд-ва ВШЭ ГУ,2010*

*11. Almond G.The return to state. American policy science review.1988.Vol 82.*

*12. APSA.http://www.apsanet.org/*

*13. Easton D.The analystis of political sctucture. New York, Routledge, 1990.*

*14. IPSA. https://www.ipsa.org/*

## SUMMARY

In modern times, the political system of our country in the South Caucasus is more developed than other countries and its structure is quite well-found-

ed. From a historical point of view, the activity of the vice-presidency institute in the formation of the political system in a consistent institutional manner should be evaluated very positively. This historical tradition is successfully continued by the first lady Mehriban Aliyeva. The article provides detailed information about the projects carried out by Mrs. Mehriban Aliyeva for the sake of the progress and welfare of the people of Azerbaijan, and the activity of the institute is investigated in detail.

**Key words:** *Mehriban Aliyeva, vice-president, vice-presidential institute, political system, institute, culture, institute.*

## РЕЗЮМЕ

В современное время политическая система нашей страны на Южном Кавказе более развита, чем в других странах, и ее структура достаточно обоснована. С исторической точки зрения деятельность института вице-президентства по формированию политической системы на последовательной институциональной основе следует оценивать очень положительно. Эту историческую традицию успешно продолжает первая леди Мехрибан Алиева. В статье представлена подробная информация о проектах, осуществленных госпожой Мехрибан Алиевой во имя прогресса и благосостояния народа Азербайджана, подробно исследована деятельность института.

**Ключевые слова:** *Мехрибан Алиева, вице-президент, институт вице-президента, политическая система, институт, культура, институт.*

UOT 327;930.22

# ПРИОРИТЕТЫ ПОЛИТИКИ ТУРЦИИ В ПЕРСИДСКОМ ЗАЛИВЕ

**ГУСЕЙНЛИ САРХАН**
*Докторант Бакинского Государственного Университета*

*E-mail: serxan_service@yahoo.com*

**Новый курс Турции в регионе.** Турция активизировала свою ближневосточную политику с конца 1990-х годов, особенно после прихода к власти в 2002 году ПСР, и начала проникать в регион с "мягкой силой" и своими ценностями.Инициатор этого курса, бывший глава МИД Турции Ахмед Давудоглу правильно оценил потенциал отношений с бывшими османскими регионами на Ближнем Востоке, где у Турции прочные исторические, географические и культурные связи и заявил, что Турция может иметь очень большое влияние в регионе. Эти утверждения вызвали обеспокоенность на Западе, который обвинил Турцию в неоосманизме и империалистических тенденциях.

В новой внешней политике Турции активизировались отношения с богатыми нефтью арабскими странами Персидского залива, разделяющими суннитскую ветвь ислама. Турция осознала важность сотрудничества с этими странами для реализации своих региональных и глобальных амбиций. В политике Турции по отношению к Ближнему Востоку в целом, особенно к странам Персидского залива (Саудовская Аравия, Катар, ОАЭ, Кувейт, Оман и др.) произошли два крупных поворотных момента. Во-первых, это вакуум власти, образовавшийся в регионе вскоре после вторжения США в Ирак в 2003 году. Во-вторых, «арабская весна», которая началась в 2011 году и нарушила всю региональную архитектуру. После этих двух важных событий, Турция, Иран, Египет, Израиль и Саудовская Аравия, основные региональные державы, изо всех сил пытались изменить баланс в регионе, формируя открытые и тайные союзы.

С одной стороны, Турция наладила отношения со странами Персидского залива, которые ежегодно привлекают миллиарды долларов инвестиций, и в то же время она расширила сотрудничество с Ираном, крупнейшим соперником этих стран региона (особенно в энергетическом секторе). Турция умело использует конкуренцию между арабами-суннитами и шиитским Ираном в своих национальных интересах.Следует отметить,что интересы ни одной региональной или глобальной державы на Ближнем Востоке не совпадают, но их политика не пересекается,несмотря на определенное сходство. Например, хотя большинство стран Персидского залива призвали к свержению режима Асада в Сирии, существуют серьезные разногласия по поводу того, какие силы придут к власти в постасадовской Сирии. Или хотя эти страны поддерживают идею независимого палестинского государства, за группировкой ХАМАС в Палестине стоит Турция, а за аль-Фатхом - страны Персидского залива во главе с Саудовской Аравией [1].

Disunity and fragmentation lead to the fact that coalitions are practically not formed in the elite, and each player acts on the basis of his own corporate or political priorities. We have described five key echelons that form Putin's elite. But only one of them acquires the role of the main internal irritant, the source of systemic and ideological conflicts, which have not been on such a scale within the state vertical since the crisis of 1993. Guardians are a special category whose expansion and ideological dominance (especially against the backdrop of Putin's well-known phrase about an obsolete liberal idea) frightens almost all groups of influence - from Putin's associates, such as Sergey Chemezov, to the main pillars of the current state policy, like Dmitry Medvedev or Elvira Nabiullina.

A major intra-elite rift is emerging between the increasingly technocratic civilian part of the elite that is, those who are forced to remain politically neutral but continue to be in charge of modernizing the state and the conservative, anti-Western guardians occupying the vacuum of scorched public politics [4]. With the intensification of contradictions - between conservation and progress, repression and liberalization, pressure and dialogue, aggression and reconciliation - the regime will have to deal with any scenario of the transition of power. Whether Putin remains the main player or whether he allows a successor to rule, in both cases, a deepening of the split is inevitable. The general actions of the authorities are becoming less coordinated and disunited.

The foreign policy background will continue to play an important role here, influencing domestic political changes in Russia. The more conflicted the external environment and the more irreconcilable relations with the West, the more political advantages the guards will receive along with the moral right to demand a toughening of the regime, the fight against external and internal threats [11]. At the same time, even in the event of a hypothetical improvement in relations with the West, one cannot count on a domestic political thaw. A decrease in the perception of an external threat is unlikely to change the vector to the conservation and tightening of the regime, although it may slow down this process [Konyshev V, Sergunin A (2018):175]. Russia is entering a phase of development, when political inertia can be broken only in the event of internal cataclysms - in case of errors in management, ignoring real problems, aggravating the alienation of power from society. But it is precisely such conflicts that will inevitably lead to the forma-

tion of an initially weakly expressed, but gradually increasingly clearly formed, non-Putin elite, the source of which, most likely, in the end will turn out to be the same class of technocrats-modernizers who are disillusioned with the current course.


**REFERENCES:**

*1. Российский совет по международным делам. М., 2012. [Электронный ресурс]. — Режим доступа: http://russiancouncil.ru/inner/?id_4=858#top.*

*2. Режим доступа: http://russiancouncil.ru/inner/ id_4=1632#top. Стрельцов Д. В. Москва и Токио: выйти из спячки // Россия в глобальной политике. 2011. Сентябрь-октябрь. Т. 9. № 5. С. 166–179.*

*3. https://carnegie.ru/2020/02/27/ru-pub-81158*

*4. https://rg.ru/2012/02/27/putin-politika.html*

*5.https://foreignpolicy.com/2021/02/10/world-without-putin-russia-what-is-next/*

*6.https://foreignpolicy.com/2021/02/10/world-without-putin-russia-what-is-next/*

*7.https://www.gazeta.ru/politics/2021/07/09_a_13716704.shtml?updated*

*8. https://www.nti.org/analysis/articles/toward-2024-and-beyond-the-fate-of-vladimir-putins-reign-part-i/*

*9.https://www.bbc.com/news/world-europe-59730522*

*10.https://az.wikipedia.org/wiki/Rusiya*

*11. Russian Federation Security Council, Russian Federation National Security Strategy Until 2020, May 12, 2009; The Kremlin, President of Russia. The Military Doctrine of the Russian Federation, February 5, 2010; Ministry of Foreign Affairs, Concept of the Foreign Policy of the Russian Federation Approved by President of the Russian Federation V. Putin, February 12, 2013.*

*12. Konyshev V, Sergunin A (2018) Military. In: Tsygankov AP (ed) Routledge handbook of Russian foreign policy. Routledge, Abingdon, pp. 168–181*

*13.https://www.rand.org/content/dam/rand/pubs/perspectives/PE300/PE338/RAND_PE338.pdf*

*14. Kofman, Michael, "Putin's Strategy Is Far Better Than You Think," War on the Rocks, September 7, 2015. As of August 6, 2019: https://warontherocks.com/2015/09/putin-is-a-far-better-strategistthan-you-think/*

*15. https://en.wikipedia.org/wiki/Russia_under_Vladimir_Putin.*



**XÜLASƏ**

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin 2020-ci il yanvarın 15-də Rusiya Federasiyası Federal Məclisinə müraciəti ölkədə siyasi tranzitə rəsmi start verib. Konstitusiyaya edilən dəyişikliklər və hakimiyyət dəyişikliyi dövlətin rəhbərliyinin strukturunu əhəmiyyətli dərəcədə dəyişdirə biləcək bir dəyişiklik dövrü açdı.

Vladimir Putinin 2024-cü ildən gec olmayaraq postunu tərk edəcəyi, payın varisin üzərinə qoyulacağı, hər iki liderin daha sonra güc tandeminin yeni buraxılışını formalaşdıracağı bəlli oldu. Siyasi rejim buna görə də böyük kadr dəyişiklikləri gözləyir.



**Açar sözlər:** *Rusiya, xarici siyasət, şəxsiyyət, Putin, geosiyasət.*



**SUMMARY**

The message of the President of the Russian Federation Vladimir Putin to the Federal Assembly of the Russian Federation on January 15, 2020 gave an official start to political transit in the country. Amendments to the Constitution and a change of government have opened a period of change that can significantly change the structure of the leadership of the state.

It became clear that Vladimir Putin would leave his post no later than 2024, that the stake would be placed on a successor, with whom both leaders would then form a new edition of the power tandem. The political regime, therefore, expects major personnel changes.



**Key words:** *Russia, foreign policy, identity, Putin, geopolitcs.*



**РЕЗЮМЕ**

Послание Президента Российской Федерации Владимира Путина Федеральному Собранию Российской Федерации от 15 января 2020 года дало официальный старт политическому транзиту в стране. Поправки в Конституцию и смена правительства открыли период перемен, способных существенно изменить структуру руководства государством.

Стало ясно, что Владимир Путин покинет свой пост не позднее 2024 года, что ставка будет сделана на преемника, с которым оба лидера затем составят новую редакцию властного тандема. Поэтому политический режим ожидает серьезных кадровых изменений.



**Ключевые слова:** *Россия, внешняя политика, идентичность, Путин, геополитика.*

UOT 327; 930.22

# MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ AVROPA İTTİFAQININ SƏRT VƏ YUMŞAQ GÜC SİYASƏTİ

**SƏNUBƏR BABAŞOVA**
*Bakı Dövlət Universiteti, Beynəlxalq münasibətlər kafedrasının doktorantı*
*E-mail: babashlisanubar@yahoo.com*

Avropa İttifaqı nəzəriyyə (ittifaq sənədlərində) və praktikada yumşaq güc anlayışını 1999-cu ildən etibarən istifadə etməkdədir. Yumşaq güc Aİ-nin xarici siyasətini müəyyən etmək, beynəlxalq böhranları idarə etmək, ittifaqın xaricə təsirini gücləndirmək, sülhü qorumaq, təhlükəsizliyi təmin etmək məqsədilə tətbiq etdiyi əsas xarci siyasət vasitəsinə çevrilmişdir. Yumşaq güc İttifaq daxilində, üzv ölkələrin vətəndaşlarına qürur, ittifaq xaricində, yəni digər dövlətlər və xalqlarda Aİ-yə qarşı heyranlıq yaratmışdır. Aİ-nin öz məqsəd və dəyərlərini universal dəyərlər kimi təqdim etməsi onun fəaliyyətlərini qanuniləşdirir.

Avropa İttifaqı beynəlxalq aləmdə nüfuzunu gücləndirmək məqsədilə yumşaq gücünü əsasən müxtəlif yardımlar və inkişaf naminə dəstək vasitəsilə reallaşdırmaqdadır. Aİ yalnız iqtisadi ittifaq və ya beynəlxalq ticarət lokomotivi deyil, eyni zamanda ittifaq dövlətlərinin mədəniyyəti və dəyərləri sayəsində beynəlxalq ictimaiyyətin diqqətini cəlb etməkdədir. Bu səbəbdən, insan hüquqlarına hörmət, söz azadlığı, mədəniyyətlərarası dialoq kimi dəyər və normalar vasitəsilə Aİ uğurlu model kimi çıxış edir. Aİ-nin xarici siyasətdə ən səmərəli və məqsədyönlü yumşaq güc vasitələri üzvlük, genişlənmə prosesləri və regional əməkdaşlıq təşəbbüsləridir. Aİ rəsmiləri hesab edirlər ki, genişlənmə Aİ dəyərlərinin – sülh və əmin-amanlıq, azadlıq, demokratiyanın yayılmasına, Aİ və onun yeni tərəfdaşlarının qarşılıqlı maraqlarına cavab verən prosesdir [1].

Avropa Qonşuluq Siyasəti Aİ-nin qonşularla əməkdaşlığı nəzərdə tutan və ümumi dəyərlərə - demokratiya, insan hüquqları, hüququn aliliyi, idarəçilik, bazar iqtisadiyyatı prinsipləri, davamlı inkişafa əsaslanan ilk təşəbbüsüdür. AQS 2004-cü ildə Aİ tərəfindən yaxın qonşuluğunda sabitlik, təhlükəsizlik və rifahı dəstəkləmək üçün yaradılmışdır. AQS qonşularla təkmil idarəçilik, iqtisadi və sosial inkişaf, təhlükəsizlik sahəsində əməkdaşlıq, miqrasiya və mobillik, həmçinin, enerji təhlükəsizliyi və iqlim aksiyası sahələrində əməkdaşlığı nəzərdə tutur [11].

Aİ-nin regional əməkdaşlıq layihələri İttifaqın yumşaq güc siyasətinin güclənməsini təmin edir. Aİ Latın Amerikası ilə əməkdaşlığa xüsusi diqqət ayırdığından ittifaqın Latın Amerikası regionunda nüfuzu olduqca güclüdür. 2007-ci ildən etibarən sosial birlik, su idarəçiliyi, ali təhsil, özəl sektorun inkişafına 556 milyon avro investisiya ayırmışdır. Aİ bu və ya digər layihə və təşəbbüsləri həyata keçirərkən tərəfdaş ölkələrdə vətəndaş və cəmiyyətə təsir göstərmək məqsədilə çıxış edir. Vətəndaş və cəmiyyət üzərində təsir imkanları Aİ-nin yumşaq gücünün səmərəliliyini və davamlılığını təmin edir [6, s. 3-4].

2009-cu ilin mayın 7-də Praqada keçirilən Zirvə toplantısında Avropa İttifaqı və altı tərəfdaşı – Azərbaycan, Belarus, Gürcüstan, Ermənistan, Moldova və Ukrayna tərəfindən yaradılmış Şərq Tərəfdaşlığı Avropa Qonşuluq Siyasətinin şərq variantını təqdim edib. Şərq Tərəfdaşlığı Siyasəti genişlənmə perspektivini istisna etməklə demokratik transformasiya və iqtisadi inkişafı dəstəkləməkdədir. Aİ komissiyasının keçmiş prezidenti Joze Manuel Barosso Şərq Tərəfdaşlığının post-sovet məkanına demokratiya və bazar iqtisadiyyatı kimi dəyərləri gətirən yumşaq güc vasitəsi olduğunu bildirmişdi [11].

Şərq Tərəfdaşlığının əsas məqsədi Aİ ilə maraqlı tərəfdaş ölkələr arasında siyasi assosiasiya, həmçinin iqtisadi inteqrasiyaya təkan vermək üçün bütün zəruri şəraiti və tədbirləri görməkdən ibrətdir. Aİ tərəfdaş ölkələrdə təkmil idarəçilik və iqtisadi inkişaf və nəticədə sabitliyi təmin etmək niyyətindədir. Şərq Tərəfdaşlığı əməkdaşlıq mexanizmlərini irəli sürən Aİ tərəfindən irəli sürülmüş ən inkişaf etmiş siyasi təşəbbüsdür. ŞT siyasi və diplomatik, mədəni və elmi, iqtisadi və maliyyə, habelə sabitlik kimi instrumentlərin vəhdətindən ibarət yumşaq güc siyasətidir [9].

Avropa Qonşuluq Siyasəti və Şərq Tərəfdaşlığı kimi təşəbbüslər ittifaqın yumşaq güc siyasətinə kifayət qədər töhfə vermişdir. Cozef Nay bildirir ki, yumşaq güc resursları baxımından ABŞ-ın ən böyük rəqibi Avropadır. Avropanın incəsənəti, musiqisi, dəbi və yeməkləri bütün dünyada heyranlıq yaratmaqdadır. Bir çox Avropa ölkələrinin güclü mədəni cəlbediciliyi var. Üstəlik, Avropanı birləşdirən simvol olan Avropa İttifaqı kifayət qədər yumşaq güc imkanlarına malikdir. Əsrlər boyu şiddətli döyüşən ölkələr arasında müharibənin indi mümkünsüzlüyü, Avropanın sülh və firavanlıq adasına çevrilməsi fikri dünyanın bir çox yerində heyranlıq yaratmaqdadır. "Soyuq müharibə"-nin sona çatması ilə Şərqi Avropalılara iqtisadi artım, bərabərlik, demokratiya və şəxsi azadlıqlar baxımın-

dan hansı ölkələrin gələcəkləri üçün model olduğunu soruşduqda, Qərbi Avropanın cavabı ABŞ-ı qabaqladı [7, s. 79].

Hazırda Avropa İttifaqı və onun yumşaq güc siyasətinin qarşısında bir sıra problemlər mövcuddur. Brekzit və miqrasiya böhranı Aİ-yə böyük təsir göstərib. Aİ yumşaq gücünü tam itirməsə də, mənəvi nüfuzunun əvvəlki qədər güclü olmadığını hiss edir. Brexit, Macarıstanın müsəlman qaçqınları rədd etməsi, Polşanın konstitusiyasına konstitusiyaya zidd düzəliş etməsi, qaçqın siyasətinin qeyri-adekvatlığı və s. siyasətlər Aİ-nin yumşaq gücünün zəifləməsinin əsas səbəbləridir [2]. Aİ-nin daha ədalətli və demokratik dünya nizamını inkişaf etdirmək üçün zəruri tədbirlər görməməsi və yumşaq gücün dəyərlərini kifayət qədər qoruya bilmədiyini sübut edir [12, s. 94]. Aİ-nin son dövrlərdə artan zorakılıq, miqrasiya hərəkətləri, qaçqın böhranı, ksenofobiya və millətçilik kimi çağırışlara reaksiyası İttifaqın əsas dəyərləri olan yumşaq güc elementlərinin səmərəliliyi ilə bağlı şübhələri artırır.

Aİ münaqişələrin müxtəlif regionlarda digər qlobal aktorlarla müqayisədə geridə qalır. Sərt güc elementlərinə daha çox önəm verən ABŞ və Rusiya kimi qlobal aktorlar beynəlxalq siyasətdə daha fəal çıxış etsələr belə, uzunmüddətli perspektivdə sabitlik və nizam-intizam yaratmaqdan uzaqdırlar. ABŞ sərt güc elementlərinə arxalanaraq Əfqanıstan və İraqda köhnə rejimi devirməyə müvəffəq olsa da, bunun əvəzinə yeni nizam qura bilmədi. Sərt güc Əfqanıstan, İraq, Suriya və Yəmən kimi münaqişələrin olduğu ölkələrdə qüvvələr balansını dəyişsə belə, sülh və sabitlyi bərqərar edə bilmir [1].

Aİ-nin səhiyyə üzrə vahid siyasəti olmadığından və səhiyyə ittifaqa üzv dövlətlərin yurisdiksiyasında olduğundan, Aİ institutlarının epidemiya kimi ciddi böhranların həllində təsirli ola bilmədiyi sübut oldu. Böhranın ilkin mərhələsində bir çox iclas keçirən və çağırışlar edən Aİ Komissiyası üzv dövlətlərdən daxili sərhədlərini bağlamamağı və sərhəd nəzarətini həyata keçirməməyi xahiş etsə belə, bir neçə ölkə istisna olmaqla, bütün üzvlər sərhədlərini bağlamağa yönəldi. Beləliklə, sərbəst hərəkəti nəzərdə tutan Şengen faktiki olaraq dayandırıldı. Böhranın ilk aylarında COVID-19-dan ən çox əziyyət çəkən İtaliya İttifaq daxilində həmrəyliyin olmamasını açıq şəkildə tənqid etdi. Bir çox Aİ ölkəsi, xüsusilə Fransa və Almaniya, epidemiyanın ilk dövründə tibbi ləvazimatların ixracını qadağan edərək İtaliyaya yardım etməkdən imtina etdilər. Böhran dövründə İtaliyaya ilk yardım edən ölkə Çin olmuşdur. Böhran şəraitində İttifaq dövlətlərinin vahid siyasət nümayiş etdirə bilməməsi Aİ-nin gələcəyi üçün ciddi və konkret addımlar atmağı zəruri edir.Aİ üçün ən mühüm problem üzv dövlətlər arasında müdafiə sahəsində əməkdaşlığın kifayət qədər inkişaf etməməsidir. Müdafiə sahəsində ABŞ-dan asılılıq digər mühüm problemdir. ABŞ-ın son dövrlərdə Aİ ölkələrinə müdafiə sahəsində kifayət qədər təminat verməməsi Aİ-ni alternativlər axtarmağa vadar edib. Ən son, 2017-ci ilin noyabrında 23 Avropa ölkəsi 5 milyard avro dəyərində Avropa Müdafiə Fondunun təsis edilməsi haqqında sənəd imzalayıb. Fond müdafiə sahəsində ABŞ-dan asılılığın azaldılması və Aİ-nin hərbi imkanlarının artırılması məqsədi daşıyır.

Aİ-nin sərt gücü ilə bağlı çağırışlar artıq ittifaq rəsmiləri tərəfindən bəyan edilməyə başlamışdır. Avropa İttifaqı Komissiyasının iki nüfuzlu nümayəndəsi, post-pandemiya dövründə İttifaqın siyasi oriyentasiyasının yenilənməli olduğunu bildirib. Avropa Komissiyasının vitse-prezidenti və Aİ-nin xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borrel və daxili bazar və müdafiə sənayesi üzrə komissarı Tierri Breton Almaniyanın “Die Velt” qəzetində dərc olunan məqalələrində Avropa üçün “birmənalı “yumşaq güc” siyasətinin daha aktual olmadığını”, kifayət etmədiyini qeyd ediblər.

Bir sıra tədqiqatçılar, o cümlədən Cozef Nay hesab edir ki, yumşaq gücün təsir imkanı məhduddur. Ümumiyyətlə, qəbul edilir ki, yumşaq güc yalnız hərbi və iqtisadi güclə birlikdə əhəmiyyətli təsir göstərmək imkanına malikdir. Sərt və yumşaq güc arasında optimal tarazlığın təmin edilməsi ilə formalaşan ağıllı gücü tətbiq edən aktorların daha çox təsir imkanları mövcuddur. Ağıllı güc strategiyası sərt güc və yumşaq gücün resurslarının vəhdətinə əsaslanır [8, s. 94]. C. Nay sərt və yumşaq gücün mənbələrinin vəhdətindən formalaşmış ağıllı gücü gələcəyin gücü adlandırır [3].

Avropa İttifaqının sərt və yumşaq güc siyasətinin sintezi olan qlobal siyasətə rasional yanaşmanı nəzərdə tutan "ağıllı güc" strategiyasının həyata keçirməsi müxtəlif qurumlar və Aİ ölkələrinin siyasətlərinin və münasibətlərinin səmərəli şəkildə əlaqələndirilməsindən asılıdır. Avropa Xarici Fəaliyyət Xidmətinin (EEAS) təsis edilməsi Avropa İttifaqının ağıllı gücünün formalaşmasına xidmət edir. EEAS sərt və yumşaq gücün əlaqələndirilməsini asanlaşdırmaqla üzv dövlətlərin və Aİ institutlarının xarici siyasi fəaliyyətlərini daha sıx birləşdirmək üçün nəzərdə tutulmuşdur. Aİ şəffaf və könüllü institusional və hüquqi proseslərə sadiq çoxmillətli aktor olduğu üçün məcburetmə və ya zorakılıqdan uzaqdır. Bu baxımdan, sərt güc onun normativ təbiətinə ziddir. Aİ sərt gücə yalnız ən mühüm norma və dəyərlərini dəstəkləmək

üçün, məsələn, insan hüquqlarının pozulmasının qarşısını almaq və ya avtoritar meyillərdən çəkindirmək üçün müraciət edir.

Beləliklə, müasir dövrdə Avropa İttifaqının yumşaq güc siyasəti sosial və siyasi problemlərin təsiri nəticəsində zəifləmişdir. Pandemiya, miqrasiya, brekzit kimi problemlər sərt güc siyasətinin formalaşdırılmasını zəruri etmişdir.

### ƏDƏBİYYAT SİYAHISI:


*1. Cordesman A. H. 'Peace' in Afghanistan, Iraq, Syria, Libya, and Yemen, August 5, 2019, https://www.csis.org/analysis/peace-afghanistan-iraq-syria-libya-and-yemen*

*2. Emmot R. Missing in action? EU sees its soft power wane, MAY 4, 201712:57 PM, https://www.reuters.com*

*3. Fabiani A. İmportance of Smart Power for Process of Democratic International Cooperation in Central Europe, December 22, 2020, http://4liberty.eu/importance-of-smart-power-for-process-of-democratic-international-cooperation-in-central-europe/*

*4. Gross E. "The Limits of European Soft Power", Institute for Euro- pean Studies, Free University Brussels, 25.11.2017, http://www.kiep.go.kr,*

*5. Moravcsik A. "Europe Is Still a Superpower", 13.04.2017, Foreign Policy, http://foreig- npolicy.com/2017/04/13/europe-is-still-a-superpower*

*6. Moreno N. Puigrefagut A., Yarnoz I., The European Union's soft power: Image branding or neo colonialism, Center for Global Affairs& Strategic Studies, July 11 2018, p. 1-16, pp. 3-4*

*7. Nye J. S. Yumuşak Güç Dünya Siyasetinde Başarının Yolu, Çev. Rayhan İnan Aydın, Elips Kitap Yayınları, Ankara, 2005, s. 150, ss. 79*

*8. Nye, J. S. "Public Diplomacy and Soft Power", The Annals of the American Academy of Political and Social Science, Vol. 616, Public Diplomacy in a Changing World, Mar., 2008, Sage Publications, pp. 94-109, p.94*

*9. Piskorska B. The Eastern Partnership – A Challenge for the EU's Soft Power in International Relations, June 2018, Lublin, p. 1-16, p. 6-7*

*10. Rehn O. Enlargement as an instrument of the EU's soft power, Anna Lindh Award Ceremony, Speech /07/642, 19 October 2007*

*11. Runner P. Brussels to project "soft power" in post-Soviet zone, BRUSSELS, 3. DEC 2008, 18:09, https://euobserver.com/foreign/27228*

*12. Volten P. "Hard Power versus Soft Power or a Balance between the Two?", All Azimuth, 2016, V5, N2, Jul., p. 91-94*


### XÜLASƏ


Müasir beynəlxalq münasibətlərdə əsas aktorlardan biri də Avropa İttifaqıdır. İnsan hüquqları, sülh və demokratiya Aİ-nin təsis olunduqdan etibarən genişlənmə siyasətinin əsas elementləri olmuşdur. Genişlənmə ideyasının meydana çıxması insan hüquqlarına hörmət, demokratiyanın təşviq edilməsi və sülhün qorunması naminə bu vasitələrin tətbiqi Aİ-nin xarici siyasətdəki əsas məqsədlərinə çevrilmişdir. Beləliklə, Aİ beynəlxalq siyasətdə sülhü qoruyan aktor kimi formalaşmağa başlamışdır.



**Açar sözlər:** *Avropa İttifaqı, sərt güc, yumşaq güc, ağıllı güc, Avropa Qonşuluq siyasəti, Şərq Tərəfdaşlığı.*


### РЕЗЮМЕ


Европейский союз является одним из главных акторов современных международных отношений. Права человека, мир и демократия были основными элементами политики расширения ЕС с момента его основания. С появлением идеи расширения уважение прав человека, продвижение демократии и применение этих инструментов для сохранения мира стали основными целями внешней политики ЕС. Таким образом, ЕС начал формироваться как миротворческий актор международной политики.



**Ключевые слова:** *Европейский Союз, жесткая сила, мягкая сила, умная сила, Европейская Политика Соседства, Еропейское Партнерство.*


### SUMMARY


The European Union is one of the main actors in modern international relations. Human rights, peace and democracy have been the main elements of EU enlargement policy since its foundation. With the emergence of the idea of enlargement, respect for human rights, the promotion of democracy and the application of these tools for the preservation of peace have become the main objectives of the EU's foreign policy. Thus, the EU began to be formed as a peace-keeping actor in international politics.



**Key words:** *European Union, hard power, soft power, smart power, European Neighborhood Policy, European Partnership.*

UOT 327; 930.22

# YUMŞAQ GÜC ANLAYIŞINA BEYNƏLXALQ SFERADA NƏZƏRİ YANAŞMA

*ORCID NO 0000-0003-0999-2838*

**LEYLA NAĞIYEVA**
*Bakı Dövlət Universitetinin doktorantı*

*E-mail: nleyla592@gmail.com*

## 1. GİRİŞ

"Soyuq müharibə"nin başa çatmasından sonra beynəlxalq sistemin xarakteri dəyişmiş, aktorların sayı artmış, yeni bir sistem formalaşmışdır. Yeni sistemə uyğun olaraq ictimai diplomatiya ön plana çıxmış və xarici siyasətin həyata keçirilməsi vasitələrindən birinə çevrilmişdir. İctimai diplomatiya ölkənin yumşaq gücünü dəstəkləmək üçün bir vasitə kimi uzun bir tarixə malikdir və Soyuq müharibədə qalib gəlmək üçün diplomatiyanın bu formasından istifadə çox vacib idi. Artıq sadəcə dövlətlərin deyil, həm də qeyri-hökumət təşkilatlarının və medianın milli və beynəlxalq sahədə daha təsirli olduğu bir sistem fəaliyyət göstərir.

İctimai diplomatiya (public diplomacy) termini ilk dəfə 1965-ci ildə Amerika diplomatı Edmund Qallion tərəfindən istifadə olunmuşdur. Edmund Gullion Taft Universitetinin Fletçer Hüquq və Diplomatiya Məktəbinin dekanı olmuşdur. Diplomat həmçinin həmin məktəbdə "İctimai Diplomatiya Mərkəzi"nin əsasını qoymuşdur. Müəllifin qeydinə əsasən, ictimai diplomatiya xarici siyasətin həyata keçirilməsində ictimai mövqeyin təsiri ilə bağlıdır. İctimai diplomatiyanın əsasında informasiya və ideyaların axını durur.

İctimai diplomatiya bir sıra xarakterik əlamətlərinə görə ənənəvi diplomatiyadan fərqlənir. Belə ki, o ənənəvi diplomatiyadan fərqli olaraq, bir sıra qeyri-hökumət strukturlarını əhatə edir.İctimai diplomatiyanı reallaşdıran qeyri-hökumət aktorlarına: siyasi partiyalar, nüfuzlu şəxslər, həmkarlar ittifaqları, kütləvi informasiya vasitələri və s. daxildir. Ənənəvi diplomatiyada danışıqların gizli formada həyata keçirilməsi prinsipi əsas xarakterik əlamətlərdən biridir. Danışıqların bu formada aparılmasının üstünlüyü tərəflərin fikirləşmək üçün kifayət qədər vaxtlarının olmasıdır. İctimai diplomatiyanın mahiyyəti dövlətin mədəniyyətinin ixracına təkan verən, öz mövqeyini nəşriyyat və KİV-lər vasitəsilə daha dolğun və geniş miqyasa çatdırmasına, həmçinin hədəf dövlətlə qarşılıqlı fəaliyyətin təmin olunmasına əsaslanır. İctimai diplomatiyanın formalaşması yumşaq gücün istifadəsi üçün zəmin yaratdı. Mədəniyyət, daxili siyasət, xarici siyasət və iqtisadiyyat kimi yumşaq güc elementlərindən istifadə edərək digər ölkələrin, xalqların sevgisini qazanmaq üçün həyata keçirilən fəaliyyət ictimai diplomatiyanın ən vacib elementlərinə çevrilmişdir.

## 2. KONSEPTUAL ÇƏRÇİVƏ

İctimai diplomatiya vasitəsilə Dağlıq Qarabağ münaqişəsinin həll olunması həm real həm də utopik olaraq qeyd oluna bilər. Ənənəvi diplomatiyanın bu münaqişədə rolunun səmərəsizliyini 2016-cı il Aprel döyüşləri fonunda aydın şəkildə görmək mümkündür. İctimai diplomatiyanın tətbiqi olduqca vacibdir. Əgər müəyyən sülh əldə olunsa belə, xalqlar arasında barışığın olmaması sülhü uzun müddətli etməyəcəkdir. Dağlıq Qarabağ münaqişəsi başladığı ilk dövrlərdən etibarən Azərbaycan zərərçəkmiş olmasına baxmayaraq, sülh mövqeyindən çıxış etmişdir. Müasir dövrdə münaqişə tərəfləri arasında münasibətlərin nizamlanmasına səylə çalışan beynəlxalq qurumlar ənənvi diplomatik metodlar ilə yanaşı ictimai diplomatiyadan istifadə etmiş, dəfələrlə tərəfləri bir araya gətirərək sülhü yaratmağa cəhd etmişlər. Münaqişənin sülh vasitəsilə təmini üçün əvvəla, dövlətlər arasında diplomatik razılaşma əldə edilməlidir. Diplomatik razılaşmadan sonra xalqlar arasında dostluq münasibətlərinin bərpasına əsaslanan ictimai diplomatiya vasitələrindən istifadə olunmalıdır. Həmçinin, ictimai diplomatiya ilə ənənəvi diplomatiya balanslaşdırılmış şəkildə aparılmalıdır (Лебедева, 2016: 102).

Dövlətlər tərəfindən həyata keçirilən ictimai diplomatiyanın əsas məqsədi hədəf ölkənin vətəndaşlarına təsir etməklə onları öz hökumətlərinə daxili və xarici siyasətdə dəyişikliklər etməyə, təzyiq gösdərməyə vadar etməkdir. İctimai diplomatiyanın məqsədləri bunlardır:

**İqtisadi məqsəd:** İctimai diplomatiyanın vasitələrindən məharətlə istifadə edərək ölkənin iqtisadi inkişafına nail olmaq. Əsas vasitələrdən biri də iqtisadi sahənin yüksək formada təbliğ olunmasıdır. Məsələn, turizm, investisiya, tədqiqatçıların cəlb olunması və s.

**Siyasi məqsəd:** Beynəlxalq müstəvidə dövlətin güclü nüfuzunu formalaşdırmaq. Dövlətin xarici siyasət məqsədlərinə daha asan nail olmaq üçün şərait

yaradılması da daxildir.

**Mədəni məqsəd:** Ölkənin mədəni imicini formalaşdırmaq üçün mədəni sahədə mübadiləni təmin etmək. Mədəni sahədə rəqabət qabiliyyətini artırmaq da daxildir. İctimai diplomatiyanı reallaşdırmaq üçün onun bir sıra özünəməxsus vasitələri vardır. Həmin vasitələrə: dialoq, internetdən istifadə, mübadilə proqramları, mədəni sahədən məharətlə istifadə (incəsənət, elm və təhsil, idman və s. nəzərdə tutulur) daxildir. Adları qeyd olunan vasitələr eyni zamanda "yumşaq güc"ün elementləridir. İctimai diplomatiyanın məna baxımından istifadəsi XVII əsrə dayanır, lakin fəaliyyət baxımından "soyuq müharibə" dövründə istifadəsinə rast gəlirik. İdeoloji əsaslara dayanan ikiqütblü sistemin hökmran olduğu bir dövrdə ictimai diplomatiya termini Amerika hökuməti tərəfindən tətbiqi, çağdaş dövrdə güc konsepsiyası beynəlxalq aləmdə, ümumiyyətlə beynəlxalq siyasət təhlili və beynəlxalq münasibətlər nəzəriyyələrində ən çox müzakirə olunan anlayışlardan biridir. Sözün geniş mənasında, "güc" məfhumunu başqalarına nəzarət etmək, gördükləri istənilən işlərdən onları çəkindirmək qabiliyyəti kimi qiymətləndirmək mümkündür. Eyni zamanda, güc müəyyən dövlət tərəfindən başqa dövlətlərin fəaliyyətlərinə nəzarət etmək qabiliyyəti kimi müəyyən oluna bilər. Dövlətlərin və beynəlxalq aktorların fəaliyyəti güc konsepsiyalarına münasibətləri ilə əlaqəli təhlil olunur. Bir çox mütəfəkkirin fikrincə, dövlətin var-dövləti, təbii sərvətləri, işçi qüvvəsi, hərbi qüvvələri onun gücünün əsasını təşkil edir.Ancaq qeyd etmək lazımdır ki, bunların hamısı dövlətin potensialını təşkil etmir. Bu faktorların real gücə çevrilməsi onlar vasitəsilə bu və ya digər dövlətin başqa dövlətlərin fəaliyyətinə təsir edə bilməsindən asılıdır. Dövlətlər digər dövlətlərin fəaliyyətinə təsir, yaxud onlara nəzarət edə biləndə, güc siyasi xarakter daşıyır və buna görə də beynəlxalq siyasətin hadisəsinə çevrilir. Bazar münasibətlərində pulun oynadığı mühüm rolu, güc beynəlxalq münasibətlər sahəsində oynayır. Fərqli mütəfəkkirlərin fikirləri ilə zənginləşən bu anlayış, əvvəllər olduğu kimi müasir dövrdə də müxtəlif araşdırmaların mövzusudur (Gallarotti, 2011: 40).

## 3. METODOLOGİYA

Gücün ünsürlərinin istifadəsini nəzərə alaraq gücə dair təsnifat müəyyənləşdirilmişdir. Güc ünsürlərindən aktorları məcbur etmək, hədələmək və maneə törətmək məqsədi üçün istifadə olunursa, bu güc forması sərt güc, aktorları inandırmaq, istənilən nəticəyə gətirilməsi üçün istifadə olunan forma isə yumşaq güc kimi qiymətləndirilir. Dövlətlərarası münasibətlərin tarixinə nəzər saldıqda sərt gücdən, o cümlədən müharibə və hərbi gücdən istifadənin çox yayıldığı görülür. Xüsusilə qədim dövrlərdə sərt güc istifadəsi müəyyən bir məqsədə çatmaq istəyən aktorlar üçün demək olar ki, yeganə alternativ kimi qəbul edilmişdir. Ancaq beynəlxalq münasibətlərdə güc məfhumunun dəyişilməsi, eyni zamanda sərt gücdən istifadənin baha olması aktorları yeni güc formasından istifadəyə vadar etmişdir. Bu güc forması isə 90-cı illərdən etibarən ədəbiyyatlara daxil olunmuş "yumşaq güc" olmuşdur. Yumşaq güc, beynəlxalq münasibətlərdə sərt gücün yaratdığı zəif cəhətləri yaratmadan aktorlara məqsədlərinə çatmağa imkan yaradan güc növü kimi seçilir. Mənşəyi ölkənin mədəniyyətinə, siyasi dəyərlərinə və xarici siyasətinə söykənən, sərt gücdən fərqlənən yumşaq güc bir çox ölkə tərəfindən müxtəlif məqsədlər üçün istifadə olunur. 1990-cı illərdən bəri həm akademik sahədə, həm də mətbuatda və siyasətçilərdə populyarlıq qazanan yumşaq güc anlayışı güc müzakirələrinə yeni bir istiqamət qazandırdı. Waring Partridge "yumşaq güc"ü sərt gücdən istifadəsini dəstəkləyən və lazım olduqda istifadə etməyə imkan verən güc növü kimi təsvir edir (Molloy, 2006: 89).

## 4. TAPINTILAR

### 4.1. Yumşaq Güc Anlayışının Elmi-Nəzəri Əhəmiyyəti

Ədəbiyyatlarda güc anlayışıyla bağlı fərqli yanaşmalar mövcuddur. Bu yanaşmalardan biri də çoxölçülü təhlildir.Gücün ilk ölçüsü, səbəb-nəticə əlaqəsinə əsaslanan aktorların davranışlarını araşdıran yanaşmadır. Bu yanaşmaya görə, məsələn A dövləti öz marağına uyğun olan bir situasiyada məqsədini reallaşdırmaq üçün B dövlətinə təsir etməyi bacara bilir.Başqa sözlə, A aktoru B-nin normal olaraq etməyəcəyi bir şeyi reallaşdırmağı bacarırsa, A aktoru güclü hesab olunur. Bu ölçü səbəb və nəticə əlaqəsində A və B davranışlarını izah edir və "B-nin fəaliyyətinə A səbəb olmuşdur" kimi qiymətləndirilir. Ancaq bu situasiya zamanla Dahl tərəfindən daha da zənginləşdirildi və A-nın gücü yalnız B-nin istədiyi şeyi etməklə məhdudlanmadı, həm də müxtəlif istiqamətlərdə ifadə olunmağa başladı. A aktoru B aktoruna müəyyən bir davranışdan imtina etməsinə imkan verərsə, A daha güclü ola bilər. Baxrach və Baratzın bu fikri gücün ikinci ölçüsünü təşkil edir və bu düşüncəyə görə, bir aktorun güclü olub-olmadığını görmək üçün nə edə biləcəyinə baxmaq kifayət deyil. Görülə bilməyən işlərin qeyd olunması da güc təhlili baxımından vacibdir. Dövlətlərin siyasət məqsəd-

lərinə çatmaq üçün istifadə etdikləri güc formaları müxtəlifdir. Aktorlar həm məqsədə doğru, həm də məqsədə çatdıqdan sonra atılan addımların dəyərini hesablamalıdırlar. Bu səbəbdən də hədəfə ən az xərclə çatmaq idealdır. Bu məntiqə əsaslanaraq, aktorlar hədəfə uyğun istifadə edəcəyi ünsürləri və güc formalarını qiymətləndirir, ən uyğun və ən səmərəli nəticələri seçirlər (Mearsheimer, 2001: 127).

Bir çox analitiklər güc anlayışının nəzəriyyənin mərkəzində yerləşdiyini və onu əsas izahlı konsepsiya kimi qəbul etsələr də, digərləri bunun sistemin fəaliyyətində az əhəmiyyət daşıdığını iddia edirlər. İntizamın əsas anlayışlarından biri olan güc anlayışı beynəlxalq münasibətlərə dair fikir bildirən nəzəriyyələr tərəfindən geniş müzakirə edilmişdir. Əlbəttə ki, hər bir nəzəriyyənin bu anlayışa yanaşması bir-birindən fərqlənir. Güc anlayışı beynəlxalq münasibətlər ədəbiyyatına e.ə. 5-ci əsrdə Afinalı bir general Fukididin "Peloponnes müharibəsinin tarixi (səkkiz kitab)" adlı əsəri ilə daxil olmuşdur. Ümumiyyətlə, Fukididin irəli sürdüyü bir çox ideyalar və müddəalar indiyədək öz aktuallığını itirməmişdir. Müəllifə görə, dövlətlərarası münaqişədə ən əsas arqument ancaq gücdür. Fukidid qeyd edir ki, güc və qüvvə məqsəd deyil, onlar sadəcə dövlətin təhlükəsizliyini və nüfuzunu saxlamaq üçün vasitədir. Mütəfəkkir məsələləri zorakılıqla həll etmək istəyini insan təbiəti ilə bağlayır, gücə əl atmağın zəruriliyini qeyd edir. Fukididin gücə olan münasibətində, həmçinin ideyalarında realizm nəzəriyyəsinin bir çox müddəaları öz əksini tapmışdır. Bu əsər vasitəsiylə belə bir nəticəyə gəlmək mümkündür ki, dəyişən zamanla güc fenomeni dəyişməz xarakterə malikdir. Fukidid tərəfindən banisi qoyulan klassik ənənə sonralar Nikola Makiavelli, Tomas Hobs, Karl fon Klauzevits və başqaları tərəfindən inkişaf etdirildi (Pallaver, 2011: 23).

Qədim dövrlərdə güc anlayışını təhlil edən yeganə şəxs Fukidid olmamışdır. Fukididdən 100 il sonra Hindistanda yaşamış Kautilya beynəlxalq siyasətdə güc anlayışına əhəmiyyət verən digər nüfuzlu şəxs oldu. Maurya İmperiyası hökmdarının müəllimi və məsləhətçisi vəzifəsini icra edən Kautilya 15 kitab və 150 fəsildən ibarət olan "Arthaşastra" əsəri ilə dövrün siyasətində əhəmiyyətli rol oynamışdır. Kautilyanın müasiri ondan sonra yaşamış, "Hökmdar" əsəri ilə nüfuz qazanmış Nikola Makiavelli hesab olunur. Bunun səbəbi isə odur ki, hər ikisi əsərlərində dövlət idarəçiliyi, bir padşahın sahib ola biləcəyi keyfiyyətlər kimi oxşar mövzulara diqqət ayırıblar. Müəlliflərin işlədikləri mövzuların oxşar olmasına baxmayaraq, güc anlayışına və dövlətlərarası münasibətdə rolu ilə bağlı yanaşma mövqeləri fərqli olmuşdur. Bu fərqli mövqelər əsas götürülərək "Arthaşastra" əsəri daha radikal hesab olunur. Kautilya padşaha tövsiyələrində güc anlayışına xüsusi önəm verməsini, hətta onun artırılması istiqamətində bir siyasət reallaşdırmasını xüsusi vurğulamışdır. Gücü əsas tutaraq qeyd etmişdir ki, daha çox gücə sahib olan padşah digərlərə nisbətdə güclüdür, az gücə sahib olan isə az nüfuz sahibidir. Kautilya güc anlayışının qüvvət ilə eyni mənaya malik olduğunu və qüvvət vasitəsilə də başqalarının fikirlərini dəyişdirməyin mümkün olduğunu vurğulamışdır. Padşah güc və qüvvəyə sahib olmaqla düşmənlərinin fəaliyyətinə, eyni zamanda onların fikirlərinə nəzarət edə bilər. Qədim dövrlərdə Sun Tzu, Thucydides və Kautilya kimi adlar beynəlxalq münasibətlərin təhlilində güc konsepsiyasına böyük əhəmiyyət vermiş və onu ədəbiyyatda əsas anlayışlardan biri halına gətirmişdir. Qədim zamanlardan başlayan güc anlayışı sonrakı dövrlərdə də davam edib və bir çox elm adamları bu konsepsiyanı inkişaf etdirərək öz əsərlərində istifadə ediblər (Lennon, 2003: 149).

Beynəlxalq münasibətlərdə mübahisələr ən çox liberalizm və realizm arasında olmuşdur. Bu nəzəriyyələrin güc anlayışına yanaşma mövqeləri də bir-birindən fərqlidir. Liberalizm cəmiyyətdə təkamül və inkişaf ideyasına əsaslanır, ideya olaraq XVIII əsrdə yaranmışdır. Liberalizm Birinci Dünya Müharibəsindən sonra Amerika Birləşmiş Ştatlarının prezidenti Vudro Vilsonun adı ilə əlaqələndirilir.V.Vilsonun rəhbərliyi ilə nəzəriyyə daha da geniş yayıldı. Elə o vaxtdan etibarən liberalizmin realizmlə debatı başladı. Bu nəzəriyyə insan əqlinin mövcudluğuna önəm verir. Eyni zamanda hər zaman bəşəriyyətin birliyinə yönəlmiş dəyərlərin inkişaf etdirilməsini üstün tuturlar. Liberallar üçün sülh normal sosial durumdur. Onlar bir-birilə münasibətdə gücün tətbiq edilməsindən çəkinmək istəyirlər. Liberallar bütün beynəlxalq aktorlar tərəfindən riayət olunacaq ümumi mənəvi və etik dəyərlər sistemini yaratmaq istəyirdilər. Liberal nəzəriyyənin tərəfdarları qüvvələr balansı ideyasını tənqid edirdilər. Qüvvələr balansı beynəlxalq sistemdə üstün hərbi qüvvənin yoxluğu kimi xarakterizə olunur. Qüvvələr balansı elə bir proses kimi təsvir olunur ki, kiçik dövlətlər regionda güc sahibi olan hərbi dövlətə qarşı çıxan müvəqqəti birlik kimi çıxış edirdi. Bu ideyanın tərəfdarlarına görə, müharibə anlayışı mənfi hadisə olmasına baxmayaraq, zəruri və arzuolunan ola bilər. Liberallar isə qüvvələr balansını qeyri-müəyyən, məntiqə zidd bir proses kimi qiymətləndirirlər. Qüvvələr balansını saxlamaq səyləri

adətən müharibəyə səbəb olur (Arı, 2008: 421).

Liberal nəzəriyyənin tərəfdarları güc formalarından ən çox son zamanlar meydana çıxmış "yumuşaq güc" formasına üstünlük verirlər.Yumşaq güc anlayışı 1990-cı ildə Joseph S. Nye tərəfindən populyarlaşsa da, mübahisələrə səbəb oldu. Yumşaq gücə görə bir aktor hədəfə doğru hərəkət edərkən, digərlərinə qarşı güc tətbiq etmədən, təhdid etmədən aktorları öz istiqamətlərinə doğru çəkməyi bacarmalıdır. Bu prosesin reallaşmasının bir çox yolu var. Aktorların mədəniyyəti, bəzən siyasi idealları başqaları üçün cəlbedici ola bilər. Yumşaq gücün də əsas xüsusiyyəti cazibədir (Lewis, 2017: 89).

### 4.2. Müasir Elmi Tədqiqatlarda Yumşaq Güc Anlayışı Konsepsiyası

Vaxt keçdikcə liberalizmin irəli sürdüyü fikirlərə gətirilən tənqidlər nəticəsində realizm-neorealizmin çevrilməsi kimi bir transformasiya baş verdi və bu yeni yanaşma neoliberalizm adlandırıldı. "Soyuq müharibə"nin başa çatması liberalizmin nüfuzunu yenidən qaldırdı. Bu dövrdən etibarən reallıqlar nəzərə alınaraq liberalizm neoliberalizmə çevrilir. Yeni istiqamət kimi neoliberalizm XX əsrin 30-cu illərində ABŞ-da yaranmışdır. Neoliberalizm tərəfdarları dövləti beynəlxalq münasibətlərin əsas aktoru kimi qəbul etsələr də, yeganə aktor olmadığını qeyd edirdilər. Neoliberal nəzəriyyəni qəbul edənlər güc anlayışını realistlərdə olduğu kimi, nəzəriyyənin mərkəzinə qoymasa da, gücə böyük əhəmiyyət verdilər. Bəzi məqamlarda, o cümlədən konsepsiyanın tərifində fərqli fikirlər səslənsə də, güclə əlaqəli fikirlərdə iki nəzəriyyənin gözləntiləri və əldə ediləcək məqsədləri eyni olmuşdur. Anarxiya anlayışı realistlər qədər ön plana çıxmasa da, neoliberallar sistemin anarxik quruluşa sahib olduğunu qəbul etdilər. Ancaq bu quruluşun, realistlərin iddia etdiyi kimi, əməkdaşlığa maneə yaratmadığını müdafiə etdilər, əksinə qarşılıqlı asılılığın, xüsusən iqtisadi baxımdan, dövlətlər arasında əməkdaşlığa imkan yaratdıqlarını müdafiə etdilər. Dövlətlərarası münasibətlərdə gücün istifadə forması liberalların realistlərdən fərqləndiyi məqamdır. Realistlər hərbi gücdən istifadə olunmasını üstün tuturlarsa, liberallar iqtisadi gücdən istifadənin əhəmiyyətinə işarə edirlər. Ümumiyyətlə, güc formaları arasında sıralanma vəziyyəti olduqda liberallar iqtisadi gücə üstünlük verirlər (Abbasbəyli, 2007: 56-60).

Neoliberallar güc anlayışından başqaların davranışlarını dəyişdirməyə istiqamətlənmiş siyasətlərin yaratdığı xərclərdən qurtarmaqla istədiklərini edə bilməsi kimi ifadə edir. Onların fikrincə, dövlətlər arasındakı münasibətləri reallaşdırmaq üçün güc amilindən başqa çoxsaylı əlaqələr, formalar mövcuddur. Bu fikrə əsasən, neoliberallara görə hərbi güc amili o qədər vacib deyil. Beynəlxalq münasibətlərin digər aktorlarına hərbi güc vasitəsilə təsir etmək təhlükəlidir, iqtisadi vasitə daha səmərəli təsir vasitəsidir. Neoliberalizmin hərəkət azadlığı adlanan bu vəziyyəti neorealistlərin asılılıq dərəcəsi olaraq təyin olunur. Neoliberallar realistlərin vəziyyətində olduğu kimi, hərbi və iqtisadi vasitələrin istifadə olunduğu sərt güc formasından fərqli olaraq, mədəni, siyasi və oxşar motivləri ehtiva edən yumşaq güc formasını vurğulayırlar. Buraya sistemli, dolayı və ya yumşaq amillər daxil olsa da, son nəticədə neoliberalların gücə yanaşma mövqeyi realistlərin mövqeyindən o qədər də fərqlənmir (Лебедева, 2017: 18-19).

Liberalizmlə birlikdə realizm beynəlxalq münasibətlər nəzəriyyəsi tarixində ilk meydana gələn ən mühüm nəzəriyyələrdəndir. Realizm təhlükəsizlik və hakimiyyət faktorlarının əhəmiyyətini nəzərə alan ideyalar məcmusudur. Bu nəzəriyyənin əsasında xalqlar arasında daim baş verə biləcək mübarizə dayanır. Bu mübarizə qanunauyğun xarakter daşıyır. Realistlərin fikrincə, güclü milli dövlət yaradılması zəruridir. Realizm insanın eqoist təbiətinə istinad edir, bu nəzəriyyənin tərəfdarlarına görə, insan təbiəti dəyişməz olaraq qalır. Beynəlxalq münasibətlərin daim anarxiya xarakteri daşıdığını müdafiə edirlər. Dövlətlərarası münasibətdə güc anlayışının mövcud olmasını ən çox dəstəkləyən və nüfuz qazandıran nəzəriyyə məhz realizmdir. Münasibətlərin həllində ancaq gücü vasitə kimi hesab edirlər. Beynəlxalq münasibətlər intizamının inkişafında və formalaşmasında mühüm rol oynayan realistlər gücə əsaslanan bir ideya irəli sürdülər. Realistlər beynəlxalq münasibətlərin güc mübarizəsi olduğunu iddia edir və sistemin fəaliyyətini güc anlayışı ilə əlaqələndirirlər. Morqentau tarix boyu güc, nüfuz əldə etmək səbəbindən dövlətlərin bir-birlərinə qarşı mübarizə apardıqlarını və xarici siyasətlərini qanun və hüquqla izah etməyə çalışdıqlarını söyləsə də, bu fakt yalnız dövlətlərin gücə söykənən siyasətlərini əsaslandırmağa çalışmaqdan başqa bir şey deyildi (Arıboğan, 2001: 89-91).

Realistlər güc anlayışını insan xarakteri ilə izah etmişlər. İnsanlar xas olduqları eqoist təbiətə uyğun olaraq daim ətrafına hakim olmaq üçün güc qazanmaq arzusundadır. Buna görə də müharibələr qaçılmazdır, çünki insan həmişə güc işlətməyə meyillidir. fərdlərdən ibarət dövlətlər insanlar kimidir. İnsanlar kimi dövlətlər arasında münasibətdə də güc əsas həlledici faktordur. Daim özlərini düşünürlər və gücə

sahib olmaq istəyərlər. Anarxik bir quruluşa sahib olan beynəlxalq sistemdə hər bir dövlət əvvəlcə təhlükəsizliyini təmin etməlidir və bunun üçün müəyyən ittifaqlarda iştirak etmək mümkün olsa da, yalnız öz milli gücünə əsaslanmalıdır. Realistlər gücün digər formalarını qəbul etmələrinə baxmayaraq, dövlətin beynəlxalq arenada nüfuz qazanması üçün hərbi və iqtisadi güc formasından istifadəni üstun tuturlar. Dövlətlərin mövcudluğunu və təhlükəsizliyini ən vacib faktor olaraq qəbul edən realistlər hərbi məsələlərin həll olunmasına mühüm önəm verirlər. Buna görə də nəzəriyyə tərəfdarları hərbi məsələləri, hərbi gücü “yüksək siyasət” (high politics), iqtisadi və digər sahələri isə aşağı siyasət (low politics) kimi adlandırırlar. Realistlərin fikrincə, hər bir dövlət öz gücünü maksimum dərəcədə artırmağı hədəfləyir. Bunu edərkən dövlətlər bir tərəfdən, öz gücünü artırır, digər tərəfdən başqalarının bu istiqamətdə irəliləməsinə mane olmağa çalışır. Bu kontekstdə, potensial düşmən dövlətlərin güclənməsinin qarşısını almaq üçün müharibəyə müraciət etmək qanuni sayılır. Realistlərə görə, haqlı və ya haqsız səbəblə başlamasına baxmayaraq müharibələr qaçılmazdır.Bir-birinin güclənməsinin qarşısını almaq üçün mübarizə aparan dövlətlərin aralarında güc balansının yaradılacağına inanılır. Onlar qeyd edirlər ki, beynəlxalq münasibətlərin təkrar olunan xarakterik xüsusiyyətləri, təhlükəsizlik və hakimiyyət uğrunda mübarizələr vaxtaşırı özünü göstərməkdə davam edəcəkdir. Qüvvələrin tarazlığı, anarxik bir quruluşa sahib olan beynəlxalq sistemin sabitləşməsində əsas element kimi qəbul edilir (Nye, 2004: 14-15).

Müəyyən zaman çərçivəsində beynəlxalq münasibətlərdə baş verən dəyişikliklər beynəlxalq aktorlar kimi realist nəzəriyyə daxilində fərqli görüşlərin meydana çıxmasına səbəb olmuşdur. Əsas məsələlərdə fikir birliyi olsa da, bəzi məsələlərdə fikir ayrılığı nəzəriyyəçilərin qruplaşmasının ortaya çıxmasına səbəb oldu. Nəzəriyyənin ilk ortaya çıxması kimi adlandırılan klassik realizmin tənqidləri ilə nəzəriyyə daxilində yeni qollar yarandı. 1970-ci illərdə zamanın tələbinə uyğun olaraq neorealizm və ya struktur realizm formalaşdı.Neorealizm klassik realizmin bir çox müddəalarını, xüsusilə beynəlxalq münasibətlərin aparıcı aktoru kimi dövlətin ön planda saxlanılması ideyasını qoruyub saxladı. 1979-cu ildə Kennet Volts, “Beynəlxalq Siyasət nəzəriyyəsi” (Theory of International Politics) ilə neorealizmin əsas prinsiplərini ortaya qoydu. Voltsun bu əsəri Hans Morqentaunun müəllifi olduğu “Millətlər arasında siyasət. Hakimiyyət və sülh uğrunda mübarizə” (“Politics among nations. The Struggle for Power and Peace”.) əsəri ilə oxşarlıq təşkil edir və onu əvəz etmişdir. Neorealizmin banisi kimi tanınan Volts insan təbiətinə əsaslanan dövlətlərin davranışlarını izah etməyə çalışan klassik anlayışa qarşı çıxdı. Onun sözlərinə görə, dövlətlərin siyasətini formalaşdıran anarxik bir quruluşa malik olan beynəlxalq sistemdir. Buna görə güc qazanmaq istəyi insan təbiətindən deyil, beynəlxalq sistemin quruluşundan yaranır. Çünki "güc dövlətlərin mövcud olması üçün, dövlətlərə həvalə olunmuş funksiyaları yerinə yetirmək imkanı verən bir vasitədir. Ümumiyyətlə, neorealistlərin güc anlayışına mövqeləri klassik realistlərdən fərqlənmişdir. Dövlətlərin sistemdəki digər iştirakçılardan müstəqil olaraq qərar qəbul edə biləcək dərəcədə gücə sahib olmalı olduğu düşünülür. Neorealistlər beynəlxalq sistemə müstəqil sahə kimi yanaşırlar, eyni zamanda bu sistemin bütün dövlətlərin fəaliyyətini müəyyən edən faktor kimi qəbul edirlər. Beynəlxalq sahənin anarxiya vəziyyətində olması dövlətlərə gücün artırılmasını bir tələb kimi üzərinə qoyur. Anarxiyalı mühit dövlətləri nizamlayır, yəni dövlətlər hər hansı funksiyadan öncə öz təhlükəsizliklərini qoruyurlar. Volts xüsusilə qeyd edir ki, dövlətlər beynəlxalq sistemi dəyişməyə qadir deyil (Simmons, 2012: 550-552).

Neorealizmə görə, realizmdə olduğu kimi, güc də dövlətlər üçün əldə ediləcək bir məqsəd deyil, məqsədə çatmaq üçün bir vasitədir. Daimi bir güc əldə etmək istəyi digər dövlətlərin narahatlığına səbəb olacaq və öz növbəsində silahlanaraq ittifaqlara qoşulmağa çalışacaqlar. Bu vəziyyətdə dövlətlərin narahat olması lazım olan əsas məqam güc almaq deyil, təhlükəsizliyi təmin etməkdir. Bir sözlə, realistlərin hədəf olaraq təyin etdikləri güc anlayışı neorealistlər tərəfindən bir vasitə kimi qəbul edilir və dövlətlərin son hədəfinin təhlükəsizlik olduğunu bildirir. Nəticədə, hər iki yanaşmanın gücünün beynəlxalq aləmdəki aktorlar üçün çox vacib olduğu aydın olur (Anıl, 2010: 47).

İdealizmin II Dünya müharibəsini qabaqcadan görə bilməməsi və ya qarşısını ala bilməməsi realizmin güclü bir nəzəriyyə kimi ortaya çıxmasına şərait yaratdığı kimi, realist və liberal nəzəriyyələrin "soyuq müharibə"nin bitməsini izah edə bilməməsi konstruktivizmin yaranmasına oxşar təsir göstərmişdir. Konstruktivist düşüncələrin tarixi daha qədim olsa da, 1990-cı illərdən etibarən beynəlxalq münasibətlərdə əhəmiyyətli və geniş yayılmış bir nəzəriyyəyə çevrildi. Bu nəzəriyyənin meydana çıxmasında Fridrix Kratoçvil, Nicholas Onuf və John Ruggie kimi mütəfəkkirlərin böyük töhfələri olmuşdur. Lakin nəzəriyyəni formalaşdıran əsas nəzəriyyəçi Alexan-

der Wendt ("Social Theory of International Politics", 1999) olmuşdur. Konstruktivizm 1980-ci illərin sonlarında inkişaf etməyə başlayan və 1990-cı illərin ortalarından etibarən təsirli olan nisbətən yeni bir nəzəriyyədir. Konstruktivist nəzəriyyə əsasən təkcə dünya nizamı deyil, eyni zamanda şəxsiyyət və maraqları daim dəyişən bir quruluşa sahibdir. Konstruktivizm termin olaraq ilk dəfə onun tərəfindən istifadə olunmuşdur (Lewis, 2017: 301-302).

## NƏTİCƏ

Konstruktivizm beynəlxalq münasibətlər nəzəriyyəsində üç əsas debatın sonuncusu olan pozitivist nəzəriyyələrin və post-pozitivist nəzəriyyələrin müzakirələrinin davamı kimi təsvir edilmişdir.Bir çox cəhətdən beynəlxalq münasibətlərin əsas cərəyanlarından fərqlənən konstruktivizmin əsas fərqləndirici cəhəti beynəlxalq münasibətlərin sosial tərəfini vurğulamasıdır. Konstruktiv nəzəriyyənin maraq anlayışı real nəzəriyyələrdən fərqlənir. Konstruktiv məktəbi qəbul edən nəzəriyyəçilər, maraqları maddi güc ilə eyniləşdirən realizmdən fərqli olaraq, fikir və inancla əlaqəli olduğunu bildirirlər.Neorealistlərdə olduğu kimi beynəlxalq münasibətlər sistemini bir quruluş kimi qəbul etsələr də, bu quruluşun insan fəaliyyətinin nəticəsi olduğunu qeyd edirlər. Nəzəriyyəçilərə görə dövlətlərin güc siyasəti və öz təhlükəsizliklərini təmin etmək kimi ideyalar anarxiyadan dolayı meydana çıxmamışdır.Konstruktivistlər beynəlxalq münasibətlərin sosial tərəflərini cəmləşdirirlər, lakin maddi elementlərin mövcudluğuna məhəl qoymurlar. Gücü meydana gətirən maddi elementlər, müəyyən edilmiş maraqlara uyğun istifadə olunarsa, bir məna daşıyır. Dövlətlərin güc anlayışına yanaşmaları da gücü necə qəbul etmələri ilə bağlıdır. Fərqli aktorlar eyni fərqli qavrayışlara sahib ola bilərlər. Məsələn, müəyyən bir ölkənin davranışı başqaları üçün təhlükə kimi görünsə də, başqa bir qrup dövlət tərəfindən müsbət görülə bilər. Dövlətin davranışını faydalı hesab edən digər aktorlar da güc axtarışında olan dövlətlə əməkdaşlıq etməyi məqsədəuyğun hesab edə bilərlər. Bu səbəbdən də gücə sahib olmaq istəyi realistlərin qeyd etdiyi kimi, hər zaman qarşıdurmaya deyil, bəzən hətta əməkdaşlığa səbəb ola bilər.

Konstruktivist yanaşma, realizm və neorealist nəzəriyyənin güc anlayışının vasitə, yoxsa məqsəd olub-olmadığı ilə bağlı fikir ayrılığından daha çox, nə vaxt və hansı kontekstdə gücə fikir verilməli olduğu ilə maraqlanırdı.Konstruktivist nəzəriyyəsinə görə bir vasitə və ya məqsəd olaraq gücün vəziyyəti maraqların bölüşdürülməsi ilə əlaqədardır. Bu fikrə əsasən, güc elementləri maraqlara görə həm zəif, həm də üstünlük ola bilər. Məsələn, güc və ya onun hər hansı formaları dövlətin coğrafi xüsusiyyətlərinə, aktorun maraqlarına üstünlüklər qazandıra, eləcə də, zəiflik yarada bilər. Bu nəzəriyyə əsasən fərd anlayışını xüsusi vurğulayır, aktorlar və quruluşlar arasında qarşılıqlı əlaqələrin mövcudluğunu təhlil edirlər. Dövlətlərin davranışlarını təyin edən maraqların konkret və obyektiv olmadığını bildirirlər. Şəxsiyyət və düşüncə ilə formalaşan maraq anlayışına uyğun olaraq istifadə olunan güc bu mənada obyektiv xüsusiyyətə malik deyil və fərqli münasibətlərdə fərqli şəkildə ortaya çıxır.

Beynəlxalq münasibətlərin hər bir aktorunun müəyyən bir məqsədi var. Bu, beynəlxalq aləmdə fəal olan aktorlara da aiddir. Məqsədlərə çatmaq üçün aktorlar ən uyğun alternativ vasitələr seçir və məqsədlərinə çatmaq üçün səy göstərirlər.Seçilən vasitənin keyfiyyəti aktor və hədəfin xarakteri, həmçinin ətraf mühit, ətraf mühiti təşkil edən aktorların qavrayışı və istifadə olunan vasitənin dəyəri ilə əlaqələndirilə bilər. Beynəlxalq mühitdə ən tez-tez istifadə olunan və ən uzun müddət tətbiq olunan güc hərbi təcrübə və məcburedici iqtisadi tədbirləri əhatə edən sərt gücdür. Bununla birlikdə, məqsədə çatmaq üçün istifadə olunan hər hansı bir vasitə kimi, sərt güc də aktorun yerləşdiyi sistemi, sistemi təşkil edən digər aktorların qəbulu və xərclərini nəzərə alaraq qiymətləndirilir. Bu təhlil edildikdə, beynəlxalq mühitin artıq sərt gücdən istifadə üçün uyğun olmadığı, sərt gücdən istifadə edən aktorun qanuni problemlərlə üzləşdiyi və bundan əlavə sərt gücün baha başa gəldiyi qənaətinə gəlmək olar. Güc anlayışı təsir anlayışı ilə sıx bağlılıq təşkil edir. Bu anlayışların bəzən bir-birini əvəzlədiyindən görmək olur.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Abbasbəyli A.N, Nəcəfov Etibar.Beynəlxalq münasibətlər nəzəriyyəsi.Bakı: "Mütərcim", 2007, 208 s.*

*2. Александр Н.О."Мягкая сила" и "умная сила".Россиu :"Эксмо – АСТ", 2016, 179 с.*

*3. Лебедева М.М. «МЯГКАЯ СИЛА»: ПОНЯТИЕ И ПОДХОДЫ. Россиu."Вестник МГИМО-Университета", 2017, 285 с.*

*4. Gallarotti G. M. Soft Power: What It Is, Why It's Important, and The Conditions For Its Effective Use. London: " Journal of Political Power", 2011, 52 p.*

*5. Lennon, Alexander T. J.The Battle for Hearts and Minds: Using Soft Power to Undermine Terrorist Networks. Cambridge: "MIT Press", 2003, 352 p.*

*6. Mearsheimer John. J.The Tragedy of Great*

*Power Politics. New York: "Norton", 2001, 160p.*

*7. Molloy Sean. The Hidden History Of Realism, A Genealogy Of Power Politics. New York: "Palgrave Macmillan", 2006, 187 p.*

*8. Nye J.S. Soft Power The Means to Succes in World Politics. Newyork: "Public Affairs" , 2004, 28 p.*

*9. Pallaver Matteo.Power and Its Forms: Hard, Soft, Smart.London: "TheLondon School of Economics and Political Science", 2011, 147 p.*

*10. Simmons BA, Carlsnaes W, Risse T ed. Handbook of International Relations.London: "Sage Publications", 2012, 902 p.*

*11. Anıl Yaşar Şahin. Niccolo Machiavelli.İstanbul: "Kastaş Yayınları", 2010, 280 s.*

*12. Arı T. Uluslararası İlişkiler ve Dış Politika. Bursa: "Marmara Kitap Merkezi", 2008, 663 s.*

*13. Arıboğan D.Ü. Globalleşme Senaryosunun Aktörleri Uluslararası İlişkilerde Güç Mücadelesi. İstanbul: "Der Yayınevi", 2001, 285 s.*

*14. Lewis B.M. İnanç ve İktidar: Orta Doğu'da Din ve Siyaset / çev. H.H.Güldü. İslanbul: Akılçelen Kitaplar, 2017, 256 s.*

*15. Lewis B.M. Ortadoğu, İki Bin Yıllık Ortadoğu Tarihi/ çev. S.Y.Kölay. Ankara: Arkadaş Yayınları, 2017, 560 s.*

## XÜLASƏ

Dövlətlərin siyasi məqsədlərinə çatmaq üçün bir vasitə kimi istifadə etdiyi güc anlayışı müxtəlif ünsürlərdən ibarətdir. Fərqli ünsürləri olan güc, xüsusən də beynəlxalq təşkilatların tərkibində mövcud olan yumşaq güc bir çox araşdırmanın mövzusudur. Bu tədqiqatlardan bəziləri güc anlayışının mənasını açıqlamağa çalışır, digərləri anlayışı nəzəri bir çərçivədə araşdırır. Beynəlxalq münasibətlərin dərk edilməsində çox vacib bir yer tutan güc anlayışını beynəlxalq münasibətlərin hər bir nəzəriyyəsi fərqli aspektdən araşdırır.

**Açar sözlər:** *Beynəlxalq münasibətlər, nəzəriyyə, güc, xarici siyasət, yumşaq güc, dövlət, beynəlxalq aktor, sərt güc, təhlil, siyasət*

## ТЕОРЕТИЧЕСКИЙ ПОДХОД К КОНЦЕПЦИИ МЯГКОЙ СИЛЫ В МЕЖДУНАРОДНОЙ СФЕРЕ
## РЕЗЮМЕ

Концепция силы, используемая государствами как инструмент для достижения своих политических целей, состоит из различных элементов. Власть с различными элементами, особенно мягкая сила, существующая в рамках международных организаций, является предметом многих исследований. Некоторые из этих исследований пытаются объяснить значение концепции власти, в то время как другие рассматривают эту концепцию в теоретической основе. Каждая теория международных отношений рассматривает концепцию силы, которая играет очень важную роль в понимании международных отношений, с разных точек зрения.

**Ключевые слова:** *международные отношения, теория, сила, внешняя политика, мягкая сила, государство, международный субъект, жесткая сила, анализ, политика.*

## A THEORETICAL APPROACH TO THE CONCEPT OF SOFT POWER IN THE INTERNATIONAL SPHERE
## SUMMARY

The concept of power used by states as a tool to achieve their political goals consists of various elements. Power with different elements, especially the soft power that exists within international organizations, is the subject of many studies. Some of these studies try to explain the meaning of the concept of power, while others examine the concept in a theoretical framework. Each theory of international relations examines the concept of power, which plays a very important role in understanding international relations, from a different perspective.

**Keywords:** *international relations, theory, power, foreign policy, soft power, state, international actor, hard power, analysis, politics.*

УДК 341

# INTERNATIONAL LAW QUESTION OF CHILD ABDUCTION

*ORCID: https://orcid.org/0000-0002-2364-8438*

**YUSIF MAMMADOV**
*Kiev, Ukraine, postgraduate student, Department of International Law, Kyiv Institute of International Relations*

*E-mail: mamedovyusif884@gmail.com*

**Summary**

The 1980 Convention on International Child Abduction was developed to ensure international cooperation for immediate return of a child illegally removed from his/her country of habitual residence due to family problems of this kind to his/her country of habitual residence. The purpose of the treaty is to ensure the return of a child to his/her habitual residence in a manner that is in the child's supreme interests and by examining the circumstances of each individual case in detail. There are certain concepts in the treaty, and our article will focus on the content of these concepts. In addition, there will be presented local and international examples of the judgements in accordance with the obligations of the states parties to the Convention, and it will be shown how these concepts are interpreted within the framework of the 1980 Hague Convention on the Civil Aspects of International Child Abduction. An assessment of the approach of the European Court of Human Rights on this issue will be made in the light of the relevant clarifications.

## Purpose of the Convention

Though the purpose of the 1980 Hague Convention on the Civil Aspects of International Child Abduction is clearly stated in Article 1 of the Convention, other articles also provide details of the purpose supposed. Looking at the issue from the point of view of domestic law, the purpose of the treaty is expressed as protecting a child from the harmful effects of illegal relocation and guaranteeing his/her return to the state of his/her habitual residence.

When we look at Article 1, the 1980 Hague Convention on the Civil Aspects of International Child Abduction, and other articles that provide details about the purpose, concepts that need to be explained in order to understand the purpose, then the resettlement which should be considered illegal, the scope of protection and visitation rights, and the time it takes to secure a return in accordance with the treaty may be indicated as being in the child's supreme interests. Article 3 of the Convention states that in order for removal or failure to return a child to be considered illegal removal, such removal must take place as a violation of the right to individual or joint protection granted to a person or institution by the laws of the state. Thus, prior to removal of a child from the country of habitual residence to other country, custody of the child must be transferred to a parent or a third party other than a parent, either alone or jointly. With a decision taken by the laws of the state or a judicial and administrative authority, and this person or institution which the child was left in is taken to another contracting country against their consent, is considered an illegal removal within the meaning of the treaty.

## DIFFERENT JUDGEMENTS OF ECTHR ON POSITIVE OBLIGATIONS OF STATES

Appeals to the European Court of Human Rights under the 1980 Hague Convention usually involve allegations of violations of the ECHR Article 8. Since the Hague Convention is characterized as a legal aid treaty, states must stand in solidarity, cooperate and ensure the return of children in accordance with the Convention. As a result, based on the principle of "joint interpretation of international treaties", which the ECHR has identified as a general principle, they encourage each other to ensure the prompt return of children to their places of habitual residence for interpretation of the ECHR Article 8 in the light of the Hague Convention and for States to implement the return procedure properly.

Ignaccolo, the first ECtHR Judgment on international child abduction, 25.01.2000 - Zenid V. In the case of the Romanian case, the applicant mother, who is a French national, divorced her husband by decision of a French court in 1989. The custody of the children remained with the mother, while the father was given the right to establish personal relationships with the children. The children spent the summer of 1990 with their father, who was a Romanian national but lived in England. While the

children were supposed to return to their mothers at the end of summer vacation, the father smuggled the children first to the US and then to Romania. In December 1994, a Romanian court, taking into account the decision of a French court, ruled that the father had detained the children in violation of this right of their mother, in whose custody the children were, and that the children should return to their mother's home. However, until January 29, 1997, the case was pending before the ECtHR, and it alleged that the Romanian administrative authorities did not comply with the court decision and the children were not returned. The applicant mother argued that the Romanian administrative authorities had not complied with the court's decision to return the children immediately and had not facilitated the return of the children. The ECtHR also ruled in line with the applicant's allegations, stating that the Romanian administrative authorities were insufficient to take the measures provided for in Article 7, the Hague Convention, and decided that the ECHR Article 8, which guarantees the right to respect for family life, had been violated in the specific case. A similar judgement was on the issue daIglesiasGill and A.U.I. in Spanish case. The applicant argued that the Spanish administrative authorities had not initiated extradition proceedings in accordance with the court decisions regarding the custody of the common children, whom their father had taken to the United States of America. In particular, the applicant argued that the authorities had taken no action in respect of the kidnapping complaint. In its decision, the Court stated that the Spanish administrative authorities were unable to take steps to return the child and that the right to respect for family life had been violated. Although the Court noted in its judgment that the authorities had mentioned that appropriate measures under the relevant provisions of the Hague Convention of 25 October 1980 had been taken to secure the return of the child to his mother, the decisions taken in favor of the applicant.

The Court stated that it had concluded that his rights had been violated because no steps had been taken to ensure their implementation. In other words, the situation cited as a justification for violation of rights was expressed in the failure of the Spanish authorities to fulfill their obligations to enforce court decisions. Maer V. The judgement of Portugal is also one of the decisions that should be mentioned in the context of the positive obligations of the participating States, and the applicant father stated that the decision of the French court regarding the custody of the child taken to Portugal by his mother was not implemented by the Portuguese authorities. On the other hand, the ECtHR has emphasized the need for speedy proceedings to avoid irreparable harm based on the parent-child relationship at the time of the child's return.

## TIME OF CHILD'S RETURN IN ACCORDANCE WITH THE CONVENTION

It was stated in the previous heading that in order to define the child's removal as illegal removal, in order to clearly demonstrate the purpose of the Convention, the child or institution must be taken to a place other than his or her habitual place of residence, in violation of that right of the person or institution that has the right to protection or visitation. In addition, a person who can request the return of a child must have this right before the child's place is unlawfully changed. The effective date of the treaty, the age of the child, and the time between the date of wrongful abduction or detention and the date of appeal to the relevant units should be considered separately, and it would be more appropriate to explain the results of the extradition in terms of time on the axis of this difference. The Hague Convention on the Civil Aspects of International Child Abduction was completed on 25 October 1980 and entered into force on 1 December 1983 in the states parties. According to many legislations, the European Convention on Human Rights is secondary and additional. Therefore, the main task of providing persons with the rights guaranteed by the Convention lies with the states parties to the European Convention on Human Rights. The same can be said about the 1980 Hague Convention. The states have an obligation to take action under their domestic law within the treaties to which they are parties, and this obligation is taken into account when the European Court of Human Rights assesses the applications.

The issue of the child's age is an important issue both in terms of the child's supreme interests and in terms of the extradition procedure functioning. The main purpose of the Convention is to ensure that children habitually resident in one of the Contracting States and under the age of sixteen are returned to their places of habitual residence which they were

illegally removed from.

The determining factor in defining the supreme interests in a particular case, the need to protect the child's connection with his family, and the fact that the return to the habitual place of residence does not cause physical or psychological harm to the child, must be taken into account in assessing the interest. However, for the Convention to be applicable, the controversial question arises as to whether the age of the abducted child at the time of his illegal removal or the age at which the request for extradition was made to the relevant authorities should be taken into account. Likewise, it is not clear from the wording of the article whether the child will be out of the scope of the treaty when he turns sixteen. At this point, the general consensus in doctrine is that it is sufficient for a child to be under the age of sixteen prior to his unlawful removal or detention. The arguments of those who support this view are that when a child begins to reach the age of sixteen, while the extradition procedure is ongoing, it is possible that the relevant provisions of the treaty cannot be enforced and that there may be serious problems in terms of ensuring the child's supreme interests. To ensure unity in practice, the opinion of the Commission that drafted the Treaty is important here. When considering the Explanatory Report (to the 1980 Hague Convention) prepared by Elisa Perez, it becomes clear that the members of the Commission who prepared the Convention consider that the Convention cannot be applied if the child was abducted before he was sixteen, and then turns sixteen while the extradition proceedings are pending.

Finally, it is important to mention Article 38 under the Implementation of the Convention in Terms of Time heading. Under Article 38, any State may become a party to the Convention. The Convention shall enter into force for the acceding State on the first day of the third month following the deposit of the instrument of accession. Accession is valid only as between a State Party and the participating States which have declared that they had consented to such accession. As between the acceding State and the State which has declared its consent to such accession, the Convention shall enter into force on the first day of the third month following the deposit of the declaration of acceptance.

## CONCLUSION AND ASSESSMENT

Cases of international child abduction occur especially in dissolution of marriages with foreign elements. Therefore, the concept of child abduction is associated with conflicts arising from private law relations, and not from criminal law, and which can be called the core of society, for example, the family.

The 1980 Hague Convention on the Civil Aspects of International Child Abduction aims at the speedy return of an illegally displaced child to his habitual residence in the event of dissolution of marriages with foreign elements. However, the return of a child to the country of habitual residence is not always in the child's supreme interests.

Situations which the child's supreme interests may be prejudiced in are included in the relevant articles of the Convention. Very important obligations are placed on States Parties particularly in the context of the situations described in these articles. These obligations may include the healthy functioning of the return procedure, absence of physical and psychological harm to the child, continued communication with other family members besides the parent entitled to protection, and follow-up of the child. States Parties must be aware of their responsibility in view of the different circumstances of each individual case and the special nature of each child.

The issue that the European Court of Human Rights takes into account in cases of international child abduction is whether the administrative and judicial authorities act quickly to return the child.

It can be said that the ECtHR interprets the slow progress of the return process as a failure by the parties to fulfill their obligations, since the sooner the child is returned to his habitual place of residence, the less harm will be caused to the child. Violation of this obligation is considered a violation of Article 8, the European Convention on Human Rights, which guarantees respect for private and family life. When considering the judgements of the European Court of Human Rights, we can come to the conclusion that the child's biological father may also have the right to protection of the child and that this cannot be the only ground for returning the child to his mother. Moreover, a parent who is denied the right to establish a personal relationship with the child is deprived of the right to comply with the requirements of the Convention. In cases where there is a complaint, we see that the European Court of Human Rights

interprets this situation as a violation of Article 6, the European Convention on Human Rights, which guarantees the right to a fair trial. Taking into account the child's supreme interests and age, hearing the child in court will make a positive contribution to the return process - this is another issue specifically stated in the judgements. In conclusion, child abduction cases, which are of international concern and need to be dealt with in detail, give the 1980 Hague Convention a legal aid treaty. Because of this particularity, each specific event considered under the Convention must be interpreted in such a way as to serve the child's supreme interests, and international cooperation must be effectively ensured.

## REFERENCES:


*1. Yargıtay 2. HukukDairesi'ninkonuylailgilikararlarındanörnekleriçinbkz.: E.2008/18187, K.2009/6203, K.T: 02.04.2009; E.2003/12955, K.2004/1355, K.T:10.02.2004; E.2010/17354, K.2011/6395, K.T: 11.04.2011 (Çevrimiçi) http://www.kazanci.com/kho2/ibb/giris.htm 14.04.2018.*

*2. ECHR Article 8: Right to respect for private and family life:*

*3.(Çevrimiçi) https://www.echr.coe.int/Documents/FS_Child_abductions_ENG.pdf 16.04.2018*

*4.(Çevrimiçi) https://www.echr.coe.int/Documents/FS_Child_abductions_ENG.pdf 17.04.2018.*

*5. Article 35: The Convention only treats abductions or abductions between States parties after its entry into force. applies to cases of unlawful non-return.*

*6. Giray, A.g.e., s.32*

*7. Elisa Pérez-Vera, Explanatory Report Translation Of The Permanent Bureau, s.450, paragraf 77.*


## ABSTRACT:


This article gives a provisional research and partition of legal prospects of international child abduction. In the framework of the 1980 Convention on the Civil Aspects of The International Child Abduction which was prepared on the basis of the work of a special commission created by the Permanent Bureau of La Haye, it was aimed to resolve the disputes that would arise if the marriages bearing foreign elements were terminated. The aim of the Convention is to ensure the immediate return of the child who has been abducted or otherwise illegally abducted from the habitual residence country. However, it is necessary to serve the child's supreme interests and to take place as soon as possible. This situation brings important obligations to the contracting States. In the context of these obligations, both domestic and international decisions will be tried to show what we should understand from the concept of international child abduction.


**Keywords:** *International Child Abduction, International Law, Permanent Bureau Of La Haye.*

## XÜLASƏ


Bu məqalədə uşaqların beynəlxalq aləmdə oğurlanması perspektivlərinin ilkin araşdırılması və təhlili verilir. La Haye Daimi Bürosu tərəfindən yaradılmış xüsusi komissiyanın işi əsasında hazırlanmış Uşaqların Beynəlxalq oğurlanmasının Mülki aspektləri haqqında 1980-ci il Konvensiyası çərçivəsində o, xarici elementlərdən ibarət nikahların pozulması halında yarana biləcək mübahisələrin həllinə yönəldilmişdir. Konvensiyanın məqsədi uşağın dərhal geri qaytarılmasını təmin etməkdir, hansı ki, adi yaşayış yerindən qaçırılmış və ya başqa şəkildə qanunsuz olaraq qaçırılmışdır. Ancaq bu, uşağın Ali maraqlarına xidmət etmək və mümkün qədər tez baş vermək üçün lazımdır. Bu vəziyyət Razılığa gələn dövlətlərə mühüm öhdəliklər qoyur. Bu öhdəliklər kontekstində həm daxili, həm də beynəlxalq qərarlar qəbul ediləcək ki, biz Uşaqların Beynəlxalq oğurluğu konsepsiyası altında anlamalıyıq.


**Açar sözlər:** *Beynəlxalq Uşaq Qaçırma, Beynəlxalq Hüquq, La Haye Daimi Bürosu.*

UOT 321:001.11

# MODERN DƏYİŞİKLİKLƏR FONUNDA SİYASİ İNSTİTUTLARIN İNSAN İNKİŞAFINA TƏSİRİ

**YUSİF MİKAYIL**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı*
*E-mail: mikayil.yusif1@gmail.com*

## Giriş

İnsan inkişafı mötəbər tədqiqat obyekti olsa da, bu fenomenin struktur səviyyəli səbəblərinə ciddi diqqət yetirilməmişdir. Digər yandan iqtisadiyyatın rifah səviyyəsinin yüksəlməsi insan inkişafına nail olunmasında ən əhəmiyyətli faktorlardan biridir ki, bu reallığı da bir çox elmi tədqiqatlar sübut etmişdir. Buna rəğmən, iqtisadi artımı insan inkişafında tək səbəb kimi qəbul etmək doğru olmaz. Bir qədər daha dərindən araşdırdığımızda, çox aydın şəkildə görə bilərik ki, iqtisadi inkişaf səviyyələri yaxın və ya eyni olan ölkələrdə insan inkişafı səviyyəsi tamamilə fərqli tərzdə reallaşır. Elə buna görədir ki, dünyadakı yoxsul təbəqənin həyat şəraitinə təsir edə biləcək digər faktorları nəzərə almaq üçün bu mövzu üzrə araşdırmanın əhatə dairəsini daha da genişləndirməyimiz tələb olunur [4; 7, s.2]. Bir çox tədqiqatçılar siyasi institutlar və onların insan inkişafına təsirlərini araşdıraraq siyasi və iqtisadi elmi ədəbiyyata misilsiz əlavələr etmişlər. Birinci növbədə, müəlliflər avtokratik siyasi rejimlərlə müqayisə olunduqda demokratik sistemlərin nəyə görə və hansı şəraitdə resursların bölüşdürülməsində daha yaxşı çıxış etdiyini tədqiq etmişlər. Cəmiyyət üzvlərinin ehtiyaclarına müvafiq şəkildə tənzimlənən yenidən bölüşdürmə məsələlərinə əsasən, demokratik mühitlər insan inkişafın nail olunmasında daha yüksək səviyyəyə çatmışdır [13, s.24].

Bu məqalənin məqsədi siyasi institutlar və insan inkişafı arasında qarşılıqlı əlaqəni araşdırmaqdır. Bu əlaqələr çox mürəkkəb və çoxşaxəlidir, çünki insan inkişafı özlüyündə çoxölçülü anlayışdır. Buna görə də, bu məqalə bütün əlaqələr şəbəkəsini və əlaqəli məsələləri araşdıra bilməsə də, diqqətəlayiq bir çox nüansı və bəzi kritik aspektləri nəzərdən keçirir.

## Modernləşmə prosesləri fonunda siyasi institutların ümumi xarakteristikası

Siyasi institutlar insan tərəfindən idarə olunduğundan mükəmməl struktura malik deyil. Çünki insanın özü mükəmməllikdən uzaq bir varlıqdır. Bununla belə, siyasi institutlar vətəndaş cəmiyyətinin hüdudları daxilində insan inkişafının qorunub saxlanılmasında və sürətlənməsində olduqca əhəmiyyətli mövqedə yer alır. İnsan inkişafı insanların azadlıq və imkanlarının genişləndirilməsi və təkmilləşdirilməsi prosesi kimi müəyyən edilə bilər. İnsan inkişafı sadəcə insanların yaşadığı iqtisadiyyatın zənginliyini deyil, insan həyatının zənginliyini genişləndirməkdən ibarətdir [12, s.6].

Siyasi institutlar sosial, iqtisadi və siyasi həyatın təşkilində bilavasitə iştirak etdikləri üçün maraqlı araşdırma mövzusudur. Siyasi iqtisatda, demək olar ki, əksər nəzəri və empirik araşdırmalar siyasi institutların yerləşdikdən sonra davamlı olması və müxtəlif qrupların siyasi-iqtisadi qarşılıqlı əlaqələrini yaratması ehtimalı ilə başlayır. Buna rəğmən, bir çox cəmiyyətlər öz siyasi institutlarını tez-tez dəyişikliklərə məruz qoyurlar. Məsələn, Latın Amerikası ölkələrinin əksəriyyəti XIX əsrin ilk 20 ilində ispan müstəmləkəçiliyindən qurtulmuş, konstitusiyalar yazmış və respublikalara çevrilmişdir. 20-ci əsrdə eyni ölkələr diktatura və demokratiya arasında bir neçə dəfə keçid yaşadılar. Siyasi institutlardakı bu mühüm dəyişikliklərin bəziləri iqtisadi institutlarda və iqtisadi nəticələrdə müvafiq dəyişikliklərə gətirib çıxardı [6].

Siyasi institutlar dəyişməsinə qarşılıq iqtisadi institutların müxtəlif zaman və rejimlərdə mövcud ola bilməsidir. ABŞ-ın cənubunun tarixi nümunəsi bu nəticəni aydın şəkildə göstərir. Vətəndaş Müharibəsinin sonunda keçmiş qullara hüquqların verilməsinə və köləliyin ləğv olunmasına rəğmən, cənub ştatları böyük plantasiyalara, aşağı maaşlı təhsilsiz əməyə və işçi repressiyalarına əsaslanan Vətəndaş Müharibəsindən əvvəlki kənd təsərrüfatı sistemini 20-ci yüzilliyin ortalarına qədər qoruyub saxladı [6]. Bu ştatlarda əmək repressiyasının səngiməməsi siyasi institutlardakı dəyişikliklərə uyğun gəlir ki, bu da, onlar faktiki hakimiyyətin reallaşdırılması ilə xarakterizə olunurdu; köləlik monopsonist razılaşmalarla, işçilərin hərəkətliliyinə mane olmaq üçün hazırlanmış siyasətlər, siyasi hüquqlardan məhrumetmə, qorxutma, zorakılıq və linçlə əvəz olundu.

**İnkişaf fenomeni. İnsan inkişafı**

Hər kəsə məlumdur ki, inkişaf çox əhatəli və geniş anlayışdır. Ümumi götürüldükdə inkişaf hər bir fərdin individual imkanlarından asılı olaraq dəyişən bir qavramdır. İnsanların müxtəlif qabiliyyət və bacarıqları fərdi üstünlüklərinə müvafiq olaraq layiqli həyat səviyyələrini təyin etmək azadlıqlarını müəyyən edir. İnsan inkişafı insanların azadlıq və imkanlarının genişləndirilməsi və təkmilləşdirilməsi prosesi kimi müəyyən edilə bilər. Bu yanaşma "insan inkişafı"nın plüralist və inteqrativ konsepsiyasının əsasının qoyulmasına və BMT İnkişaf Proqramının İnsan İnkişafı İndeksi şəklində fəaliyyətə başlamasına yol açdı. İnsanların həyatlarını istəklərinə uyğun qurmaq imkanı verən təkcə gəlir deyil, həm də sağlamlıq və təhsildir.

İnsan inkişafı fenomeninin kökləri qədim fəlsəfə və erkən iqtisadi nəzəriyyəyə qədər gedib çıxır. Aristotelə görə, "Sərvət, sadəcə olaraq bizim axtarışında olduğumuz əmtəəyə nail olmaq deyil, çünki o, başqa bir şey üçün də böyük faydaya malik ola bilər". İnsanın bacarıq və qabiliyyətləri Adam Smit və Karl Marksın da maraq dairəsində olmuşdur. İnsan İnkişafı Nəzəriyyəsi ötən əsrin 80-ci illərində Amartya Senin tədqiqat əsəri ilə və onun 1998-ci ildə İqtisadiyyat üzrə Nobel mükafatını almasında rol oynayan İnsan İmkanları perspektivi ilə əhəmiyyətini artırdı. İnsan inkişafı nəzəriyyəsinin müasir konsepsiyasını formalaşdıran görkəmli erkən fəal iqtisadçılar Mahbub ul Haq, Üner Kirdar və Amartya Sendir. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) üçün hazırlanmış İnsan İnkişafı İndeksi bu ilk araşdırmanın əsasında ictimaiyyətə təqdim olunub [2, s.2037].

İnsan inkişafı, əsas qabiliyyət və bacarıq qavramı olmaqla, insan vəziyyətinin öyrənilməsini əhatə edir. Bərabərsizliyə müvafiq gələn İnsan İnkişafı İndeksi Birləşmiş Millətlər Təşkilatı tərəfindən insan inkişafında faktiki tərəqqinin ölçülməsi metodu kimi istifadə olunur. Bu, əvvəldə də müzakirə etdiyimiz kimi iqtisadi artıma vahid diqqətin alternativ yanaşmasıdır və nail olunan rifah səviyyəsinin dərk edilməsi yolu kimi daha çox sosial ədalət prinsipinə fokuslanır.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı insan inkişafını "insanların seçimlərinin genişləndirilməsi prosesi" kimi müəyyən edir. Sözügedən seçimlər fərdlərə "uzun və sağlam həyat sürməyə, təhsil almağa, layiqli həyat səviyyəsindən istifadə etməyə", habelə "siyasi azadlıq" , "digər təminatlı insan hüquqları və özünə hörmətin müxtəlif komponentləri"nə nail olmağa kömək edir. Beləliklə, insan inkişafı yalnız insanların seçim imkanlarını genişləndirməyi nəzərdə tutan iqtisadi artımdan daha geniş məna kəsb etməkdədir. Bu seçimləri daha da genişləndirməkdən ötrü ən əsas meyar insan bacarıqlarının – insanların edə biləcəyi və ya həyatda ola biləcəyi şeylər – daha geniş spektrdə strukturlaşdırılmasıdır. Qabiliyyətlər "[insan] dəyər verdikləri həyat tərzini sürmək üçün istifadə etdiyi maddi azadlıqlardır" [8, s.2].

**Siyasi institutların insan inkişafında rolu**

Heç kəsə sirr deyildir ki, siyasətlər və ayrı-ayrı siyasi tədbirlər siyasi institutları əks etdirirlər. Buna görə də, müəlliflər insan inkişafı üçün əlverişli ola biləcək əsas iki siyasət növü arasında fərq qoyurlar: a) mülkiyyət hüquqlarının qorunması siyasəti; b) mülkiyyət hüquqlarının yenidən bölüşdürülməsi siyasəti. Mülkiyyət hüquqlarının müdafiəsi siyasəti iqtisadi investisiyaları təşviq edir və iqtisadi inkişafa və iqtisadi artıma töhfə verir. Artım, müəyyən şərtlər altında yoxsulluğu azaltmaqla əhalinin rifahını yüksəltmək üçün nəzərdə tutulur.

Yenidən bölüşdürmə siyasətinin cəmiyyətdə sərvətin bölüşdürülməsinə ekvivalent təsiri vardır. Cəmiyyət və vətəndaşların ehtiyaclarının adekvat şəkildə yenidən bölüşdürülməsi siyasəti, mal və xidmətlərin müvafiq dövlət təminatı ilə uyğunlaşdırılması siyasi institutlar ilə insan inkişafı arasında birbaşa əlaqələrin yaranmasına gətirib çıxardır.

Öncə də qeyd edildiyi kimi, siyasi institutlar və insan inkişafı arasında müsbət korrelyasiya olduğu fərziyyəsi irəli sürülür. İlk növbədə qeyd etmək lazımdır ki, siyasi institutların gücü birbaşa hakimiyyət bölgüsündə öz əksini tapır [4]. Həqiqətən də, hökumətin səlahiyyətləri ayrı, lakin bərabər olduqda, bu, nəzarət və tarazlıq konsepsiyasını gücləndirir ki, bu da öz növbəsində heç bir hakimiyyət qolunun hökumətin digər hissələrini əvəz edə bilməyəcəyi qənaətinə gəlməyə bizə kömək edir. Güclərin bölünməsi praktikası ən çox ABŞ, Böyük Britaniya, Norveç, İsveç və Almaniya kimi inkişaf etmiş iqtisadiyyatlarda özünü göstərir [13, s.33].

Hakimiyyət bölgüsü doktrinası qanunun aliliyi prinsipi ilə tətbiq olunur. Qanunun aliliyi iki funksiyanı yerinə yetirdiyi üçün yaxşı idarəetmənin əsas və əvəzedilməz elementidir. Birincisi, bütün vətəndaşların qanun qarşısında bərabər olmasına təminat

verir. İkincisi, insanların hüquq və azadlıqlarının qorunmasını təmin edir [1; 5; 9]. Qanunun aliliyi lazımi qaydada həyata keçirildikdə, hakimiyyət bölgüsü effektiv olur və siyasi institutlar fərdlərin iqtisadi resurslara daxil ola biləcəyi və fundamental hüquqlarının təmin oluna biləcəyi bir kanal kimi daha etibarlı olur [10, s.868].

Hökumətin səlahiyyətləri əhəmiyyətli dərəcədə genişləndikdə siyasi institutlar insan inkişafı qarşısında məsuliyyət daşımağa başlayırlar. Belə olan halda insanların azadlıq və hüquqları məhdudlaşdırılır və hökumət korrupsiyanı gücləndirmək üçün öz məcburiyyət səlahiyyətlərindən istifadə edir [3, s.1435]. Nəticə etibarı ilə, geniş və mərkəzləşdirilmiş hökumətə malik cəmiyyətlərin əksəriyyəti, hökumət səlahiyyətləri məhdud və qanunla tənzimlənən cəmiyyətlərdən daha aşağı həyat keyfiyyəti ilə iqtisadi cəhətdən daha yoxsuldur, çünki geniş və mərkəzləşdirilmiş hökumət insanların imkanları və seçimləri üzərində bir sıra limitlər qoyur. İnsanların azadlığına qoyulan bu məhdudiyyət isə onların rifahını təmin edə bilmir [10].

Siyasi azadlıq siyasi institutların yaxşı fəaliyyət göstərməsi üçün ən zəruri şərtlərdən biri hesab olunur. Nobel mükafatı laureatı iqtisadçı Milton Fridman dəfələrlə bəyan edib ki, siyasi azadlıq iqtisadi azadlıq olmadan mümkün deyil. İqtisadi azadlıq siyasi azadlığın və siyasi institutların yaxşı idarə olunmasının müəyyən edilməsi üçün tələbdir. Bu, siyasi institutların əmr əsaslı iqtisadiyyatdan daha çox bazar iqtisadiyyatında insan inkişafının təmin edilməsində daha yaxşı və səmərəli işlədiyini göstərir, çünki bazar iqtisadiyyatı fərdlərə öz seçimlərini reallaşdırmaq fürsəti verir [14; 15, s.427]. Siyasi azadlıq fərdlərin təbii olaraq azad olduqları üçün istədikləri kimi istifadə edə biləcəyi seçimlərdən biridir.

## Nəticə

Göründüyü kimi, siyasi institutlar insan inkişafına nail olunmasında əhəmiyyətli təsir gücünə malikdirlər. Dünyada ən inkişaf etmiş iqtisadiyyatlar güclü siyasi institutlara malik olduqlarından dolayı daha yüksək insan inkişafı indeksinə sahibdirlər. Bu ölkələrin siyasi institutlarının gücü hökumətin səlahiyyətlərinin limitləndirilməsi ilə müəyyən edilir. Yaponiya, Sinqapur və Qərbi Avropa kimi əksər inkişaf etmiş iqtisadiyyatlar vətəndaşlarının azad olmasını və hüquqlarının qorunmasını təmin etmək üçün hökumətlərinin səlahiyyətlərini qanunla məhdudlaşdırıblar. Siyasi institutlar qanunun aliliyi prinsipi ilə idarə olunduqda, o, biznesə və fərdlərə iqtisadiyyata və bütövlükdə cəmiyyətə müsbət töhfələr vermək iqtidarındadır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Abbasbəyli, A. N. Dünya Siyasəti (XX əsrin ikinci yarısı – XXI əsrin əvvəlləri), "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011, s. 583.*

*2. Anand, S., Sen, A. "Human development and economic sustainability", World Development, 28(12), 2000, pp. 2029 – 2049.*

*3. Besley, T., Burgess, R. The Political Economy of Government Responsiveness: Theory and Evidence from India, Quarterly Journal of Economics, 117, 2002, pp. 1415 – 1451.*

*4. De Muro, P., Tridico, P. The role of institutions for human development, 2008.*

*5. Ələkbərova, N. Siyasi Elmin Müasir Problemləri, Dərslik, Elm və Təhsil, Bakı, 2013, s. 372.*

*6. Fukuyama, F. Political Order and Political Decay: From the Industrial Revolution to the Globalization of Democracy, London, 2014, p. 668.*

*7. Gerring, J., Thacker, S.C. Political Institutions and Human Development, The Northeast Universities Development Consortium Conference, Boston University, 2001, pp. 1 – 45.*

*8. Human Development and Capability Association. "Capability & Functionings: Definition & Justification". Human Development and Capability Association Briefing Note, pp. 1 – 5.*

*9. İbadov, N. Müqayisəli Politologiya, Dərs vəsaiti, AzTU-nun mətbəəsi, Bakı, 2010, s. 221.*

*10. Penny, J. Between coercion and consent: The politics of "co-operative governance" at a time of "austerity localism" in London, Urban Geography, 38(9), 2017, pp. 1352 – 1373.*

*11. Ross, M. Is Democracy Good for the Poor, American Journal of Political Science, 50(4), 2006, pp. 860 – 874.*

*12. Van, G. G. The Impact of Political Institutions on Human Development – An Empirical Analysis, George Washington University, 2022, pp. 1 – 17.*

*13. Vollmer, S., Ziegler, M. Political Institutions and Human Development. Does Democracy Fulfill its "Constructive" and "Instrumental" Role? The World Bank – Development Research Group, 2009, pp. 1 – 44.*

*14. Ward, L. Modern Democracy and the Theo-*

*logical-Problem in Spinoza, Rousseau, and Jefferson, Palgrave MacMillan, 2014, p. 240.*

*15. Wills, J. The geo-constitution: Understanding the intersection of geography and political institutions, Progress in Human Geography, 43(3), 2019, pp. 416 – 435.*

**Mikayıl Yusif**

**Modern dəyişikliklər çağında siyasi institutların insan inkişafına təsiri**

**XÜLASƏ**

Modern dəyişikliklər zamanı siyasi institutların fəaliyyət mexanizmləri, cəmiyyət və dövlət həyatında oynadıqları rol və tutduqları yer bir çox siyasi elmi araşdırmanın əsas maraq mövzusu olmuşdur. Siyasi institutların cəmiyyət həyatına təsirlərinin mərkəzi nöqtəsində onların insan inkişafında rolu və əhəmiyyəti mövzusu dayanır. Siyasi institutların insan inkişafına nail olunmasında rolu bu məqalənin də əsas tədqiqat mövzusudur. Giriş hissəsində demokratik sistemlərdə siyasi institutlar insan inkişafına nail olmaqda əsas faktorlardan biri kimi müəyyən edilmişdir. Bu institusional təsir məqalənin davamında daha dərindən araşdırılmış, dünya miqyasında əsaslı nümunələrlə mövzunun aktuallığı və sözügedən təsirin mövcudluğu isbat olunmuşdur.

**Açar sözlər:** *Siyasi institutlar, institusional təsir, insan inkişafı, iqtisadi artım*

**Mikayil Yusif**

**The impact of political institutions on human development in the era of modern changes**

**SUMMARY**

During modern changes, political institutions' functioning mechanisms, the role they play in the life of society and the state, and their place have been the main topic of interest of many political science studies. At the center of the impact of political institutions on social life is their role and importance in human development. The role of political institutions in achieving human development is the main research topic of this article. In the introduction, political institutions in democratic systems are identified as one of the main factors in achieving human development. This institutional influence is examined in more depth in the continuation of the article, the relevance of the topic and the existence of the mentioned influence are proven with the relevant examples from around the world.

Key words: Political institutions, institutional influence, human development, economic growth

**Микаил Юсиф**

**Влияние политических институтов на развитие человека в эпоху современных перемен**

**РЕЗЮМЕ**

В условиях современных изменений механизмы функционирования политических институтов, роль, которую они играют в жизни общества и государства и их место, являются главной темой интереса многих политологических исследований. В центре влияния политических институтов на общественную жизнь находится их роль и значение в человеческом развитии. Роль политических институтов в достижении человеческого развития является основной темой исследования данной статьи. Во введении политические институты в демократических системах определяются как один из основных факторов достижения человеческого развития. Более подробно это институциональное влияние рассматривается в продолжении статьи, актуальность темы и существование упомянутого влияния доказывается на соответствующих примерах из разных стран мира.

**Ключевые слова:** *Политические институты, институциональное влияние, человеческое развитие, экономический рост*

UOT 327; 930.22

# MÜASİR DÖVRDƏ ÇİN XARİCİ SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ "BİR KƏMƏR, BİR YOL" LAYİHƏSİNİN ROLU

**KƏNAN ƏHMƏDOV**
*Bakı Dövlət Universitetinin Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının doktorantı*
*E-mail: kanan.ahmadov98@gmail.com*

Çinin dünya iqtisadiyyatında sürətli yüksəlişi 2000-ci illərin birinci yarısından etibarən hegemonluq müzakirələrini yenidən canlandırmaqla bərabər və yaranmaqda olan güclə hazırkı dominant güc arasında münasibətin necə olacağı sualını gündəmə gətirmişdir. Bütün dünya iqtisadiyyatına güclü təsir göstərən 2008-ci il qlobal maliyyə böhranı neoliberal siyasətin aparıcı müdafiəçisi olan ABŞ-dan qaynaqlandığı və bu siyasətlər böhrandan çıxmağa kifayət etmədiyi üçün həm neoliberal siyasət, həm də ABŞ rəhbərliyi sorğulanmışdır. Bundan ziyadə dünyanın digər ucunda yerləşən Çin böhranla mübarizədə özünü dünyanın qalan hissəsindən müsbət şəkildə fərqləndirməyi bacarmışdır. Qərb iqtisadi gücləri iqtisadi problemlərlə üzləşdiyi və mənfi artım templəri ilə mübarizə apardığı halda, dövlətin iqtisadiyyata aktiv müdaxiləsi nəticəsində Çin iqtisadiyyatı 2008-ci ildə 9,65%, 2009-cu ildə isə 9,4% böyümüşdür (9).

Nəticədə Çinin qlobal böhranla uğurlu mübarizəsi diqqətin bu ölkəyə çevrilməsinə səbəb olub. Bəzi şərhçilərin fikrincə, 2008-ci ildən sonra Pekin böhrandan əvvəl nümayiş etdirdiyi güzəştli xarici siyasətdən əl çəkərək, öz maraqlarını ön planda tutan daha aqressiv siyasət yürütməyə başlayıb. Bu dövrdə Çinin İran, Şimali Koreya və Şərqi Çin dənizi ilə bağlı siyasəti nəticəsində ABŞ, Yaponiya, Cənubi Koreya kimi ölkələrlə münasibətlərində gərgin dövr başlanmışdır. Lakin münasibətlərin pisləşməsinə görə təkcə Çin məsuliyyət daşımır. Çünki ABŞ və Yaponiya bu dövrdə apardıqları siyasətə görə münasibətlərin korlanmasında ən azı Çin qədər məsuliyyət daşıyırlar.

Digər tərəfdən, 2008-ci il böhranı qarşısında uğur qazanmasına baxmayaraq, o dövrdə Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olmuş Hu Jintao dövrü bir çox müəllif tərəfindən "itirilmiş onillik" kimi təsvir edilir. Bunun səbəbi Hu hakimiyyəti altında olan on ildə cəmiyyətin müxtəlif təbəqələri arasında gəlir bölgüsü pozuntusunun aradan qaldırıla bilməməsi, korrupsiyanın ciddi həddə çatması, ətraf mühitin çirklənməsinin sürətlə artması, xarici siyasətin parçalanmış və razılaşdırılmamış bir imic nümayiş etdirməsidir. Hunun "uğursuzluğu" xüsusilə Qərbdə onun varisi Xi Jinpinə qarşı gözləntilərin artmasına səbəb olmuşdur (3). Lakin Xinin son dövrlərdə seçdiyi siyasi kurs xətti bu gözləntiləri puç etmişdir, desək yanılmarıq. Məqalədə sözügedən dövrdə Çin xarici siyasətində önəmli yer tutan "Bir kəmər, bir yol" layihəsi və onun Çinin dünya hegemonluğundakı əhəmiyyətindən bəhs edəcəyik.

Xi tərəfindən 2013-cü ilin sentyabrında Qazaxıstana, daha sonra 2013-cü ilin oktyabrında İndoneziyaya səfərləri zamanı elan edilən İpək Yolu İqtisadi Kəməri və XXI əsrin Dəniz İpək Yolu ümumi olaraq Avrasiyanın iki ucunu birləşdirməyə yönəlmiş nəhəng təşəbbüsdür. Bu gün "Bir kəmər, bir yol" olaraq adlanan bu təşəbbüs Şərqi Asiyadan Avropaya qədər uzanan və Asiya, Afrika və Avropa qitələrini dəniz, hava və quru yolları ilə birləşdirməyi hədəfləyən infrastruktur şəbəkələrinin qurulması layihəsidir (2). Təşəbbüsün əsas məqsədi ikitərəfli və çoxtərəfli ticarət və investisiya imkanlarını artırmaq, ölkələr və qitələr arasında əlaqələrin inkişafı vasitəsilə regional iqtisadi inkişafı təmin etməkdir. Bununla belə, nəqliyyat və kommunikasiya infrastrukturunun inkişafı regionun inkişafı üçün zəruridir, lakin kifayət deyil. Bu səbəbdən rəsmi sənədlərdə və Çinin yüksək səviyyəli rəsmilərinin bəyanatlarında infrastruktur quruculuğu ilə yanaşı, müxtəlif ölkələrin xalqları arasında sıx münasibətlərin qurulmasının zəruriliyi və istəyi göstərilir. Buna görə də müxtəlif sivilizasiyalara mənsub xalqlar arasında qurulacaq sıx əlaqələr bu xalqların fərqli mədəniyyətlər haqqında daha çox məlumat əldə etmələrinə və beləliklə də bir-birlərini anlamalarına kömək edəcəkdir. Ölkələrin və xalqların töhfəsi ilə belə bir mühitin yaradılması, bütün Asiya və Avropanı əhatə edəcək Avrasiya kimi geniş şəkildə tərif edilə bilən regionda dostluq və sülhü təşviq edəcəkdir. Beləliklə, Avrasiya xalqları arasında yaxınlaşmaya nail olunacaq və bir növ "ortaq müqəddərat icması" qurulacaq (7).

Layihə həm Asiya qitəsinin müxtəlif hissələrini, həm də Asiya və Avropa qitələrini iki dəniz yolu

və altı quru dəhlizi vasitəsilə birləşdirməyi hədəfləyir. İki dəniz marşrutu Cənubi Çin dənizi və Hind okeanı marşrutu ilə Şərqi Asiyanı Avropaya və Cənubi Çin dənizi vasitəsilə Cənubi Sakit okeanı birləşdirən marşrutlardan ibarətdir. Bütün Avrasiyanı quru yolu ilə birləşdirməyi hədəfləyən altı quru dəhliz isə Avrasiya quru dəhlizi (yeni çəkilən dəmiryolu xətti), Çin-Monqolustan-Rusiya İqtisadi dəhlizi, Çin-Mərkəzi Asiya-Qərbi Asiya İqtisadi dəhlizi, Çin-Hindçin Yarımadası İqtisadi dəhlizi, Çin-Pakistan İqtisadi dəhlizi və Banqladeş-Çin-Hindistan-Myanma İqtisadi dəhlizidir(2).

Ədəbiyyatda bir çox müəllif "Bir kəmər, bir yol" layihəsini Çinin yeni "böyük strategiyası" adlandırsa da, əslində bu təşəbbüs Pekində yaradılmış "böyük dizayn" və ya "böyük plan" deyil. Əksinə, ölkənin inzibati strukturunun müxtəlif səviyyələrində olan aktorların, xüsusən də ölkənin cənub və qərbindəki yerli idarəçilərin tələbləri nəticəsində hökumətlə onlar arasında müzakirələr nəticəsində işlənərək tərtib edilmiş ideyadır. O qədər ki, sözügedən proses çərçivəsində layihələrin əhəmiyyətli bir hissəsi bu təşəbbüs Xi tərəfindən ideya olaraq irəli sürülməmişdən əvvəl hazırlanmış, həyata keçirilməyə başlanmış və hətta tamamlanan layihələrdən ibarətdir. Məsələn, Yunnan əyalətini Myanmanın qərb sahilləri ilə birləşdirən neft və təbii qaz boruları hazırda layihənin əhatə dairəsindədir, lakin onların tikintisi 2013-cü ildə tamamlanıb. Bənzər bir vəziyyət bir çox digər layihələrə də aiddir (6). Bununla belə, layihələrin əksəriyyəti yeni olmasa və bir çoxu "Bir kəmər, bir yol" ideyasından əvvəl planlaşdırılsa da, bu nəhəng təşəbbüsün əhəmiyyəti bütün bu layihələri vahid yanaşmada əlaqələndirmək və birləşdirmək istəyidir.

KYT (Bir Kəmər, Bir Yol Təşəbbüsü) əsasən siyasi-iqtisadi məqsəd güdən bir təşəbbüsdür. Təşəbbüsün ən mühüm səbəblərindən biri Çin istehsalçılarının, xüsusilə də dövlət müəssisələrinin 2010-cu illərin əvvəllərindən bəri üzləşdiyi həddindən artıq istehsal problemidir. Bu problemin mənbəyi Çin hökumətinin bütün dünyaya təsir edən 2008-ci il qlobal maliyyə böhranını aradan qaldırmaq üçün tətbiq etdiyi 586 milyard dollarlıq iqtisadi stimul paketindədir. O dövrdə hökumət öz gücünün legitimliyinin ən mühüm mənbəyi olan iqtisadi artımı davam etdirmək üçün iqtisadi subyektləri, xüsusilə də dövlət müəssisələrini infrastruktur investisiyaları vasitəsilə dəstəklədi. Ancaq təşviq paketi 2010-cu illərin əvvəllərində tükəndi. Bu nəhəng resursun tükənməsi bir tərəfdən infrastruktur investisiyalarının maliyyələşdirilməsinin əhəmiyyətli hissəsini borclanma hesabına təşkil edən yerli özünüidarəetmə orqanlarında maliyyə çətinlikləri yaradır, digər tərəfdən isə alüminium, polad, sement, dəmir, şüşə və enerji istehsal edən sənaye sahələrində 30%-ə qədər artıq imkan yaratmışdır (9). Bu, bir çox dövlət müəssisələrinin gəlirlilik problemləri ilə üzləşməsinə və həddindən artıq sərmayə qoyulması səbəbindən yeni investisiyaların mənfi gəlirliliyinə səbəb olmuşdur. Üstəlik, 2001-ci ilin dekabrında Çin Ümumdünya Ticarət Təşkilatına üzv olduqdan sonra sürətlə artan ticarət profisiti onun valyuta ehtiyatlarının sürətlə artaraq 3 trilyon dollara çatmasına şərait yaratdı. Bu, Çin banklarında kapitalın həddindən artıq yığılması problemi yaradıb. Ölkənin yığılmış izafi hasilatı və valyuta ehtiyatlarını gəlirli investisiyalara köçürmək istəyi KYT-nin əsas hərəkətverici qüvvəsi olmuşdur. Çin dövləti ümid edir ki, KYT ilə Çinin əlində topladığı vəsaiti infrastruktur sərmayələrinə ehtiyacı olan ölkələrə ötürüləcək və maliyyələşdirmənin bir hissəsi bu ölkələrin öz resursları hesabına, qalan hissəsi isə Çindən götürülmüş kreditlər hesabına qarşılanacaqdır. Beləliklə, Çin həm istehsalı, həm də kapital artıqlığını gəlirli investisiyalara çevirmək imkanı əldə edəcək(5).

KYT prosesində Pekin kapitalın istehsalı və ixracından başqa iqtisadi səbəblərdən də çıxış edir. Çin kapitalı artıq işçi qüvvəsinin bir hissəsini özü ilə sərmayə qoyduğu ölkələrə aparır, beləliklə, ÇKP-yə ölkədə işsizliyi aşağı səviyyədə saxlamağa kömək edir və aşağı qiymətlərlə istənilən keyfiyyətdə işçi qüvvəsini işə götürür. Üstəlik, Çin investorlarının KYT çərçivəsində digər ölkələrin infrastruktur layihələrinə sərmayə qoyması nəticəsində 1990-cı illərin sonunda həyata keçirilən "çıxmaq" (zouchuqu/go out) strategiyası güclü şəkildə qorunub saxlanıla və keyfiyyətcə daha da yüksəldilə biləcəkdir. Bu strategiya ilə xaricə gedən Çin 2002-ci ildən 2012-ci ilə qədər illik kapital ixracını 6 milyard dollardan 65 milyard dollara yüksəldib. 2013-cü ildən, Xi rəhbərliyi təhvil aldıqdan sonra, illik kapital buraxılışı sürətlə artmağa davam etdi və 2016-cı ildə rekord həddə - 216 milyard dollara çatdı. Bu ildən başlayaraq 2019-cu ildə ABŞ ilə ticarət müharibəsinin təsiri ilə yavaşlamağa başladı və 97 milyard dollara qədər azaldı (9). Son illərdəki azalmaya baxmayaraq, KYT-nin Çin kapitalının xaricə açılmasında ciddi töhfə verdiyini söyləmək olar.

Digər tərəfdən, KYT yalnız siyasi-iqtisadi maraqlara xidmət etmir. Təşəbbüsün həyata keçirilməsində digər bir məqsəd də təhlükəsizlik maraqlarıdır. Bildiyimiz kimi, Çin dünyanın aparıcı istehsalçısı olmaqla birlikdə, həm də ən böyük istehlakçılardan biridir ki, istehlakın böyük hissəsini də enerji resursları təşkil edir və burada onun davamlı axımının təmin edilməsi zərurəti meydana çıxmaqdadır. Bu səbəbdən enerji təhlükəsizliyi məsələsi Çin xarici siyasətinin digər bir mərkəz nöqtəsini təşkil edir. Misal olaraq, 2018-ci il üçün Çin neft idxalının 43%-ni İran körfəzi bölgəsi (Yaxın Şərq) hesabına təmin etmişdir. Sözügedən idxalın 80%-nin keçidi Malakka boğazının hesabına təmin edilir və burada nəzarət Hindistan və ABŞ-ın əlində olduğundan gələcəkdə mümkün ziddiyyətli hallar yaşanarsa enerji idxalında fasilə və məhdudiyyətlərin yaranması ehtimalı Çini narahat edən məsələlərdəndir (7). Bu ehtimala görə Pekin iki mərhələli strategiyaya əməl edir. Birincisi, enerji təchizatında Yaxın Şərqdən və daşınmasında isə Malakka boğazından asılılığını azaltmaq və enerji mənbələrini şaxələndirmək məqsədilə Asiyanın qalan hissəsinə neft və qaz kəmərləri çəkməyə, ikincisi isə Hind okeanında yeni yanacaqdoldurma məntəqələri və limanlar tikməyə başladı.

ABŞ-da və xüsusən də Hindistanda narahatlıq doğuran bu ikinci strategiya bir çox şərhçilər tərəfindən "mirvari düzülüşü" (The String of Pearls) strategiyası adlandırılır (10). Bu şərhçilərin fikrincə, "mirvari düzülüşü" strategiyası Çinin Cənubi Çin dənizi və Hind okeanında kritik tədarük marşrutları və keçidlərinə təsirini artıracaq uzunmüddətli geostrateji yanaşmadır.

Qitələri birləşdirməyi qarşısına məqsəd qoyan bu cür hərtərəfli təşəbbüsün həyata keçirilməsində həlledici element adekvat maliyyə dəstəyinin təmin edilməsidir. KYT-nin yaradıcısı Çin həm də onun ən böyük maliyyəçisidir. Ölkə KYT çərçivəsində həyata keçiriləcək infrastruktur sərmayələri və digər layihələr üçün 1 trilyon dollardan çox vəsait ayırıb. Bununla belə, Çin dövlətinə məxsus vəsaitlər yeganə maliyyə mənbəyi deyil.

KYT layihəsinin maliyyələşdirilməsi həm Çinin öz resursları, həm də digər ölkələrlə birlikdə formalaşan AIIB (Asian Infrastructure Investment Bank) kimi çoxtərəfli qurumların vəsaitləri hesabına həyata keçirilir. Bu çərçivədə Çin hökuməti, bir tərəfdən 2014-cü ildə 40 milyard dollarlıq İpək Yolu Fondu, digər tərəfdən Çin İnkişaf Bankı, Çin İxrac və İdxal Bankı (Eximbank) kimi maliyyə qurumları və hazırda digər sahələrdə fəaliyyət göstərən dövlət bankları KYT layihələrinin maliyyələşdirilməsində iştirak edir (9).

AİİB nümunəsinə nəzər saldıqda, Bankın indiki formada liberal beynəlxalq sistemə alternativ olduğunu və ya belə bir niyyətlə yaradıldığını söyləmək mümkün görünmür. AİİB Çinin rəhbərliyi ilə yaradılsa da, 112 üzvü olan beynəlxalq qurumdur. Bu üzvlər arasında dünyanın ən böyük iqtisadiyyatları arasında yer alan Almaniya, Böyük Britaniya və Fransa kimi ABŞ mərkəzli beynəlxalq sistemin ən mühüm dəstəkçiləri var və hətta ABŞ üçün üzvlük yolu açıqdır. Bundan əlavə, AİİB-in idarəetmə strukturu əsasən digər çoxtərəfli inkişaf banklarının strukturlarına bənzəyir. Onun fərqləndirici xüsusiyyətləri yoxsulluğun azaldılmasına deyil, infrastruktur investisiyalarına diqqət yetirməsi, kommersiya dərəcələrinə əsaslanan kreditlərin istifadəsinə yönəlməsindədir. AİİB-in məcmu kapitalı 100 milyard dollardır və 2016-cı ilin yanvarından 2019-cu ilin dekabrına qədər olan 4 illik dövr ərzində cəmi 11,7 milyard dollar kredit verib. Bununla belə, Çin İnkişaf Bankı və Eximbankın 2016-cı ildə təkcə KYT ilə əlaqəli layihələrə köçürdüyü resurslar 101,8 milyard dollar təşkil edib. Bunlara əlavə olaraq, Çin İnkişaf Bankının 900-ə yaxın KYT layihəsinə 890 milyard dollar əlavə vəsait ayırdığı bildirilir (11).

Xi Jinpin dövrü bir çoxları tərəfindən Çin tarixində mühüm dönüş nöqtəsi kimi qeyd olunur. Bəzilələri üçün Xi yeni Çin imperatoru və ya yeni Maodur. Bu vəziyyət xarici siyasətin qurulmasında da özünü göstərdi və Çin Xinin rəhbərliyi altında daha aqressiv xarici siyasət yürütməyə başladı. Xinin prestij layihəsi olan KYT də ABŞ-da yerləşən beynəlxalq nizama meydan oxumağı planlaşdırırdı. Üstəlik, bu nəhəng təşəbbüs Çin əsaslı idarəetməyə hazırlığı kimi qiymətləndirilməlidir. Bu görüşün tərəfdarları çox olsa da, Xinin ölkədəki qərar vermə mexanizmlərini tamamilə nəzarətdə saxladığını və ya KYT-nin Xinin ən detalına qədər planlaşdırdığı "böyük strategiya" olduğunu söyləmək mümkün deyil.

Xi dövründəki Çin xarici siyasətinə, Kəmər və Yol Təşəbbüsünə diqqət yetirən bu araşdırmanın üç əsas nəticəsi olduğunu deyə bilərik. Əvvəla, 2013-cü ildən Çinin xarici siyasəti transformasiya prosesinə daxil olub, lakin bu, inqilabi üsuldan daha çox tədrici transformasiyadır. Xi dövrünün xarici siyasətinin bəzi sahələri Hu dövrünün davamı olduğu hal-

da, bəzi digər sahələr Asiya qitəsinə və xüsusən də Çinin qonşularına artan əhəmiyyət, iqtisadi və siyasi məqsədlərin sıx vəhdəti kimi əhəmiyyətli fərqlər göstərir.

Bundan əlavə, Hu dövrünün pərakəndə xarici siyasət strukturunu aradan qaldırmaq üçün Xi ilə birlikdə yeni rəhbər qrupları yaradıldı və qərarların qəbulu və icrasında mərkəzin nəzarəti artırılmağa çalışılsa da, bu işdə qismən uğur qazanıldı. Yəni, Xi yeni imperator və ya Mao olmaqdan uzaqdır.

İkincisi, Çinin nəzarətində olan və ya onun mərkəzində olan KYT-nin və onunla əlaqəli AİİB kimi beynəlxalq təşkilatların hazırkı vəziyyətdə dünya nizamına alternativ və ya bunu yenidən strukturlaşdıra biləcək təşəbbüslər kimi müəyyən edilməsini deyə bilərik. Bütün bu qurumlar, böyük məqsədləri olan mühüm təşəbbüslərdir. Lakin AİİB nümunəsində göründüyü kimi, bu qurumlar və layihələr alternativ nizam yaratmaq əvəzinə mövcud nizamın qayda və standartlarına əməl edirlər. Eyni şey, ən azı diskursiv səviyyədə KYT üçün də keçərlidir. Bir sözlə, KYT-nin və Çində formalaşan digər təşəbbüslərin ABŞ-a və onun mərkəzində yerləşən beynəlxalq sistemə meydan oxumaq və alt-üst etmək niyyətində olduğunu söyləmək üçün kifayət qədər dəlil yoxdur.

Nəhayət, ilk iki təklifdə qeyd edilənlər o demək deyil ki, Çin iddia etdiyi kimi, öz "Çin müdrikliyini" və alicənablığını bütün dünyaya yalnız qarşılıqlı "qazan-qazan" düşüncəsi ilə təqdim edir. Araşdırmanın ikinci hissəsində göstərildiyi kimi, Çinin iqtisadi, siyasi, təhlükəsizlik və sosial aspektlər baxımından KYT-dən müəyyən gözləntiləri var. Buna görə də KYT bütün ölkələrə, regional və beynəlxalq qurumlara açıq olmasına, yəni inklüziv strukturuna baxmayaraq, Çini Asiya və hətta Avrasiya inteqrasiyasının mərkəzinə yerləşdirməyi hədəfləyir. Başqa sözlə, "qazan-qazan" yanaşmasına əsaslanan, "ortaq müqəddərat icması" qurmağı hədəfləyən və bütün Avrasiyanı birləşdirən "beynəlxalq iqtisadi əməkdaşlıq layihəsi" ritorikasına baxmayaraq, bütün yollar Pekinə aparır. Bir sözlə, KYT beynəlxalq sistemin yenidən qurulmasına yönəlmiş "böyük strategiya" deyil, son nəticədə Çinin maraqlarını birinci yerə qoyan təşəbbüsdür.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Aoyama R., "China's Foreign Policy under Xi Jinping", The Tokyo Foundation, 2014, pass.*
2. *Bhattacharya A., "Conceptualizing the Silk Road Initiative in China's Periphery Diplomacy", East Asia, 2016, p. 309-328.*
3. *Breslin S., "China and the Global Order: Signalling Threat or Friendship?", International Affairs, 2013, p. 615-634*
4. *China's Foreign Policy and Other Countries' China Policies, Strategic Annual Report 2019, pass.*
5. *David Miliband, "China ready to join US as world power", The Guardian, 17.05.2009*
6. *Qin Y., "Continuity through Change: Background Knowledge and China's International Strategy", The Chinese Journal of International Politics, 2014, p. 285–314*
7. *Mikael Weissmann, Chinese Foreign Policy in a Global Perspective: A Responsible Reformer "Striving For Achievement", JCIR: VOL. 3, No. 1, 2015, p. 151-166*
8. *Spakowski N., "National Aspirations on a Global Stage: Concepts of World/Global History in Contemporary China", Journal of Global History, 2009, p. 475-95*
9. *World Bank Annual Report, GDP Growth, pass.*
10. *https://www.china-briefing.com/news/china%E2%80%99s-string-of-pearls-strategy/*
11. *https://www.cfr.org/backgrounder/chinas-massive-belt-and-road-initiative*


## XÜLASƏ


Siyasi maraqlara əsaslanaraq iqtisadi dayaqlar üzərində qurulan beynəlxalq sistem mütəmadi olaraq iqtisadi çalxalanmalara məruz qalmaqdadır. Onlardan sonuncusu – 2008-ci ilin iqtisadi böhranı dünya maliyyə sistemində iqtisadi resursların əhəmiyyətini göstərməklə birlikdə, həm də ölkələrin iqtisadi böhranlara nə dərəcədə dözümlü olması sualının da cavablanmasına kömək etmişdir. Xüsusilə böhran sonrası yeni güc olaraq artıq sezilməyə başlayan Çin aktoru qlobal təsirə malik qərarların qəbulunda iştirak potensialını təqdim edə bilmişdir.

Məqalədə böhran sonrası yeni təşəbbüslərlə irəli çıxan Çinin xarici siyasətində "Bir kəmər, bir yol" təşəbbüsünün əhəmiyyətinin analizi aparılaraq, onun siyasi-iqtisadi təsirləri izah edilir.


**Açar sözlər:** *Çin, Avrasiya, "Bir kəmər, bir yol"*

*təşəbbüsü, İqtisadi böhranlar, Çin-ABŞ münasibətləri, Liberalizm.*

**РЕЗЮМЕ**

Международная система, построенная на экономических основах, основанных на политических интересах, регулярно подвергается воздействию экономических потрясений. Последний из них - экономический кризис 2008 г. - показал важность экономических ресурсов в мировой финансовой системе, а также помог ответить на вопрос, насколько страны устойчивы к экономическим кризисам. Особенно после кризиса китайский актор, который уже начал ощущаться как новая сила, смог представить потенциал участия в принятии решений с глобальным влиянием.

В статье анализируется значение инициативы "Один пояс, один путь" во внешней политике Китая, выдвинувшегося с новыми инициативами после кризиса, и объясняются ее политические и экономические последствия.

**Ключевые слова:** *Китай, Евразия, инициатива "Один пояс, один путь", Экономические кризисы, Китайско-Американские отношения, Либерализм.*

**SUMMARY**

The international system, built on economic foundations based on political interests, is regularly exposed to economic shocks. The last of them - the economic crisis of 2008 - showed the importance of economic resources in the global financial system, and also helped answer the question of how resilient countries are to economic crises. Especially after the crisis, the Chinese actor, who was already beginning to be felt as a new force, was able to imagine the potential to participate in decision-making with global influence.

The article analyzes the significance of the "One Belt, One Road" Initiative in the foreign policy of China, which advanced with new initiatives after the crisis, and explains its political and economic consequences.

**Keywords:** *China, Eurasia, "Belt and Road" Initiative, Economic crises, Sino-American relations, Liberalism.*

# Tarix

UOT 94 (479.24); 930:314

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ QAFQAZIN SOVET ÜFÜQLƏRİ

**İRADƏ HÜSEYNOVA**
*Tarix elmləri doktoru, professor*
*E-mail: prof.irada.huseynova@gmail.com*

**SEVDA ŞƏRİFOVA**
*Bakı Dövlət Universitetinin "Qafqaz xalqları tarixi" kafedrasının doktorantı*

*E-mail: sevdasharifova@mail.ru*

Qafqazın yarıməsrlik tarixi Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan xalqının ümummilli liderinin Qafqaz tarixində əhəmiyyəti və rolu o qədər böyükdür ki, bir danılmaz tarixi həqiqət əsrlər boyu yaşayacaqdır: Heydər Əliyev olmasaydı – Cənubi Qafqazda müasir Azərbaycan dövləti də olmazdı. İllər keçdikcə Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, onun həyat tərzi, idarəetmə fəlsəfəsi, dövlət xadimi kimi nadir bacarıqları və siyasi irsinin aktuallığı və əhəmiyyəti Azərbaycan və bütövlükdə Qafqaz xalqlarının tarixi yaddaşında əbədi olaraq yaşayacaqdır. Heydər Əliyevin 35 illik hakimiyyəti dövründə Qafqazda yaşayan çoxsaylı xalqların xoşbəxt və firavan gələcəyi uğrunda misilsiz tarixi xidmətlər həyata keçirilmişdir. XX əsr tariximizin ən parlaq siması, qüdrətli şəxsiyyəti olan Heydər Əliyevin dövlətçilik və siyasi fəaliyyəti Azərbaycan xalqının dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbinin, müasir ictimai-siyasi fikrin ən davamlı keyfiyyətlərinin canlı mənzərəsidir [1]. Heydər Əliyev Qafqaz tarixinin yarıməsrlik dövründə baş verən taleyüklü hadisələrin nəinki müasiri, bu hadisələrə təsir gücünə malik, bu hadisələri yönəltməyi bacaran qeyri-adi siyasi səriştəyə malik xarizmatik siyasi lider və böyük tarixi şəxsiyyət olmuşdur.

Sov.İKP MK-nin birinci katibi Leonid Brejnevin 1964-1982-ci illəri əhatə edən hakimiyyət dövrünü ifadə edən "durğunluq" termini SSRİ-nin ilk və son prezidenti Mixail Qorbaçovun sayəsində meydana çıxdı – dünyanın ¾-nü əhatə edən SSRİ kimi nəhəng imperiyanın dağılmasına özünün "yenidənqurma" siyasəti ilə əl qoyan məhz bu sovet siyasi rəhbəri 1986-cı ildə Sov.İKP MK-nın XXVII qurultayında ölkənin bütün sahələrinin inkişaf etməyib geridə qaldığını vurğulamaq üçün bu termindən ilk dəfə istifadə etmişdir. Lakin bu terminin SSRİ-nin dağılmasının ərəfəsində mövcud olan siyasi şəraitdə yayılması bir sual doğurur – doğrudanmı dünyanın iki əks qütbündə yerləşən nəhəng güc mərkəzlərindən biri olan Sovet imperiyasının tərkib hissəsi olan Qafqazın XX əsrin 60-80-ci illərini əhatə edən dövr tarixi inkişafın donduğu "durğunluq dövrü" olmuşdur, yaxud bu termin sadəcə söz gəlişi istifadə edilmiş və M.Qorbaçovun dövründə yayılmış siyasi klişedən başqa bir şey deyildir?

XX əsrin 60-cı illərinin sonunda keçmiş Sovet imperiyasının ucqar aqrar əyaləti, xammal mənbəyi olan Azərbaycanın tarixində böyük dönüş yaranır. 14 iyul 1969-cu ildə Heydər Əliyev Azərbaycan sovet respublikasına rəhbərlik etməyə başlayır – o zamanlar bu vəzifə Azərbaycan KP MK-nın birinci katibi adlanırdı. Heydər Əliyevin Azərbaycanda ilk hakimiyyət dövrünü əhatə edən 1969-1982-ci illərdə Azərbaycan bir əsrə bərabər tarixi inkişaf yolu keçmişdir. Eyni zamanda bu illər Qafqaz tarixinə Azərbaycanın siyasi, iqtisadi, mədəni və milli-mənəvi yüksəliş dövrü kimi daxil olub. Bu dövrdə dövlət həyatının bütün sahələrində misli görünməmiş dirçəliş baş verir – ölkəmiz qısa müddət ərzində böyük imperiyanın xammal mənbəyindən müasir texnologiya ilə təchiz olunmuş qabaqcıl industrial bazasına çevrilmiş, Azərbaycanın sənaye profili dəyişmiş, bütün infrastrukturda islahatlat aparılmış, Azərbaycan kəndi və kənd təsərrüfatı dirçələrək sürətlə inkişaf etmiş və müasirləşmiş, Azərbaycan əhalisinin sosial, mədəni və təhsil səviyyəsi yüksəlmiş, respublikanın qədim paytaxtı Bakı şəhəri intibah dövrünü yaşamışdır. Məhz bu illərdə azərbaycançılıq ideyasının ən parlaq səhifələri yazılmışdır. Beləliklə, Azərbaycan sovet respublikasında ilk rəhbərlik dövründə ulu öndər Heydər Əliyevin qarşısında misli görünməmiş vəzifələr dürmuşdu, ondan əvvəlki birinci katiblərin heç biri belə çətin işin öhdəsindən gələ bilməmişlər. Lakin Heydər Əliyev özünün tam fərqli siyasi cəsarəti, dəmir iradəsi və heyrətamiz müdrikliklə hə-

yata keçirdiyi titanik dövlətçilik fəaliyyəti nəticəsində bütün bu vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəlmişdir.

Azərbaycana rəhbərlik etdiyi və böyük siyasətdə olduğu dövrdə ulu öndər Heydər Əliyevin görkəmli tarixi şəxsiyyət olaraq Qafqaz tarixində əsrlər boyu unudulmayacaq müstəsna xidmətləri olmuşdur. Qafqazda və keçmiş Sovet İttifaqında onun yaradıcı dövlətçilik fəaliyyətinin izləri – yüzlərlə möhtəşəm binalar, sənaye müəssisələri, nəqliyyat qovşaqları, mədəniyyət, təhsil və səhiyyə ocaqları var. Bir sözlə "durğunluğun" əsər-əlaməti olmayan bu dövrdə bütün sahələrdə yüksək səviyyədə sosial-iqtisadi və mədəni inkişaf baş vermiş və Azərbaycanı tərəqqiyə qovuşduran nailiyyətlər qazanılmışdır. Heydər Əliyevin ilk rəhbərlik dövrünün sonunda Azərbaycan SSR inkişaf səviyyəsinə və çoxşahəli iqtisadiyyatına görə müstəqil yaşamağa qadir olan ittifaq respublikaları arasında Qafqazda Rusiyadan sonra ikinci idi. 1983-cü ilin statistik məlumatlara əsasən Cənubi Qafqaz respublikaları üzrə ən yüksək göstəricilər Azərbaycan SSR-nin üzərinə düşürdü: ümumi sənaye məhsulunun artım tempi Azərbaycan SSR-də – 118% (1980=100), Gürcüstan SSR-də – 115%, Ermənistan SSR-də – 117% [2]; kənd təsərrüfatının ümumi məhsuluna görə Azərbaycan SSR-nin gəliri – 2,6 mlrd.rub., Gürcüstan SSR-nin – 2,2 mlrd.rub., Ermənistan SSR-nin – 0,8 mlrd.rub. [3] təşkil edirdi.

XX əsrin 60-cı illərində Azərbaycanda çox çətin vəziyyət yaranmışdır. İqtisadiyyat geridə qalmışdı, sənayedə, kənd təsərrüfatında, tikintidə böyük çatışmazlıqlar var idi. Respublikamız Moskvada həmişə mənfi nümunə kimi göstərilirdi. 1961-ci ildə Qərbi Sibirdə nəhəng neft və qaz yataqlarının aşkar edilməsi və bu regionun ölkənin potensial neft və qaz əyalətlərindən birinə çevrilməsi Azərbaycan neftinə olan marağı azaltmışdır. 1960-cı illərdə Qərbi Sibir və Qazaxıstanda yeni neft hasilatı mərkəzləri yaradılaraq bu ərazilərdə 1967-ci ildə təxminən 9 milyon ton neftin hasilatı nəzərdə tutulmuşdur [4]. Statistikaya görə 1965-ci ildə Azərbaycanda quruda 21,5 min ton neft hasil edilmişdi, 1970-ci ildə isə neftin hasilatı 17,1 min tona enmişdir [5]. Bu, o demək idi ki, Azərbaycan nefti sovet iqtisadiyyatında artıq əvvəlki kimi vacib rol oynamasa da, neft sənayesi hələ də möhkəm mövqelərə malik idi. Lakin ulu öndər Heydər Əliyevin ilk rəhbərlik dövründən başlayaraq Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi, neft və qaz emalı sənayesinin tarixində, xüsusilə dənizdə neft hasilatında yeni, yüksək dinamikalı inkişaf mərhələsi başlayır. 1971-ci ildə Azərbaycanda 1 milyardıncı ton neftin hasilatı təntənəli sürətdə qeyd edilir. 1974-cü ildə neft emalı sənayesinin gələcək inkişafı haqqında xüsusi qərar qəbul edilir ki, burada 1980-cı ildə Xəzər dənizində neft hasilatının 18 milyon ton, 1985-ci ilə qədər isə 22 milyon ton səviyyəsinə çatdırılması nəzərdə tutulmuşdu [6]. Ulu öndər Heydər Əliyevin müdrik rəhbərliyi altında qısa müddətdə yeni qurğuların işə düşməsi, dərin özüllər zavodunun tikilməsi, neft ayırma zavodunun əsaslı rekonstruksiyası və bir sıra başqa vacib tədbirlərin həyata keçirilməsi Azərbaycanda neft və qaz emalı sənayesinin inkişafına böyük töhfə vermiş oldu. Bu dövrdə Heydər Əliyevin atdığı düşünülmüş addımlar gələcəkdə uğurlu neft strategiyasının həyata keçirilməsində xüsusi rol oynamışdır.

IX beşillikdə (1971-1975-ci illər) Azərbaycanın neft emalı və neft-kimya sənayesinin inkişafında mövcud olan problemlər - motor yağlarının və yanacağın keyfiyyətinin aşağı olduğu, yağların xüsusi çəkisinin azalıb 1.400.000 min tona enməsi müəyyən edilir. Ulu öndər Heydər Əliyev böyük bacarıqla, məsələnin mahiyyətini dərindən təhlil edərək bir ay müddətində Elmlər Akademiyasına, Elmi-Tədqiqat institutlarına, respublika sənayesinin rəhbərlərinə Azərbaycanda istehsal olunan yağların keyfiyyətinin yüksəldilməsi üçün konkret tədbirlər planının hazırlanmasını tapşıraraq [7] vəziyyətin dəyişməsinə nail olur.

Çoxsaylı statistik məlumatlardan göründüyü kimi, sovet dövründə neft hasilatı və neft maşınqayırma sahəsində yüksək səviyyəli mütəxəssislər və avadanlıq Bakıda hazırlanırdı. Məsələn, neft mədənləri, geoloji kəşfiyyat, qazma avadanlıqlarının və onlar üçün ehtiyyat hissələrinin istehsalı üzrə nəzərdə tutulmuş X beşilliyin (1975-1980-ci illər) plan göstəriciləri hər il yerinə yetirilirdi və beşilliyin sonunda istehsal səviyyəsi 1022,9 mln rubla çatdırılmışdır (planda nəzərdə tutulmuş 927 mln rubla qarşı). 1981-1982-ci illərdə Montin adına maşınqayırma, Petrov və Qasımov adına poladəritmə zavodlarının hesabına "Soyuzneftemaş" birliyinin istehsal həcmi 19,5% artmışdır ki, bu da respublikanın bütün sənayesi üzrə göstəricini (12,3%) üstələmişdir [8].

Bundan əlavə, SSRİ-nin bir çox texniki zavodlarının və trestlərinin nəzarətini də Bakıda yerləşən müəssisələr həyata keçirirdi. Məsələn, SSRİ Energetika və Elektrikləşdirmə Nazirliyinin "Qafqaze-

nerqomontaj" istilik energetika avadanlıqlarının quraşdırılması üzrə Dövlət Qafqaz Tresti Bakıda yerləşirdi və fəaliyyət göstərdiyi dövrdə Şimali Qafqaz, Cənubi Qafqaz, hətta Türkmənistan və Volqaboyu ərazilərdə yerləşən istilik stansiyalarında, 10 mln kvt-a yaxın enerji gücündə istilik elektrostansiyalarında, həmçinin Azərbaycan SSR-də: Əli-Bayramlı QRES, Severnaya QRES, Sumqayıt İEM-1 və İEM-2-də və başqa müəssisələrdə quraşdırma işləri aparırdı [9].

Mahir və uzaqgörən siyasətçi olan Heydər Əliyev sovet dövrünə xas olan obyektiv iqtisadi-siyasi şəraitdə məqsədyönlü tədbirlər həyata keçirmiş və yalnız onun parlaq zəkasına məxsus müdrikliklə gələcəkdə xalqın milli sərvəti olan "qara qızılın" Azərbaycan dövlətinin iqtisadi və siyasi müstəqilliyinin taminatı ola biləcəyini təhmin etmişdir. Bu səbəbdən Azərbaycanın neft strategiyasının banisi olan Heydər Əliyev xalqın gələcək rifahı naminə respublikamızda neft emalı, neft-kimya sənayesinin inkişafını davamlı surətdə təmin etmək, yenidən qurulması və modernləşdirilməsi məqsədilə mühüm qərarlar qəbul etmişdir. 1970-1980-ci illərdə sözü gedən sahələrdə geridə qalmış texnoloji proseslər, köhnəlmiş avadanlıqlar milyonlarla vəsait hesabına texnoloji üstünlüklərə malik yeniləri ilə əvəz olundu. Azərbaycan 1970-1985-ci illərdə neft məhsulları, neft avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, məişət kondisionerləri, mineral gübrələr, çini-saxsı, xalça və xalçaçılıq məmulatları və s. istehsalı üzrə Sovetlər İttifaqında aparıcı yerlərdən birini tuturdu. Ölkəmizdə buraxılan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu [10].

1970-ci ildə "Xəzərdənizneft" İstehsalat Birliyi yarandı və Xəzər dənizi sektorlara bölünərək bütün sektorlarda geoloji-kəşfiyyat, qazma və istismar işlərinin aparılması SSRİ-nin Neft Sənayesi Nazirliyi tərəfindən dəniz şəraitində iş aparmaq təcrübəsi nəzərə alınaraq Azərbaycan neftçilərinə həvalə olundu.

Azərbaycan SSR Neft Emalı və Neft-Kimya Sənayesi Nazirliyi müəssisələrində, Sumqayıt sintetik kauçuk, Bakı şin və rezin məmulatları zavodlarında ayrı-ayrı texnoloji aqreqatların yenidən qurulması həyata keçirilmiş, mənəvi və fiziki cəhətdən köhnəlmiş avadanlıqlar modernləşdirilmiş, bir hissəsi yüksək istehsalat gücünə malik avadanlıqlarla əvəz edilmişdir. Vladimir İliç adına Neft Emalı Zavodunda katalitik krekinq qurğuları mikrosferik katalizatordan istifadəyə keçirilmiş, onların bəziləri yeni texnoloji sxem üzərində yenidən qurulmuşdur. 1970-1975-ci illərdə neft emalının gücü 1,4 milyon ton artmış, plandan artıq 490 min ton avtomobil benzini, 8 min tondan çox stirol-divinil kauçuk, 53 min ton etil spirti istehsal edilmişdir. Sumqayıt Sintetik Kauçuk Zavodunun mənfəəti 26 milyard rubl artmışdır [11].

Neft emalı və neft-kimya sənayesində IX beşillik planının ilk illərindən (1971-1972 – S.Ş) bir sıra avadanlıqlar – mumsuzlaşdırma və asfaltdan təmizləmə qurğuları istifadəyə verilmiş və yenidən qurulmuş, səmərəli katalizatorların istehsalı təşkil edilmişdir. İşçilərin 70 %-i – 11 mindən çox işçi, o cümlədən 2,3 min mühəndis və texniki işçi öz ixtisaslarını artırmışdır. Vladimir İliç adına Neft Emalı Zavodunda hesablama mərkəzi ilə avtomatlaşdırılmış idarəetmə sisteminin birinci mərhələsi istifadəyə verilmiş, neft kəmərinin böyük hissəsinin yüklənməsi və xeyli miqdarda xam neftin qəbul edilməsi Bakıdan kənara aparılmışdır. IX beşilliyin 4 ilində 11 yeni növ yanacaq, yağların istehsalına start verilmiş, 105 növ məhsuldan 85-i birinci kateqoriya üzrə sertifikatlaşdırılmış, onların beş növünə Keyfiyyət nişanı verilmişdir [12].

Ulu öndər Heydər Əliyevin Sovet Azərbaycanına birinci rəhbərliyi dövründə xalq təsərrüfatının inkişafına, dövriyyə vəsaitlərinin artması və digər ehtiyaclara əsaslı vəsait qoyuluşu ildən-ilə artmışdır. 1974-1975-ci illərdə əsas istiqamətlər üzrə büdcə xərcləri aşağıda cədvəldə göstərilən məbləğdə (milyon rubl) nəzərdə tutulmuşdur:

**Cədvəl 1.**

| | **1974** | **1975** | **1974-cü ilə nisbətən %** |
|---|---|---|---|
| Xalq təsərrüfatı | 593,1 | 626,1 | 105,6 |
| Sosial-mədəni tədbirlər | 894,3 | 928,8 | 103,9 |
| Təhsil | 527,6 | 545,3 | 103,4 |
| Səhiyyə və bədən tərbiyəsi | 169,7 | 173,8 | 102,4 |
| Sosial təminat və sosial sığorta | 164,5 | 180,1 | 109,1 |
| İdarəetmə | 26,2 | 26,7 | 101,9 |

*Mənbə: ARPİİ İSSA, f.1, siy.61, iş 98, c.168*

Cədvəldən göründüyü kimi, dövlət büdcəsindən xalq təsərrüfatının inkişafı üçün 1975-ci ildəki 593,1 milyon rubla qarşı 626,1 rubl və ya 5,6% artım, bundan əlavə, müəssisələr və təsərrüfat təşkilatlarının 596 milyon rubl təşkil edən öz vəsaitlərini kapital qoyuluşuna, istehsalat həcminin artırılmasına və başqa ehtiyaclara yönəldilməsi nəzərdə tutulmuşdur. Beləliklə, Azərbaycan Sovet Respublikasının xalq təsərrüfatının inkişafına qoyulan ümumi investisiya cari ilə (1974-cü il – S.Ş.) nisbətən 3,2% artmaqla 1222,1 milyon rubl təşkil etmişdir [13].

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında sovet Azərbaycanında sənayenin bir sıra yeni mütərəqqi sahələri – elektron, radiotexnika, cihazqayırma, aviasiya və müdafiə sənayesinin inkişafı ölkə iqtisadiyyatının çoxsaylı göstəriciləri idi. Arxiv materiallarından göründüyü kimi, sovet Azərbaycanının rəhbəri Heydər Əliyev cəmi beş il ərzində nazirlərlə, respublikanın təsərrüfat idarələrinin rəisləri ilə apardığı gərgin fəaliyyətin, çoxsaylı müşavirələr və söhbətlərin nəticəsində ölkəmizdə maşınqayırma sahəsində böyük həcmdə yeni tikinti-quruculuq işlərinin aparılmasına nail olmuş və bununla, təbii ki, Azərbaycanda sənaye istehsalı strukturunun ciddi təkmilləşməsini təmin etmişdir.

IX beşilliyin ilk 4 ili üçün planla müəyyən edilmiş gözlənilən göstəricilərin yerinə yetirilməsi aşağıdakı kimi olmuşdur:

**Cədvəl 2.**

| | Artım (%) | | |
|---|---|---|---|
| | **Plana uyğun** | **Gözlənilən** | **4 il ərzində +, -** |
| Əldə edilən milli gəlir | 29,3 | 30,5 | +1,2 |
| Sənaye | 32,1 | 36,3 | +4,2 |
| “B” qrupunun inkişafında qabaqlama mövcuddur | | | |
| Belə ki, | | | |
| “A” qrupu | 31,4 | 33,8 | +2,4 |
| “B” qrupu | 33,9 | 43,4 | +9,5 |
| Kənd təsərrüfatı | 26,6 | 32,8 | +6,2 |
| Yük dövriyyəsi | 14 | 20,1 | +6,1 |
| Əmək məhsuldarlığı: | | | |
| Sənayedə | 22 | 26 | +4 |
| Bununla belə geridə qalma templəri: | | | |
| Dövlət sərmayə qoyuluşunda | 44,4 | 27,6 | -16,8 |
| Ticarət dövriyyəsində | 41,2 | 25,7 | -15,5 |
| Məişət xidmətlərində | 2 dəfə | 152,1 | -4,7 |
| Adambaşına real gəlirdə | 25 | 18,8 | -6,2 |
| Əmək məhsuldarlığında: | | | |
| Kənd təsərrüfatı | 32,2 | 24,2 | -8 |
| Tikinti | 25,4 | 18,5 | -6,9 |

*Mənbə: ARPİİ İSSA, f.1, siy.61, iş 98, s.98*

Cədvəldə göstərilən geriləmənin qarşısı dərhal alınaraq Azərbaycan KP MK-nın 25 dekabr 1974-cü il tarixli plenumunda Azərbaycan SSR xalq təsərrüfatının inkişafının 1975-ci il üçün Dövlət Planının layihəsi qəbul edildi [14]. Plan sənayenin davamlı yüksəlişini, bununla da 1971-1975-ci illərdə sənaye istehsalının beşillik planda göstərilən 46 faizinə qarşı 48 faiz artırılmasını nəzərdə tuturdu. İstehlak mallarının istehsalının daha sürətli templərlə artması – 1975-ci ildə “B” qrupuna aid malların istehsalı daha 12,2%, ümumilikdə 5 il ərzində isə 61% çatdırılması (beşillik plana görə 49,9%) təmin edilirdi, “A” qrupunun istehsal vasitələrinin artım səviyyəsi müvafiq olaraq 7,4% və 43,6%, yəni beşillik planın səviyyəsində saxlanılmışdır. 1975-ci il üçün respublikanın iqtisadi potensialının artırılması məsələlərinin həlli üçün nəzərdə tutulmuş sənaye sahələrində, məsələn, maşınqayırma və metal emalının istehsalı (15%), kimya və neft-kimya sənayesi istehsalının (14,5%) daha sürətli artımı nəzərdə tutulmuşdur [15]. Yanacaq sənayesində neft ehtiyatlarının sənaye artımı 35 milyon ton, qazın – 14 milyard kubmetr, neft hasilarının 17,645 min ton, qaz hasilatının isə 9,260 milyon kubmetrə qədər artırılması planlaşdırılmışdır [16].

Tarixən qədim əkinçilik diyarı olan Azərbaycan ulu öndər Heydər Əliyevin rəhbərliyinin sovet dönəmində SSRİ-nin ən inkişaf etmiş aqrar-sənaye respublikalarının birinə çevrilmiş, bununla belə, iqtisadiyyatın hərtərəfli inkişafı üçün kənd təsərrüfatına respublika miqyasında sərmayə qoyuluşunun həcmi aşağıdarı kimi artırılmışdır:

**Cədvəl 3.**

| | Cəmi | Həmçinin nazirliklər və idarələr üzrə | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | **Kənd Təsərrüfatı nazirliyi** | **Üzümçülük və Şərabçılıq üzrə Dövlət Komitəsi** | **"Azmeyvə" tərəvəz sənaye** | **Meliorasiya Nazirliyi** | **Azərkənd təsərrüfat texnika** | **Dövlət Peşə Təhsil Komitəsi** | **Digər Nazirliklər** |
| 1976 - 1980-ci illərdə sərmayə qoyuluşu | 1.087,40 | 249,08 | 434,28 | 190,72 | 48,33 | 126,38 | 27,81 | 10,80 |

*Mənbə: ARPİİ İSSA, f.1, siy.62, iş 102, s.48*

Kolxoz və sovxozların vəsaitləri hesabına kapital qoyuluşunun həcmi aşağıdakı cədvəldə göstərildiyi kimi olmuşdur (mln.rub.):

**Cədvəl 4:**

/məbləğ göstəriciləri min rubl/

| 1976-1980 cəmi | 1976 | 1977 | 1978 | 1979 | 1980 |
|---|---|---|---|---|---|
| 650 | 110 | 123 | 131 | 139 | 147 |

*Mənbə: ARPİİ İSSA, f.1, siy.62, iş 102, s.48*

Təsərrüfatlararası müəssisələrin 1975-1983-cü illər üzrə illik hesabatlarının əsas göstəricilərinə əsasən kənd təsərrüfatı müəssisələrinin sayı və kənd təsərrüfatının ümumi məhsulu durmadan artmışdır:

**Cədvəl 5.**

/məbləğ göstəriciləri min rubl/

| | 1975 | 1976 | 1977 | 1978 | 1979 | 1980 | 1981 | 1982 | 1983 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Təsərrüfatlararası kənd təsərrüfatı müəssisələrinin sayı | 54 | 60 | 75 | 86 | 94 | 101 | 103 | 113 | 131 |
| Onlardan heyvandarlıq | 49 | 59 | 57 | 62 | 65 | 66 | 63 | 66 | 73 |
| Kənd təsərrüfatının ümumi məhsulu /1973-cü ilin müqayisəli qiymətləri ilə/ | 5265 | 5554 | 10480 | 18385 | 20019 | 22602 | 25912 | 26097 | 27327 |

*Mənbə: ARDA, f.2511, siy.1, s.v. 6505, s.6*

Sovet Azərbaycanında efir yağları sənayesinin yaradılması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1974-cü ildə dünyada efir yağlarının istehsalı ildə təxminən 20 min ton təşkil edirdi [17]. Efir yağlarının istehsalına görə kapitalist ölkələri arasında Fransa birinci yeri (22 zavodda 1000 tona qədər efir yağları istehsal olunurdu), sosialist ölkələri arasında isə Bolqarıstan tuturdu (dünyanın qızılgül yağı istehsalının 96% Qazanlık vadisində cəmləşmişdir). Sovet İttifaqında Qazanlık qızılgülü plantasiyaları yalnız Azərbaycanın Zaqatala rayonunda mövcud olmuşdur. 1969-cu il iyulun 18-də Azərbaycan SSR Nazirlər Sovetində "Azərbaycan SSR-də efir yağları sənayesinin yaradılması haqqında" 138 nömrəli qərar qəbul edildi. Son məhsulun – Qazanlık qızılgülünün ləçəklərindən qızılgül yağının alınması üçün uzun illər ərzində gərgin təcrübə işləri aparıldı, nəticədə Azərbaycanda yeni sənayenin – efir-yağ sənayesinin inkişafı üçün real baza yaradıldı. 1971-ci ildə (3 il ərzində) efir yağlı bitkilərin əkin sahəsi Sovet Azərbaycanında 14 hektardan 600 hektara çatdırıldı [18]. 1974-cü ildə Zaqatalada Sovet İttifaqında ilk dəfə istehsal olunan nadir texnoloji avadanlıqla təchiz edilmiş müasir qızılgül yağı zavodu əsasən tikilib başa çatdırılmışdır [19]. Maraqlıdır ki, SSRİ-də qızılgül yağı yüksək qiymətləndirilirdi: qızılgül yağının 1 kq – 1000 rubl (topdan) və ya 5000 rubla (pərakəndə) bərabər tutulurdu, demək olar ki, 1 kq qızılgül yağının qiyməti 5 ton tərəvəz, 3 ton üzüm və 1 taxıl vaqonu qiymətində dəyərləndirilirdi [17]. Qafqazda – qonşu Cənubi Qafqaz respublikaları arasında Cürcüstanda cəmi 40 növ efir yağlarından 15, Ermənistanda isə 4 növü istehsal olunurdu. Gürcüstan SSR-də 20 milyon rubl dəyərində məhsulla 60 ton efir yağları istehsal edən 10 zavod inşa edilmişdir. Azərbaycan SSR-də yabanı halda bitən efirli bitkilərin 1000-ə qədər növü mövcud idi ki, onlardan 300-ü Elmlər Akademiyasının Botanika İnstitutunda ekspertizadan keçmiş və 50-si sənaye əhəmiyyətli efirli bitkilər olduğu hesab edilmişdir. Sovet Azərbaycanında Şəki-Zaqatala zonasında və Abşeronda sənaye əhəmiyyətli 6 bitki növündən efir yağları istehsal olunurdu: qazanlıq qızıl gülü, nanə-cövhər, nərgiz gülü, zəfəran, pişiknanəsi və qatırdırnağı [17]. Zəfəran Sovet İttifaqında yalnız Azərbaycanda – Abşeronda becərilirdi.

Sovet dövründə çox sayda azərbaycanlıların Türkiyədə, Almaniyada, ABŞ-də, İsveçrədə və digər kapitalist ölkələrində yaşadıqlarını və onların əksəriyyətinin İkinci Dünya müharibəsindən sonra vətənə geri qayıtmadıqlarını ulu öndər Heydər Əliyevə xidməti vəzifəsinə müvafiq olaraq yaxşı məlum idi. 1972-ci ilin mart ayında Heydər Əliyev Azərbaycan SSR-nin büdcəsi hesabına kiçik ştatlı və maliyyə vəsaiti ilə "Xaricdəki həmvətənlərlə mədəni əlaqələr üzrə Azərbaycan cəmiyyəti"nin yaradılması təşəbbüsü ilə Sov.İKP-nin Mərkəzi Komitəsinə müraciət edir. Bu dövrdə digər ittifaq respublikalarında, həmçinin Cənubi Qafqazda Gürcüstan SSR-də belə cəmiyyətlərin yaranma təcrübəsi artıq mövcud idi. Azərbaycanda yaradılacaq cəmiyyətin vəzifələrindən biri xaricdəki soydaşlarımız arasında təbliğat işlərinin aparılması göstərilmişdir [20].

Buna cavab olaraq Sov.İKP MK-nın beynəlxalq şöbəsi Azərbaycan SSR-də Xaricdəki Həmvətənlərlə Əlaqələr Cəmiyyətinin yaradılması məsələsi-

nin qaldırılmasını məqsədəuyğun hesab etməmiş və bunun müqabilində Respublikanın xarici ölkələrlə dostluq və mədəni əlaqələr Cəmiyyətində xaricdəki həmvətənlərlə əlaqələr şöbəsinin yaradılmasını təklif edərək, bunun üçün 3 ştat vahidi: şöbə müdiri, referent və katibə-makinaçı ayrılmasının mümkün olduğunu bildirmişdir [21].

Beləliklə, sovet Azərbaycanının KP MK-nın birinci katibi Heydər Əliyevin böyük siyasi cəsarətinə əsaslanan təşəbbüsü nəticəsində xarici ölkələrlə dostluq və mədəni əlaqələr Cəmiyyətinin nəzdində xarici həmvətənlərlə əlaqələr şöbəsinin yaradılması qərara alınır [22]. İllər sonra, artıq müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrdə, ümummilli lider Heydər Əliyev bu ideyanın Cənubi Qafqazda yaşayan digər xalqları kimi Azərbaycan xalqı üçün də tam və ədalətli gerçəkləşməsinə müvəffəq olur və dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın vətənləri ilə əlaqələrinin möhkəmləndirilməsi, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təminatı baxımından müstəsna əhəmiyyət kəsb edən "Xarici ölkələrdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaradılması barədə" 22 avqust 2002-ci il tarixli 780 saylı fərmanı imzalayır. Ulu öndər Heydər Əliyevin siyasi kursunun sadiq davamçısı olan Prezident cənab İlham Əliyev 14 may 2009-cu il tarixində "Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin və strukturunun təsdiq edilməsi barədə" 95 saylı Fərmanı imzalayır [23].

Nəinki Qafqazda, bütövlükdə Sovet İttifaqında ilk XIV Beynəlxalq Astronavtika Konqresi 1973-cü ilin oktyabrın 7-dən 13-dək ulu öndər Heydər Əliyevin sovet Azərbaycanının rəhbəri olaraq təşəbbüsü və səyləri nəticəsində Bakı şəhərində 800 xarici alim – kapitalist ölkələrindən 700 nəfər, sosialist ölkələrindən 100 nəfər daxil olmaqla cəmi 1500 nümayəndənin iştirakı ilə Bakı şəhərində keçirilmişdir. Daha sonra Heydər Əliyevə ünvanladıqları təşəkkür məktublarında Beynəlxalq Astronavtika Federasiyasının prezidenti, professor Luici Napolitana [24] və Astronavtika Federasiyasının prezidenti Stark Draper [25] Konqresin həm elmi əhəmiyyəti, həm də təşkilati baxımından böyük nailiyyət olduğunu, iclaslarda iştirakçıların sayı baxımından isə Beynəlxalq Astronavtika Federasiyasının bütün əvvəlki rekordlarını qırdığını qeyd etmişlər. SSRİ Elmlər Akademiyasının prezidenti V.Kotelnikov Heydər Əliyevə ünvanladığı 1973-cü il 12 noyabr tarixli məktubunda dərin minnətdarlığını bildirərək qeyd etmişdir ki, Konqresin hazırlanması və keçirilməsi üzrə bütün işlərin təşkilində onun şəxsi töhfəsi həlledici əhəmiyyyətə malik olmuşdur [26].



**Şəkil 1. Azərbaycan KP MK-nın birinci katibi, Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd Heydər Əliyev Beynəlxalq Astronavtlar federasiyasının XIV Konqresinin açılışına həsr olunmuş təntənəli yığıncağın Rəyasət Heyətində 11.10.1973**
*Mənbə: AR DKFSA, inv.№ 87055*

Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin açılış mərasimində çıxışı zala toplaşan kosmonavtika sahəsində elm xadimləri tərəfindən çox böyük maraqla qarşılanmış və Beynəlxalq Astronavtlar Federasiyasının XIV Konqresinin işinin əsas istiqamətlərini müəyyən etmişdir [27]. Beləliklə, dünyanın məşhur astronavtlarının və kosmonavtlarının iştirak etdiyi Konqres çox geniş tədbirlər planı ilə [28] Qafqaz tarixində ilk dəfə ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında respublikamızın gözəl paytaxtı Bakı şəhərində keçirilmiş və beynəlxalq əhəmiyyətli hadisəyə çevrilərək hələ sovet dövründə Azərbaycanda kosmonavtikanın inkişaf tarixinin təməlini qoymuşdur.

SSRİ-də yaradılan süni yer peykləri olan "Meteor" meteoroloji kosmik sistemlərinin göyərtəsində yerin səthinin, bulud örtüyünün, Yer kürəsinin işıqlı və qaranlıq səthlərində qar və buzun təsvirlərini sistematik və tez bir zamanda əldə etməyə imkan verən avadanlıqlar quraşdırılmışdır. "Meteor-Priroda" kosmik sistemində əldə olunan məlumatlar xalq təsərrüfatının bir sıra vacib problemlərinin həllində istifadə olunurdu, məsələn, geologiyada (Yerin geoloji

quruluşunun öyrənilməsi, aktiv yataqların axtarışı), kənd təsərrüfatında (bitkilərə nəzarət, məhsuldarlıq), balıqçılıqda (optimal balıqçılıq sahələrinin müəyyən edilməsi, suların çirklənmə səviyyəsi, suyun temperaturu), meliorasiya və meşə təsərrüfatında və s. Azərbaycanın coğrafi mövqeyinə görə Orta Asiya, Qafqaz, İran, İraq, Türkiyə, Fars körfəzi ərazilərini əhatə edən regionun mərkəzində yerləşdiyini nəzərə alaraq, Qafqazın və Orta Asiyanın təbii sərvətlərinin öyrənilməsinin təşkili məqsədilə Azərbaycan SSR Elmlər Akademiyasında xüsusi mərkəzin yaradılması ulu öndər Heydər Əliyevin ilk hakimiyyət dövrü gerçəkləşmişdir. Bununla bağlı Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevə ünvanlanan 22 avqust 1973-cü il tarixli məktubda Azərbaycan SSR Elmlər Akademiyasında Cənub-Şərq Xüsusi Mərkəzinin qapalı bölməsinin yaradılması və kosmik texnologiyalardan istifadə etməklə təbii ehtiyyatların tədqiqinin təşkil olunmasına göstəriş verilməsi xahiş olunur [29]. Nəticə etibarilə, Azərbaycanda 1975-ci ildə “Kosmik texnika vasitəsi ilə təbii sərvətlərin tədqiqi üzrə Cənub-Şərq Mərkəzinin yaradılması haqqında” Azərbaycan KP MK-nın qərarının qəbul edilməsi arxiv sərədlərindən məlum olur [30].

Son illər ərzində respublikamızda müasir rəqəmsal texnologiyaların tətbiqi və kosmik sənaye quruculuğunda əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur. Azərbaycanın kosmik sənayesinin inkişafının ikinci mərhələsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı ilə bağlıdır, çünki müasir Azərbaycanın tarixində kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılmasına 4 noyabr 2008-ci il tarixli sərəncamla [31] başlanmışdır. Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə möhtəşəm kosmik layihələr həyata keçirilmişdir – 2013-cü ildə “Azerspace-1” telekommunikasiya, 2014-cü ildə “Azerski” Yerin məsafədən müşahidəsi, 2018-ci ildə “Azerspace-2” telekommunikasiya peykləri orbitə çıxarılıb. Cənubi Qafqaz respublikası Gürcüstanın telekanalları 2014-cü ildən başlayaraq “Azerspace-1” peyki vasitəsilə yayımlanır. Əlbəttə, 74-cü Beynəlxalq Astronavtika Konqresinin ikinci dəfə 50 il sonra 2023-cü ilin oktyabrın 2-6-da Cənubi Qafqazda peykləri olan ilk respublikanın paytaxtı Bakı şəhərində keçiriləcəyi Azərbaycan Respublikasının Cənubi Qafqazda gündən-günə artan nüfuzuna, müasir rəqəmsal texnologiyaların inkişafına və kosmik sənaye quruculuğu sahəsində mühüm nailiyyətlərin əldə edilməsinə dəlalət edir.

Sovet dövründə elmin başqa sahələri də sürətlə inkişaf edirdi, məsələn, Azərbaycanın digər Zaqafqaziya sovet respublikaları arasında tibb, xüsusən, neyrocərrahiyyə sahəsində nailiyyətləri nəzərəçarpacaq dərəcədə yüksək olmuşdur. Ulu öndər Heydər Əliyevin ilk rəhbərlik dövründən əvvəlki illərdə respublikada neyrocərrahiyyə xidməti son dərəcə ləng inkişaf edirdi, neyrocərrahiyyə xəstələri əsasən ümumi xəstəxanaların cərrahiyyə şöbələrində yerləşirdi. 1974-cü ilə qədər Respublika Klinik Xəstəxanasında cəmi 50 çarpayılıq şöbə fəaliyyət göstərirdi və burada lazımı avadanlığın olmaması xəstələrə düzgün diaqnozun qoyulmasına və mürəkkəb əməliyyatların aparılmasına imkan vermirdi.

Bu, son dərəcə mühüm məsələ ulu öndər Heydər Əliyevin Sovet Azərbaycanına rəhbərlik illərində öz həllini tapdı, üç Zaqafqaziya respublikası arasında məhz “Azərbaycan SSR-də Neyrocərrahiyyə Mərkəzinin təşkili məqsədəuyğun” hesab edildi [32]. Bunun müəyyən səbəbləri var idi, əsasən, Azərbaycanda N.Burdenko adına Neyrocərrahiyyə İnstitutunda təhsil almış yüksəkixtisaslı kadrların mövcud olması bu yardımın təşkili və göstərilməsində labüd davamlılığın təmin edilməsilə neyrocərrahiyyə xidmətinin yaradılmasına imkan verirdi. Bunu da qeyd etmək lazımdır ki, əhalinin hər 10 min nəfərinə düşən tələbələrin və mütəxəssislərin sayına görə respublikamız SSRİ-də ilk yerlərdən birini tuturdu – fəhlə və qulluqçuların ümumi sayına görə mütəxəssislər 1965-ci ildə 15%, 1970-ci ildə isə artıq 17,7% təşkil edirdi [32].

1976-1980-ci illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Cənubi Qafqaz respublikaları üçün elmi-praktik Neyrocərrahiyyə Mərkəzinin yaradılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir – Bakıda 400 çarpayılıq, 19 klinik-diaqnostik, funksional və reabilitasiya kabinetləri olan ixtisaslaşdırılmış Neyrocərrahiyyə xəstəxanası inşa edilmiş, digər respublikalardan gələn qonaqlar üçün 40 çarpayılıq pansionat, neyro-anesteoloji və neyro-reanimasiya, izotop diaqnostikası, şüa terapiyası kimi xidmətlərin yaradılması, müasir klinik-diaqnostika avadanlıqların, o cümlədən “Siemens” və “Hirador” firmalarının beynin ardıcıl angioqrafik tədqiqi üçün rentgen aparatları və “Alvar” tipli elekroensefaloqrafik cihazın alınmasına vəsait ayrılması, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda VI kurs tələbələri üçün nəzərdə tutulmuş (subordi-

natura) neyrocərrahiyyə kursunda neyrotravmaların diaqnostikası və müalicəsi ilə tanış olması kimi məsələlər öz həllini tapmışdır [33].

Beləliklə, "durğunluq dövrü" termininin SSRİ tarixində 1964-1986-cı illəri təyin etmək üçün M.Qorbaçovun istifadə etdiyi siyasi klişedən başqa bir mənası olmamışdır. Əslində, bu dövrün tarixi təhlili göstərir ki, görkəmli dövlət xadimi və Qafqazın müdrik siyasi lideri kimi dünya miqyasında şöhrət qazanmış Heydər Əliyevin 1969-1982-ci illəri əhatə edən ilk hakimiyyət dövründə Azərbaycan SSR sənaye, kənd təsərrüfatı, sosial həyat, elm, təhsil, mədəni həyat, bir sözlə, çoxşahəli iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafı və səviyyəsinə görə Cənubi Qafqazın müstəqil yaşamağa qadir olan qabaqcıl respublikasına, keçmişdə Sovet imperiyasının ucqar, geridə qalmış və xammal bazası olan vilayətindən misli görünməmiş inkişaf və dirçəliş nəticəsində yüksək səviyyəli industrial-aqrar dövlətinə çevrilmişdir.

Bu günün müasir Azərbaycan Respublikasında elə bir sahə, elə bir nailiyyət yoxdur ki, onun əsasında ulu öndər Heydər Əliyevin imzası olmasın və bu gün müstəqil Azərbaycan dövlətinin müasir dövlət strukturunun yaradılmasında tariximizin zaman ötdükcə uzaqlaşan, lakin eyni zamanda bir çoxlarımıza hələ də yaxın və doğma olan sovet dövründə Heydər Əliyevin ideyaları, gərgin dövlətçilik fəaliyyəti və misilsiz xidmətləri böyük rol oynamışdır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Hüseynova İ. Tarix. Zaman. Düşüncələr., c.III. / İ.Hüseynova. – Bakı - 2020, 430 s., -s.263.*

*2. СССР в цифрах: краткий статистический сборник / Центр стат.упр. при Совеете Министров СССР. Москва, 1984 год, 239 стр., -səh.95.*

*3. СССР в цифрах: краткий статистический сборник / Центр стат.упр. при Совеете Министров СССР. Москва, 1984 год, 239 стр., -səh.116.*

*4. Страна Советов за 50 лет. Сборник статистических материалов. Москва, 1967 год, 352 стр., -s.69.*

*5. Промышленность СССР. Статистический сборник. Москва. Финансы и статистика, 1988, 286 s., - s.142.*

*6. Материалы к протоколу №18 заседания Бюро ЦК КП Азербайджана от 2 сентября 1976 г., Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivi, f.1, siy.63, iş 82, 388 v., - səh.359.*

*7. Материалы к протоколу №15 заседания Бюро ЦК КП Азербайджана от 14 июля 1976 г., ARPİİ İSSA, f.1, siy.63, iş 73, 293 v., - səh.291.*

*8. Təhlili məruzələr, Azərbaycan Respublikasının Dövlət Arxivi, f.2511, siy.9, s.v.7233, 246 v., - səh.33.*

*9. Материалы к протоколу №126 заседания Бюро ЦК КП Азербайджана от 27 июня 1975 г., ARPİİ SSA, f.1, siy.62, iş 55, 243 v., - səh.218.*

*10. Hüseynova, İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu. / İ.Hüseynova. – Bakı: "Təhsil"-2004, -472 səh., - s.54.*

*11. Материалы к протоколу №113 заседания Бюро ЦК КП Азербайджана от 8 января 1975 г., ARPİİ İSSA, f.1, siy.62, iş 13, 337 v., - səh.191.*

*12. Материалы к протоколу №129 заседания Бюро ЦК КП Азербайджана от 22 июля 1975 г., ARPİİ İSSA, f.1, siy.62, iş 65, 245 v., - səh.16.*

*13. Материалы к протоколу №112 заседания Бюро ЦК КП Азербайджана от 25 декабря 1974 года, ARPİİ İSSA, f.1, siy.61, iş 98, 422 v., - səh.170.*

*14. Материалы к протоколу №112 заседания Бюро ЦК КП Азербайджана от 25 декабря 1974 года, ARPİİ İSSA, f.1, siy.61, iş 98, 422 v., - ., səh.97.*

*15. Материалы к протоколу №112 заседания Бюро ЦК КП Азербайджана от 25 декабря 1974 года, ARPİİ İSSA, f.1, siy.61, iş 98, 422 v., -səh.141.*

*16. Материалы к протоколу №112 заседания Бюро ЦК КП Азербайджана от 25 декабря 1974 года, ARPİİ İSSA, f.1, siy.61, iş 98, 422 v., -səh.143.*

*17. Материалы к протоколу №100 заседания Бюро ЦК КП Азербайджана от 6 августа 1974 года, ARPİİ İSSA, f.1, siy.61, iş 62, 449 v., -səh.148.*

*18. Материалы к протоколу №100 заседания Бюро ЦК КП Азербайджана от 6 августа 1974 года, ARPİİ İSSA, f.1, siy.61, iş 62, 449 v., -səh.150.*

*19. Материалы к протоколу №100 заседания Бюро ЦК КП Азербайджана от 6 августа 1974 года, ARPİİ İSSA, f.1, siy.61, iş 62, 449 v., -səh.126.*

*20. Материалы к протоколу №73 заседания Бюро ЦК КП Азербайджана от 28 августа 1973 г., ARPİİ İSSA, f.1, siy.60, iş 59, 328 v., - səh.285.*

*21. Материалы к протоколу №73 заседания Бюро ЦК КП Азербайджана от 28 августа 1973 г., ARPİİ İSSA, f.1, siy.60, iş 59, 328 v., - səh.284.*

*22. Материалы к протоколу №73 заседания Бюро ЦК КП Азербайджана от 28 августа 1973*

*г., ARPİİ İSSA, f.1, siy.60, iş 59, 328 v., - səh.32.*

*23. https://e-qanun.az/framework/17528.*

*24. Документальные материалы по вопросам связей с зарубежными странами. ARPİİ İSSA, f.1, siy.60, iş 168, 138 v., -səh.65.*

*25. Документальные материалы по вопросам связей с зарубежными странами. ARPİİ İSSA, f.1, siy.60, iş 168, 138 v., -səh.2.*

*26. Документальные материалы по вопросам связей с зарубежными странами. ARPİİ İSSA, f.1, siy.60, iş 168, 138 v., -səh.17.*

*27. Azərbaycan KP MK-nın birinci katibi, Sov. İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd Heydər Əliyev Beynəlxalq Astronavtlar federasiyasının XIV konqresinin açılışına həsr olunmuş təntənəli yığıncağın Rəyasət Heyyətində, 11.10.1973, Azərbaycan Respublikası Dövlət Kino Foto Sənədlər Arxivi, inv.№ 87055.*

*28. Материалы к протоколу №76 заседания Бюро ЦК КП Азербайджана от 4 октября 1973 г., ARPİİ İSSA, f.1, siy.60, iş 68, 135 v., -səh.115.*

*29. Материалы к протоколу №99 заседания Бюро ЦК КП Азербайджана от 1 августа 1974 г., ARPİİ İSSA, f.1, siy.60, iş 59, 350 v., - səh.180.*

*30. Материалы к протоколу №99 заседания Бюро ЦК КП Азербайджана от 1 августа 1974 г., ARPİİ İSSA, f.1, siy.60, iş 59, 350 v., - səh.170.*

*31. https://e-qanun.az/framework/15589.*

*32. Материалы к протоколу №89 заседания Бюро ЦК КП Азербайджана от 6 марта 1974 г., ARPİİ İSSA, f.1, siy.61, iş 29, 196 v., - səh.175.*

*33. Материалы к протоколу №87 заседания Бюро ЦК КП Азербайджана от 13 февраля 1974 г., ARPİİ İSSA, f.1, siy.61, iş 23, 196 v., -səh.102.*

## XÜLASƏ

Məqalədə qarşıya qoyulan başlıca məqsəd XX əsr Qafqaz tarixində görkəmli tarixi şəxsiyyət və Azərbaycan SSR-nin dövlət başçısı Heydər Əliyevin gərgin dövlətçilik fəaliyyəti nəticəsində respublikamızın Sovetlər imperiyasının ucqar geridə qalmış əyalətindən yüksək səviyyədə inkişaf etmiş, qabaqcıl industrial-aqrar respublikasına çevrilməsini əsasən arxiv sənədlərinin, statistik məlumatların təhlili nəticəsində sübuta yetirilməsi olmuşdur. Heydər Əliyevin Sov.İKP-nin birinci katibi təyin olunmasıyla başlanan və misli görünməmiş inkişaf mərhələsinə qədəm qoyan Cənubi Qafqazın Azərbaycan SSR-nin timsalında XX əsrin 60-80-cı illərini əhatə edən tarixi dövründə, nəhəng Sovetlər İmperiyasının sonunu gətirmiş Mixail Qorbacovun dövründə yayılmış "durğunluq dövrü" şablon siyasi ifadəsinin əksinə olaraq, bütün sahələrdə sürətli inkişaf, sənaye və kənd təsərrüfatında müstəsna dirçəliş, mədəni tərəqqinin baş verməsi məqalədə öz əksini tapmışdır.

**Açar sözlər:** *sovet dövrü, iqtisadi dirçəliş, Astronavtika konqresi, Cənub-Şərq mərkəzi*

## SUMMARY

The main goal of the author of this article is to prove, on the basis of archival materials and statistical data, the important fact of the accelerated development of the Azerbaijan SSR as a result of the intense state activity of Heydar Aliyev, who entered the history of the Caucasus as a wise political and historical figure, and the transformation of our country from a backward provincial outskirts of the Soviet Empire into highly developed agrarian-industrial republic. The article reflects the important historical period of the Azerbaijan SSR, which began after the appointment of Heydar Aliyev as the first secretary of the Central Committee of the Communist Party and covers the 60-80s of the XX century, which, unlike the stereotyped political phrase "stagnation" by Mikhail Gorbachev, was marked by an unprecedented scale of socio-economic development, the revival of industry and agriculture, cultural progress.

**Key words:** *Soviet period, economic revival, Astronautical Congress, South-East center*

**UOT 94(479.24)**

*ORCID iD: 0000-0001-5912-6781*

# DÜNYA AZƏRBAYCANLILARININ KONSOLİDASİYASININ NAXÇIVAN MƏRHƏLƏSİ

**YƏHYA BABANLI**
*AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun doktorantı, tarix üzrə fəlsəfə doktoru*
*E-mail: y_babanli@yahoo.com*

Ən yeni tarixdə diaspor məfhumu öz funksiyasını daha qabarıq şəkildə genişləndirərək beynəlxalq əlaqələrin əsas atributlarından birinə çevrilmişdir. Dünya inteqrasiya proseslərinin sürətləndiyi bir vaxtda diasporu milli heysiyyat, milli mənəviyyat məsələsi, etnik kimlik, etnik ünsür olmaqla yanaşı, xalqlar və dövlətlər arasında münasibətlərin subyekti, diplomatiyanın mühüm elementi hesab etmək olar. Müasir formada ortaya çıxan digər yeniliklər kimi diaspor fəaliyyəti də öz xalqının, dövlətinin keşiyində durmaqla, milli maraqlarını qorumaqla bərabər, dünyada gedən qloballaşma və modernləşmə prosesində mədəniyyətlərarası dialoqun dinamik inkişafının sürətlənməsində, xalqlar arasında sülhün, əmin-amanlığın yaranmasında və ortaq sivilizasiyanın formalaşmasında əlaqələndirici rolunu oynamalıdır. Diaspor potensialından ayrı-ayrı dövrlərdə müxtəlif məqsədlər üçün istifadə edilmişdir. Lakin birmənalı söyləmək olar ki, "Publik diplomatiya" anlamında olan bu fəaliyyət sağlam xarakterlidirsə, öz xalqının və digər xalqların firavanlığına xidmət edəcəkdir. Əgər, bu siyasət qeyri-düzgün aparılarsa, nəticə etibarilə xalqlararası əlaqələrin, dövlətlərarası münasibətlərin inkişafına anomal təsir göstərəcəkdir. Belə ki, düzgün olmayan strategiya milli ayrı-seçkiliyin yaranmasına gətirib çıxara və etnik partlayışın amilinə çevrilə bilər. Sadalananların məntiqi nəticəsi kimi belə qərara gəlmək olar: “Hər bir dövlətin milli diaspor potensialı dünyanın müxtəlif regionlarına səpələnən, məskunlaşan soydaşlarının, həmvətənlərinin etnik-siyasi təhlükəsizliyinin təminatında əsas vasitələrdən biridir və ya diasporun problemi bütövlükdə xalqın - dövlətin problemidir” [3].

XX əsrin sonlarında dünyadakı qütblərin toqquşması nəticəsində, SSRİ ərazisində “vahid dövlət və xalq” adı altında birləşdirilən müttəfiq respublikalarda yeni milli hərəkatlar və milli dirçəliş prosesi başladı. Tarix boyu birləşmə, həmrəy olma və müştərək hərəkət etmək arzu və istəyində olan Azərbaycan xalqı da yaranmış əlverişli vəziyyətdən milli ideya və maraqlar uğrunda istifadə etdi. Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan yeni nəsil ümummilli məqsəd naminə mübarizə apararaq həmrəylik istiqamətində mühüm addım atdı. Sovet rejiminin zəifləməyə başladığı ötən yüzilliyin 80-ci illərinin sonlarında dünya azərbaycanlıları bir-birləri ilə əlaqələr yaratmaq üçün səylərini artırdı. Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin yaradılması, diaspor quruculuğunun formalaşdırılması, inkişaf etdirilməsi ən vacib və strateji məsələlərdən biri olaraq qalırdı. Diasporla iş milli dövlətçilik baxımından mühüm əhəmiyyət kəsb etdiyinə görə dövlət səviyyəsində müvafiq işlərin görülməsi və müasir dövrün tələblərinə cavab verən strategiyanın müəyyənləşdirilməsi tarixi zərurətdən irəli gəlirdi. Bu sahə dövlətin xarici siyasətinin tərkib hissəsinə çevrilməliydi ki, tarixi vətənlərinin hüdudlarından kənarda yaşayan soydaşlarımız və həmvətənlərimiz onları birləşdirən milli dəyərlərin, hüquq və əsas azadlıqlarını müdafiə edən dövlətlərinin olduğunu bilsinlər, eyni zamanda yeni müstəqillik qazanmış tarixi Vətənləri - respublikalarının inkişafı, tanıdılması və təbliğində iştirak etsinlər.

Məhz Heydər Əliyevin Azərbaycan Respublikasında siyasi rəhbərliyə qayıdışından sonra diaspor quruculuğuna xüsusi diqqət yetirilmiş, xalqlar və dövlətlər arasında münasibətlərin inkişafında diaspor amilindən istifadənin səmərəsi özünü büruzə verdi. Bu sahədə vahid dövlət strategiyasının prioritet istiqamətləri konkretləşdirilmiş, diasporla iş dəyişən dünya mənzərəsinə, beynəlxalq münasibətlər sisteminə uyğun olaraq, ardıcıl və sistemli şəkildə həyata keçirilmişdir. Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olduğu zaman bu istiqamətdə konkret addımlar atılmışdır. Naxçıvan Ali Məclisi ümumxalq səylərinin əhəmiyyətini nəzərə alaraq, 1991-ci il 16 dekabr tarixində “31 Dekabr - Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında” qərar qəbul etmişdir və Azərbaycan Respublikasının Ali Soveti qarşısında vəsatət qaldırmışdır. Bu bayramın bütün ölkədə rəsmi qeyd olunmasına dair Azərbaycan Respublikasının Ali Soveti də qərar çıxarmışdır. Beləliklə, 1991-ci ildən etibarən Azərbaycanda hamımız üçün əlamətdar bir bayram olan “31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü” təntənə ilə qeyd olunur. Bu bayram

ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır [14].

Qeyd etdiyimiz kimi, Azərbaycan Respublikasının müstəqil dövlətçilik quruculuğunda əsas prioritetlərindən biri diasporla iş sahəsində siyasətin müəyyənləşdirilməsi və reallaşdırılması idi. Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyev dünyanın mövcud siyasi mənzərəsinə uyğun olaraq, yaratdığı optimal idarəetmə üsulu ilə digər sahələrlə yanaşı, Azərbaycan diasporunun təşkilatlanmasına da diqqət yetirmiş və Azərbaycan Respublikasının xarici siyasət strategiyasına diaspor elementi əlavə edilmişdir. Ötən əsrin son onilliyi SSRİ-nin süqutu ilə daha çox əlamətdar olmuşdur. Bununla da keçmiş ittifaq respublikalarının, eləcə də dünyanın siyasi həyatında yeni mərhələ başlanmışdır. Təbii ki, bu proseslər Azərbaycandan da yan keçməmişdir. Qədim tarixə və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan SSRİ-nin süqutundan sonra müstəqilliyini elan etdi və qısa zaman kəsiyində özünü dünyada tanıda bildi. Bu hadisə Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda yaşayan milyonlarla azərbaycanlının həyatında böyük dönüş yaratdı. Milli birliyin təminatı, dünya azərbaycanlılarının vahid milli mənafe ətrafında birləşdirilməsi dövlət quruculuğunun əsas vəzifələrindən biri kimi meydana çıxdı. Bu isə prosesə yeni yanaşma tələb edirdi. Dövlət maraqları ilə milli mənafenin vəhdəti sovet dönəmindən sonra ictimai şüurda inqilabi hadisə, milli təkamül və özünüdərk prosesində yeni mərhələ idi. Bunun əsas zəmini Heydər Əliyevin dünya azərbaycanlıları arasında böyük nüfuza malik olması, “azərbaycançılıq” ideologiyasının yaradıcısı kimi tutarlı amillərdir. Bununla, Azərbaycan Respublikası müstəqilliyimizin ilk illərində dünya azərbaycanlılarının mənafe və maraqlarının təminatçısı olduğunu rəsmən bəyan etmiş və xaricdə yaşayan azərbaycanlılarla sistemli iş aparılmasına başlanılmışdı. Yaxın tarixi keçmişimizə nəzər salsaq görərik ki, Azərbaycanda dövlətçilik təfəkkürü və milli mənlik şüuru hələ ötən əsrin 70-ci illərinin əvvəllərindən mahiyyətcə yeni sosial əsasda inkişaf etməyə başlamışdır. Elə o illərdə Heydər Əliyevin sayəsində həyatın bütün sahələrində sosial-iqtisadi, ictimai-siyasi, mənəvi-mədəni və sair sferalarda uğurlar qazanmaqla respublikamızı təkcə SSRİ-də deyil, bütün dünyada tanıtmağa nail ola bilmişdir. O dövrdə sərt imperiya qadağalarına baxmayaraq, müstəsna siyasi çeviklik və uzaqgörənlik nümayiş etdirərək, xalqımız və respublikamızın yüksəlişi üçün misilsiz xidmətlər göstərən, mükəmməl siyasi-iqtisadi mexanizm quran Heydər Əliyevin milli-mənəvi köklərimizə bağlılığı, tariximizə dərindən bələdliyi, cəsarətli təşəbbüsü və müdrikliyi, milli mənafeyimizi hər şeydən uca tutmasının nəticəsidir ki, azərbaycanlıları birləşdirəcək konseptual ideya - “Azərbaycançılıq” məfkurəsi formalaşmağa başlamışdır. Bütün sadalanan amillər nəzərə alınmaqla, yeni dünya düzənində əsas aktor kimi gündəmə gəlmiş diaspor, eyni zamanda lobbi fenomeni Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında, xarici siyasət strategiyasında əhəmiyyətli yer tutmağa başlamışdır [4].

T.ü.e.d. M.Qasımlının qeyd etdiyi kimi: “Həmin dövrün mövcud siyasi reallıqları diaspor problemi ilə milli ideoloji zəmində açıq və sistemli şəkildə məşğul olmağa imkan verməsə də, elm, təhsil, mədəniyyət, incəsənət sahəsində ciddi iş aparılır, respublikamızın nailiyyətləri təbliğ olunur, dünya azərbaycanlılarının Vətənlə əlaqəsinə xidmət edəcək hər bir imkandan istifadə edilirdi. Onun (Heydər Əliyevin) təşəbbüsü ilə Azərbaycan KP MK bürosunun 1973-cü il 28 avqust tarixli iclasının qərarı əsasında Azərbaycan xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyəti nəzdində Xaricdə yaşayan həmvətənlərlə əlaqə şöbəsi yaradıldı” [5].

Məlumdur ki, bu dövrdən başlayaraq, xarici ölkələrlə mədəni əlaqələrin güclənməsi, tərcümə işinin vüsətlənməsi, xaricdə yaşayan həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyətinin ("Vətən" Cəmiyyəti) yaradılması oldu. Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti 1946-cı ildə Bakıda yaradılmışdır. Bu da xaricdə yaşayan həmvətənlərimizin birliyinə və doğma vətənlə əlaqəsinə xidmət edərək, soydaşlarımızda milli qürur hissi oyadaraq onlarda ana yurda maraq və bağlılığı artırdı. Bunun davamı olaraq “1976-cı ilin 5 oktyabr tarixində Azərbaycan KP MK bürosunun Heydər Əliyevin sədrliyi ilə keçirilən iclasında Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin işini yaxşılaşdırmaq tədbirləri haqqında qərar qəbul edilmişdir” [8].

Belə ifadə etmək olar ki, tarixin müəyyən mərhələlərində dünyanın müxtəlif regionlarına səpələnən soydaşlarımızı və həmvətənlərimizi vahid məqsəd ətrafında birləşdirən "azərbaycançılıq" ideologiyasının toxumları məhz bu dövrdən başlayaraq səpilmişdir. Bu toxumlar SSRİ-nin dağılmağa başladığı ilk illərdə cücərməyə başlamışdır. Məlumdur ki, keçmiş

Dağlıq Qarabağ Muxtar Vilayətində Ermənistan ilə birləşmək istəyən separatçı hərəkatının tələbi 1988-ci ildə nisbətən dinc şəkildə başlasa da, növbəti aylarda SSRİ dövlətinin süqutunun yaxınlaşması səbəbindən fərqli istiqamətdə vüsət alaraq, etnik azərbaycanlılar ilə ermənilər arasında getdikcə böyüyən şiddətli münaqişəyə çevrilmiş və hətta etnik təmizləmə iddialarına səbəb olan qanlı toqquşmalarla müşayiət olunmuşdur. Elə bu hadisə dünya azərbaycanlılarının bir məqsəd ətrafında birləşməsi və ideoloji inkişafını şərtləndirmişdir. “1989-cu ilin noyabrında keçirilən Məclis xalqın iradəsini bir daha ifadə edərək Güney və Quzey Azərbaycan arasında humanitar, mədəni, iqtisadi və qohumluq əlaqələrini bərpa etmək məqsədilə sərhəd çəpərlərinin götürülməsi və mühəndis-texniki qurğuların sökülməsi haqqında qərar qəbul etmişdir. Sovet İttifaqı Kommunist Partiyasının, Azərbaycan Kommunist Partiyasının mərkəzi komitələri, partiyanın yerli orqanları, SSRİ sərhəd qoşunlarının rəhbərliyi buna mane olmaq üçün bütün siyasi və hərbi təsir vasitələrinə əl atdılar. Lakin buna baxmayaraq Azərbaycan Xalq Cəbhəsinin Naxçıvan Vilayət şöbəsi ardıcıl olaraq "Sərhəd hərəkatı" adlı bir sıra siyasi aksiyalar həyata keçirdi. Genişlənən xalq hərəkatı nəticəsində SSRİ-nin dövlət sərhədi boyunca çəkilən sərhəd çəpərləri elliklə söküldü. İlk dəfə olaraq Arazın o tayında, bu tayında olan bir millətin, soydaşların və həmvətənlərin ünsiyyət imkanları yarandı, sadələşdirilmiş keçid proseduru - məntəqələri təşkil olundu. 1989-cu il dekabrın 31-i Dünya azərbaycanlılarının həmrəylik bayramına çevrildi, 1990-cı ildə isə həmin günün ildönümü Naxçıvan Muxtar Respublikasında geniş qeyd edildi.

Hələ Naxçıvan Muxtar Respublikasında Ali Məclisin sədri vəzifəsində çalışdığı vaxt Heydər Əliyev hesab edirdi ki, dünyanın bütün qütblərində yaşayan soydaşlarımızın və həmvətənlərimizin milli maraqlar ətrafında bir araya gələrək düşdüyü çətin vəziyyətdən çıxmaqda Azərbaycana dəstək verməsi, respublikanın xilasına yol açacaq vasitələrdən biri ola bilər. Elə bu məqsədlə də Heydər Əliyev Naxçıvan Ali Məclisinin 1991-ci il tarixli iclasında dünya azərbaycanlılarına üz tutdu. Onları birliyə, həmrəyliyə, Azərbaycanın köməyinə səslədi. Heydər Əliyev dünya azərbaycanlılarına müraciətində deyirdi: "Biz istərdik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşları kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Çünki bizi birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir... Vətənini, millətini sevən hər bir azərbaycanlı müstəqilliyimizin dönməzliyi üçün ciddi səy göstərməli, vətənimizin, respublikamızın taleyi hər bir soydaşımızın taleyi olmalıdır" [8].

Naxçıvan Muxtar Respublikasından başlanıb, Azərbaycanın digər sərhəd rayonlarına da keçən bu ümumxalq hərəkatına imperiya mövqeyindən yanaşan SSRİ-nin və Azərbaycanın kommunist rəhbərliyi, hərbi dairələr ona qara yaxmağa başladılar. Onlar bunu bir qrup ekstremist və cinayətkar ünsürlərin əməli kimi qiymətləndirib, dünya ictimaiyyətinin gözündən salmağa çalışdılar. Bu məqsədlə sərhəd zonasında fövqəladə vəziyyət rejimi yaradıldı. "Sərhəd hərəkatı" ilə bağlı kommunist rəhbərlərin göstərişinə əsasən Xalq cəbhəsi üzvlərinə qarşı repressiyalar daha da gücləndi, onlardan bir neçəsi həbs olundu, işdən çıxarıldı, bir çox yerlərdə sökülmüş sərhəd çəpərləri bərpa olundu. Lakin qonşu ölkələrin, dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlıların bu prosesi parçalanmış xalqın təbii birləşmə meyli kimi müdafiə etməsi, ölkədə və dünyada gedən demokratik proseslər mövqeyindən qiymətləndirməsi xalqımıza qarşı yönəldilmiş təbliğatın qarşısını qismən aldı. 1990-cı ilin noyabr ayının 3-də Türkiyədə keçirilən Birinci Millətlərarası Azərbaycan dərnəkləri qurultayı isə Naxçıvan Muxtar Respublikasından başlanmış sərhəd hərəkatının real davamı kimi milli birlik və həmrəylik yolunda atılan daha bir mühüm addım oldu. Noyabr ayının 5-də qurultayın qəbul etdiyi qərarda 31 dekabr gününün hər il geniş qeyd edilməsi zərurəti irəli sürüldü. 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Bu barədə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 6 bənddən ibarət qərar qəbul etdi. Qərarda belə qeyd olunurdu:

1. 31 dekabr Dünya azərbaycanlılarının həmrəylik və birlik günü elan olunsun və hər il bayram edilsin.

2. Həmin gün Naxçıvan Muxtar Respublikası ərazisində iş günü hesab edilməsin.

3. 31 dekabrın Dünya azərbaycanlılarının həmrəylik və birlik günü kimi bütün Azərbaycan Respublikasında rəsmi qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Ali Sovetinə təklif verilsin.

4. Naxçıvan Muxtar Respublikasının şəhər və

rayon məclislərinə tapşırılsın ki, bayram günləri demokratik təşkilatların iştirakı ilə təntənəli mərasimlər hazırlayıb həyata keçirsinlər.

5. Akademik Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinə, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan şöbəsinə, Azərbaycan Yazıçılar Birliyinin Naxçıvan vilayət şöbəsinə, Xalq Təhsili Nazirliyinə tapşırılsın ki, 31 dekabr Dünya azərbaycanlılarının həmrəylik və birlik gününə həsr olunmuş elmi konfrans keçirsinlər.

6. Sərhəd çəpərlərinin bərpa edilməsi qanunsuz hesab edilsin və istehkam qurğularının ləğv edilməsini təmin etmək üçün deputat komissiyası yaradılsın" [12].

Bəllidir ki, Azərbaycan haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarının təşkilatlanmasında iki ən başlıca amil mühüm rol oynadı. Bunlardan birincisi, "Milli həmrəylik günü"nün təsis olunması, ikincisi isə "Azərbaycançılıq" məfkurəsinin yaradılması idi. Dekabr ayının 31-i yaşadığı yerindən, şəraitindən asılı olmayaraq hər bir azərbaycanlı tərəfindən ana vətən günü - "Milli qürur günü" kimi qeyd olunmağa başlanıldı. Öz mentalitetinə bağlı olan azərbaycanlı psixologiyası üçün bu eləcə də nəsildən-nəslə veriləcək bir "Milli dəyər günü", "Birliyin, həmrəyliyin təntənəsi günü" oldu. Dünyanın müxtəlif xalqlarına qoşulub "Yeni ili" qarşılayan hər bir azərbaycanlı, həmin ildən öz soydaşını milli bütövlüyü və milli həmfikri özündə təzahür etdirən bu gün münasibətilə də təbrik edir. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində çox mühüm rol oynayır. Dünya azərbaycanlılarının həmrəyliyi gününün qeyd edilməsi indi dünyanın dörd bir tərəfində yaşayan soydaşlarımız və həmvətənlərimizin mənəvi ehtiyacına çevrilmişdir.

Bu məsələlərin genişləndirilməsi, dünya ictimaiyyətinə çatdırılması zaman keçdikcə daha miqyaslı və effektiv şəkil aldı. Belə ki, 1993-cü ildə Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra dünyada yaşayan azərbaycanlılarla iş sahəsində mahiyyət və keyfiyyətcə yeni mərhələ başlanmışdır. H.Əliyev Dünya azərbaycanlılarının həmrəyliyi gününün təntənə ilə qeyd olunmasına sərəncam verdi. Bu da ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlıların konsolidasiyası üçün mühüm addımlardan biri olmuşdur. Bir daha harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı əmin ola bildi ki, Azərbaycan Respublikası dünya azərbaycanlılarının tarixi Vətəni və öz ata-baba yurdudur. "1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratmışdır. Ümummilli liderimiz bütün xarici səfərlərində Azərbaycan diasporunun nümayəndələri ilə görüşür, onların problem və qayğıları ilə maraqlanır, həmvətənlərimizi yenicə müstəqillik qazanmış respublikamızın tarixi mənafelərinin reallaşdırılması prosesində fəal iştirak etməyə çağırırdı" [1].

Müstəqilliyin ilk illərində azərbaycanlıların təşkilatlanması məsələsi isə, ilk növbədə, milli və ideoloji məsələ olaraq qalırdı. Dünya azərbaycanlılarının 1-ci qurultayının keçirilməsi haqqında 2001-ci il mayın 23-də Heydər Əliyevin tarixi sərəncam imzalaması isə bu mühüm istiqamətin inkişafına hesablanmışdı. Həmin il noyabrın 9-da və 10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının 1-ci qurultayı tarixə böyük bir prosesin başlanğıcı kimi daxil oldu. "Ümummilli lider Heydər Əliyevə məxsus olan bu ideya Azərbaycan diasporunun formalaşdırılması prosesini sürətləndirməyə xidmət edirdi" [2].

Milliyönlü strateji fikirlər, habelə hazırda Azərbaycan diasporunun şüarına çevrilən "Mən fəxr edirəm ki, azərbaycanlıyam" sözləri bu sahənin mühümlülüyünü göstərməklə yanaşı, qurultay dünya azərbaycanlılarının, soydaşlarımız və həmvətənlərimizin təşkilatlanması prosesində əhəmiyyətli dönüşə aparan müstəsna addım oldu [10].

Diaspor quruculuğunda mühüm məsələlərdən biri də xaricdəki soydaşlarımızın və həmvətənlərimizin hüquq və əsas azadlıqlarının, tarixi vətənləri ilə əlaqələrinin təmin edilməsini özündə əks etdirən dövlət siyasətinin müəyyənləşdirilməsi, müvafiq qanunvericilik bazasının yaradılması və həyata keçirilməsi olmuşdur. Heydər Əliyevin "Xaricdə yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" 2002-ci il 5 iyul tarixli fərmanı (Müasir dövrün reallıqları nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli 54 saylı Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradılmışdır), 27 dekabr 2002-ci ildə "Xaricdə yaşayan Azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" qanunu imzalaması və sair tədbirlər, vacib amillər bir daha sübut edir ki, Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil qaydada əlaqələndirilməsi, dünya azərbaycanlılarının milli birliyinin və tərəqqisinin təminatçısı Azərbay-

can dövlətidir [2].

Azərbaycan diasporunun dünyada güclü mövqeyi olan mənfur erməni diasporuna qarşı hazırlıqlı və dayanıqlı olmasının təmin edilməsi, Azərbaycanın bir millət və dövlət olaraq mənafeyinin beynəlxalq səviyyədə diasporumuz tərəfindən də qorunmasının mümkünlüyü baxımından yuxarıda qeyd edilən qərarların həlledici rolu var. Diasporumuzun formalaşması və güclənməsinə böyük önəm verən Heydər Əliyev xaricə rəsmi və işgüzar səfərlərində olduğu ölkələrdə Azərbaycan icmalarının nümayəndələrinə baş çəkir, bu intensiv görüşlərdə doğma Azərbaycana məhəbbət aşılayır və tövsiyələr verirdi. Həmin görüşlərin verdiyi stimul nəticəsində həmin ölkələrdə həmvətənlərimiz təşkilatlanmış, onlar doğma vətən Azərbaycanla sıx əlaqə yaratmağa başlamış, ayrı-ayrı ölkələrdə diaspor quruculuğu genişlənmişdir. Bütün bu tədbirlər əsası Heydər Əliyev tərəfindən qoyulmuş diaspor quruculuğu işinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirildiyini təsdiqləyir. Məhz diaspor ilə bağlı əsası qoyulmuş məqsədyönlü dövlət siyasətinin nəticəsində hazırda dünya azərbaycanlılarının birliyi və həmrəyliyi istiqamətində fəaliyyət müvəffəqiyyətlə davam etdirilərək yeni müstəviyə qaldırılmışdır. 2006-cı ilin martın 16-da Bakı şəhərində keçirilmiş dünya azərbaycanlılarının ikinci qurultayı isə yeni mərhələdə qarşıda duran əsas vəzifələri müəyyən etmiş, xaricdə yaşayan azərbaycanlıların birliyi ideyasının müasir dövrün çağırışları kontekstində həyata keçirilməsinin əsas prinsiplərini göstərmişdir. Prezident İlham Əliyev qurultaydakı nitqində Azərbaycanın milli mənafelərinin müdafiəsi işini xarici ölkələrdə yaşayan soydaşlarımızın hər birinin qarşısında duran prioritet vəzifə olduğunu bildirmişdir: "Azərbaycan xalqı böyük xalqdır. Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük xalqdır. Bizim hamımızın bir vətəni var-Azərbaycan. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək" [2].

2006-cı ilin iyununda Türkiyənin Antaliya şəhərində keçirilmiş dünya azərbaycanlı ziyalılarının - mədəniyyət və incəsənət xadimlərinin forumu diaspor quruculuğu işinə yeni məzmun vermişdir. Bu forumun əhəmiyyəti azərbaycanlı ziyalıların diaspor hərəkatına geniş şəkildə cəlb edilməsindən ibarət olmuşdur. XX əsr türk dünyasının görkəmli dövlət xadimləri və siyasətçilərinin bir araya gəlməsi ümumtürk problemlərinin həllinə dair müzakirələr aparması, düşüncələri və təklifləri bu işə öz töhfəsini verir.

Sözügedən Forumda türk dövlətləri arasında strateji ortaqlığın inkişaf etdirilməsi, diaspor iş birliyi, türk tarixi, sosial-iqtisadi inkişaf, mədəniyyətlə əlaqəli faktların dünya ictimaiyyətinə çatdırılması, türk diaspor təşkilatlarının işinin yüksək hala gətirilməsi, ayrı-ayrı ölkələrdə yaşayan türklər arasındakı münasibətlərin inkişafı və yaşadıqları problemlərin qaldırılması ətrafında müzakirələr aparılmışdır. Bundan başqa, forumda türk-Azərbaycan diaspor təşkilatları ortaq fəaliyyət protokolu, dünya türklərinə müraciət, Bakı bəyannaməsi, Ermənistanın Azərbaycana təcavüzü və ermənilərin Türkiyəyə qarşı terror və soyqırımı sayıqlamalarına qarşı bəyanat, Ermənistanın Azərbaycan torpaqlarının işğalını pisləyən qərar, sözdə erməni soyqırımını qəbul edən ölkələrə etiraz bəyanatının protokolları qəbul edilmişdir. Forumun nəticələri Türkiyə və Azərbaycan diaspor təşkilatlarının sıx əməkdaşlığına, birləşməsinə, Azərbaycan və türk xalqlarının birliyinin və milli mənafelərinin təmin edilməsinə, dövlət maraqlarının qorunmasına, tarixin sınaqlarından çıxmış dostluq tellərinin möhkəmlənməsinə öz töhfəsini verəcək və taleyüklü məsələlərin (erməni məsələsi və sair) həllində mühüm rol oynayacaqdır. Bu məqamla bağlı bir məsələni də qeyd etmək lazımdır. Diasporumuzun digər bizə yaxın ölkələrin diasporları ilə strateji tərəfdaşlıq məsələsi bu gün diqqət mərkəzindədir. Bu baxımdan Azərbaycan həqiqətlərini dünyada daha ətraflı təqdim etmək və diasporumuzun güclənməsi yolunda olan maneələri asan dəf etmək olar. Çünki digər güclü diasporlarla bu cür tərəfdaşlıq və əməkdaşlıq münasibətlərinin qurulması buna çox imkanlar açır.

Hazırda, diaspor quruculuğu ilə bağlı məqsədyönlü siyasətin yeni çalarlarla davam etdirilməsinin əyani göstəricisi isə qabaqcıl gənclərimizin dünyada Azərbaycan gənclərinin mütəşəkkilliyi uğrunda uğurlu təşəbbüslər göstərmələridir. Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin təşəbbüsü ilə 2009-cu ilin aprel ayında yaradılan Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı fəaliyyət göstərdiyi vaxt ərzində Rusiyada yaşayan və təhsil alan soydaşlarımızı öz ətrafında birləşdirən, onların Rusiya cəmiyyətinə inteqrasiyasına dəstək verən güclü bir quruma çevrilib [6].

Ümumilikdə diasporumuzun güclənməsi işinə çox güclü təkan verəcək bu proses - qabaqcıl, ali təhsilli gənclərimizin aparıcı ölkələrdə təşkilatlanması və ölkəmizi arzu olunan səviyyədə təbliğ etməsi diasporla iş üzrə dövlət siyasətində artıq keyfiyyət-

cə və mahiyyətcə yeni mərhələnin - lobbiçilik fəaliyyətinin başladığını göstərir. Bu isə qeyd edildiyi kimi, Azərbaycan diasporunun milli məqsəd və mənafe, bəşəri dəyərlər naminə daha da əlbir və qadir olmasına hesablanıb. Belə nəticəyə gəlmək olar ki, hər bir xalqın dünyəvi özünüifadəsi və özünümüdafiəsi üçün kifayət qədər diaspor potensialının olması zəruridir. Bu xüsusda, Dünya azərbaycanlılarının üçüncü Qurultayı isə "Dünya Azərbaycanlılarının III Qurultayının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 21 yanvar 2011-ci il tarixli, 1293 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü ilə bağlı Tədbirlər Planı"na əsasən 2011-ci il iyul ayının 5-6-da Bakı şəhərində keçirilmişdir. 2016-cı il iyunun 3-də Bakıda, Heydər Əliyev Mərkəzində Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılış mərasimi olmuşdur. Dünya Azərbaycanlılarının IV Qurultayında 49 ölkədən 500-dən çox diaspor nümayəndəsi və qonaq iştirak etmişdir. Qonaqların içərisində xarici ölkələrin Azərbaycana dost münasibəti ilə tanınan nüfuzlu siyasətçiləri, ictimai xadimləri, elm adamları və bir neçə ölkənin yüksək vəzifəli şəxsləri, parlament üzvləri də olmuşdur. Xaricdən dəvət edilən qonaqlarla yanaşı, Qurultayın işində Azərbaycanın müxtəlif dövlət və hakimiyyət strukturları, qeyri-hökumət təşkilatları, elm, təhsil, mədəniyyət və digər yaradıcı qurumların, siyasi partiyaların təmsilçilərindən ibarət 360 nəfərlik nümayəndə heyəti də iştirak etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultayın açılış mərasimində iştirak etmiş və nitq söyləmişdir. Daha sonra qurultay gənclər, informasiya müharibəsi və sairə mövzularda panel müzakirəsi ilə davam etdirilmişdir. “Müasir dövrdə informasiya müharibəsi - müdafiədən hücuma: şərtlər, siyasi reallıqlar və yeni fəaliyyət mexanizmləri”, “Keçmişin təcrübəsi və müasir düşüncə - Azərbaycan diaspor hərəkatında gənclər: yeni baxış və yeni strategiya”, “Lobbi quruculuğu: dəyişən geosiyasi reallıqlar yeni qlobal iqtisadi tendensiyalar kontekstində”, “Cəmiyyətə inteqrasiya və siyasi həyatda iştirak” mövzularında da panel iclasları keçirilmişdir. Hər beş ildən bir keçirilməsi qərara alınan Dünya azərbaycanlılarının növbəti V qurultayı vaxtı dəyişsə də, növbəti dəfə təşkil olunacağı şübhəsizdir. Vətən müharibəsində əldə edilmiş qalibiyyət fonunda qurultayın “Zəfər” adı altında Şuşa şəhərində reallaşdırılması labüddür. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli Fərmanına əsasən Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondu yaradılmışdır [11].

Azərbaycan Diasporuna Dəstək Fondu Azərbaycan Respublikasında həyata keçirilən islahatların və əldə olunmuş nailiyyətlərin dünyaya bəyan edilməsinə, ölkənin mənafelərinin müdafiəsinə, dünya azərbaycanlılarının milli-mənəvi dəyərlərinin qorunmasına, daha da inkişaf etdirilməsinə və tanıdılmasına, xaricdə yaşayan azərbaycanlıların milli və vətəndaş hüquqlarının müdafiəsinə yönəlmiş tədbirlərin həyata keçirilməsinə, lobbiçilik fəaliyyətinin güclənməsinə, soydaşlarımızın sosial-iqtisadi, ictimai-siyasi, mədəni-mənəvi problemlərinin həllinə, bu sahədə sosial layihələrin reallaşdırılmasına, habelə Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə və mütəşəkkilliyinin möhkəmlənməsinə dövlət dəstəyini təmin edən qurumdur.

Zənnimizcə, bu gün dünyanın beş qitəsinə səpələnən həmvətənlərimizdən ibarət nizami diaspor kontingentinin və onların missioner təşkilatlarının əsas funksiyası Heydər Əliyevin diaspor quruculuğu ideyası və Azərbaycan Prezidenti İlham Əliyevin yeni məzmunlu diaspor siyasəti əsasında yaşadıqları, fəaliyyət göstərdikləri donor ölkələrin qanunları çərçivəsində milli - varlığın, həmrəyliyin, birliyin, xüsusiyyətlərin, adət-ənənələrin daşıyıcısı olmaqla yanaşı, xalqlar arasında sosial-mədəni əlaqələrin, dövlətlərarası siyasi-iqtisadi münasibətlərin inkişafına töhfə verməkdir. Hazırda Azərbaycan diasporu Heydər Əliyevin milli diaspor strategiyasının Naxçıvandan diaspor quruculuğuna qədərki yolunun fundamenti üzərində davam etdirilməsinin nəticəsidir ki, Azərbaycan Respublikasının xarici siyasətində diasporumuz mühüm elementə çevrilməklə diplomatiyamızın inkişafında xüsusi yerə və rola malikdir. Diasporumuz beynəlxalq münasibətlərin iştirakçısı olmaqla, dövlətlərarası münasibətlərin inkişafında subyektə və xalqlar arasında gedən sürətli inteqrasiya proseslərinin iştirakçısına çevrilir. Lakin bildirilməlidir ki, diaspor fəaliyyətini daha da effektiv etmək üçün ideoloji işin aparılmasına ehtiyac vardır. Diasporun birliyi tam qorunmalı, onun lobbiyə çevrilməsinə səy artırılmalıdır. Diaspor təşkilatlarımızla elmi əlaqələrin inkişafına diqqət yetirilməlidir. Bu sahədə dünyadakı klassik diaspor və lobbilərin təcrübəsindən geniş istifadə olunmalıdır. Azərbaycan diasporunun maariflən-

dirilməsi işi artırılmalı, lobbiçilik fəaliyyəti gücləndirilməli və bu institutların potensialının yüksəldilməsi məqsədilə konseptual tədbirlər həyata keçirilməlidir.

Bu xüsusda, aşağıda sadalanan tədbirlərin reallaşdırılması məqsədəuyğun hesab olunur:

***1. Dünya azərbaycanlılarının birlik və həmrəyliyini gücləndirmək üçün yeni milli ideoloji konsepsiyanın qəbul olunması.***

***2. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində azərbaycanlıların qazandıqları Zəfərin ruhuna uyğun olaraq yeni milli məqsədyönlü layihələrin reallaşdırılması.***

***3. Naxçıvanın Azərbaycan dövlətçiliyində yeri və rolunu nəzərə alaraq buranın qədim tarixi və mədəniyyətinin dünyada tanıdılması və təbliğ olunması.***

***4. Xarici ölkələrdəki Azərbaycan Evlərində milli və strateji əhəmiyyətinə görə Naxçıvan guşələrinin yaradılması və günlərinin keçirilməsi.***

***5. Dünya azərbaycanlılarının həmrəyliyi gününün təsis edilməsinin Naxçıvanda elan edilməsini nəzərə alaraq orada Dünya Azərbaycanlılarının Həmrəyliyi Mərkəzinin açılması.***

Artıq mahiyyətcə və keyfiyyətcə yeni dövrünü yaşayan, tarixin sınaqlarından çıxmış Azərbaycan diasporu özünün mütəşəkkillik və möhkəmlənmə dövrünə qədəm qoymuşdur. Diasporun qüdrətini müəyyən etmək üçün müxtəlif ərazilərdə yaşayan və müvafiq qurumlarda təmsil olunan, birləşən soydaşlarımız və həmvətənlərimizin ümumi məqsədlər və milli mənafe əsasında vəhdətinin olması bu sahədə əsas şərtlərdəndir. İlk dönəmlərdə görülən məqsədyönlü tədbirlər isə bunu deməyə əsas verir ki, ölkə sərhədlərinin hüdudlarından kənarda yaşayan - məskunlaşan azərbaycanlılar və xaricdə fəaliyyət göstərən diaspor potensialımızın Azərbaycan həqiqətləri ilə birlikdə yaşaması və fəaliyyət göstərməsinin təməli qoyuldu.

Azərbaycan xalqı 2020-ci ilin 27 sentyabr - 10 noyabr tarixlərində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi fonunda baş verən Vətən müharibəsində əldə edilən qalibiyyət Azərbaycan dövləti ilə yanaşı, Azərbaycan diasporunu da zəfəridir. Son 30 ildə bu istiqamətdə müəyyənləşdirilən ideologiya və aparılan effektiv təbliğat nəticəsində birlikdə buna nail olundu. Qarabağ savaşının kuliminasiya nöqtəsi hesab olunan Şuşanın azad olunması ilə əlaqədar Azərbaycan Respublikasının Prezidentinin müraciəti zamanı "Gözünüz aydın olsun dünya azərbaycanlıları!" ifadəsini işlətməsi özündə dərin mənanı, birlik və həmrəyliyi təcəssüm etdirirdi.

Heydər Əliyevin təşəbbüsü və qərarı ilə qəbul edilən "31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü"nü 2020-ci ildən biz "Zəfər" ilə qeyd edirik. 2021-ci ildə isə həmin günün təsis edilməsinin 30 ili tamam oldu. Əlamətdar hadisənin 30 illiyi "Zəfərli günlərlə" və Qarabağ həsrətinin sonu, quruluş və qayıdış paralelliyində silsilə tədbirlərlə fəxarət və qalibiyyət hissi ilə keçirildi. Qazanılan "Zəfər" bizi arxayın salmamalıdır: çünki biz, məkrli ideologiya ilə üz-üzəyik və aksent gedişat növbəti fazaya daxil olub. Unutmamalıyıq, "yeni ərazilər üçün yeni müharibə" prinsipinin dirijoru Ermənistan dövləti olsa da, ifaçısı erməni diasporudur. Bunun üçün biz qarşıda daha məqsədyönlü davranmalı və tədbirli olmalıyıq. Bu məsələdə, Diasporla İş üzrə Dövlət Komitəsinin üzərinə böyük yük düşür və Azərbaycan diasporunun qarşısında uzun yol dayanır. Bir sözlə, xarici ölkələrdə yaşayan soydaşlarımız və həmvətənlərimizlə əlaqələrin yeni dövrə qədəm qoyması milli dövlətçiliyimiz baxımından müasir həyatımızın ən vacib və son dərəcə mühüm olan bir sahəsidir. 2021-ci il iyunun 15-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən Şuşa şəhərində imzalanmış Bəyannamə elə bu qəbildəndir. Şuşa Bəyannaməsinin 1921-ci il 3 oktyabr tarixli "Qars müqaviləsi"nə söykənməsi tarixi və strateji məqamları nümayiş etdirir. Sənəddə diasporlararası əməkdaşlığın təsbit olunması qarşıda duran perspektivləri özündə cəmləşdirir.

"Tərəflər müxtəlif ölkələrdə yaşayan Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, onların məruz qaldıqları ümumi problemlər qarşısında birlikdə addımlar atılması və ardıcıl həmrəylik göstərilməsi məqsədilə səylərini birləşdirəcəklər. Tərəflər ölkələrinin təqdim edilməsi və milli mənafelərinin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diasporal fəaliyyətin əlaqələndirilməsini və qarşılıqlı dəstəyi təşviq edəcəklər" [9].

Fikrimizcə, bütün bunların reallaşması milli inkişafla bərabər, xalqlararası münasibətlərin, dövlətlərarası əməkdaşlığın möhkəmlənməsinə, bəşəri sülhün qorunmasına, əmin-amanlığın yaranmasına və sivilizasiyalararası dialoqun inkişafına öz töhfəsini verə bilər. Göründüyü kimi, istər ikitərəfli, istərsə də çoxtərəfli əməkdaşlıq məsələlərində diaspor aparıcı qüvvəyə çevrilmişdir. Məhz müasir beynəlxalq münasibətlər sistemində "xüsusi missiya"ya çevrilən diaspor amili milli dövlətçilik məsələləri ilə yanaşı,

qlobal proseslərdə də aktiv təsir imkanına malikdir. Çünki sağlam diaspor məntiqi milli xüsusiyyətlərin yaşadılması ilə bəşəri dəyərlərin zənginləşdirilməsinə xidmət edir. Naxçıvan faktoru dünya azərbaycanlılarının birlik və həmrəylik istiqamətində atılan ilk addım kimi tarixi əhəmiyyət kəsb edir. Bu isə hazırda yeni mərhələdə davam etdirilən Azərbaycan diasporunun konsolidasiyasında mühüm əhəmiyyət daşıyır.

**Açar sözlər:** *Azərbaycan Respublikası, Dünya azərbaycanlıları, Naxçıvan MR, Heydər Əliyev, həmrəylik, diaspor, lobbi, 31 dekabr.*

### ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan diasporu: Böyük yolun başlanğıcı. Bakı, Çaşıoğlu, 2006. s.208*

*2. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin rəsmi internet portalı: www.diaspora.gov.az*

*3. Babanlı Y. Heydər Əliyev və Azərbaycan diasporu. İki Sahil qəzeti, 2009, 13 iyun, № 109*

*4. Babanlı Y. Azərbaycançılıq ideyası azərbaycanlıların milli birliyinin təminatçısıdır. Palitra qəzeti, 2010, 4 may, № 47*

*5. Qasımlı M. Heydər Əliyev-İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı, 2006. s.414-430*

*6. Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının rəsmi internet portal: www.amor.az*

*7. Seyid Əhməd Arslan: "Azərbaycan-Türkiyə böyük birliyini bütün türk cümhuriyyətlərinə arzulayıram". Xalq qəzeti, 2012, 31 dekabr, № 294*

*8. Vikipedia azad elektron ensiklopediya: https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan%C4%B1n_Xarici_%C3%96lk%C9%99l%C9%99rl%C9%99_Dostluq_v%C9%99_M%C9%99d%C9%99ni_%C6%8Flaq%C9%99l%C9%99r_C%C9%99miyy%C9%99ti*

*9. Vikipediya azad elektron ensiklopediya: https://az.wikipedia.org/wiki/%C5%9Eu%C5%9Fa_B%C9%99yannam%C9%99si*

*10. Vikipediya azad elektron ensiklopediya: https://az.wikipedia.org/wiki/D%C3%BCnya_Az%C9%99rbaycanl%C4%B1lar%C4%B1n%C4%B1n_Qurultay%C4%B1*

*11. Azərbaycan Diasporuna Dəstək Fondunun rəsmi saytı: https://diaspora.foundation/aboutus*

*12. Vikipediya azad elektron ensiklopediya: https://www.ensiklopediya.az/az/dunya-azerbaycanlilarinin-hemreyliyi-gunu*

*13. Prezident Kitabxanası: https://files.preslib.az/site/diaspora/gl2.pdf*

*14. Şərq qapısı qəzetinin saytı: http://www.serqqapisi.az/index.php/ictimai-siaysi/3080-31-dekabr-dunya-azaerbaydzanl-lar-n-n-haemraeylik-zhunudur*

*15. Trend müstəqil informasiya agentliyinin saytı: https://az.trend.az/azerbaijan/society/1753599.html*

**Yahya M. Babanli**

**Nakhchivan factor in the consolidation of world Azerbaijanis**

**SUMMARY**

The national Diaspora policy of Heydar Aliyev, who played a great role in creation and implementation of this policy, and the positive influence of this strategy on development of the present day Azerbaijani Diaspora was reviewed.

The research paper recounts about the establishment of relations with the Azerbaijanis living abroad after the restoration of state independence of the Republic of Azerbaijan and the national Diaspora policy of sovereign state was researched.

**Key words:** *Azerbaijan Republic, The world Azerbaijanis, Nakhchivan AR, Heydar Aliyev, solidarity, diaspora, lobby, 31 december.*

**Яхья М.Бабанлы**

**Фактор Нахчывана в консолидации азербайджанцев мира**

**Р Е З Ю М Е**

В этой статье проанализирована национальная стратегия Гейдара Алиева по развитию диаспоры, который сыграл важную роль в формировании и реализации этой политики, и рассматривается положительное влияние этой стратегии на развитие азербайджанской диаспоры в настоящее время.

Научная статья повествует о налаживании связей с азербайджанцами, проживающими за рубежом после восстановления государственной независимости Азербайджанской Республики, а также проводится исследование политики независимого государства в области национальной диаспоры.

**Ключевые слова:** *Азербайджанская Республика, азербайджанцы мира, Нахчыванская АР, Гейдар Алиев, солидарность, диаспора, лобби, 31 декабря.*

UOT 94"19/..."

# XX ƏSR-XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ MOSULUN TARİXİ

**ÜLVİYYƏ BAYRAMOVA**
*Bakı Dövlət Uuniversteti,*
*doktorant*

*E-mail: bayramova.ulviyya@inbox.ru*

## Giriş

Mosul-Kərkük bölgəsi işğal olunduqdan sonra İngilis hökuməti bu bölgənin gələcəyi ilə bağlı hələ də qərar verməmişdi və tərəddüd içində idi. Hökumət içində bəzi rəsmilər Mosulun İngiltərənin mandatı altında olan İraqa birləşdirilməsini, digərləri isə bölgənin etnik tərkibini nəzərə alaraq burada bir kürd konfederasiyasının yaradılmasını istəyirdilər. Hətta bölgədə erməni dövlətinin yaradıla biləcəyi şayiələridə dolaşırdı. Bütün bu şayiələr bölgədə yaşayan tayfalar tərəfindən narazılıqla qarşılanmış və onları ingilislərdən soyutmuşdu. Bu hadisələrin gedişatında 22 may 1919-cu ildə kürd tayfa lideri Şeyx Mahmud qəflətən hücum edərək Süleymaniyəni tutmuş, ingilis zabitləri həbs etdirmiş və bölgəni yenidən Osmanlı imperiyasına birləşdirməyə cəhd göstərmişdir. Lakin 1919-cu ilin iyunun 17-də ingilislər Süleymaniyəni yenidən geri alaraq Şeyx Mahmudu əsir götürdülər [6]. Bu hadisədən sonra bölgədə Kürd konfederasiyası yaradılma ehtimalı zəiflədi və Mosulun İraqın tərkibinə qatılması iddiaları daha da gücləndi.

Mosul məsələsi 1922-ci il noyabrın 26-da Lozanna konfransında yenidən gündəmə gəldi [4]. Türk siyasətçi İsmət İnönü konfransda etnik, coğrafi, tarixi, siyasi və iqtisadi səbəbləri misal göstərərək Mosul vilayətinin türk torpağı olduğunu və Türkiyəyə birləşdirilməli olduğunu irəli sürdü [5]. Bölgədə yaşayan türklərin daha çox olduğunu, buna əlavə olaraq bölgədə yaşayan kürdlər və ərəblərin də Turan mənşəli olduğunu eyni irqdən gəldiyini bildirdi. İngilislər Türk tezisini qəbul etmədi. Bölgədə kürdlərin və ərəblərin daha çox yaşadığını və onların Turan mənşəli yox İran mənşəli olduğunu bildirdilər [6]. Lakin türklərin plebisit istəyinə ingilislərin mənfi cavab verməsi, bu antitezisinin həqiqəti yansıtmadığını göstərdi. Məsələnin Lozanna konfransında həll oluna bilmədiyini görən ingilislər manevr edərək məsələni Millətlər Cəmiyyətinə yönəltdilər. Bu ağıllıca düşünülmüş diplomatik bir addım idi. Millətlər cəmiyyəti qalib dövlətlər tərəfindən İngiltərənin başçılığı ilə yaradılmış bir qurum idi və bu qurumun İngiltərəni heçə sayaraq türklərin lehinə qərar çıxarması qeyri-mümkün görünürdü.

Mosul məsələsi 20 sentyabr 1924-cü ildə Millətlər Cəmiyyətində (MC) müzakirə olunmağa başlandı. MC tərəfindən 3 nəfərlik komissiya yaradıldı. Komissiya öz raportunu 18 iyul 1925-ci ildə tamamladı. Raporta görə, Brüssel xətti coğrafi sərhəd olaraq qəbul edildi. Bu xətt əvvəllər Mosul vilayətini Həkkəridən ayıran sərhədlə təxminən üst-üstə düşürdü. Bundan əlavə, komissiya kürdlərə idarəedici və mədəni haqlar verilməsi şərti ilə bölgənin iqtisadi cəhətdən İraqa bağlanmasını, İraqın isə daha 25 il ingilislərin mandatı altında olmasını qərara aldı. Bu şərtlərə riayət olunmadığı təqdirdə isə bölgənin türklərə buraxılması qeyd olundu. Əlavə olaraq bölgənin Türkiyə və İngiltərə arasında bölüşdürülə biləcəyini və İngiltərənin 1924-cü il Haliç konfransında irəli sürdüyü Həkkəridəki iddialarını isə rədd etdi [5].

1926-cı ildə imzalanmış Ankara müqaviləsindən sonra Kərkük 1921-ci ildə yaradılmış İraq krallığına birləşdirildi. 15 oktyabr 1927-ci ildə Kərkükə yaxın ərazilərdə və ondan 15 km aralı Baba Gürgür bölgəsində zəngin neft yataqları aşkarlandı. İraq neft şirkəti 1934-cü ildə Kərkük bölgəsindən neft ixrac etməyə başladı. Bu tarixdən sonra Kərkükdə yenidənqurma işləri başlandı. 1940-50-ci illərdə bölgədə güclü inkişaf və şəhərləşmə prosesi baş verdi. Neft sənayesi Kərkükdə demoqrafik vəziyyətin dəyişilməsində də başlıca rol oynadı. Bölgənin güclü inkişafı ərəbləri və kürdləri buraya cəlb etdi. Bu tarixlərə qədər şəhər əhalisinin böyük bir qismini türkmənlər təşkil edirdi. Lakin bu tarixdən sonra kürdlər şəhərdə üstünlüyü ələ almağa başladı. Kərkük İraqa birləşdirildikdən sonra burada yaşayan türkmənlərə qarşı etnik təmizləmə və assimilyasiya məqsədilə bir neçə dəfə qətliamlar törədilmişdir. Bunların içində ən dəhşətlisi isə İraqda hərbi çevriliş keçirilməsindən və respublika elan olunmasından 1 il sonra, 1959-cu ilin 14- 16 iyul tarixlərində törədilmişdir. Kürd lider Molla Mustafa Bərzaninin ölkəyə qayıtması ilə birlikdə kürdlər yenidən bölgədə aktivləşməyə başladılar. Respublikanın elan edilməsinin 1-ci ildönümünü qeyd etmək üçün küçələrə axışan türkmənlərə qarşı 1959-cu ildə kommunist kürd qruplar tərəfindən 3 gün qətliam törədilmişdir və onlarca silahsız, günahsız insan öldürülmüşdür [5].

1968-ci ildə ölkədə yenidən hərbi çevriliş baş verdi və BAAS partiyası iqtidara gəldi. General Ahmed Hasan El Bakr dövlət başçısı, Səddam Hüseyn isə onun

köməkçisi təyin olundu. BAAS partiyası hakimiyyətə gəldikdən sonra 1963-cü ildə yenidən hərbi çevrilişə cəhd olundu. Bu hərbi çevrilişin qarşısı alınsa da ölkədə sabitlik yaratmaq mümkün olmadı. Bu tarixdən sonra kürd qruplarla İraq hökuməti arasında qarşı durmalar başlandı və 1970-ci ilə qədər davam etdi [3]. 1970-ci ilin mart ayının 11-də iqtidarda olan BAAS partiyası ilə Kürd Demokratik Partiyası (KDP) arasında müqavilə imzalandı. Bu müqaviləyə görə kürdlərə İraqın şimalında muxtariyyət verilməli idi.

1974-cü ilin mart ayında BAAS partiyası kürd muxtariyyəti ilə bağlı yeni bir qanun qəbul etdi. Bu qanuna görə neftlə zəngin olan Kərkük, Xanaqin və Sincar bölgələri yaradılacaq muxtar respublikanın tərkibinə daxil edilmirdi. Bu qanundan sonra bölgəyə ərəblərin köçürülməsi başlandı və Ərəbləşdirmə siyasəti yürüdüldü. Bu siyasət kürdlərlə İraq hökumətini yenidən qarşı-qarşıya gətirdi. Bu münaqişədə İran dövlətidə kürdlərə dəstək olurdu. Lakin İran, sərhəd məsələlərində İraqdan bəzi güzəştlər aldıqdan sonra kürdlərə olan dəstəyini geri çəkdi. İranın dəstəyini geri çəkməsindən sonra 1975-ci ildə Mustafa Bərzani müharibənin bitdiyini açıqladı. [5] Bu tarixdən sonra gələcəkdə yenə eyni problemlə qarşılaşmaq istəməyən BAAS rejimi ərəbləşdirmə prosesini biraz daha gücləndirdi və bölgədə qətliamlar törətdi. Bunların ən dəhşətlisi isə 1988-ci ildə Hələbçədə Səddam Hüseyn tərəfindən törədilmişdir. Enfal adı verilən bu hücum nəticəsində 3000 kənd məhv olmuş, 180000 insan həyatını itirmiş, 1.5 milyon insan məcburi şəkildə köç etməyə məcbur olmuşdur [6].

Körfəz müharibəsindən sonra ölkədə Səddam idarəçiliyinə qarşı etirazlar baş vermişdir. Səddam güc tətbiq edərək bu etirazları yatırtmağı bacarmışdır. İlk öncə 1991-ci ilin martında Bəsrə körfəzi ətrafında başlayan etirazlar qısa zaman ərzində Bağdada qədər irəliləmişdir. Bir neçə gün sonra İraqın şimalında Kərkük də əhatə edən kürdlər tərəfindən böyük bir üsyan qaldırılmışdır. Lakin bu üsyanların yatırdılma ərəfəsində başqa bir böhran baş vermiş, yüz minlərlə kürd Türkiyə və İran sərhədlərinə sığınmışdır. 1991-ci ilin aprel ayında ABŞ 36-cı paralelin şimalında, yəni kürd bölgəsində havada və quruda İraq hərbi qüvvələrinin fəaliyyətini qadağan etmişdir. Eyni qadağa şiələri qorumaq məqsədi ilə 32-ci paralelin cənubuna da şamil edilmişdir [3]. 36-cı paralelin şimalı üçün nəzərdə tutulan fəaliyyət qadağasına nəzarət etmək üçün "Çəkiç Güc" adlanan bir quruluş formalaşdırılmışdır. ABŞ-ın İraqı işğal etməsinə qədər Türkiyədə mövcud olan bu quruluş kürdlərin təhlükəsizliyini təmin etmək və təşkilatlanması üçün şərait yaratmışdır. Ancaq Kərkükün bu təhlükəsizlik bölgələrinə daxil edilməməsi Kərkük xalqı üçün ağır nəticələrə səbəb olmuşdur. BMT-nin 1991-ci ilin avqust ayında İraqa qoyduğu ticarət embarqosu Körfəz müharibəsindən sonra belə tətbiq olunmağa davam etmişdir. Ancaq 1995-ci ildə BMT Təhlükəsizlik Şurasının (TŞ) 986 saylı qərarı ilə İraqın qidalanma və tibbi ehtiyaclarını qarşılaması üçün neft ixrac edilməsinə icazə verilmiş və embarqo qismən yumşaldılmışdır [6]. BMT TŞ-nın 1991-ci ilin aprelin 3-də keçirtdiyi 2981-ci iclasında qəbul etdiyi 687 saylı atəşkəs şərtlərini nizamlayan qərar, vuruş məsafəsi 150 km-i keçən ballistik raketlər də daxil olmaqla kütləvi qırğın silahlarının nəzarətdə saxlanılması və məhv edilməsi nəzərdə tutulmuşdur [5]. Nəzarət funksiyası BMT xüsusi komissiyası (UNSCOM) və Beynəlxalq Atom Enerjisi Agentliyi (IAEA) tərəfindən yerinə yetirilmişdir. İraqın bu beynəlxalq silah nəzarəti təşkilatları ilə münasibətləri problemli olmuşdur. Bu problemlər 1998-ci ilin dekabrında UNSCOM-un İraqdan geri çəkilməsi ilə başlamış və 2002-ci ildə İraq dövlətinin bu nəzarət təşkilatlarının ölkəyə girişni rədd etməsinə qədər davam etmişdir [7]. Bu proseslər ABŞ və müttəfiq güclərin İraqa təzyiq göstərməsinə səbəb olmuşdur. Bu hadisə İraq üçün dönüş nöqtəsi olmuşdur ABŞ-da baş verən 11 sentyabr hadisələri, İraqın şər ölkəsi adlandırılması və nüvəni zənginləşdirməsi iddiaları İraqın işğalına gətirib çıxarmışdır.

17 mart 2003-cü ildə Səddam Hüseyn və oğullarına ölkəni tərk etməsi üçün 48 saat möhlət verilmiş, 20 mart 2003-cü il tarixində isə ABŞ və İngiltərənin başçılıq etdiyi koalisiya qüvvələri, Səddam Hüseynin terrora verdiyi dəstəyə əngəl olmaq, İraqı kütləvi qırğın silahlarından təmizləmək və İraqa demokratiya gətirmək adı altında bu ölkəyə müdaxilə etmişdir.[5] 2008-ci ilin iyununda İraq parlamentinin sədr muavini Arif Tayfurun Türkiyənin İraqın daxili işlərinə qarışması ilə bağlı verdiyi bəyanat və referendumun keçirilməsi nəzərdə tutulan 2007-ci ilin sonunda Türkiyə Şimali İraqda PKK-ya qarşı əməliyyat tədbirləri həyata keçirtməsi bu mövzuda çox önəmlidir. 12 iyun 2014-cü ildə İŞİD-in Kərkükə hücum etməsindən sonra İraq hərbi qüvvələri geri çəkildi. Yenidən fəallaşan və bu fürsəti qaçırmaq istəməyən kürdlər Kərkük şəhərinin nəzarətini ələ keçirdilər [2]. 2017-ci ilin mart ayında Kərkükdə bir bayraq böhranı yaşanmışdır. Kərkük rəsmi idarələrində kürd bayraqlarının asılması, həm yerli əhali, həm də qonşu dövlətlərin, xüsusilə Türkiyənin sərt reaksiyasına səbəb olmuşdur. 2017-ci ilin sentyabrında kürdlər Kərkükdə referendum keçirmiş, lakin bu referendum kürdlərə baha başa gəlmişdir. Bütün xəbərdarlıqlara baxmayaraq

referendumun keçirilməsi, kürdlərə qarşı addımlar atılmasının labüdlüyünü ortaya qoymuşdur [4]. 16 oktyabr 2017-ci ildə İraq milli ordusu 2014-cü ildən bəri kürd peşmərgələrin nəzarətində olan Kərkükü geri almışdır. [4]

## Nəticə

20-ci əsrin sonlarına doğru dünyanın yenidən bölüşdürülməsi ilə bağlı dövlətlər yenidən mübarizəyə qoşulmuşdur. Bu dövrdə Kərkükdə enerji resurslarının aşkarlanması ilə birlikdə Kərkükün önəmi daha da artmışdır. I Dünya muharibəsindən sonra Kərkük Osmanlı imperiyasından qoparılmış və ingilislərin mandatı altına düşmüşdür.

Mosulun önəmli geostrateji mövqeyi və zəngin təbii resursları Mosulu paylaşıla bilməyən bir əraziyə çevirmiş və nəticədə Kərkük ətrafında maraq qrupları formalaşmağa başlamışdır. İraq və Türkiyə kimi Kərkükdə iddialı olan böyük regional güclərlə bərabər ABŞ, Rusiya və Avropa ölkələri kimi qlobal güclər də Kərkükdə maraq mübarizəsinə qoşulmuşdur. Bunlara əlavə olaraq kürdlər və türkmənlər kimi bölgədə çoxluq təşkil edən qruplarında Kərküklə bağlı maraqları mövcuddur.

**Açar sözlər:** *Türkiyə, dövlət, Mosul, siyasət.*

## ƏDƏBİYYAT SİYAHISI:

1. *Qənirə Paşayeva Altınkörpü qətliamının 26-cı ildönümü ilə bağlı Türk dünyasına çağırış edib (27.03.2017), http://editor.az/q%C9%99nir%C9%99 - pasayeva-altinkorpu-q%C9%99tliaminin-26-ci-il-donumu-il%C9%99-bagliturk-dunyasina-cagiris-e-dib/*

2. *Yaqubov. M, Azərbaycan Beynəlxalq Münasibətlər və Diplomatiya tarixi, (Bakı 2009) s. 26.*

3. *Abdulvahit. K, "Kardaşlık" , Kültür Sanat Edebiyyat ve Folklor Dergisi,( Nisan-Haziran 2012), http://www.kerkukvakfi.com/sites/default/files/ documents/kardaslik%2054.pdf*

4. *Arkan H., Iraklı Kürtlerin Özerklikten De Facto Federalizme Geçiş Aşamaları (1918–2005), CTAD, Yıl 9, Sayı 18 (Güz 2013), s. 79-117.*

5. *Bakır. A, " ESKİ ÇAĞLARDAN GÜNÜMÜZE KADAR TÜRKMEN ŞEHRİ KERKÜK", Kerkük Vakfi, http://www.kerkukvakfi. com/tr/content/266 7. Barzani Türkiyeyi yine tehdit etdi! (08 Nisan 2007), http://www.gazetevatan. com/barzani-turkiye-yi-yine-tehdit-etti--115413dunya/*

6. *Tanya. G & Fatah. L, Analysis: The Kurds take Kirkuk, now what? (16 June 2014), https://www.aljazeera.com/news/middleeast/2014/06/analysis-kurds-take-kirkuk-now-what-201461653255207327.html*

## История Мосула в 20 веке - начале 21 века
## РЕЗЮМЕ

Турция давно стремится стать крупным игроком на Ближнем Востоке, прибегая к дипломатическим и военным методам. Однако Мосул имеет историческое значение для этой страны. Мосул был частью Османской империи более 400 лет. Даже после обретения Турцией независимости в 1923 году, в Национальном пакте, провозглашенном вновь созданным парламентом, Мосул был объявлен частью турецких земель. В то время Мосул находился под британской оккупацией. Великобритания добилась повышения статуса города в Лиге Наций, чтобы положить конец претензиям Турции. Турция, первоначально сопротивлявшаяся британским притязаниям, подписала соглашение о передаче Мосула Ираку в 1926 году. С тех пор вопрос о Мосуле время от времени поднимался в международных политических спорах. Новые османы по-прежнему считают потерю Мосула поражением Ататюрка.

**Ключевые слова:** *Турция, государство, Мосул, политика*

## The history of Mosul in the 20th century - the beginning of the 21st century
## SUMMARY

Turkey has long sought to become a major player in the Middle East, resorting to diplomatic and military methods. However, Mosul has historical significance for this country. Mosul was part of the Ottoman Empire for more than 400 years. Even after the independence of Turkey in 1923, in the National Pact declared by the newly established parliament, Mosul was declared a part of Turkish lands. At that time, Mosul was under British occupation. Britain secured an upgrade of the city's status in the League of Nations to end Turkey's claims. Turkey, which initially resisted British claims, signed the agreement on the transfer of Mosul to Iraq in 1926. Since then, the issue of Mosul has been raised in international political disputes from time to time. The new Ottomans still see the loss of Mosul as a failure of Atatürk.

**Key words:** *Turkey, state, Mosul, politics.*

UOT 94

# AXISQA (MESXETİ) TÜRKLƏRİNİN FACİƏSİ

**ƏLVİDA RƏHİMOV**
*Bakı Dövlət Universitetinin doktorantı*

*E-mail: elvidarehimov1234@gmail.com*

Dünyanın deportasiya və ya genosid tarixinə nəzər salsaq, bu fəlakətin ən çox türk xalqlarının payına düşdüyünün şahidi olarıq. Azərbaycan, Gürcüstan, Krım türklərinin deportasiyası çox da uzaq olmayan tarixdə yaşanmışdır. Və deportasiyanı vacib edən faktor da türklərə qarşı hiddət qarışıq qərəz, nifrət idi. Məqsəd türklərin köklərini aid olduqları torpaqlardan qoparmaq, tarixin istiqamətini dəyişdirmək idi. Bu niyyət də hər zaman, hətta indi də gündəmdə olan məsələdir [4].

Qismətinə deportasiyanın acılarının düşdüyü bir türk boyu da Axısqa türkləri olmuşdur. Axısqa türklərinin tarixi çox qədim olduğu qədər də, onlar ən ağır məşəqqətə düçar olmuş türk xalqıdır. Ən qədim dövrlərdən Kiçik Qafqaz sıra dağlarının başlanğıcında yaşayan bu soydaşlarımız danışdığı şivə, adət-ənənə, folklor, mədəniyyət baxımından qədim türk məskəni Borçalı mahalındakı Azərbaycan türkləri və Ərzurum-Qars ərazilərindəki türklərlə çox yaxınlıq təşkil edir [10].

Axısqalıların sürgünü 1944-cü il, noyabr ayının 14-dən 15-nə keçən gecə başladı. Deportasiya üçün soyuq vaxtın seçilməsi düşünülmüş məsələ idi. Çünki Moskva bu yolla axısqalıları soyuq və aclıqla məhv etmək və bununla da Axısqa türklərinin izini yer üzündən silmək istəyirdi [1].

Axısqa türklərini sürgün etmək üçün dövlət tərəfindən 20 min əlisilahlı əsgər, 900 "Studabekker" markalı maşın və 57 yük eşelonu ayrılmışdı. Əzablı yol bir ay çəkdi. Axısqa və Cavaxetiya, o cümlədən Axısqanın tərkibinə daxil olan Axalsıx, Adıgün, Əspincə, Ahalkələk və Boqdanovka rayonlarının əhalisinə doğma evlərini tərk etmək üçün cəmi 30 dəqiqə vaxt verilmişdi. Necə deyərlər, müharibədə almanlara qarşı döyüşlərdə xüsusi qəhrəmanlıq göstərən Axısqa türklərinin doğma vətəndə baş verənlərdən xəbərləri belə yox idi. Onların xəbəri yox idi ki, arxa cəbhədə qalan qoca ata-anaları, körpələri Borjomi dəmir yoluna çıxarılaraq sürgünə, gedər-gəlməzə aparılırlar. Ümumiyyətlə, Axalsıx, Adıgün, Əspincə, Ahılkələk, Boqdanovka və Hocabəy rayonlarındakı 220 kənddə yaşayan 150-200 min nəfərdən artıq Axısqa türkü noyabr ayının 15-də, soyuq, şaxtalı bir gündə 2 saat ərzində vaqonlara dolduruldu. Yolda aclıq, susuzluq, soyuqdan, həmçinin köç dərdinə dözə bilməməkdən 17 min Axısqa türkü vəfat etdi. Onlara nə kəfən, nə də ki torpağa insan kimi dəfn olunmaq qismət oldu. Çünki ölənləri dəmir yolunun kənarına buraxırdılar və onlar burada, qurda, quşa yem olurdu. Köçürülmə yerinə çatan, sağ qalan Axısqa türkləri burada soyuq və aclıqdan qırılmaqda davam edirdilər. Belə ki, bir ilin içində, 1944-cü ilin noyabr ayından 1945-ci ilin noyabr ayına qədər 37 min Axısqa türkü aclıq, xəstəlik və soyuqdan dünyasını dəyişdi. Köçürülənlər arasında Axısqada və ona qonşu ərazilərdə yaşayan azərbaycanlılar və özlərini azərbaycanlı adlandıran Axısqa türkləri də vardı. 1949-cu ildə aparılan qeydiyyatdan məlum olur ki, köçürülənlər arasında azərbaycanlı və ya özlərini azərbaycanlı adlandıranların sayı 24 304 nəfər təşkil edib [8].

SSRİ Xalq Komissarlığı İcraiyyə Komitəsinə məxsus xüsusi köçürülmə sənədlərində göstərilir ki, 95 516 nəfər Axısqa türkü ilə bərabər, bölgədə yaşayan digər millətlər (yəni müsəlmanlar) də həmin ərazilərdən sürgün edilsinlər. Lakin birinci növbədə türk xalqları köçürülsünlər.

Türksüz qalan Axısqa bölgəsində isə Mikoyanın təşəbbüsü ilə təcili şəkildə ermənilər yerləşdirildi.

Köçürülmə siyasəti o qədər tələsik və sürətlə aparılmışdı ki, hətta Qazaxıstan hökuməti köçürmənin bir qədər təxirə salınmasını məsləhət görmüşdü. Çünki sürgünə göndərilənləri qəbul etmək üçün müəyyən hazırlığa ehtiyac var idi. Lakin L. Beriya 1944-cü il, noyabrın 16-da Qazaxıstan rəhbərliyinə göndərdiyi teleqramda köçürülmənin dayandırılmasının qeyri-mümkün olduğunu qeyd etdi. O, Gürcüstanda yaşayan Axısqa türklərinin 1944-cü ilin noyabrından 1945-ci ilin aprelinədək təcili köçürülməli olduğunu Qazaxıstan hökumətinə xatırlatdı.

1944-cü il noyabrın 28-də Beriya Stalinə, Malenkova, Molotova göndərdiyi məruzədə bildirirdi ki, Dövlət Müdafiə Komitəsinin qərarı tam yerinə yetirilmiş, müsəlmanlar, o cümlədən Axısqa türkləri sərhəd rayonlarından Orta Asiya, Qazaxıstan və Özbəkistana köçürülmüşlər.

Amma Axısqa türkləri yalnız kompakt yaşadıqları ərazilərdən deportasiya edilmirdilər. Qonşu subyektlərdə, o cümlədən Abxaziya və Acarıstanda yaşayan

axısqalılar da Orta Asiya və Qazaxıstana sürgün edildilər. Beləliklə, "xüsusi köçkünlər" haqqında təlimata görə, digər xalqlarla birlikdə Axısqa türkləri də müvəqqəti köçürülmə kateqoriyasına aid olsalar da, əslində həmişəlik sürgün olunurdular. Orta Asiyaya və Qazaxıstana sürgün olunanlar 12 il (1944-1956) karantinə alındılar və bir-birinin son nəfəsinə çatmaq bir tərəfə dursun, heç məzarını görmək də onlara qismət olmadı. Buna baxmayaraq, sürgündə yaşayan axısqalılar yerli şəraitə çətinliklə də olsa, alışa bildilər.

Yenə də rəsmi məlumatlara görə, 96 min nəfərə yaxın axısqalı doğma yurd-yuvasından nəzərdə tutulan ərazilərə sürgün edilmişdi. Ancaq ilk baxışdan belə hiss olunurdu ki, rəsmi məlumatlarda göstərilən rəqəmlər düşünülmüş şəkildə az qeyd edilib. Belə ki, müharibə ərəfəsində 40 min nəfərdən yuxarı axısqalı düşmənlə müharibədə iştirak etmək üçün səfərbərliyə alınmışdı. Rəsmi məlumatlarda göstərilən rəqəmlərə görə, 90 min nəfər axısqalının yarısı 18-60 yaş arası əli silah tutan kişilər idi. Bu isə inandırıcı görünmür. Məntiqi baxımdan orduya 40 min nəfər əsgər verən axısqalıların sayı ən azı 200-250 min nəfər olmalı idi.

Tarixdə ən qatı türk-islam düşməni kimi ad çıxaran despot və qəddar Stalinin ölümündən sonra axısqalılar istisna olmaqla, deportasiya edilən digər xalqların doğma yurdlarına qayıtmaq hüququ tanındı. Axısqalılar isə, çətinliklə də olsa bununla bağlı məsələni SSRİ rəhbərliyinə çatdıra bildilər. O dövrdə SSRİ-ni idarə edən Nikita Xruşşov axısqalıların doğma yurdlarına qayıtma hüququnun olduğunu bildirdi.

1956-cı ildə Axısqa türklərinin üzərindən sürgün hökmü götürüldü. Amma onların öz doğma yurdlarına qayıtması hüququ tanınmadı. Çünki Gürcüstan hökuməti müxtəlif bəhanələrlə axısqalıların doğma yurd-yuvalarına qayıtmaları barədə hansısa qərar qəbul edilməsinə imkan vermirdi. Guya axısqalıların evlərinə gürcü və ermənilər köçürülüb və onların geri qayıtması bölgədə vəziyyəti gərginləşdirə, yeni etnik qarşıdurmalara gətirib çıxara bilər. Halbuki bu, ağ yalan idi. Nəticədə geri - doğma yurd-yuvalarına qayıda bilməyən axısqalıların bir hissəsi Kabarda-Balkar və Şimali Qafqaza, o cümlədən Azərbaycana köç edərək doğma vətənə yaxın olmağa çalışdılar.

Həyata keçirilən sürgündə Axısqa türklərindən ibarət 17 mindən çox qoca, uşaq, qadın və müharibə əlilləri soyuqdan, aclıqdan və stresdən həlak olublar. Zor gücünə baş verən bu sürgünün o dövrdə iki başlıca səbəbi var idi. Birincisi, SSRİ-nin cənub sərhədlərinin guya möhkəmləndirilməsi məqsədilə Gürcüstanla Türkiyə arasındakı sərhəd rayonlarında türk-müsəlman əhalinin SSRİ-nin Orta Asiya respublikalarına sürgün olunması, ikinci səbəb isə, o vaxt SSRİ Dövlət Müdafiə Komitəsinin sədri İosif Stalinə Gürcüstanın o dövrdəki Kommunist Partiyasının rəhbərlərinin və erməni əsilli bir çox rəhbər işçilərin bölgənin türk-müsəlman əhalisinə qarşı iftiralı və təxribat xarakterli məxfi hesabatlarının mövcudluğu idi [7].

Axısqa türklərinin başına gələn müsibətlərin acısı bitməmiş, növbəti dəhşətli hadisə isə Fərqanə hadisələri idi. Sovet Dövlət Təhlükəsizlik Komitəsinin fəaliyyəti nəticəsində özbəklərlə Axısqa türkləri arasında süni şəkildə qarşıdurmaya əl atıldı. 1989-cu ilin iyun ayında Fərqanə hadisələri baş verdi. Axısqalılar özbəklərin və digər xalqların gözündə vəhşi bir millət hesab olunurdu. Onların illər boyu əziyyətlə qurub ucaltdıqları evləri dağıdıldı, yandırıldı. Qadınlara uşaqlara işgəncələr verildi. Əslində özbəklər axısqalıları yaxşı tanıyır və onlara yaxşı münasibət göstərirdilər. Ancaq dağılmaq ərəfəsində olan Sovet hökuməti yenə də hər cür hiyləyə əl ataraq insanları öz tərəfinə çəkməyi bacardı və beləliklə, axısqalılar bir daha sürgün edildilər. Axısqa türkləri dünyanın müxtəlif yerlərinə səpələndilər.[5]

Gürcüstan parlamenti 11 iyul 2007-ci il tarixdə "XX əsrin 40-cı illərində keçmiş Sovet İttifaqı tərəfindən Gürcüstandan zorla köçürülmüş şəxslərin reaptriasiyası haqda" qanun imzaladı. Qanun layihəsində problemin həllinin hüquqi maddələri əks olunsa da, əmlak hüququ və sosial məsələlərin necə həll olunacağına dair maddələr nəzərdə tutulmayıb. Qanunda, ümumiyyətlə, Gürcüstana qayıtmaq nəzərdə tutulub və qayıdanlar da daha çox öz bölgələrində yox, pərakəndə şəkildə Gürcüstanın müxtəlif yerlərində məskunlaşdırılır. Axısqa türklərinin tələbi bu olub ki, ilk növbədə Gürcüstanda onlara bəraət verilsin. Yalnız, bundan sonra onlar qanuni şəkildə öz yurdlarına qayıda bilərlər. Axısqa türklərinin "Vətən" Cəmiyyəti bu qanunun icrasına dair 2008-ci ilin avqust ayından müəyyən layihələr həyata keçirməkdədir. Bu qanuna uyğun olaraq cəmiyyət 12 min 647 Axısqa türkünə vətənə qayıtmaq üçün ərizə ilə müraciət etməkdə yardımçı olub [7].

**Açar sözlər:** *Axısqa, deportasiya, Gürcüstan, bəraət, Fərqanə, "Vətən" Cəmiyyəti*

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Əziz Mustafa "Axısqa türkünün qara taleyi", Zaman.- 2010.- 2-4 oktyabr.- S. 12.*

*2. Elçin Qaliboğlu "Sürgün həyatı yaşamış Axısqa*

*türkləri". Xalq Cəbhəsi - 2009.- 6-8 iyun.- S.14.*

*3. Tural Həmid "Axısqa türklərinin tarixi". 14 noyabr. 2013.*

*4. GÜNAY MƏMMƏDOVA "AXISQA TÜRKLƏRİNİN ÖZ TARİXİ VƏTƏNLƏRİNƏ QAYITMAQ UĞRUNDA MÜCADİLƏSİ". I yazı. 19 oktyabr. 2021.*

*5. Fərqanə faciəsi. Kaspi.- 2011.- 11 mart.*

*6. https://books.google.com/books/about/S%C3-%BCrg%C3%BCn%C3%BCn_75_Y%C4%B1l%C4%B1nda_Ah%C4%B1skal%C4%B1_T%C3%BCr.html?id=rBkmEAAAQBAJ*

*7. https://multikultural.az/az/read/35/*

*8. http://anl.az/down/meqale/zaman/2010/oktyabr/135156.htm*

*9. http://anl.az/down/meqale/xalqcebhesi/xalqcebhesi_iyun2009/81642.htm*

*10. https://muxalifet.az/axisqa-turklrinin-oztarixi-vtnlrin-qayitmaq-ugrunda-mucadilsi-v-yaxud-qrbin-bu-turk-toplumuna-qarsi*

## SUMMARY

The article deals with the forced relocation of all Akhisga Turks living in the Meskhetian region of the Georgian SSR (now the Republic of Georgia) by the Soviet government to Central Asia and then from Central Asia, and the consequences of these resettlements. The first phase of deportation took place on November 14, 1944, and the second phase in June 1989. During the initial deportation, 92,307–94,955 Akhisga Turks living in 212 villages were forcibly evicted from their homes. They were placed in cattle wagons and sent mainly to the Uzbek SSR. Members of other ethnic groups were also deported as part of the operation. About 115,000 people, including Kurds and Hamshins (Muslim Armenians), were deported during the operation. The deportees were placed in special settlements and subjected to forced labor. Severe conditions of deportation and exile killed 12,000-50,000 people.

In June 1989, the Akhisga Turks faced violence by Uzbek nationalists in the Fergana Valley of the Uzbek SSR. This is known in history as the Fergana events. Prior to these events, very few people knew about the existence of the Akhisga Turks, and very little scientific research had been done on them. After the ethnic clashes in the Fergana Valley, 70,000 Akhisga Turks fled the country and fled to seven post-Soviet countries, including Azerbaijan. According to statistics obtained in 2006, the Akhisga Turks numbered 260,000–335,000.

**Keywords:** *Akhisga, deportation, Georgia, acquittal, Fergana, "Vatan" Society.*

## РЕЗЮМЕ

В статье рассматривается насильственное переселение советским правительством всех турок-ахысгинцев, проживающих в месхетинском районе Грузинской ССР (ныне Республика Грузия) в Среднюю Азию, а затем из Средней Азии, и последствия этих переселений. Первый этап депортации состоялся 14 ноября 1944 г., а второй этап - в июне 1989 г. Во время первоначальной депортации 92 307–94 955 турок-ахысга, проживавших в 212 деревнях, были насильственно выселены из своих домов. Их помещали в скотовозы и отправляли в основном в Узбекскую ССР. В рамках операции были депортированы и представители других этнических групп. В ходе операции было депортировано около 115 000 человек, в том числе курды и амшины (армяне-мусульмане). Депортированных помещали в спецпоселения и подвергали принудительным работам. В тяжелых условиях депортации и ссылки погибло от 12 до 50 тысяч человек.

В июне 1989 года турки-ахысга столкнулись с насилием со стороны узбекских националистов в Ферганской долине Узбекской ССР. Это известно в истории как Ферганские события. До этих событий мало кто знал о существовании тюрков-ахысга, и по ним проводилось очень мало научных исследований. После этнических столкновений в Ферганской долине 70 тысяч турок-ахысга покинули страну и бежали в семь постсоветских стран, включая Азербайджан. Согласно статистике, полученной в 2006 г., турки-ахысга насчитывали 260–335 000 человек.

**Ключевые слова:** *Ахысга, депортация, Грузия, оправдательный приговор, Фергана, общество «Ватан».*

UOT 94"16/18"

# SULTAN II ƏBDÜLHƏMİD DÖVRÜNDƏ OSMANLI DÖVLƏTİNDƏ TÜRKÇÜLÜK VƏ TÜRK DÜNYASI SİYASƏTİ

**MEHMAN AĞAYEV**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti, tarix üzrə fəlsəfə doktoru*

*E-mail: mehmanaga@mail.ru*

Osmanlı tarixində Sultan II Əbdülhəmid xan qədər lehinə və ya əleyhinə müxtəlif fikirlər irəli sürülən bir sultan yoxdur. Əbdülhəmid xan 33 illik hakimiyyəti dövründə (1876-1908), Devlət-i Aliyyənin ömrünü uzatmaqla yanaşı, beynəlxalq imperializmə də sədd çəkə bilmişdi. Şər qüvvələrini bir-bir düşürərək xarici siyasətdə tarazlığı dövlətinin lehinə qorumağa çalışmışdı. II Əbdülhəmid xarici siyasətində "İttihad-ı İslam" amilini əsas tutmaqla bərabər, [1] o dövrün şərtləri daxilində türk aləmini də qorumaqdan çəkinməmişdir. Sultan II Əbdülhəmidin hakimiyyətinin ilk illəri Osmanlıda türkçülüyün ilk nüvələrinin atıldığı dövr olmuşdur. Ümumən, Osmanlıda türkçülük- milliyyətçilik fikirlərinin yaranma səbəblərinə baxarsaq:

1) Zəifləmiş imperiyanın keçmiş hərbi zəfərlərə və fəthlərə həsrəti.

2) Avropada gedən milliyyətçilik fikirlərinin Balkan yarımadasındakı qeyri-türk millətlərə təsiri.

3) Osmanlı xaricində yaranan türk millətçiliyinin Osmanlıya təsiri.

4) XIX əsrdən etibarən Avropada türklərin tarixini, dilini, ədəbiyyatını, folklorunu, etnologiyasını müqayisəli şəkildə öyrənilməsinə başlanılması-türkologiyanın inkişafı [2, s.429].

II Əbdülhəmid dövründə türkçülüyün ayrıca bir mədəni hərəkat kimi ortaya çıxmasında XIX əsrdə qərbdə aparılan Türkoloji tədqiqatların da rolu böyük olmuşdu. Bu dövrdə xüsusilə macar türkoloqlarının artan elmi tədqiqatları, 1893-cü ildə danimarkalı dilçi alim Wilhelm Thomsen tərəfindən ilk dəfə qədim türk mədəni abidəsi olan Orxon-Yenisey daş kitabələrindəki yazıların oxunması Osmanlı aydınları üzərində də müsbət təsiri olmuşdu. Hətta Sultan II Əbdülhəmid belə Göktürk dövrünə aid kitabələrin oxunmasını və bununla əlaqədar aparılan tədqiqatları dəstəkləmişdi. II Əbdülhəmidə yaxınlığı ilə bilinən Osmanlı münəvvərlərindən Əhməd Midhat Əfəndi 1889-cu ildə Stokolmda keçirilən orientalistlerin (şərqşünaslıq) konqresinə nümayəndə kimi qatılmış və orada Thomsenlə tanış olmuşdu. Danimarkalı alim Orxon abidələri ilə əlaqədar əsərini ona hədiyyə etmişdi. Daha sonralar bu əsərdən istifadə edilərək, İstanbulda Göktürk yazısını tanıtdıran bir risalə (broşür) hazırlanmış, danimarkalı alim də türk mədəniyyətinə vermiş olduğu misilsiz xidmətə görə Məcidiyyə nişanı ilə təltif edilmişdir [3, s.16-17].

Osmanlıda türkçülük düşüncəsinin yayılmasında əsas amillərdən biri də milli dildə bədii əsərlərin yazılması idi. O dövrdə Osmanlı siyasi və ədəbi həyatında mühüm iz bıraxan Əhməd Vefik Paşanı (1823-1891), Mustafa Cəlaləddin Paşanı (1826-1876) və İbrahim Şinasi Əfəndini (1826-1871) ilk türkçülərdən hesab etmək olar. Əhməd Vefik Paşanın, Ebu'l-Gazi Bahadır Hanın "Şəcəreyi-türki"ni (Türklərin soykötüyü"- 1663/1664) Şərq türkcəsindən (Çağatay) Osmanlı türkcəsinə çevirməsi , "Lehçe-i Osmanî " adlı ilk türkçə lüğətini hazırlaması; Mustafa Cəlaləddin Paşanın "Əski və modern türklər" kitabını yazması; İbrahim Şinasinin isə ilk Türkcə özəl mətbuat orqanlarından olan "Tercüman-ı Ahval'i" və "Tasvir-i Efkârı" qəzetlərini nəşr etdirməsi cəmiyyətdə türkçülük meylərinin güclənməsinə səbəb olmuşdu. Osmanlı türkçü aydınları arasında xüsusilə həm dövlət adamı, həm də ədəbi sima kimi Əhməd Vefik Paşanın fəaliyyətini Ziya Göyalp yüksək qiymətləndirmişdi. Ziya Göyalpın yazdığına görə, Əhməd Vefik Paşanın elmi türkçülüyündən başqa, sənətdə də türkçülüyü vardır; evinin bütün mebeli, özünün, hətta ailə üzvlərinin geyimləri bütünlüklə türk malından ibarət idi. Əhməd Vefik Paşa hətta fransız yazarı Molyerin komediyalarını türk dilinə çevirərkən şəxslərin adlarını da türkcələşdirmiş, türk gələnəklərinə uyğun təsvir edərək səhnədə oynatmışdır [2, s.429-430].

27 iyun 1878-ci ildə Osmanlı sarayının dəstəyi ilə Əhməd Midhat Əfəndi "Tərcüman-ı Hakikat" qəzetini nəşr etməyə başlamışdı. Osmanlı mətbuatı tarixində ən uzunömürlü və təsirli nəşrlərdən biri olan bu qəzetdə Qafqaz və Orta Asiya müsəlman türkləri haqqında geniş yazılara da yer verilmişdir. Bunun nəticəsində " Tərcüman-ı Hakikat"-ın nüfuzu bu bölgələrdə də yayılmışdır. Bundan başqa, Əhməd Midhatın türklərin tarixi və mədəniyyəti ilə əlaqədar yazdığı əsərlər də Osmanlı sərhədləri xaricində-

ki türk ziyalıları tərəfindən rəğbətlə qarşılanmışdı [4, s.84-87]. Xüsusilə, tatar türklərinin milli oyanış hərəkatında böyük xidməti olan Əhməd Midhat Əfəndini , Osmanlı türk düşüncəsinin İdil-Uraldakı nümayəndəsi olaraq da görmək mümkündür [5, s.150-151].

II Əbdülhəmid dövründə ata yurdu sayılan Orta Asiya ilə əlaqələrə xüsusi önəm verilmişdi. O dövrə aid qaynaqlardan da anlaşılır ki, II. Əbdülhəmidin mühüm xüsusiyyətlərindən biri də türklük şüuruna sahib olması idi. İslam toplumları arasında ən etibarlı ünsür olaraq türkləri görən II Əbdülhəmid, İtiihadı İslam siyasətində mədəni türkçülüyü müdafiə etmişdir. O, hakimiyyətinin ilk illərində böyük türk alimi əslən buxaralı olan Şeyx Süleyman Əfəndini Türküstan müsəlmanları ilə əlaqə saxlamaq üçün Orta Asiyaya rəsmi ezamiyyətə göndərmişdi [6, s.221].

Bundan başqa, paytaxtdakı Özbək və Kazanlı Təkkələrində (dərviş köşkləri) Orta Asiyadan İstanbula gələnlər, xüsusən də elm təhsil alanlar üçün yaşamaq imkanı yaradılmışdı. Umur-ı Sıhhiyə (Karantina təşkilatı) rəisi olan Əhməd Mithat Əfəndi, İstanbul üzərindən həcc ziyarətinə gedən Orta Asiya və qafqazyalı müsəlman zəvvarlara xüsusi diqqət yetirərək, onlara rəsmi və qeyri-rəsmi hər cür köməklik göstərmişdi [4, s.84-87].

Osmanlı dövləti Rusiya əsarətindəki müsəlmanlarla bərabər, Şərqi Türküstandakı müsəlmanlarla da təmasını sürdürmüşdü. Bu dövrdə özbək əsilli Məhəmməd Yaqub bəy Şərqi Türküstanı öz idarəsində birləşdirərək Qaşqar əmirliyini yaratmışdı (1866/1867). Qaşqar dövlətinin qurulduğu Şərqi Türküstan; Çin, Qərbi Türküstan, Əfqanıstan, Hindistan və Rusiya ilə əhatələnərək geosiyasi baxımdan Asiyanın ən mühüm mərkəzlərindən idi. Yaqub bəy dövlətini Rusiya,İngiltərə və Çinin aralarındakı rəqabətlərdən yararlanaraq mühafizə etməyə çalışmışdı [7, s.277-278].

Yaqub bəy ölkədə əmin-amanlığı bərpa etdikdən sonra tarixi və mədəni bağları olan və İslam dünyasının hamisi sayılan Osmanlı dövlətinə elçi göndərərək sultandan yardım və himayə istəmişdi. Qurmuş olduğu dövlətin Dövlət-i Aliyyənin bir parçası olaraq qəbul edilməsini diləmiş və ona biət etdiyini bildirmişdir. Osmanlı dövləti də Yaqub xanın bu tələbini qəbul etmiş və padşahın direktifi üzərinə Albay Kazım bəy başçılığında hərbi mütəxəssislər və silah-sursat Hindistan üzərindən Şərqi Türküstana göndərilmişdir. Heyət Qaşqarda böyük coşğu və sevinc ilə qarşılanmış, xütbələr padşah adına oxunmuş və sikkələr də Osmanlı sultanının adına kəsilmişdir. Şərqi Türküstan səmalarında Osmanlı sancağı dalğalandırılmışdır.Yaqub bəyə İngiltərə elçisinin də qatıldığı mərasimdə Osmanlı tərəfindən əmirlik ünvanı verilmiş və Qaşqar xanlığı "taht-ı himayet-i saltanat-ı seniyyeye" girmişdir. Türküstan torpaqlarında "Böyük oyun" oynayan İngiltərə və Rusiya da siyasi məqsədləri üçün Yaqub bəyin dövlətini tanımış və elçiliklərini Qaşqarda açmışdılar. Təəssüflər olsun ki, Yaqub bəyin qurmuş olduğu Qaşqar dövlətinin ömrü uzun olmamış, böyük dövlətlərin siyasi oyunlarına qurban getmişdi. 1877-ci ildə 40 min nəfərlik Çin ordusu hücuma keçərək Qaşqarı ələ keçirmiş, Yaqub bəy isə öldürülmüşdür. 1878-ci ilin yazında isə bütün Şərqi Türküstan çinlilər tərəfindən işğal olunmuşdur. Təəssüflər olsun ki, 1877-1878-ci illərdə ruslarla müharibədə olan Osmanlı dövləti də bu işğalın qarşısını ala bilməmişdir [8, s.1-15].

Bu həngamədə Qaşqarın işğalı zamanı əsir düşən Osmanlı zabitləri də Çin rejimi tərəfindən edam ediləcəkkən yalnız İngiltərənin vəziyyətə müdaxilə etməsi ilə sərbəst buraxılmışdır. Qaşqar əmirliyinə son qoyulsa da, onun İstanbuldakı keçmiş səfiri Yaqub Töre hələ də bir ümidin olacağını düşünərək sultan II Əbdülhəmidə müraciət etmişdi. Müraciətində Qaşqarın Memaliki Mahrusai Şahanə (Osmanlı dövləti) daxilində olduğu vurğulanmış, Bab-Ali də Şərqi Türküstan məsələsinə baxılmasının lazım olduğu ifadə edilmişdi [8, s.15]. Fəqət II Əbdülhəmid hakimiyyətinin ilk illərində dövlətin yaşamış olduğu böhran vəziyyətində, Qaşqar məsələsini siyasi yolla həllini müsəlmanların xeyrinə həll etmək mümkün deyildi. Ona görə də II Əbdülhəmid daha çox Türküstan müsəlmanlarının mədəni və elmi baxımdan inkişafına dəstək üçün Şeyx Süleyman Əfəndi kimi böyük alimləri bölgəyə göndərmiş, ilk öncə onların irfani baxımdan özlərini inkişaf etdirmələrini istəmişdi.

Sultan II Əbdülhəmid dövründə geniş vüsət almağa başlayan mədəni türkçülük, İran coğrafiyasındakı Azərbaycan türklərinə də təsirsiz ötüşməmişdi. Tarixi şiə-sünni rəqabətini yumşaltmağa çalışan II Əbdülhəmid, əslən türk olan Qacarlar xanədanlığı üzərində nüfuzunu hiss etdirməyə çalışmışdı. Xüsusilə, II Əbdülhəmid İranın nəzarətində olan Cənubi Azərbaycan məktəblərində türk dili qadağasının ləğv edilməsində böyük rol oynamışdır. Qeyd edək ki, həmin vaxt İranın nəzarətində olan Cənubi

Azərbaycandakı məktəblərdə türk dilinin öyrədilməsi qadağan idi. II Əbdülhəmid 1900-cü ilin oktyabr ayında İstanbula səfər edən İran şahı Müzəffərəddin Qacarla görüş keçirmiş [9, s.175-177] və həmin görüşün nəticəsi olaraq Azərbaycan məktəblərində türk dili qadağası aradan götürülmüşdü. Tarixçilər hesab edirlər ki, Cənubi Azərbaycan türklərinin tarixi kimliklərinin qorunub saxlamasında bu addımın böyük rolu olub [2, s.401].

O dövrdə bəzi türk münəvvərləri və siyasi xadimləri Osmanlının İttihad-ı İslam siyasətinə də uyğun olaraq, məzhəbləri fərqli olan iki türk dövləti arasında “Osmanlı-Qacar ittifaqı” ideyasını müdafiə etmişdilər. Sultan II. Əbdülhəmidin də əsas məqsədlərindən biri “İslam Birliyi” layihəsinin ən mühüm sütunu şiə-sünni birliyini gerçəkləşdirmək idi. Sultan II. Əbdülhəmid, şiələri öz tərəfinə çəkərək, şiə-sünni birliyini qurmaq məqsədilə dövrünün böyük islam ideoloqu Cəmaləddin Əfqanidən çox faydalanmışdır. Bu birliyin yaradılması üçün İranın İstanbuldakı konsulu Hacı Mirzə xanın da çox istəkli davrandığı görülmüşdür [10, s.52]. Osmanlı Sultanının liderliyində bir şiə-sünni ittifaqının qurulmasının vacibliyini qeyd edən dövrün alimlərindən olan Ebu’l-Hasan Miraç Kaçar da, öz düşüncələrini 1894-cü ildə farsca yazdığı “İttihad-ı İslam” risaləsində açıq bir şəkildə dilə gətirmişdi [11, s.219-220].

Maraqlısı odur ki, II Əbdülhəmid rejiminə müxalifliklləri ilə bilinən azərbaycanlı ziyalılarından Əhməd bəy Ağaoğlu və Əli bəy Hüseynzadə də Türk kimliyinə əsaslanan Qacar-Osmanlı ittifaqına ehtiyac olduğunu vurğulamışdılar [12, s.195].

II Əbdülhəmid dövründə Rusiya əsarətində olan Şimali Azərbaycan türkləri də diqqət mərkəzində olmuşdur. Təbii ki son iki yüz ildə ən çox müharibə etdiyi və yaxın qonşusu sayılan Rusiyanın təpkisini çəkməyən bir siyasət izlənməyə çalışılmışdır. O dövrdə Sultan II Əbdülhəmidin Bakı milyonçusu, xeyriyyəçi, maarifpərvər şəxsiyyət Hacı Zeynalabdın Tağıyev ilə də münasibətdə olduğu bilinməkdədir. Hətta H.Z.Tağıyev 1907-ci ildə müqəddəs Qurani-Kərimin təfsirini üç cilddə – ”Kəşfül- Həqayiq” (“Həqiqətlərin Kəşfi”) adı ilə Azərbaycan Türkcəsində nəşr etdirərək, bir nüsxəsini türk sultanı Sultan Əbdülhəmidə hədiyyə olaraq göndərmişdir. Sultana göndərilən bu hədiyyə, xüsusi nüsxə olaraq qızıl suyu ilə yazılmış, almaz qaşlarla bəzədilmiş və qalın gümüş qutuda yerləşdirilərək Xeyriyyə Cəmiyyətinin üzvü, müəllim və pedaqoq, görkəmli şair, ictimai xadim Abdulla Şaiqin qardaşı Axund Yusif Talıbzadə (Yusif Ziya adı ilə də məşhurdur) tərəfindən 1907-ci ilin 19 avqustunda Sultan Əbdülhəmidə çatdırılmışdır. Quranın türkcə təfsir edilməsini təqdir edən II Əbdülhəmid də, H.Z.Tağıyevi 1-ci dərəcəli, A.Y.Talıbzadəni də 3-cü dərəcəli Məcidiyyə ordeni ilə mükafatlandırmışdı [13, s.31-33].

O dövrdə Rusiya müsəlmanların arasında islam və türk birliyi ideyalarının tanınmış təbliğatçılarından biri də tatar ictimai xadimi, naşir, jurnalist, publisist Əbdürrəşid İbrahimov idi. Ümumrusiya müsəlmanların hüququnu qoruyan "İttifaqi-müslimin" partiyasının qurucularından biri olan Əbdürrəşid İbrahimov ömrünün bir hissəsini Tokioda yaşamış, yaponlar arasında islamın təbliğinə böyük əmək sərf etmişdir [14, s.295-297]. Hətta Yapon imperatoru ölkəsində İslama marağın artması üzərinə, yaxın münasibətlər qurduğu Osmanlıya müraciət edərək, İslam dininin iman əsaslarını, qayəsini, fəlsəfəsini, ibadət qaydalarını izah edəcək bir dini-elmi heyətinin göndərilməsini xahiş etmişdi. Maraqlısı odur ki, II Əbdülhəmid hazırda Osmanlıda Əbdürrəşid İbrahimovun intellektində və dünyagörüşü səviyyəsində birinin olmadığını düşünərək, Yaponiyaya yalnız dini ədəbiyyat göndərməklə kifayətlənmişdi. Bu məsələ ilə əlaqədar II Əbdülhəmid, öz şəxsi mühafizəçisi olan Əli Fəthi bəyə də gileylənmişdi:

“Əbdürrəşid İbrahim Əfəndini, bizim din adamlarından fərqləndirən cəhəti çox dil bilməsi, çox səyahət etməsi, dünyagörüşünə sahib olması ilə bərabər, İslamiyyəti yapon insanına elmi və məntiqi baxımdan düzgün tanıda bilməsi idi... Bizdəki din adamlarının mənəvi və elmi səviyyələrini, dünyagörüşlərini çox yaxşı bilirdim. Yapon imperatorunun istədiyi həqiqi ülamalar olsa idi, onlardan bir xəlifə kimi mən özüm, dövlətimin mənafei üçün istifadə edərdim....” [15, s.190 ]

Osmanlıda türkçülük ideologiyasının inkişafında görkəmli Krım-tatar yazıçısı və ictimai xadimi İsmayıl bəy Qaspiralının da böyük xidmətləri olmuşdur. 1883-cü ildən dərc etdiyi "Tərcüman" qəzetində ilk dəfə türk xalqlarının vahid konsolidasiya halında birləşməsini irəli sürmüşdür. O, indi də öz aktuallığını qoruyub saxlayan "dildə, fikirdə, işdə birlik!" şüarı ilə türk xalqları arasındakı birliyin əsas istiqamətlərini müəyyənləşdirmişdir [2, s.430]. Qaspiralı İsmayıl bəyin fəaliyyəti Osmanlı hökuməti və ziyalılar tərəfindən maraqla izlənilmişdi. Xüsusilə, onun təhsillə bağlı həyata keçirməyə çalışdığı yeniliklər Sultan II

Əbdülhəmid tərəfindən təqdirlə qarşılanmış və 4-cü dərəcəli Məcidiyyə ordeni ilə təltif edilmişdi. Qaspıralı İsmail bəy də 1894-cü ildə İstanbula gəldiyində, saraya Rusiyada nəşr olunan 130 ədəd islam dininə aid kitabla bərabər, Baburnamə və Nəvai divanının əlyazma nüsxələrini hədiyyə etmişdir [16, s.923].

1907-1908-ci illərdə Qaspiralı İsmail bəy, İslam dünyasının iqtisadi, mədəni və ictimai problemlərini müzakirə etmək, inkişaf yollarını araşdırmaq üçün Qahirədə Ümumdünya Müsəlmanlarının Konqresinin toplanılmasına böyük səylər göstərmişdi. Hətta bununla əlaqədar Osmanlı hökumətinin dəstəyini də istəmişdir. Fəqət, Osmanlı rəsmi dairələrinin bu məsələdə məsafəli davrandığı görülmüşdür. Bunun əsas səbəbləri arasında o dövrdə Misirin faktiki olaraq Birləşmiş Krallığın (ingilislərin) işğalı altında olması və Konqres Təşkilat Komitəsində II Əbdülhəmid rejiminə əleyhdar şəxslərin yer alması idi. Onsuz da daxildə böyük siyasi böhranla qarşı-qarşıya olan II Əbdülhəmidə, bu məsələ ilə əlaqədar xaricdən də basqılar gəlməkdə idi [17, s.126].

Nəticə etibarilə, Qaspıralının “Dünya Müsəlmanları Konqresi” ideyasını bütün səylərinə baxmayaraq, həyata keçirmək mümkün olmamışdı.

XIX əsrin sonu - XX əsrin əvvəllərində macarların da tərkibinə daxil olduqları dual dövlət - Avstriya-Macarıstan imperiyası zəifləməyə başlamışdı. Bunun əksinə, həm şərqdən, həm də qərbdən çıxan panslavizm və pangermanizm getdikcə qüvvətlənmişdi. Bu iki dalğadan birinin, yaxud hər ikisinin təzyiqi altında qalıb boğulmamaq, milli xüsusiyyətləri və dövlətçiliyi qorumaq üçün macarların ideoloji baxımdan özlərini həm qonşularından, həm də bütünlükdə Avropa cameəsindən fərqləndirmələrinə ehtiyacları yaranmışdı. Avropada dəyişən qüvvələr balansında macarlar, Osmanlılara yaxınlıq duymaya başlamışdılar. Bu kontekstdə Osmanlı türkçüləri ilə macar türkoloqları arasında bir fikir alış -verişi başlamışdır.

Turan anlayışının bir siyasi ideologiya hal alması üzərinə Budapeştdə 1877-ci ildə Turan konqresi təşkil olunmuşdur. Bu konqresə Sultan II Əbdülhəmid də dəvət edilmişdir. Macarların türk-serb müharibəsində açıq şəkildə Osmanlını dəstəkləməsini və türklərə qarşı böyük ilgi duymalarını göz önündə tutan sultan, bu təkilfi geri çevirməmişdi. Sadəcə, təhlükəsizlik baxımından öz yerinə etibar etdiyi adamlarından olan Şeyx Süleyman Əfəndini Budapeştə göndərmişdi [18, s.634].

II Əbdülhəmidin 1870-ci ildə qurulan dünyanın ilk Türkoloji kürsüsünün professoru olan məşhur macar türkoloqu Arminius Vambery ilə də yaxın münasibətdə olduğu bilinməkdədir [19, s.501-502].

Türkçülük şüuruna sahib bir sultan olan II Əbdülhəmidin, bu xüsusiyyətini həyata keçirmiş olduğu tədbirlərdə də sezmək mümkündür. Hakimiyyəti illərində Osmanlı soyunun türklərin qayı boyundan gəldiyini göstərmək üçün “həmşəhərlilərim” dediyi Karakeçili qəbiləsindən 200 nəfər seçmə gənci saraya gətirdərək Söyüdlü Maiyet Bölüğünü (Ertuğrul Süvari Alayı) təşkil etmişdi. Ərtoğrul Süvari Alayı, Osmanlı dövlətinin doğuşunu simvolizə edən Ərtoğrul Qazi dövrünə qayıtmağın simvolu idi. Alay ,Osmanlı dövlətini "Ərtoğrul" adı ilə köklərinə qaytararkən, eyni zamanda ləkəsiz ağ atları ilə Fatih Sultan Mehmetin fəth ruhuna işarə etməkdə idi [20].

II Əbdülhəmid türk dilinə ən çox dəyər verən Osmanlı padşahı kimi də tarixə keçmişdi. II Əbdülhəmidin səyi nəticəsində Osmanlının ilk anayasası (konstitutsiya) “Qanun-i Əsasi”də (1876) dövlətin rəsmi dilinin türkcə olduğu açıq bir şəkildə vurğulanmışdı. Hətta konstitusiya komissiyasının bəzi üzvləri, peyğəmbər əfəndimizin də ərəbcə danışdığını əsas götürərək, ərəb dilinin rəsmi dil olmasını istəmişdilər. Bunun üzərinə sədrəzəm Mithat Paşanı hüzuruna çağıran II Əbdülhəmid düşüncələrini bu şəkildə bəyan etmişdi:

“Paşa, hər kəsə agah olsun ki, müqəddəs Quran-ı Kərimi ərəbcə qiraət etməkdən heç vaxt vaz keçmədiyim kimi, dövlətimin torpaqlarında da türk dilinin rəsmi dil kimi istifadəsindən vaz keçməm! Belə bir maddənin yer almayacağı anayasanı mənim önümə gətirməyin” [21, s.73].

Məhz, II Əbdülhəmidin israrı ilə Qanun-i Əsasinin 18 və 57 -ci maddələrində dövlətin rəsmi dilinin türkcə olduğu açıq şəkildə vurğulanmışdı. Bundan başqa, dövlət qulluğunda işləyə bilmək üçün də türkcə bilmək şərti gətirilmişdi [21, s.73; 22]. Ayrıca, milli azlıqlara aid məktəblərdə də türkcənin tədrisi məcburi hala gətirilmiş, buna uymayan tədris müəssisələri bağlanılmışdı [21, s.75].

1894-cü il tarixli qərarla isə məktəblərdəki təhsilin ərəb və fars dilindən uzaq sadə bir türkcə ilə həyata keçirilməsi əmr edilmişdi [23, s.143].

Sultan II Əbdülhəmid dövrün şərtlərinə uyğun olaraq İttihad-ı İslam siyasətini izləməsinə rəğmən, bir türk dövlətinin hökmdarı olduğunu, türklüyünü açıq bir şəkildə bəyan etməkdən çəkinməmişdi. II

Əbdülhəmid, bir gün Ulduz sarayın bağçasında sadə bir bağbana "pis türk"-deyə bağıran arnavut əsilli zabitə, sərt təpki göstərib, özünün də türk olduğunu qürurla vurğulayan bir hökmdar olmuşdur [21, s.76]. Maraqlısı budur ki, II Əbdülhəmidin türk-islam sintezindən doğan türkçülük anlayışı, o dövrdə ona qarşı müxalif olan türkçü ideoloqlar tərəfindən də mənimsənmişdir. Başda Ziya Göyalp olmaqla türkçülük ideologiyası tərəfdarlarının əksəriyyəti belə hesab edirdi ki, türk millətçisi olmaq eyni zamanda islamçı olmaq deməkdir, belə ki, din dildən sonra millətin ən mühüm göstəricisidir. Ziya Göyalp 1923-cü ildə yazmış olduğu "Türkçülüyün əsasları" əsərində: "türkçülüyün qayəsinin çağdaş bir islam türkçülüyü olduğunu"- açıq bir şəkildə vurğulamışdı [24].

Cümhuriyyət dövründə türkçülüyün görkəmli ideoloqlarından sayılan Nihal Atsız isə, Türkiyədə kimlərinsə marağına görə yazılan tarix kitablarında mənfi "qızıl sultan" obrazı yaradılarkən, Sultan II Əbdülhəmidə "Gök Sultan" ünvanını layiq görərək, dövrünün ən böyük diplomat hökmdarı haqqında görüşlərini bu şəkildə dilə gətirmişdi:

"Tariximizdə ən böyük haqsızlıqlara uğramış şəxsiyyətlərdən biri Sultan II Əbdülhəmiddir. Onu hər tərəfli başa düşmək üçün taxta çıxdığı dövrü təhlil etmək lazımdır. Sultan Əbdülhəmidin qarşısında soyumuzun düşməni Moskvalılar (Rusiya), xilafətin düşməni İngiltərə, dövlətimizin düşməni sionizm və onun maşaları olan azlıqlar, sözdə rejim müxalifləri olan hürriyyətpərvərlər durmaqda idi. Dövlətimizin ayaqda qala bilməsi üçün onun mütləq başda olması lazımdı. Çəkildiyi təqdirdə dövlətin çökəcəyi düşüncəsi, təəssüflər olsun ki, qısa bir müddət sonra gerçəkləşmişdi. Sultan Əbdülhəmid qızıl deyil, "ök Sultan"-dır. Hər kəsdə ola biləcək kiçik nöqsanlarını şişirdərək, fəzilətlərini inkar etməklə, nə türk tarixi, nə də türk milləti bir şey əldə edə bilər" [25].

**Açar sözlər:** *II Əbdülhəmid, Osmanlı, türkçülük, İttihad-ı İslam*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Eraslan, Cezmi, II Abdülhamid dövründə Osmanlı devletinin İslam Birliği siyasəti, Doktorantura tezi, İstanbul, 1991*

*2. Ağayev Mehman - Əliyeva Sevinc, Osmanlı tarixi, Bakı, 2021*

*3. Kurnaz, Cemal, " Vilhelm Thomsene Mecidi Nişanı verilmesi ",Türk dili araştırma yıllığı-Belleten, cild 41 (1993)*

*4. Yiğitbaş, Maksut, "Ahmet Mithat Efendi ve Kafkas'lar", Ahi Evran Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Cild 5, Sayı 1, 2019*

*5. Maraş, İbrahim, "İdil Ural Bölgəsi ve Osmanlı Fikri münasibetleri", Ahmet Yesevi Üniversitesi, BİLİG Türk Dünyası Sosyal Bilimler Dergisi, 1997*

*6.Türk Diyanet Vakfi ( TDV), İslam Ansiklopedisi, "II Abdülhamid maddesi" Cild 1 , İstambul, 1988*

*7. Türk Diyanet Vakfi ( TDV), İslam Ansiklopedisi, "Yakup Bey" maddəsi, cild 43, İstanbul 2013*

*8. Gönder, Çağatay, "Kaşkar emirliğinin Osmanlı devletine tabiiyeti", Yakın Dönem Türkiye Araştırmaları Yıl: 2016/2, Cilt:15, Sayı: 30*

*9. Bolat Gökham, Ermeni meselesinde İranın rolü ve Osmanlı-İran ilişkilerine etkileri (1876-1909), Erciyes Üniversitesi Doktora tezi, Kayseri, 2010*

*10. Çiçek, Ragip, II Abdülhamid döneminde şiilik, Kastamonu Üniversitesi , yüksek lisans tezi, 2019*

*11. Arabacı, Caner, "II Abdülhamide İslamcı mühalefet", Sultan II Abdülhamid dönemi (Siyaset - İktisat - Dış Politika - Kültür – Eğitim), İstanbul Sabahattin Zaim Üniversitesi, İstanbul, 2019*

*12. Shahed, Babak , Syasi Türkçülük, devri düşünürleri ve İran Türklüğü, Tebriz Araştırmaları Enstitüsü / TÜDEV Denge , 2019/6*

*13. Dədəyev Bilal və Balayev Xaqan, "Tariximizin öyrənilməmiş səhifələrinin izi ilə: H.Z.Tağıyev və Sona xanımın Osmanlı dövlət ordenləri ilə təltifi", Elmi xəbərlər jurnalı, Lənkəran Dövlət Universiteti, 2020*

*14. Türk Diyanet Vakfi ( TDV ) , İslam Ansiklopedisi, " Abdürreçid İbrahim" maddəsi, cild 1, İstanbul, 1988*

*15. Barlak, Hasan, " Abdürreşid İbrahimin Yaponyada Hırıstiyan misyonerliği karşısındakı tutumu" Tokat Gaziosmanpaşa Üniversitesi Sosyal Bilimler Araştırmaları Dergisi. Sonbahar Özel Sayı, 2020*

*16. Yılmaz, Yasemin "Yeni Belgelerin Işığında Osmanlı Devleti ve Gaspıralı İsmail Bey". Karadeniz Araştırmaları. XVII/68: (2020)*

*17. Ortak, Şaban, "Arşiv Belgeleri Işığında Osmanlı Yönetiminin Gaspıralı İsmail Bey'e Karşı Tutumu", Karadeniz Araştırmaları Enstitüsü Dergisi, 8/14*

*18. Mızrak, Sezgin Topal, " II. Abdülhamid Döneminde Türk-Macar İlişkileri", https://www.ttk.gov.tr/wp-content/uploads/2022/04/33-SezginTopalMiz-*

rak.pdf

19. Türk Diyanet Vakfı ( TDV ) , İslam Ansiklopedisi, "Arminius Vambery",maddəsi, cild 42, İstanbul, 2012

20. Bozkurt, Celil, Sultanın öz hemşehirlileri süvarı Ertuğrul alayı, İstanbul, 2022

21. Maden , Fahri, "II Abdülhamid Türkcenin" resmi dil" olmasını savunmuştu",Türk yurdu, cild 29, sayı 266, 2009

22. https://www.anayasa.gov.tr/tr/mevzuat/onceki-anayasalar/1876

23. İbrahimov, Elçin, " Tarixən türk dövlət və cəmiyyətlərində dil siyasəti: Osmanlı imperiyasında dil islahatları", Azərbaycan Milli Elmlər Akademiasının Naxçıvan bölməsinin elmi əsərləri, №3, 2020

24. Gökalp, Ziya, Türkçülüyün əsasları, Eskişehir, 2019

25. Atsız, Nihal, " Abdülhamit Han: Gök Sultan", Orkun Dergisi, Sayı:6, 1982 https://www.ulkuyaz.org.tr/abdulhamit-han-gok-sultan-huseyin-nihal-atsiz/

**The policy of Turkism and the Turkic world in the Ottoman state during the reign of Sultan Abdülhamid II**

**SUMMARY**

The article discusses the reasons for the emergence of Turkic-nationalist ideas in the Ottoman state and the emergence of Turkicism as a separate cultural movement during the period of Abdulhamid II (1876-1908). Abdulhamid II did not hesitate to protect the Turkish world within the conditions of the time, while taking the "Unity of Islam" factor as the basis of his foreign policy. During his time, special importance was given to relations with Turkestan, which is considered as his fatherland. It is understood from the sources of that period that one of the important characteristics of the Ottoman sultan was his Turkishness. The concept of Turkism born from the Turkish-Islamic synthesis of Abdulhamid II was adopted by the Turkic ideologues who opposed him at that time.

**Keywords:** *Abdulhamid II, Ottoman, Turkism, Unity of Islam.*

**Политика тюркизма и тюркского мира в Османском государстве в период правления султана Абдул-Хамида II**

**РЕЗЮМЕ**

В статье рассматриваются причины возникновения тюркско-националистических идей в Османском государстве и возникновения тюркизма как отдельного культурного течения в период правления Абдул-Хамида II (1876-1908 гг.). Абдул-Хамид II, не колеблясь, защищал тюркский мир в условиях того времени, взяв за основу своей внешней политики фактор «единства ислама». В его время особое значение придавалось отношениям с Туркестаном, который считался его отечеством. Из источников того периода понятно, что одной из важных характеристик османского султана была его турецкость. Концепция тюркизма, рожденная из тюрко-исламского синтеза Абдул-Хамида II, была воспринята противостоявшими ему в то время тюркскими идеологами.

**Ключевые слова:** *Абдул-Хамид II, Османская империя, тюркизм, иттихад-и-ислам ( единение ислама).*

UOT 338.48

# ŞUŞA ŞƏHƏRİNDƏ SAĞLAMLIQ TURİZMİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

**GÜLNAR SƏMƏDOVA**
*AMEA İqtisadiyyat İnstitutunun baş elmi işçisi, iqtisadiyyat üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: gulnar.samadova@gmail.com*

**Giriş**

*"Şuşa Qarabağın tacıdır, Şuşa təkrarolunmaz şəhərdir. Şuşanın yerləşməsi, təbiəti, havası, iqlimi, tarixi abidələri, dini abidələrimiz, şəhərin memarlıq ansamblı bizim milli sərvətimizdir. Şuşanı biz qorumalıyıq, qoruyacağıq. Biz Şuşaya qayıtmışıq və bundan sonra Azərbaycan xalqı Şuşada əbədi yaşayacaqdır".*

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

İşğalda olduğu müddətdə, Ermənistan hökuməti 2004-cü - 2011-ci illər arası Şuşanın quruculuq və bərpası istiqamətində layihələr hazırlamışdı. Şuşanın bərpasının reallaşması üçün hazırlanan bu layihələr, Ermənistan büdcəsinin hesabına nəzərdə tutulmuşdu. Bunun nəticəsi olaraq 2011-ci ildən başlayaraq xarici turistləri Şuşaya cəlb etmək məqsədilə beynəlxalq səviyyədə reklamlar sərgilədilər. Şuşada otel, motel və hostellər istifadəyə verilərək, turizmin inkişaf etməsinə çalışmışlar. Daima başqa xalqların sərvətində gözü olan erməni millətçiləri Azərbaycan mətbəxini də öz adlarına çıxaraq, milli yeməklərini qədim erməni mətbəxi kimi tanıtmağa cəhd etmişdir [1].

Bu baxımdan, Şuşa şəhərində turizm sektorunda mikro və kiçik müəssisələrin inkişaf etdirilməsi və bu sahəyə qoyulan investisiyaların, uzunmüddətli kreditlərin ayrılması mühüm əhəmiyyət kəsb edir. Şuşa şəhərində sağlamlıq turizminin inkişafı üçün bütün imkanlardan istifadə olunması, turizm sahəsində yeni seqmentlər yarada bilər. Bunun üçün beynəlxalq təcrübədən və mövcud potensialdan istifadə oluna bilər.

Öz tarixi torpaqlarını işğaldan azad edən Azərbaycan Respublikası iqtisadi strukturunun müasir tələblər səviyyəsində inkişaf istiqamətlərini dəyərləndirməkdədir. Mövcud potensialı nəzərə alaraq Şuşa şəhərində turizm sektorunun inkişafının ölkə iqtisadiyyatına təsirinin səmərəliliyini nəzərə alaraq, bəzi sahələri aşağıdakı kimi mərhələlərə bölmək olar:

- işğaldan sonra öz yurdlarına qayıdan əhalinin işlə təmin olunmasında yüksəkixtisaslı işçi qüvvəsi tələb olunmayan istehsal sahələrini yaratmaq olar. Bu işsizlik probleminin həllinə müsbət təsir göstərər;
- xarici turistlər milli qida məhsullarına qonaq etməklə, daxili qida məhsullarının istehsalını təşkil etmək olar. Bu da, əlavə tələb yaratmaqla qida sahəsində fəaliyyət göstərən mikro və kiçik müəssisələrin inkişafına səbəb olar;
- Şuşa şəhərində müalicəvi turizmlə yanaşı, istirahət və əyləncə tələbatlarını ödəyən, mədəniyyət və incəsənət sahələrinin inkişafına səbəb olar.

Şuşa şəhərində turizm sektorunun inkişafı ilə Qarabağ və işğaldan azad edilmiş ərazilərin də yüksək iqtisadi artım templərinə təsir edəcəyi danılmazdır. Məhz bu baxımdan Şuşa şəhərində turizm sektorunun inkişaf etdirilməsi əhəmiyyətli hesab oluna bilər. Bununla da, bu ərazilərdə bərpa - quruculuq işlərinin sürətlənməsində əhalinin işlə təmin olunmasında əvəzsiz imkanlar açılar.

## Şuşada turizm sektorunun inkişaf potensialının təhlili

Dövlətin iqtisadi siyasətinin əsasını təşkil edən turizm sektorunun inkişafı aktual əhəmiyyət kəsb edir. İşğaldan azad olunan ərazilərdə quruculuq və bərpa işlərinin aparılması, bu ərazilərin iqtisadi fəaliyyətə başlaması dövlətimizin iqtisadi potensialının yüksəlməsində əhəmiyyətli rol oynayır. Bu baxımdan, respublikada nəqliyyat infrastrukturunun müasir səviyyədə yenidən qurulması, müxtəlif bölgələrdə yeni istirahət zonalarının tikintisi, avtomobil və dəmir yollarının təkmilləşdirilməsi və xidmət sahələrinin müasir tələblər səviyyəsində qurulması görülən tədbirlərin bariz nümunəsidir.

Şuşa şəhərində turizm sektorunun inkişafı bu baxımdan əhəmiyyətli hesab edilir. Şuşa şəhərində turistlər üçün maraq oyada biləcək tarixi abidələr və müalicəvi zonalar çoxdur. İşğaldan azad edildikdən sonra burada təşkil olunan incəsənət tədbirləri bu şəhərin turizm baxımından cəlbediciliyinin yüksəlməsinə yerli və xarici turizm bazarının inkişafında mühüm rol oynayır və böyük maraq yaratmışdı. Şuşa

şəhərində mehmanxana və ya mehmanxana tipli binaların inşası nəzərdə tutulur. Bir faktı da əlavə etmək lazımdır ki, 2023-2030 - cu illərdə mehmanxana biznesinin Şuşa səhərində inkişafının bütün yolları dəqiqləşdirilməlidir.

Şuşa iqtisadi potensiala malik şəhər kimi Azərbaycanın ən gözəl guşələrindən hesab olunur. Əsrarəngiz təbiəti, müalicəvi suları, bu yerin Sovet hakimiyyəti illərində dağ-iqlim və balneoloji kurort zonasına çevrilməsinə səbəb olub. Kurort şəhəri kimi Şuşa nəinki Azərbaycanda, onun hüdudlarından kənarda da tanınırdı. Şuşa şəhəri ümumi zəiflik, qanazlığı, qapalı vərəm və digər xəstəliklərin müalicəsində sağlamlıq mərkəzi kimi mühüm yer tuturdu. Şuşa şəhərində hava daima təmiz, yüngül olduğundan, insanı çox rahatlaşdırır və əsəbi azaldır. Sovet hakimiyyəti illərində Şuşa şəhərində sanatoriyalar, pansionatlar və turist bazaları inşa edilib. 1976-cı ilin 4 noyabr tarixində ümummilli lider Heydər Əliyev şəxsi təşəbbüsü ilə "Şuşa şəhərində kurort kompleksinin sonrakı inkişafı üzrə tədbirlər haqqında" qərar qəbul etdi. Yalnız bu qərardan sonra Şuşa şəhəri ümumittifaq kurort zonası kimi fəaliyyətə başladı.

Gələcəkdə Şuşada sağlamlıq turizminin inkişafı zamanı, karbon turşulu-hidrokarbonatlı - natriumlu sudan nəfəs yolu xəstəlikləri, həzm, sinir sisteminin pozulması, qanazlığı kimi xəstəliklərin müalicəsi müvəffəqiyyətlə istifadə edilə bilər. Burada sağlamlıq turizminin inkişafı üçün potensial imkanların olması, gələcəkdə, tənəffüs yolları xəstəlikləri, maddələr mübadiləsinin xəstəlikləri, sinir-əsəb xəstəlikləri, qanazlığı ilə yanaşı, mədə-bağırsaq xəstəliklərinin müalicəsini də həyata keçirmək olar. Şuşanın kurort və istirahət mərkəzi kimi fəaliyyətində birinci yeri sağlamlıq turizmi tutur. Belə ki, sağlamlıq turizminin inkişafı üçün burada hər cür imkan vardır. Şuşanın sanatoriya və kurortları keçmiş sovet məkanında -Baltikyanı respublikalarda, eləcə də Avropa ölkələrindəki sanatoriya və kurortlardan özünəməxsusluğu ilə seçilib [1].

Qarabağın ordumuz tərəfindən işğaldan azad olması, burada iqtisadi inkişafın reallaşmasını əsaslaşdırıb. Qarabağın turizm sahəsindəki maddi və mənəvi imkanlarından istifadə etməklə, işğal altında olduğu müddətdə itirdiyi itkiləri bərpa edə bilər. Gözəl və əvəzolunmaz təbiəti ilə seçilən Qarabağ Azərbaycanın tarixi torpağıdır. Ermənistan tərəfindən işğal olunduğu müddətdə Qarabağın turizm sahəsindəki potensialı da zərər gördü. Belə ki, sovetlər zamanında yaradılmış turizm potensialı məhv oldu.

Statistik məlumata əsasən Şuşa şəhəri turizm vazitəsi ilə ölkə iqtisadiyyatına milyonlarla gəlir gətirib. Həm istirahət, həm də müalicəvi xüsusiyyətə malik potensialı olan Şuşa şəhəri Turşsu, İsa bulağı, Səkili bulağı, Soyuqbulaq, Qırxbulaq, Yüzbulaq, Çarıqbulaq və başqa nadir təbiət möcüzələri ilə də məşhurdur. Tədqiqatçıların dediyinə əsasən, Şuşa şəhərinə əsasən müalicə məqsədi ilə daha çox turist gəlirdi. Sovetlər dövründə az sayda zavod və fabriki olan Şuşanın əsas gəliri turizm sahəsindən əldə olunurdu.

Keçmiş sovet dövründə Şuşa şəhəri turizm sahəsində iqtisadi potensiala sahib olmuşdu. Şuşanın sanatoriya və kurortları əsası 1941-1945 -ci ildən əvvəl qoyulsa da inkişafı müharibədən sonra davam etmişdi. Şuşa şəhərində ixtisaslaşdırılmış respublika uşaq sanatoriyasının təməli 1939-cu ildə qoyulmuşdur. Şuşa turist bazası 1970-ci ildə müstəqil fəaliyyətə başlamışdır [2].

**Cədvəl 1**

**Sovetlər birliyində Şuşa şəhərində ixtisaslaşmış sanatoriya və kurortlar [2].**

| İllər | Yer | Çarpayı sayı |
|---|---|---|
| 1968 | Pansionat | 400 |
| 1992 | Şuşa istirahət evi | 1000 |
| 1939 | Şuşa şəhərində ixtisaslaşdırılmış respublika uşaq sanatoriyası | 250 |
| 1970 | “Şəfa” turist bazası | 130 |
| 1982 | “Meşə” sağlamlıq məktəbi | 100 |
| 1990 | “Şəfa” turist bazasına əlavə korpus | 200 |
| 1990 | “Soyuqbulaq” turist bazası | 120 |
| 1990 | “Qarabağ” mehmanxanası | 100 |
| 1990 | Şuşa şəhərində respublika meşə-sağlamlıq məktəbi | 100 |
| 1990 | Azərbaycan Avtomobil Nəqliyyatı Nazirliyi işçilərinin uşaqları üçün yay istirahət düşərgəsi | 300 |
| | “Qaqarin” adına DQ Vilayət pionerlərin yay istirahət düşərgəsi | 160 |
| | “Dostluq” vilayət kommunal təsərrüfat işçilərinin uşaqları üçün pionerlərin yay istirahət düşərgəsi | 120 |

İşğaldan azad edildikdən sonra Şuşada istirahət və asudə vaxtın rahat keçirilməsi üçün dövlət tərəfindən yaradılmış əlverişli şərait yüksək səviyyədə xalqa xidmət edir. Gələcəkdə bu sahənin daha da cəlbedici olması, Azərbaycanın beynəlxalq aləmdə tanınmasına zəmin yaradacaqdır. Şuşa şəhərində mehmanxana və mehmanxana tipli müəssisələrin yaradılması və bu sahəyə müasir idarəetmə metodlarının tətbiqi yüksək gəlir gətirə bilər. Nəticədə bu müəssisələr Şuşa şəhərində əmək məhsuldarlığının yüksəlməsinə və şəhər əhalisinin işlə təmin olunmasına zəmin yaradar.

Nəzərə almaq lazımdır ki, mehmanxana biznesinin inkişafı məşğulluğun təmin edilməsində əhəmiyyətli rol oynamır. Burada birinci yeri, sağlamlıq turizmi tutur. Həm xidmət, həm səhiyyə sahəsinin inkişafı labüddür. Lakin turist axınının əsas cəlbedicilərindən olan mehmanxana xidmətlərinin kəmiyyət və keyfiyyət göstəricilərinə qida sənayesini də daxil etsək, onda nəqliyyat və səyahət xidmətlərinin inkişafı klasterial inkişafı sürətləndirə bilər [2].

Şuşa şəhərində turizm sənayesinin səmərəliliyini qiymətləndirmək üçün bu sahədə xidmətlərin səviyyəsinin dünya standartlarına çatdırılmasına çalışmaq lazımdır. Belə ki, əsas fondların dəyəri hər il artmaqda davam edir. Turizm sahəsinin əsas fondlarının artım tempinin ölkə üzrə artım tempindən çox olması turizm sektorunun investorlar üçün əhəmiyyətli olduğunu deməyə əsas verir. İşğalda olduğu müddətdə dağıdılan turizm zonalarının yenidən bərpa olunmasının layihələri işlənməlidir. Dünya turizm standartları tələblərinə cavab verən, turizm sektorunun yaradılması respublikada iqtisadi inkişaf göstəricilərinin yaxşılaşmasına səbəb olacaqdır.

Şuşa şəhərində turistlərin yerləşdirilməsi və ictimai iaşə müəssisələrinin yaradılması, ÜDM-in cari qiymətlərlə həcminin, eləcə də bu sahədə məhsuldarlığın artmasına səbəb olacaqdır. Şuşa şəhərində turizm sektorunun klasterial inkişafının təmin edilməsi ölkədə həyat səviyyəsinin yüksəlməsinə, kiçik biznesin inkişaf etməsinə səbəb olar.

Turizm sektoru üçün tələb olunan göstəricilərə sahib olan ərazilərdə turizm bizneslərinin yaradılması özəl sektorun inkişafına təkan verəcəkdir. Turizm biznesi məşğulluq və iqtisadi gəlirin toplandığı sahə hesab olunur. Turizm biznesində, mehmanxanalar və digər yerləşdirmə növləri özəl sektor kimi daha sürətlə inkişaf edə bilər. Susa şəhərində turizm layihənin hazırlanmasında buna xüsusi diqqət yetirilməsi lazımdır. Eyni zamanda, yeni texnologiyalardan istifadə etməklə, insan sağlamlığının təhlükəsizliyinə və maliyyə resurslarının artımına səbəb ola bilər [3].

Yeni texnologiyalardan istifadə mövcud boşluğu aradan qaldırmaqla yanaşı, onlayn xidmətlər təqdim edir. Elmi-texniki alət dəsti otellərdə əməliyyat xərclərini azaltmağa kömək edir. Başqa sözlə elmi-texniki tərəqqinin nailiyyətlərindən yararlanmaqla turizm biznesinin mənfəətini artırır. Onu da qeyd etmək lazımdır ki, turizm respublikamız üçün təkcə iqtisadi baxımdan gəlir mənbəyi deyil, eyni zamanda, ölkəmizin tarixi, mədəniyyəti, xalqımızın qədim tarixə malik adət-ənənələrinin əcnəbi turistlərin diqqətinə çatdırılmasında əhəmiyyətli rol oynayır. [4]

Gələcəkdə Şuşa şəhərində inşa olunacaq turizm sektorunda bunların nəzərə alınması, texnologiya provayderlərinin otellərdə istifadəsi turizm sahəsi üçün əhəmiyyətli rol oynaya bilər. “Turizm haqqında” Azərbaycan Respublikasının Qanununa görə, “Turizm - Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti olacağı ölkədə ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə istirahət, sağlamlaşdırma, tanış olma, idman və dini məqsədlərlə daimi yaşayış yerlərindən müvəqqəti getmələridir” [5].

Bu sahənin özü turizm sahəsinə yeni biznes gəlirləri gətirə bilər. Şuşa şəhərində turizm sektorunun elektron alətlər dəsti ilə təmin edilməsi vaxta və maliyyə itkisinə qənaət edə bilər. Burada istifadəyə verilən mehmanxanalarda cari enerji istifadəsini qiymətləndirən hesabatın aşağı olması arzu olunandır. Müvafiq bərpa olunan enerji və enerji səmərəliliyi yeni texnologiyalardan istifadəni tövsiyə edir.

## Nəticə

Davamlılıq prinsipləri gələcək iqtisadi, sosial və ətraf mühitə təsirlərini tam nəzərə alan turizmin inkişafı qaydaları və idarəetmə bütün formalarına tətbiq edilir. Ölkə ərazisində turizmin inkişafı ekoloji, iqtisadi və sosial-mədəni aspektlərə təsir etməklə, davamlılığın təmini üçün balans yaradır. Dünyada turizmin inkişafının əsas elementini təşkil edən ekoloji resurslardan optimal istifadə etməklə, mühüm ekoloji prosesləri saxlamaqla və təbii irsin qorunmasına kömək etmək, insanların sosial-mədəni həyatlarını yaxşılaşdırmaq olar. Həyata davamlı, uzunmüddətli iqtisadi əməliyyatları təmin etmək, sosial-iqtisadi faydalar, sabit məşğulluqla gəlir əldə etmək imkanları yoxsulluğun azaldılmasına gətirib çıxarda bilər. Turizmin inkişaf konsepsiyasının yaradılmasını tə-

min etmək üçün mövcud imkanlardan istifadə tələb olunur. Ölkədə turizm sektoruna sahib olmaq, bir çox tədbirlərin tətbiqini tələb edir. Belə ki, turizm inkişafı həm də yüksək səviyyədə turist məmnuniyyətini saxlamalıdır. Turizmin bütün sahələrində turistlərin mənalı istirahətini, sağlamlığını təmin etməli, onların mövcud yer haqqında fikirlərini, təəssüratlarını yaxşılaşdırmalıdır.

Şuşa şəhərinin mövcud turizm potensialının inkişaf etdirilməsi bu gün aktual məsələlərdən hesab olunur. Bunun üçün Şuşa şəhərində turizm sektorunun inkişaf səviyyəsi klasterial inkişaf baxımından böyük imkanlar yaradır. Turizm sektorunun yaratdığı tələbatlar belə tələbatların ödənilməsində müəssisələrin inkişafında əhəmiyyətli rol oynayacaqdır. Mövcud imkanlardan istifadə etməklə Şuşa şəhərində turizm sektorunun rəqabət qabiliyyətini də yüksəltmək olar. Bu baxımdan, Şuşa şəhərində turizm sektorunun klasterial inkişafı üçün çox yaxşı iqtisadi imkanların mövcudluğunu fakt kimi qəbul etmək olar.

Şuşa şəhərində turizm sektorunun inkişaf səviyyəsi ilə əlaqəli olan müəssisələrin inkişafı, əhalinin rifahının yüksəlməsi ilə yanaşı, özünüməşğulluğun inkişaf etməsinə, ölkədə gəlirlərin artmasına müsbət təsir göstərəcəkdir. Eyni zamanda, Şuşa şəhərində turizm sektorunun inkişafı maliyyə bazarlarına çıxış imkanlarının artırılmasına, turizmin inkişafının yaratdığı imkanlardan daha da səmərəli istifadə edilməsi üçün əsas istiqamətlər kimi qəbul oluna bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Şuşa - Azərbaycanın mədəniyyət paytaxtı: biblioqrafiya / Tərt. ed. X.Abbasova; elmi red. K.M.Tahirov; red. E.R.Nəciyev. – Bakı, 2021. – 600 s.*

*2. https://xudaferin.eu/logman-susa-mcnun-susa-drdlr-drman-susa.html-0*

*3. Məmmədov C.A. Soltanova H.B., Rəhimov S.H. Beynəlxalq Turizmin coğrafiyası, (dərs vəsaiti), Azərbaycan dilində, Bakı, "Mütərcim", 2002. -512 s.*

*4. Əliyev Əmir İbrahim oğlu, Aslanov Elnur Zakir oğlu. Beynəlxalq turizm hüququ. Dərslik. Bakı, 2011,475 səh. İSBN: 978-9952-8039-1-4*

*5. Məmmədov C.A. Soltanova H.B., Rəhimov S.H. Beynəlxalq Turizmin coğrafiyası, (dərs vəsaiti), Azərbaycan dilində, Bakı, "Mütərcim", 2002. -512 s.*

## XÜLASƏ

Məqalə Şuşa şəhərində turizm sektorlarının fəaliyyəti, inkişafı və bu sahədə yarana biləcək problemlərin həllinə həsr edilmişdir. İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və abadlıq işləri Şuşa şəhərində də yüksək səviyyədə həyata keçirilməkdədir. Şuşa şəhərində turizmin inkişafı, ölkəmizdə iqtisadi yüksəlişə nail olmaq üçün strateji istiqamət kimi qiymətləndirilir.

**Açar sözlər:** *beynəlxalq turizm, dünya iqtisadiyyatı, Şuşa şəhərinin iqtisadi potensialı.*

## РЕЗЮМЕ

Статья была посвящена деятельности, развитию и решениям проблем имеющийся в туристическом секторе в Шуше. Работы по реконструкции в освобожденных районах также проводятся на высоком уровне. Развитие туризма в городе Шуша рассматривается как стратегическое направление достижения экономического роста в нашей стране.

**Ключевые слова:** *международный туризм, мировая экономика, экономический потенциал города Шуша.*

## SUMMARY

The article focused on the activities, development, and solutions to the tourism sectors in Shusha. Reconstruction and maintenance work in the liberated areas is also being carried out at a high level in the city of Shusha. The development of tourism in the city of Shusha is seen as a strategic direction for achieving economic growth in our country.

**Key words:** *international tourism, the world economy, the economic potential of the city of Shusha.*

UOT 338.48

# AZƏRBAYCANIN REGİONLARINDA HADİSƏ TURİZMİNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI YOLLARI

**AYTƏKİN AXUNDOVA**
*Bakı Dövlət Universiteti*
*Dünya iqtisadiyyatı kafedrasının müəllimi,*
*iqtisad üzrə fəlsəfə doktoru*

*E-mail: axundova48@hotmail.com*

Turizm COVID-19 pandemiyasından daha çox zərər çəkən sahələrdən biridir. UNWTO-nın məlumatlarına görə, cari böhran dövründə 2008-ci il resessiyasına nisbətən 7,5 faizdən çox azalmışdır. Bununla belə, qeyd etməliyik ki, turizm dinamik inkişaf edən və iqtisadiyyatın yüksək gəlirli sahəsi olmaqla bərabər, XXI əsrə dinamik inkişaf edən, mütərəqqi xidmət sahəsi kimi daxil olmuşdur. O, eksporta görə üçüncü yeri tutur (yanacaq və kimya maddələrindən sonra) və 2019-cu ildə dünya ticarətinin 7% -i onun payına düşürdü. Ümumdünya Turizm Təşkilatının (ÜTT) məlumatına görə, beynəlxalq turistlərin sayı 4% artaraq 1,5 milyard təşkil etmişdir ki, bu da 2018-ci ilə nisbətən 54 milyon nəfər çoxdur. Beynəlxalq turizm 10 ildən çoxdur ki, artır. Beynəlxalq turizm və səyahətlər şurasının hesabatına görə, turizm industriyyasının dünya ÜDM-də payı 2019-cu ildə 10,4% və ya 1,7 tril. dollar təşkil etmişdir. 2019-cu ildə qlobal turizm industriyası 330 mil. işçi yeri təşkil etmişdir (birbaşa və dolayı) ki, bu da ümumi məhsulluğun 10,3%-ni təşkil edir, yaxud dünyada 10 iş yerindən biri onun payına düşür (3).

UNWTO –nun baş katibi Taleb Rifaif turizm iqtisadiyyatının qlobal forumunu açarkən demişdir: “Müasir iqtisadi qeyri-müəyyənlik şəraitində də turizm dünya iqtisadiyyatında bəzi sahələrdən biri olmaqla, aktiv inkişaf edir, istər inkişaf etməkdə olan, istər də, inkişaf etmiş ölkələrdə iqtisadi tərəqqini stimullaşdırır ki, bu daha mühümdür ki, bu lazımi iş yeri yaradır” (4).

Hazırda turistləri cəlb etmək üçün inkişaf etmiş ölkələr arasında kəskin mübarizə gedir. Onlar buna mövcud obyektlərin keyfiyyətini yüksəltmək, həmçinin kreativ tədbirlər təşkil etməklə nail olurlar, yəni turistlərin istəkləri dəyişir, belə ki, səyahət vaxtı onlar kütləvi kəskin emosional təsir almağı arzulayırlar. Bu prinsipial olaraq yeni maraqlı və çoxlu təsir göstərən hadisə prinsipinə uyğun gəlir.

Beynəlxalq praktikada “hadisə turizmi” terminini qəbul etmək üçün “event turizmi” termindən istifadə edilir. Latın dilində event – hadisə və ya xüsusi tədbir, rus dilində ivent-turizm və ya hadisə turizmi tətbiq edilir [5 səh. 299]. “Hadisə turizmi” termini ilk dəfə olaraq 1987-ci ildə Yeni Zellandiyada turizm departamenti və ictimaiyyət tərəfindən istifadə edilmişdir və bu hadisə ilə turizm arasında əlaqəni möhkəmləndirir.

Xarici ədəbiyyatlarda bu terminin destansiya, sahibkar, həmçinin idarəetmə orqanlarının əsas fəaliyyət sahəsi, mühüm alternativləri, həmçinin idarəetmə orqanlarının əsas fəaliyyətini əhatə edir və onlar turistn axınlarının artırılmasını arzu edirlər [6 səh. 17].

Lakin daha tam, mənim fikrimcə, O.B.Alekseyevanın traktovkasıdır. Müəllif hadisə turizmi dedikdə, “turizmi müxtəlif formatlı mədəni və ya idman həyatına turistlərin cəlb edilməsi nəzərdə tutulur ki, bunlar turizmin infrastrukturasını inkişaf etdirir, əhalinin müxtəlif təbəqələrinin cəmiyyətə inteqrasiyasını və destinasiya müsbət imicinin formalaşmasına səbəb olur [7 səh. 25].

Deməli, hadisələr turizmin inkişafının mühüm tərkib hissəsidir, belə ki, onlar destinasiyanın dinamik inkişafına, onun rəqabət qabiliyyətinə və marketinq strategiyasına əhəmiyyətli təsir göstərir. Onların reallaşdırılması turist industriyasının bütün obyektlərinə müsbət təsir göstərir. Xüsusən, yerli adət və ənənələrin mədəni dirçəlişi aktivləşdirilir.

Dünya turizminin bütün sistemində hadisə turizminin xüsusi çəkisi hər il 1,5% artır. Hadisə turizminin mühüm üstünlüyü onun inkişafı üçün turist rekreasiya ehtiyatlarının olması vacib deyildir. Hadisə turizmi – regionlarda hər hansı mədəni-tarixi, arxitektur və təbii resurslar olmadıqda turizmin inkişafının alternativ variantıdır. Onu xüsusən müəyyən məqəd – böyük turist axınna nail olmaq üçün yaradırlar.

**Respublikada həyata keçirilən festivallar**

| | |
|---|---|
| 2006 | Nar bayramı / 26 oktyabrdan 7 noyabra qədər. Festival hər il Göyçay şəhərində nar yığılan vaxt keçirilir. |
| 2009 | Qəbələ musiqi festivalı / klassik musiqi festivalı, caz və muğam / hər il Qəbələ şəhərində keçirilir. |
| 2009 | Hər il sentyabrda Bakı şəhərində Üzeyir Hacıbəyova həsr edilmiş Beynəlxalq musiqi festivalı keçirilir. |

| | |
|---|---|
| 2010 | Bakıda İçəri Şəhərdə "Qız Qalası" Beynəlxalq İncəsənət Festivalı keçirilir. |
| 2012 | Hər il Quba şəhərində oktyabr ayında alma yığımı vaxtı alma bayramı keçirilir. |
| 2012 | İlk dəfə olaraq Bakıda "Evroviziya" mahnı müsabiqəsi keçirilmişdir. |
| 2016 | Azərbaycan paytaxtında ilk dəfə olaraq Bakı Şoppinq Festivalı start götürmüşdür. |
| 2016 | Avqustda Qəbələdə Beynəlxalq Mürəbbə Festivalı keçirilmişdir. |
| 2016 | İyulda Şəkidə Beynəlxalq Şirniyyat Festivalı keçirilmişdir. |
| 2016 | Oktyabrda Bakıda Beynəlxalq Çörək Festivalı keçirilmişdir. |
| 2017 | Balakən şəhərində ilk dəfə birinci Xurma Festivalı keçirilmişdir. |
| 2019 | 30 avqustda Şamaxı rayonu Meysan kəndində üzüm və şərab festivalı keçirilmişdir [Heydər Əliyev Fondunun dəstəyi ilə]. |
| 2021 | Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində Cıdır düzündə "Xarı bülbül" musiqi festivalı keçirilmişdir. |
| 2022 | 25 iyun Xaçmaz şəhərində ilk dəfə olaraq gilənar və gilas festivalı keçirilmişdir. |
| 2022 | Azərbaycanın mədəniyyət paytaxtı Şuşada mayın əvvəlində Beynəlxalq Kulinariya Festivalı keçirilmişdir. |
| 2022 | 29-31 iyulda Göygöl rayonunda Azərbaycanın milli-mədəni dəyərlərini təbliğ etmək məqsədilə Milli "Yaylaq" festivalı keçirilmişdir. |
| 2022 | Yaponiya ilə Azərbaycan arasında diplomatik münasibətlərin yaranmasının 30 illiyi münasibətilə 10 sentyabrda ənənəvi Yapon Azərbaycan Festivalı keçirilmişdir. |

Hadisə turizminin mahiyyəti ondan ibarətdir ki, hər hansı konkret hadisələrə həsr edilmiş tədbirlərdə iştirak etməyə imkan verir. Belə səyahətlər bütün il boyu gedə bilməz. Onlar ilin müəyyən vaxtında, müəyyən yerdə keçirilir.

Hadisə turizmində iştirak edən turist axınlarının yaş tərkibi və strukturu əhəmiyyətli dərəcədə dəyişmişdir. Hazırda 30 yaşa qədər səyahət edənlərin xüsusi çəkisi 40%-dən çoxdur. Ekspertlər bunu əksər dövlətlərdə, xüsusən Avropada iqtisadi sabitliyin, olması ilə əlaqələndirirlər. Doğrudur, konkret ölkədə iqtisadi sabitlik nə qədər yüksəkdirsə, bu ölkələrdə böyük xüsusi çəkiyə malik cavanlar digər ölkələrdə olan hadisələrdə iştirak etmək üçün üstün imkanlara malik olurlar [8., s. 143].

Biznes, hadisə və ya ivent-turizm xaricdə geniş inkişafa malikdir. Belə ki, bu sahənin liderləri ABŞ, İtaliya, Fransa, Cənubi Koreya, Böyük Britaniyadır. Lakin bəzi mütəxəssislər qeyd edirlər ki, hadisə turizminin inkişaf səviyyəsinə görə Avstraliya birinci yerdədir, burada hadisə tədbirlərinin strateji planlaşdırılması üçün dəqiq sistem fəaliyyət göstərir, distansiya üçün turizmdən gələn gəlirlərin maksimum səviyyəsinə çatdırılmasına imkan verir. Hazırda dünyada bir neçə onlarla şəhərlərdə hadisə iqtisadiyyatında ixtisaslaşan şəhərlər vardır. [9. s. 38].

Şübhəsiz, yaxşı tədbirlərin təşkili üçün dörd əsas element mövcuddur: maddi baza, iri səhmlərin, event-agentliyin mövcud olması, sərgi təşkilatının olması, keyfiyyətli servis, ictimai iaşənin təmin edilməsi və tədbir iştirakçılarının yaşaması üçün yer olması, media dəstəyi [10]. Bir sözlə, birinci növbədə lazımi infrastrukturların olması, turistlərin tədbirlər keçirilən yerə yaxın yerləşdirilməsi, nəqliyyat sistemi, servisin keyfiyyəti, tədbirlər industriyası, ictimai iaşə müəssisələrinin olması, ərzaq malları mağazasının, paltar, aksesuarlar, gözəllik salonları, ekskursiya və animasiya proqramları və s.

Bütövlükdə, E.Q.Heondovaya görə, hadisə turizminin xarakterik əlamətləri aşağıdakılardır: proqnozlaşdırma, kütləvilik, bütün mövsüm boyu görkəmli, innovasiyalı, tədbirlərin müntəzəmliyi və təkrar gəlişin stimullaşdırılması [11. s. 7]. Hadisə tədbirlərinin müxtəlifliyi və təkrar gəlişin stimullaşdırılması [11. s. 7]. Hadisə tədbirlərinin müxtəlifliyinə baxmayaraq hadisə turizminin sıralarına yalnız əraziyə gəlir gətirən sahələr aid edilir, bu isə öz növbəsində hadisələr keçirilən ərazilərdə resurs formalaşdıran distansiyalar aid edilir.

Azərbaycanda turizm industriyası dövlət səviyyəsində iqtisadiyyatın prioritet sahələrindən biri kimi qəbul edilmiş, turizmin inkişafına dair dövlət proqramları və qanunvericilik aktları qəbul olunmuşdur. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin sərəncamı ilə 4 iyun 1999-cu ildə "Turizm haqqında" [№164] qanun qəbul edilmişdir. Bu qanun Azərbaycanda turizm sferasının inkişafı haqqında hüquqi sistemin əsasını təşkil edir [12]. Eyni zamanda ölkədə turizmin inkişafında iki dövlət proqramları – 2002-2005 və 2010-2014 mühüm əhəmiyyət kəsb edirlər. Bundan başqa, "Azərbaycan – 2020" inkişaf konsepsiyasına uyğun olaraq ölkədə turizmin inkişafı və məqsədləri müəyyən edildi. Fərəhli haldır ki, 11 istiqamətdən biri milli iqtisadiyyatın inkişafına dair "Strateji yol xəritəsində" 6 dekabr 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin əmri ilə təsdiq edilmiş "Azərbaycanda ixtisaslaşdırılmış turist industriyasının inkişafına dair" strateji yol xəritəsidir. Qeyd edilən sənədlərdə turist industriyasının formalaşmasının hüquqi əsasları müəyyən edilmiş, müasir iqtisadi, sosial və ekoloji tələblərə cavab verən və turizm sahəsinin ölkə iqtisadiyyatının inkişafına dayaq olduğu göstərilmişdir.

Bununla yanaşı, xaricə gedən turistlərin sayını artırmaq məqsədilə, Azərbaycan Respublikası Prezidentinin əmri ilə 2016-cı ildə "ASAN Viza" və 1

fevral 2016-cı ildə Azərbaycanın Beynəlxalq Aeroportlarında Fars körfəzi ölkələrinin bütün vətəndaşlarına sadələşdirilmiş viza rejimi sistemi tətbiq edilmişdi. Onlar istənilən beynəlxalq aeroportlara viza ala bilərlər. Bununla əlaqədar olaraq Azərbaycana gələn turistlərin sayı əhəmiyyətli dərəcədə artmış və bu müsbət göstərici Azərbaycanın 20 ən sürətlə artan turist istiqamətinə daxil olmasına və 2019-cu ildə 18-ci mövqedən 11,4 mövqeyə qalxmasına səbəb olmuşdur və bu göstəriciyə görə İsrail və Litvanı qabaqlamışdır [13].

Beynəlxalq Turizm və Səyahətlər Şurasının proqnozlarına görə, Azərbaycan 2028-ci ildə MDB ölkələri arasında turizmdən gələn gəlirlərinə görə birinci yerdə olacaqdır, il ərzində 6,2%. Bu ölkəyə 18,2 mlrd. manat [təxminən 10,6 mlrd. dollar] qazanmağa imkan verəcəkdir [14].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyri-neft sektorunun inkişafını sosial-iqtisadi siyasətin prioritet istiqaməti olduğunu göstərmiş və qeyd etmişdir ki, Azərbaycan güclü iqtisadiyyata malikdir. Lakin biz çalışmalıyıq ki, qeyri-neft sənaye sektorları, servis və turizm inkişaf etsin [15]. Son illərdə respublikada qeyri-neft sektorunda inkişaf edən prioritet sahələr kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, emaledici sənaye sahələri ilə bərabər turizm sahəsidir, yəni turizm dövlət əhəmiyyətli sahə elan edilmişdi. Bu, neft hasilatından sonra ölkə iqtisadiyyatının mühüm sahəsidir.

Müasir dövrdə Azərbaycan özünün yüksək təbii və tarixi-mədəni potensialına, sabitliyə və təhlükəsizliyə baxmayaraq, dünya turizm bazarında olduqca aşağı yer tutur. Belə ki, 1919-cu ildə Azərbaycana rekord miqdarda dünyanın 193 ölkəsindən 3,17 mln. nəfər turist gəlmişdir ki, bu da 2018-ci ilə nisbətən 11,3% çoxdur. Respublikanın ÜDM-da turizmin xüsusi çəkisi 3% təşkil etmişdir. Dövlət Turizm Agentliyinin məlumatlarına görə, onlardan təqribən 2,8 mln. nəfəri turist məqsədləri üçün gəlmişdir. Onda turizm 14,7% təşkil etmişdir [16]. 2019-cu ildə getmə turizm 4,3 nəfər təşkil etmişdir [34% çox].

Turistlərin daxil olduğu ölkələr – Rusiya, Gürcüstan, İran, Türkiyə, Asiya və Avropa ölkələridir. Bununla bərabər, Azərbaycanın turist potensialı il ərzində 5 mln. nəfərdir. Daxili, getmə, sosial turizm "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda göstərildiyi kimi, bizim ölkədə hələlik getmə turizmi üstünlük təşkil edir.

**Açar sözlər:** *turizmin inkişafı, ivent – turizm, miqyaslı tədbirlər, turist axını, festivallar və bayramlar.*

## ƏDƏBİYYAT SİYAHISI:


*1. https://tourism4sdgs.org/wp-content/uploads/2020/08/Key-Messages-for-Tourism-and-COVIDPolicy-Brief_RU.pdf - Концептуальная записка Генерального секретаря о туризме и COVID19 ОСНОВНЫЕ ПОЛОЖЕНИЯ Август 2020 г.*

*2. https://tourism.interfax.ru/ru/news/articles/65670/ - UNWTO насчитала в мире 1,5 млрд туристических поездок в 2019 году. https://tourism.interfax.ru/ru/news/articles/65670/*

*3. WTTC Travel and Tourism Economic Report 2019 – World.*

*4. https://center-yf.ru/data/economy/turizm-v-mirovoy-ekonomike-v-2019-godu.php - 2019-cu ildə qlobal iqtisadiyyatda turizm.*

*5. Леонидова Е. Г. Событийный туризм как новое направление российского туристского рынка // Universum: Экономика и юриспруденция: электрон. научн. журн. 2015. № 7 (18). С. 299.*

*6. Boorstin D. The Image: A Guide to Pseudo-Events in America / D. Boorstin // Harper, New York, 1994 - 452 p.*

*7. Алексеева О. В. Событийный туризм как фактор социально-экономического развития региона: автореф. дис.. канд. экон. наук. М., 2012. С. 24 – 31.*

*8. Грушин М. Ю. Анализ развития событийного туризма в России, его функции, пути повышения эффективности событийных мероприятий // МИР (Модернизация. Инновации. Развитие). 2016. Т. 7. № 2. С. 139-145*

*9. Климова Т. Б. Вишневская Е. В. Опыт развития событийного туризма в РФ и за рубежом. Научно – практический журнал «СЕРИЯ ТЕХНОЛОГИЯ БИЗНЕСА и СЕРВИСА». Журнал «Научный результат. Технологии бизнеса и сервиса». 2014, с. 35 -41*

*10. Конференция «Событийный маркетинг как инструмент развития региона». URL: http:// www. mice.ru/ru/mice-news/1427-euras-forum.html (Дата обращения: 21.03.2019).*

*11. Леонидова Е.Г. Событийный туризм как новое направление российского туристического рынка //Universum: экономика и юриспруденция. 2015. № 7 (18). С. 4 - 11.*

*12. 27 iyul 1999-cu il tarixli "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu http://extwprlegs1.fao.org/docs/pdf/aze128991.pdf*

*13. https://www.atorus.ru/news/press-centre/new/50372.html - Названы самые посещаемые и быстрорастущие туристические направления в мире.*

*14. https://www.vedomosti.ru/business/characters/2019/03/10/795992-gendirektor-byuro-Гендиректор Бюро по туризму Азербайджана: эта страна больше уникальный опыт, чем массовый туризм.*

*15.https://azertag.az/ru/xeber/Osnovnye_napravleniya_strategii_ekonomicheskogo_razvitiya_Prezidenta_Ilhama_Alieva-1153415 - Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri.*

*16. https://haqqin.az/news/217687 - Фуад Нагиев отказал 40 отелям из-за низкого уровня услуг.*

*17. Ахундова А. Г. Azərbaycan Respublikasında turizm infrastrukturunun kompleks inkişafinın tənzimlənməsi. Monoqrafiya. Bakı – «AVROPA» nəşriyyatı -2019, 224*

## SUMMARY

In the article, the influence of invent-tourism on the socio-economic development of the area is studied. The event, as an important component of tourism, has an important impact on the dynamic development of the area, its competitiveness and marketing strategy. In modern conditions, one of the prospective measures to improve the tourism sector for Azerbaijan, which should diversify budget funding and raise the image of the region, increase employment and improve the quality of life of the population, is called event tourism. In this regard, the article examines the theoretical aspects of the organization of event tourism as a dynamically developing type in the world, the characteristic features of event tourism are studied, the advanced experience of event tourism in Azerbaijan is described, and the factors that slow down the development of event tourism in the regions of the country are identified.

**Keyword:** *tourism development, event tourism, large-scale events, tourist flow, festivals and holidays.*

## РЕЗЮМЕ

В статье проводится исследование влияния ивент - туризма на социально-экономическое развитие территории. Именно события, как основа событийного туризма, являются ажнейшей составляющей в туризме, поскольку они значительно влияют на динамичное развитие дестинаций, ее конкуренцию и маркетинговую стратегию. Для Азербайджана в современных условиях одним из перспективных мер усовершенствования туристской отрасли, диверсификации бюджетного финансирования и продвижения имиджа регионов, повышения занятости и улучшения качества жизни населения должен и может стать событийный туризм. В связи с чем, в статье рассмотрены теоретические аспекты организации событийного туризма как одного из наиболее динамично развивающихся в мире видов туризма, исследованы характерные черты событийного туризма, описан успешный опыт развития событийного туризма в Азербайджане, а также определены факторы, сдерживающие развитие событийного туризма в регионах страны.

**Ключевые слова:** *развитие туризма, ивент-туризм, масштабные мероприятия, поток туристов, фестивали и праздники.*

UOT 330.1; 330.8

# İQTİSADİ ARTIMIN NƏZƏRİ ƏSASLARI

**XƏZƏR ABBASZADƏ**
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi*
*İqtisadiyyat İnstitutunun magistrantı*

*E-mail: khazarabbaszadeh@gmail.com*

## GİRİŞ

İnkişaf səviyyəsindən asılı olmayaraq hər bir ölkə üçün iqtisadi artım vacibdir. İqtisadi artım üzrə formalaşmış müxtəlif nəzəriyyələrdə texnoloji inkişafa və insan kapitalına fərqli əhəmiyyət verildiyi diqqət cəlb edir. Texnoloji inkişafın və insan kapitalının iqtisadi artımın determinantı kimi iqtisadi dəyişənlərdən təsirlənmədiyini, lakin onların uzunmüddətli perspektivdə iqtisadi artımın əsas determinantı olduğunu iddia edən modellər xarici iqtisadi artım modelləri adlanır. Bu modellər uzunmüddətli perspektivdə iqtisadi artımın əsas mənbəyinin texnoloji inkişaf olduğunu iddia etsə də, texnoloji inkişafın mənbəyini izah edə bilmir. Bu çatışmazlıq endogen (daxili) iqtisadi artım nəzəriyyələri ilə aradan qaldırılmağa çalışılmışdır. Daxili iqtisadi artım nəzəriyyələri texnoloji inkişafı təsərrüfat vahidlərinin qərarlarından asılı olaraq təsirlənən dəyişən kimi nəzərə alaraq texnoloji inkişafı daxililəşdirir. Bu məqalənin məqsədi xarici və daxili iqtisadi artım nəzəriyyələrinin məzmun və mahiyyətini izah etmək və iqtisadi artım üzrə formalaşmış bu iki nəzəriyyənin müxtəlif əsaslarla uyğun olaraq fərqləndiyi məqamları araşdırmaqdır.

## ƏSAS HİSSƏ

### İqtisadi artımın nəzəri əsasları və iqtisadi artım modellərinin təhlili

Klassik iqtisadi fikrə əsasən, iqtisadi artım kapitalın yığılmasından, mexanikləşdirilməsindən və əmək bölgüsündən asılı olaraq formalaşan və dəyişən amil kimi qiymətləndirilirdi. Bu kontekstdə iqtisadi artım istehsalın artımını təmin edən texnoloji inkişafla əlaqələndirilmişdir. Buna görə də iqtisadi artımın mənbəyi əmanətlər və buna uyğun olaraq investisiyalar və kapital yığımıdır. İqtisadiyyatda gəlir artdıqca əmanətlər də artır və əmanətlər mənfəət üçün investisiyalara yönəldilir. Mükəmməl rəqabətli bazar şəraitində kapital daha səmərəli istifadə olunur, xərcləri azaldır və gəlirliliyi artırır. İqtisadiyyatda mənfəətin dərəcəsinin artmasının ən təbii nəticəsi olaraq kapital yığılmasında və investisiyalarda artım müşahidə olunacaq və nəticədə iqtisadi artım baş verəcəkdir. 1929-cu ildə Dünya İqtisadi Böhranından sonra Keynsin araşdırmaları və nəzəriyyəsi ilə iqtisadi durğunluğu aradan qaldırmaq və iqtisadi artımı təmin etmək məqsədilə monetar və fiskal siyasətlərdən və onların müxtəlif alətlərindən istifadə etmək ön plana çıxdı. Daha sonra Keyneslə başlayan nəzəri araşdırmalar Harrod və Domarın töhfələri ilə davam etdi [10]. Harrod-Domar modeli Roy F. Harrod (1939) və Evsey D. Domar (1946) tərəfindən iki fərqli araşdırmaya əsaslanır. Model Harrod-Domar Modeli adlanır, çünki bu iki fərqli tədqiqatın oxşar cəhətləri fərqli cəhətlərindən qat-qat çoxdur. Model bir əmtəəli iki faktorlu bazar iqtisadiyyatı çərçivəsində formalaşdırılmışdır. Bu zaman iqtisadiyyatda həm istehlak, həm də investisiya üçün istifadə oluna bilən yalnız bir mal-əmtəə istehsal olunur. İqtisadiyyatda pul olmadığı üçün pul qiymətləri də yoxdur. Baxılan bu modeldə dövlət iqtisadi fəaliyyətlərdə iştirak etmir. Demək olar ki, iqtisadi qərarların hamısı xüsusi qərar bölmələri tərəfindən qəbul edilir. Modeldə iqtisadiyyat qapalıdır. Başqa sözlə, iqtisadiyyatda kommersiya və maliyyə açıqlığı yoxdur [8].

İqtisadiyyata xalis investisiya qoyuluşu məhsula tələbat yaratmaqla yanaşı, iqtisadiyyatın məhsul istehsal etmək imkanlarını da artırır. Məsələn, yeni fabrikin yaradılması kərpic, dəmir və maşın kimi elementlərə tələbatı artırır. Digər tərəfdən fabrikin tikintisinin başa çatması ilə iqtisadiyyatın istehsal gücündə artım müşahidə olunacaqdır. İstehsal texnikasının dəyişmədiyini fərz etsək, müəyyən bir istehsalın həyata keçirilməsi üçün müəyyən miqdarda kapital tələb olunur. Əgər K kapital ehtiyatını, Y isə istehsal səviyyəsini ifadə edirsə, orta kapital buraxılış əmsalını K/Y kimi göstərmək olar. Bu halda, məsələn, 1 vahid məhsul istehsal etmək üçün 3 vahid investisiya tələb olunursa, 100 ədəd istehsal üçün 300 vahid kapital ehtiyatı lazımdır. Marjinal kapital buraxılış əmsalı ($\Delta K/\Delta Y$) istehsala müəyyən əlavə etmək üçün nə qədər əlavə kapital lazım olduğunu göstərir. Məsələn, xalis investisiya 60 vahid və istehsalın artımı 20 vahiddirsə, marjinal kapitalın buraxılış nisbəti üçdür. Orta kapital çıxışı əmsalının tərsi (Y/N) kapitalın orta məhsuldarlığını göstərir. Əgər 1 vahid istehsal üçün 3 vahid kapital tələb olunursa, kapitalın orta məhsuldarlığı 1/3-ə bərabərdir. $\Delta Y/\Delta K$ istehsal gücü artımının əsas fondun artımına nisbətini göstərir [19]. Harrod-Domar modelində iqtisadi artım müşahidə etmək üçün ya qənaət dərəcəsi, ya da kapitalın məhsuldarlığı artırılmalıdır [5]. Harrod-Domar modeli öz fərziyyələrinə

əsaslanan və inkişaf etmiş ölkələrdən başqa iqtisadiyyatların iqtisadi artım göstəricilərini izah edə bilmədiyinə görə müxtəlif tənqidlərə məruz qalmışdır. Xüsusilə 1950-ci illərdə Harrod-Domar modelindəki çatışmazlıqları aradan qaldırmaq üçün müxtəlif araşdırmalar aparılmışdır. Görünür ki, bu tədqiqatların əsas fərziyyələri klassik iqtisadi baxış çərçivəsində nəzərdən keçirilmişdir. Bu modeldə iqtisadiyyatda mükəmməl rəqabət şərtləri qüvvədədir və tam məşğulluq sual altındadır. İstehsal amillərinin payları istehsal amillərinin marjinal məhsuldarlığına uyğun olaraq müəyyən edilir. Əmək və kapital arasında bir əvəzetmə var. İstehsal amillərində marjinal məhsuldarlıq azalır və texnologiya xarici amil hesab olunur. Ədəbiyyatlarda Neoklasik İqtisadi Artım Nəzəriyyəsi və ya Solow İqtisadi Artım Nəzəriyyəsi adlanan bu modeldə Solow və Swan kimi iqtisadçılar mühüm töhfələr vermişlər. Solow Modeli daha sonra müxtəlif iqtisadçılar tərəfindən işlənib təkmilləşdirilmişdir [15].

Modeldə əhalinin və işçi qüvvəsinin artması, texnoloji inkişaf kimi amillər xarici amillər hesab olunur. İnsan kapitalında məhsuldarlıq və ya məhsuldarlığın dəyişməsi nəzərə alınmır. Modeldə adambaşına düşən kapitalın eynilə adambaşına istehsal ilə eyni sürətlə artdığı balanslaşdırılmış artım xətti ilə verilir. Tarazlıqda adambaşına düşən gəlirin və istehlakın artım tempi texnoloji inkişaf tempinə bərabərdir. Başqa sözlə, modeldə xarici faktor kimi müəyyənləşdirilən texnoloji inkişaf adambaşına düşən gəlirin artımını təmin edən yeganə amildir. Bu zaman tarazlıq artım tempi qənaət trendindən asılı olmayaraq baş verir. Model əhalinin artımını və texnoloji inkişafı xarici amil kimi müəyyən edir və dövlət siyasəti ilə iqtisadi artım arasında birbaşa əlaqə yaratmır. Neoklassik artım nəzəriyyəsi aşağıdakı əsas fərziyyələrə əsaslanır [8]:

- Qapalı iqtisadiyyat,
- Rəqabətli bazarlar,
- Rasional təsərrüfat vahidləri,
- İstehsal funksiyası üçün daimi gəlirləri proqnozlaşdıran istehsal texnologiyası.

Neoklassik Böyümə Nəzəriyyəsində mükəmməl rəqabət şəraitində məhsulun səviyyəsinin kapital və əmək sərfi ilə müəyyən edildiyi və məhsuldarlığın azalması şəraitində sabit gəlirin olduğu güman edilir [11]. Nəzəri olaraq ümumi əmək (L), kapital (C) və təbii ehtiyatlar (N) ilə işarə edildikdə, real istehsal səviyyəsi (Y) Y=ft(L,C,N) funksiyası kimi göstərilə bilər. Bu funksional əlaqə onu göstərir ki, Y istifadə olunan əmək, kapital və təbii resursların miqdarı ilə düz mütənasib asılılıq şəklində dəyişir. Texnologiya (ft) digər üç amilin istehsala verdiyi töhfəni müəyyən edən amildir. Bu kontekstdə texnoloji tərəqqi ft artımına və eyni dərəcədə digər amillərin də istehsala töhfəsinə səbəb olur. Modelə görə iqtisadi artım aşağıdakı üç yolla baş verir [18].

- Texnologiya sabit olarkən istifadə olunan istehsal amillərinin miqdarının artması,
- İstehsalda istifadə olunan amillər sabit olduqda texnologiyanın inkişafı,
- Həm istehsal amillərinin təklifinin artması, həm də texnologiyanın inkişafı.

Daxili iqtisadi böyümə modelinin əsası daha çox Romer (1986) və Lukasın (1988) araşdırmalarına əsaslanır. Bu sahədə aparılan tədqiqatlar Neoklassik Artım Nəzəriyyəsindən əhəmiyyətli dərəcədə fərqlənir. O, iqtisadi artımın iqtisadi sistemin daxili işlərində bəzi amillərin qarşılıqlı təsiri ilə daxildə baş verdiyini iddia edir [7]. Lukasın fikrincə, Solow-un təqdim etdiyi model iqtisadi artım modeli olmaqdan daha çox ABŞ iqtisadiyyatının artımını izah edir və inkişaf etməkdə olan ölkələrin iqtisadi artımını özündə əks etdirmir [6]. Daxili artım modeli iqtisadi artımın bazarda fəaliyyət göstərən iqtisadi vahidlər tərəfindən daxilən tənzimləndiyini nəzərdə tutur. Daxili artım modelində iqtisadi böyümənin mənbəyi kimi müəyyən edilən nəzəriyyələr üç əsas qrupa bölünür [13].

- Gary Becker, Kevin Murphy, Robert Tamura və Mark Rosenzweig kimi əhalinin və insan kapitalının artımını nəzərdən keçirənlər.
- Pol Romer kimi texnoloji inkişafı bazar qüvvələri tərəfindən idarə olunan sahibkarlıq qərarları ilə əlaqələndirənlər.
- Robert Barro, Robert King və Sergio Rebelo, Dale Jorgenson, Kun-Young Yun kimi böyümə prosesində ictimaiyyətin rolunu araşdıranlar və bu rolu böyümənin müstəqil faktoru kimi qəbul edənlər.

Əhalinin və insan kapitalının artımını qərar dəyişənləri kimi qəbul edən birinci qrupdakı daxili artım modeli Becker, Murphy və Tamura-nın 1990-cı ildə apardıqları araşdırmalara əsaslanır. Bu modelin ən mühüm fərziyyəsi ondan ibarətdir ki, daxildə müəyyən edilmiş məhsuldarlıq dərəcəsi ilə insan kapitalı nisbəti nə qədər yüksək olarsa, gəlir də bir o qədər yüksəkdir. Məhsuldarlıq dərəcəsi bir tərəfdən, qiymətlərin ümumi səviyyəsindən, digər tərəfdən isə gəlir səviyyəsindən asılı olaraq dəyişən iqtisadi indikatordur. Yeni biliklər əvvəlki nəsillərin təmin etdiyi insan kapitalı artımının xətti funksiyası kimi qəbul edilir. İnsan kapitalı baxımından zəngin ölkələrdə insanlara qoyulan sərmayənin gəliri uşaq sahibi olmaqdan daha çoxdur. İnsan kapitalı baxımından nisbətən kasıb olan ölkələrdə bunun əksi doğrudur [7]. Lukas insan kapitalının iqtisadi artımda mühüm rol oynadığını iddia edir [12].

Bundan əlavə, Lukas iddia edir ki, fərdin insan kapitalının artımındakı rolu təkcə onun öz məhsuldarlığını artırmır, həm də digər istehsal amillərinin məhsuldarlığına öz böyük töhfəsini verir. Romerin (1986) işi texnoloji inkişafı bazara əsaslanan sahibkarlıq qərarları ilə əlaqələndirən daxili iqtisadi artım modellərinin başlanğıcı kimi aparıcı rol oynamışdır. Romerə görə, iqtisadi artım öz mənfəətlərini maksimuma çatdırmaq istəyən investorların gətirdiyi texnoloji inkişafların nəticəsidir [6]. Onun modelinə əsasən texnoloji yenilik iqtisadi artımın əsas mənbəyidir [17]. Bundan əlavə, texnoloji inkişaf marjinal məhsuldarlığı artırır [5]. Şirkət əsasında texnoloji yeniliklər, şirkətə bazar payını artırmağa və gəlirliliyini artırmağa imkan verməklə yanaşı, makro perspektivdən iqtisadi artımı da sürətləndirir [13]. Endogen artım nəzəriyyəsində kapitalın tərifi fiziki kapitalla məhdudlaşmır. Model həmçinin iqtisadi artımın mənbələri kimi insan kapitalını və biliyi göstərir. Romerə görə, (tədqiqat və inkişaf) Ar-Ge sektorunda texnoloji inkişaf böyümənin hərəkətverici qüvvəsidir. Müəyyən mənada Romerin işi iqtisadi artım prosesində texnoloji inkişafı daxililəşdirən Arrowa (1962) əsaslanır.

Daxili iqtisadi artım modellərinin ortaya çıxması zamanı aşağıdakı məqamlar daha çox vurğulanır [12]:

- İnformasiyadan istifadə baxımından istehlakçılar arasında rəqabət və kənarlaşma yoxdur;
- Texnoloji inkişaf nəticəsində ortaya çıxan məlumatlardan digər iqtisadi vahidlərin nə dərəcədə faydalanması vacibdir;
- Texnoloji inkişafın xarici təsirə səbəb olması özəl sektorun bilgilərini paylaşmağa yanaşmamasına səbəb olur. Bu vəziyyət bazarda tarazlığın pozulmasına səbəb olur,
- Texnoloji inkişafla fiziki və insan kapitalı arasında əlaqə var.
- İnsan kapitalı, texnoloji infrastruktur hazırlayaraq öyrənmə və çalışmalar üçün zəmin yaradır.

Daxili artım nəzəriyyəsi, neoklassik artım nəzəriyyəsindən fərqli olaraq, texnoloji inkişafın iqtisadi sistem daxilində baş verdiyini və buna görə də iqtisadi qərarlardan təsirləndiyini bildirir. Bundan əlavə, daxili inkişaf nəzəriyyəsi neoklassik artım nəzəriyyəsinin konvergensiya tezisini qəbul etmir. Daxili artım nəzəriyyəsinə görə, inkişaf etməkdə olan ölkələr kifayət qədər yaxşı iqtisadi performans göstərə bilməsə, inkişaf etmiş ölkələrlə arasında gəlir fərqinin zamanla arta biləcəyini vurğulayır. Bu nəzəriyyə, optimal artım tempinə çatmaq üçün iqtisadiyyata dövlət müdaxilələrinin ola biləcəyini də müdafiə edir [14].

## NƏTİCƏ

Ekzogen iqtisadi artım nəzəriyyələri əmanətlərin və kapitalların yığılmasının iqtisadi artımın mühüm müəyyənedici faktoru olduğunu iddia edərkən uzunmüddətli perspektivdə iqtisadi inkişafın əsasını texnoloji inkişafların təşkil etdiyi irəli sürülür. Lakin uzunmüddətli iqtisadi artımın ən böyük determinantı kimi qəbul edilən texnoloji artım modeldə ekzogen dəyişən olaraq təyin olunur. Bu vəziyyət uzunmüddətli dövrdə iqtisadi artımın necə təmin olduğunu izah etmək üçün kifayət deyil. Texnoloji inkişafı ekzogen dəyişən kimi görən iqtisadi artım modellərinin uzunmüddətli iqtisadi artımı izah etmək üçün qeyri-adekvatlığı bu nəzəriyyələrin müxtəlif tənqidlərinə səbəb olmuşdur. Bu tənqidlər çərçivəsində daxili artım nəzəriyyələri ekzogen iqtisadi artım modellərinin çatışmazlıqlarını aradan qaldırmaq üçün yaradılmışdır. Endogen artım modellərində kapitalın tərifi genişləndirilmiş və fiziki kapitalla yanaşı insan kapitalına da önəm verilmişdir. Ona görə də endogen artım nəzəriyyələrində bilik və bacarıqlara önəm verilir. Endogen böyümə nəzəriyyələrində ekzogen böyümə nəzəriyyələrinin fərziyyələrindən biri olan azalan gəlir qanununun etibarsız olduğu iddia edilir. Endogen artım nəzəriyyələrində fiziki kapital insan kapitalına müsbət təsir göstərir, ona görə də fiziki kapitalın artması insan kapitalında da artım yaradır. Texnoloji inkişaf ilə fiziki və insan kapitalı arasında mühüm əlaqə var.

**Açar sözlər:** *iqtisadi artım, iqtisadi inkişaf, insan kapitalı, texnoloji inkişaf, iqtisadi artım modelləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Arrow, J. Kenneth (1962), "The Economic Implications of Learning by Doing", The Review of Economic Studies, Vol. 29, No 3, pp. 155-173.*

*2. Becsi, Zsolt, WANG Ping (1997), "Financial Development and Growth", Economic Review, Federal Reserve Bank of Atlanta, Four Quarter, pp. 46-62.*

*3. Becker S. Gary, MURPHY, M. Kevin, TAMURA, Robert (1990), "Human Capital, Fertility, and Economic Growth", Journal of Political Economy, Vol:48, No:5, Part:2, pp. 12-37.*

*4. Albelo, Carmen D. Alvarez (1999), "Complementarity Between Physical and Human Capital, and Speed of Convergence", Economics Letters, Vol. 64, Issue 3, pp. 357-361.*

*5. Domar, D. Evsey (1946), "Capital Expansion, Rate of Growth, And Employment", Econometrica, Vol.14, No. 2, pp. 137-147.*

*6. Ehrlich, Isaac (1990), "The Problem of Develop-*

ment: Introduction", The Journal of Political Economy, Vol. 98, No. 5, Part 2: The Problem of Development: A Conference of the Institute fort the Study of Free Enterprise System, pp. 1-11.

7. Ercan, Y. Nihal (2002), "İçsel Büyüme Teorisi: Genel Bir Bakış", Planlama Dergisi, Özel Sayı, DPT'nin Kuruluşunun 42. Yılı, ss. 129-138.

8. Grossman, M. Gene, HELPMAN, Elhanan (1989), "Product Development and International Trade", The Journal of Political Economy, Vol. 97, No. 6, 1989, p. 1261-1283.

9. Harrod, F. Roy (1939), "An Essay In Dynamic Theory", The Economic Journal, Vol. 49, No. 193, 1939, pp.14-33.

10. İncekara, Ahmet, TATOĞLU, Y. Ferda (2008), Türkiye Ekonomisinde Son Yıllarda Yaşanan Yüksek Oranlı Büyüme Rakamlarının İç Piyasa Üzerindeki Etkileri, İstanbul, İstanbul Ticaret Odası, Türkiye Ekonomisi Yayınları, Yayın No: 2008-56.

11. Kar, Muhsin, TABAN, Sami (2003), "Kamu Harcama Çeşitlerinin Ekonomik Büyüme Üzerine Etkileri", Ankara Üniversitesi SBF Dergisi, Cilt: 58, Sayı: 3, ss. 146-169.

12. Kibritçioğlu, Aykut (1998), "İktisadi Büyümenin Belirleyicileri ve Yeni Büyüme Modellerinde Beşeri Sermayenin Yeri", Ankara Üniversitesi SBF Dergisi, Cilt 53, Sayı 1, ss. 207-230.

13. Korkmaz, Suna (2010), "Türkiye'de Ar-Ge Yatırımları ve Ekonomik Büyüme Arasındaki İlişkinin VAR Modeli ile Analizi", Journal of Yaşar University, Vol. 5, No: 19, 2010, ss. 3320-3330.

14. Lucas, E. Robert (1988), "On The Mechanics of Economic Development", Journal of Monetary Economics, Vol. 22, Issue 1,ss. 3-42.

15. Özdemir, Osman (2002), "Durgun Durum Büyümeden İçsel Büyümeye", C.Ü. İktisadi ve İdari Bilimler Dergisi, Cilt 3, Sayı 1, ss. 1-16.

16. Ünsal, Erdal (2007), Makro İktisat, Ankara, İmaj Yayıncılık,

17. Yeldan, Erinç (2010), İktisadi Büyüme ve Bölüşüm Teorileri, 1. Basım, Ankara, Efil Yayınevi.

18. Yülek, A. Murat (1997), "İçsel Büyüme Teorileri, Gelişmekte olan Ülkeler ve Kamu Politikaları Üzerine", Hazine Dergisi, Sayı 6, ss. 1-1

19. Parasız, İlker (2003), Makro Ekonomi Teori ve Politika, 8. Baskı, Bursa, Ezgi Kitapevi Yayınları

**Theoretical foundations of economic growth**

**Abbaszade Khazar**
***Master's student of the Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan***

**SUMMARY**

The theoretical foundations of economic growth and various models formed on economic growth are reviewed in the article. Economic growth has special importance for every country. Economic growth theories approach technological development and human capital from a variety of perspectives. All this is reflected in the article.

**Keywords:** *economic growth, economic development, human capital, technological development, economic growth models.*

**Теоретические основы экономического роста**

**Хазар Аббасзаде**
***Магистрант Института Экономики Министерства Науки и Образования Азербайджанской Республики***

**РЕЗЮМЕ**

В статье рассматриваются теоретические основы экономического роста и различные модели, формирующиеся на экономическом росте. Экономический рост имеет особое значение для каждой страны. В теориях экономического роста технологическое развитие и человеческий капитал рассматриваются с разных точек зрения. Все это отражено в статье.

**Ключевые слова:** *экономический рост, экономическое развитие, человеческий капитал, технологическое развитие, модели экономического роста.*

UOT 330.1; 330.8

# DÖVLƏT GƏLİRLƏRİNİN İQTİSADİ MAHİYYƏTİ VƏ NƏZƏRİ ƏSASLARI

**FİDAN QARALI**
*Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı*

*E-mail: fidangarali@gmail.com*

Dövlət gəlirlərinin yaranmasının vacibliyi və şərtlərinin öyrənilməsi ən mühüm problemdir. Onun vacibliyi, ilk növbədə, istehsal sahəsinin mütəmadi olaraq böyüməsinə olan tələbin qarşılanması ilə əlaqədardır. Bundan başqa, bu, istehsalın nizamlanması ilə bağlı olmayan sosial və idarəetmə quruluşun müdafiə olunması zəruriliyindən qaynaqlanır.

Dünya səviyyəsində dövlət gəlirləri olmadan bu funksiyanı yerinə yetirəcək iqtisadi sistem və ya model yoxdur. Və gələcək dövrlərdə də dövlət gəlirləri funksiyasını bütövlükdə icra edəcək bir modelin yaranması çətin məsələdir. Bu nöqteyi-nəzərdən dövlət gəlirləri vacib bir sosial (sosial funksiyalar yerinə yetirmək) və iqtisadi (iqtisadi məzmununa əsasən) kateqoriyadır, belə ki, hazırki iqtisadi sistemin əsas atributunu əhatə edir. Bu səbəbdən də dövlət gəlirləri eyni şəraitdə xalqın əlavə əmək sərfini və onun hər hansı pul vəsaitləri yaxud əşyalaşmış şəkildə ifadəsini istəyir. Ona görə ki, dövlət gəlirləri onların istifadəsi nöqteyi-nəzərindən yığım fondunun və eyni zamanda da ölkə əhalisinin əsas maaşından başqa maddi və mənəvi ehtiyacının qarşılanması baxımından obyektiv şəkildə müəyyən miqdarda vəsait lazım edir. Bununla belə, dövlət gəlirlərinin mütəmadi olaraq artımı obyektiv proses olmalıdır, nəticədə bu da ÜDM-un milli gəlirin vaxtaşırı çoxalması ilə sonlanır (Юткина Т. Ф. ; Невежин В. П. 2015). Bu nöqteyi-nəzərdən dövlət gəlirlərinin, həmçinin büdcə gəlirlərinin əsas hissəsi olan vergiləri istehsalçılardan yadlaşmış gəlir olaraq görmək doğru olmazdı, bunu əsasən müvəqqəti olaraq yadlaşmış gəlir kimi dəyərləndirmək lazımdır. Müvəqqəti olaraq yadlaşmış gəlirlərin səviyyəsi də, milli gəlirin faktorları nisbəti də hər ikisi birlikdə ədalətli prinsiplərə və məqsədlərə əsaslanmalıdır. Gəlirlərin meydana gəlməsi və idarə olunmasının özü də bu məqsəd və prinsiplərə əsaslanmalıdır ki, effektiv nəticə alınsın. Gəlirlərin idarə olunması prosesi elmi, məntiqi ardıcıllığa riayət edilməsini tələb edir.

Dövlət gəlirlərinin paylaşdırılması ölkədaxili gəlirin paylaşdırılmasını əhatə edir. Dövlətin gəlirləri ilə dövlət şirkətlərinin gəlirləri arasındakı nisbət, hədd şərti xüsusi xarakter daşıyır, ona görə ki, bu eyni mülkiyyət kontekstində baş verir. Həmçinin, burada dövlət gəlirlərinə və şirkət gəlirlərinə ayrılması aşağıdakı faktorların qarşılıqlı təsirilə təyin olunur:

a) formalaşmış xalis gəlirlərin miqdarı ilə;

b) xalq təsərrüfatının maliyyə və material vəsaitlərinə qarşı yaranan ehtiyacı ilə;

c) ictimai, sosial tələbatla. Gəlirlərin dövlətləşmə səviyyəsi eyni şəraitdə yuxarıda qeyd edilən ümumi faktorlarla şərtlənir. Gəlirlərin dövlətləşmə səviyyəsi bazar əlaqələri mühitində bir xeyli azalmışdır. (Əkbərova S. D. 2018: s.46).

Dövlət gəlirləri ilə şirkət gəlirlərinin qaydaya salınmasında mənfəətdən istifadə ilə yanaşı, qeyri-vergili gəlirlər də vacib rol oynayır. Misal üçün, R.Paşkov və A.V.Dyarenko qeyri-vergili gəlirləri ölkədaxili gəlirin ilkin və eyni zamanda da təkrarən bölüşdürülməsi forması sayırlar. B.Toçilnikov, M.Kraspolobov, S.Kuts və başqaları onu ölkədaxili gəlirin təkrar bölüşdürülməsi forması şəklində dəyərləndirirdilər (Макарова Л.Б., Якунин Л.А. 2012). Bunlardan məlum olur ki, vergisiz gəlirlər bölgü əlaqələri və istehsal sahəsi ilə əlaqədə olan absurd bir iqtisadi formadır. (Kondrat E.H., 2011) Ona görə ki, burada istehsal və maliyyə, dəyər sistemi qarşılıqlı nüfuz etmiş olur. Bununla yanaşı, qeyd etmək olar ki, vergisiz gəlirlər müəyyən formada aşağıdakı təkrar bölüşdürmə əlaqələri ilə bağlı olur: iqtisadiyyat sahəsinin bölmələri üzrə; maddi istehsal sektorları üzrə; ödəmə fondu, istehlak və yığım fondları arasında; dövlət və əhali arasında; ölkədə mövcud olan əhali qrupları arasında və s.

Maliyyə və gəlirlər başqa kateqoriyalardan bəzi səbəblərdən dolayı fərqlənirlər. Ona görə ki, dəyərlərin maliyyə hesabına bölgüsü və təkrar bölgüsü maliyyə vəsaitləri forması alır. Maliyyə vəsaitlərinə təkcə pul gəlirləri deyil, yığım da aid edilir. Gəlirlər kimi, maliyyə vəsaitləri də müxtəlif təsərrüfat subyektlərinə və dövlətə aiddir.

Büdcə gəlirlərinin yaranması başqa bir sıra proseslərlə əlaqəli olduğundan onların idarə olunması paralel şəkildə təşkil olunmalıdır. Bu iqtisadi forma-

ların hər birinin sərbəst şəkildə təyinatı və məzmunu mövcuddur. Bu səbəbdən də sözügedən dəyər və gəlir formaları elə paylaşdırılmalıdır ki, bu prosesdə elmi prinsiplərə və mülahizələrə riayət etmək mümkün olsun [4].

Məlum olduğu kimi, gəlirlər müxtəlif fərdlərin, sosial qrupların və dövlətin mövcudluğu üçün hər zaman mühüm bir şərt olmuşdur. Dövlət gəlirlərinin makro və mikro səviyyəli resurslarından istifadə olunması əsas problemdir. Bu, ölkənin, ölkə əhalisinin əsas iqtisadi müdafiə mexanizmi sayılır. Bu səbəbdən də gəlir mənbələrinin yaranması və gəlirlərin özünün iqtisadi nöqteyi-nəzərdən doğru təsnif edilməsi və dəqiqləşdirilməsinin xüsusi faydası vardır. Bu cür təsnifata ayırma makro və mikro səviyyəli olaraq çox vacibdir. Dövlət gəlirlərinin yaxşılaşdırılması bu nöqteyi-nəzərdən onun inkişaf etməsi, bölgüsü və istifadə edilməsi üzrə tədbirlərin həyata keçirilməsi sistemidir. Burada əsas məsələ cari və proqnozlaşdırılan bir müddətdə dövlət gəlirlərinin ən uyğun səviyyəyə çatdırılması prinsiplərinə riayət edilməsidir. Dövlət gəlirlərinin artırılması meyarları, vəzifələri və funksiyalarını aşağıdakı sxem şəklində vermək mümkündür.

**Cədvəl 2. Dövlət gəlirlərinin idarə olunması meyarları, vəzifələri və funksiyaları[4]**

| Meyarları | Vəzifələri | Strateji funksiyaları |
|---|---|---|
| Dövlət gəlirlərinin ortaya çıxmasının mütəmadiliyi, ardıcıllığı | Gəlirlərin ortaya çıxmasında cari və strateji məqsədlərin bir-birilə əlaqələndirilməsi | Gəlirlərin hüquqi və normativ tənzimləyicilərinin təyin olunması |
| Dövlət gəlirlərinin ortaya çıxmasının sistemli xarakteri | Dövlət gəlirlərinin maksimum həddə çatdırılması. | Dövlət gəlirlərinin idarə edilməsi üzrə məqsədli konsepsiya və proqramların hazırlanması |
| Gəlirlərin idarə olunmasının çox variantlılığı və büdcə proyektlərinin alternativliyi | Dövlət gəlirlərinin ortaya çıxmasında şirkətlərin özünün maliyyələşdirmə zəruriyyətinin əsas götürülməsi | Gəlirlərin ortaya çıxması, bölgüsü və istifadəsinin planlaşdırılması |
| Dövlət gəlirlərinin ortaya çıxmasının məcburi, qismən könüllü xarakteri | Dövlət gəlirləri və xərcləri strukturunun yaxşılaşdırılması və onun həqiqi vəsaitlər ilə uzlaşdırılması | Gəlirlərin bazar tənzimləyicilərinin inkişaf etməsi |

Dövlətin gəlirləri fəaliyyətin maliyyələşdirilməsi üçün lazım olan maliyyə əsaslarının meydana gəlməsi üçün bölüşdürmə və təkrar bölüşdürmə prosesinin dövlətin öz mülkiyyətində olan mövcud milli gəlirin bir qismidir. İdarəçilik baxımından dövlət gəlirləri, dövlətin fəaliyyətinin maliyyələşdirilməsi üçün onların xüsusi mülkiyyətə çevrilməsi və dövlətin fərmanının verilməsi zamanı tədavül edilən ölkədaxili gəlir kimi müəyyən olunur. Bazar iqtisadiyyatında dövlət büdcəsinin gəlirlərinin tədqiq edilməsi əsas məsələlərdən hesab edilir. Büdcə gəlirləri dövlət gəlirlərinin ortaya çıxmasında mütləq şəkildə iştirak edir. Büdcə gəlirləri daha dar məna kəsb edir. [3,145]

Büdcənin gəlirləri dedikdə, AR-nın qanunvericiliyinə əsasən geri ödənməmək şərti ilə dövlət hakimiyyəti və yerli idarələrin sərəncamına aid pul vəsaiti nəzərdə tutulur. Dövlət büdcəsinin gəlirləri dövlətin əsas MB-nı təşkil edir. Büdcənin gəlirləri dövlətin pul vəsaiti fondunun yaranması zamanı dövlət və şirkət, təşkilat və ölkə əhalisi arasında iqtisadi əlaqələri ifadə edir. Dövlət büdcəsinin gəlirləri hal-hazırda qeyd edəcəyimiz daxilolmalar hesabına yaranır və inkişaf edir:

**Sxem 1. Dövlət büdcə gəlirlərinin mənbələri[5]**




Dövlət büdcəsindəki vergilərin nisbəti hər il üçün "Dövlət büdcəsi barəsində" AR-nın qanunu ilə təyin olunur. Qanun vergi daxilolmalarını gəlirlərin büdcə tənzimləməsi formasında fərqli səviyyəli büdcələr arasında bölgüsü nisbətini təyin edir. Belə bölgü gələcək büdcə ilinə dövlət büdcəsi barəsində AR-nın qanunu ilə təsdiq olunur.

## NƏTİCƏ

Vurğulamaq lazımdır ki, AR-nın dövlət büdcəsinin özəlliyi odur ki, bu büdcədən ümumi dövlət xərcləri, həmçinin müdafiəyə, fundamental elmi-araşdırmalara, beynəlxalq fəaliyyətə, fövqəladə halların və təbii fəlakətlərin aradan qaldırılmasına və ya tədricən azaldılmasına, dövlət borclarına xidmət göstərməyə müəyyən qədər pul vəsaiti yönəldilir. Büdcə xərclərinin böyük hissəsi dövlət idarəetmə mərkəzlərinin və hüquq-mühafizə fəaliyyətinin maliyyələşdirilməsindən ibarətdir. Bu xərclər ictimai faydalı hesab edilir. İctimai yenidən istehsalın və iqtisadiyyatın əlverişliliyinin və müdafiə gücünün artması dövlət büdcəsinin geniş olduğunu bir daha göstərir. Ancaq büdcə xərclərinin fərqliliyi ilə bərabər bu xərclər müəyyən bir vahid məqsədə, dövlət tələbatını maliyyə vəsaitləri ilə ödəməyə xidmət göstərir.

**Açar sözlər:** *Büdcə, gəlir, dövlət makroiqtisadi dövrlər*

## ƏDƏBİYYAT SİYAHISI:

1. Bernanke, B. S. & Blinder A. S. (2019). The Federal Funds Rate and the Channels of economic growth , The American Economic Review, 82(4).

2. Şengönül, A. & Thorbecke, W. (2015). The effect of monetary policy on bank lending in Turkey. Applied Financial Economics. 15 (3).

3. Hung, L. & Pfau, W.D. (2009). Var Analysis of The Monetary Transmission Mechanism in Vietnam. Applied Econometrics And International Development. 9(1).

4. Toniolo G., Comments on Harold James's paper "Central banks: between internationalisation and domestic political control", BIS Working Papers Annual Conference, No 20, 2018.

5. Önder T., "Para politikası: araçları, amaçları v_ Türkiye uygulaması" Türkiye Cumhuriyyet Merkez Bankası, Uzmanlık yeterlilik tezi, Ankara, 2005.

6. Cunningham R., "Inflation Expectations and the Conduct of Monetary Policy: A Review of Recent Evidence and Experience", International Economic Analysis, 2019.

## Economic nature and theoretical foundations of state revenues

### SUMMARY

One of the special tools in the implementation of the country's economic and social policy is the budget system, which is considered the main component of the financial system. The budget is the main financial source in order to organize the country's social policy and state regulation, and includes the distribution of GDP. The budget is considered a historical economic category that reveals financial relations. It is known that the budget has a special role in the management of the state. For this reason, the budget system related to the economic and state structure of any country has developed. Certain factors that indicate the importance of state income do not act as conditions that create it. Because favorable economic growth and public labor productivity are considered to be the main conditions for state revenues. When the level of production is not sufficient to meet the basic needs of citizens in the initial distribution of national income, there can be no talk of normal development of state income from an economic point of view. For this reason, the factors of economic growth and increase in the productive force of labor are the most important conditions for the creation of state revenues. Because the generation of state revenues is caused by objective compulsion such as the proper functioning of the current economic system.

**Keywords:** *Budget, income, macroeconomic cycles*

## Экономическая сущность и теоретические основы государственных доходов

### РЕЗЮМЕ

Одним из специальных инструментов в реализации экономической и социальной политики страны является бюджетная система, которая считается основным компонентом финансовой системы. Бюджет является основным финансовым источником для организации социальной политики страны и государственного регулирования и включает в себя распределение ВВП. Бюджет считается исторической экономической категорией, раскрывающей финансовые отношения. Известно, что бюджету отводится особая роль в управлении государством. По этой причине сложилась бюджетная система, связанная с экономическим и государственным устройством любой страны. Некоторые факторы, свидетельствующие о важности государственных доходов, не выступают в качестве условий, его создающих. Потому что благоприятный экономический рост и производительность общественного труда считаются главными условиями для государственных доходов. Когда уровень производства недостаточен для удовлетворения основных потребностей граждан в первоначальном распределении национального дохода, не может быть и речи о нормальном развитии доходов государства с экономической точки зрения. По этой причине факторы экономического роста и увеличения производительной силы труда являются важнейшими условиями формирования государственных доходов. Потому что формирование государственных доходов вызвано объективным принуждением, таким как правильное функционирование существующей экономической системы.

**Ключевые слова:** *бюджет, доходы, макроэкономические циклы.*

UOT 336.01/.02; 339.7.01

# VALYUTA TƏNZİMLƏNMƏSİ VƏ VALYUTA MƏZƏNNƏSİ REJİMLƏRİNİN NÖVLƏRİ

**ELNUR ZEYNALOV**
*AMEA İqtisadiyyat İnstitutunun dissertantı*

*E-mail: elnurzeynalli94@mail.ru*

Amerika iqtisadçısı A.Lerner 1940-1944-cü illərdə valyuta məzənnəsinin dəyişməsinin ölkənin beynəlxalq ticarət əlaqələrində həm ixracın və həm də idxalın həcminə ciddi şəkildə təsir etdiyini müəyyən etmişdir. Sonradan bu, iqtisad elminə Marşal-Lerner şərti kimi daxil olmuşdur. Qeyd edilən nəzəriyyənin mahiyyəti ondan ibarətdir ki, milli valyutanın ucuzlaşması ixracı ucuzlaşdırır və idxalı bahalaşdırır. Qısa müddətdə bahalaşan idxal "qiymət effekti" nəticəsində tədiyyə balansına mənfi təsir edir. Uzunmüddətli dövrdə isə ixracın artması "kəmiyyət effekti" ilə tədiyyə balansına müsbət təsir edir. Başqa sözlə, milli valyutanın devalvasiyası ölkənin ticarət balansına müsbət təsir edir [1. Səh. 11]. Qeyd edilən belə yanaşmadan 1960-1980-ci illərdə Yaponiya, 1970-ci illərdə Braziliya, 1980-1990-cı illərdə Çili və Çin istifadə etmişdir [2. Səh.15].

Lakin, müasir dövrdə valyuta məzənnəsinin iqtisadiyyatdakı rolunu birmənalı qiymətləndirmək olduqca çətindir. Belə ki, BVF - nun metodikasına əsasən hər hansı bir ölkənin valyutasının 25% - 30 % kəskin ucuzlaşması artıq valyuta böhranıdır [3]. Başqa sözlə, milli valyutanın 10%-ə qədər devalvasiyası məqsədəuyğun hesab edilsə də artıq belə yanaşmanı birmənalı şəkildə qiymətləndirməyin doğru olmadığı məlum olmuşdur.

B.E.Brodski öz tədqiqatlarında 96 devalvasiya hadisəsinin nəticələrini təhlil etmiş G.Calvo və C. Reinhartın apardığı tədqiqatlara istinad edərək göstərir ki, devalvasiya xüsusilə aşağı və orta inkişaf səviyyəsinə malik ölkələrdə iqtisadi artıma müsbətdən daha çox mənfi təsir göstərir. Həmçinin, ölkə iqtisadçı alimlərindən F.Ə.Qənbərov qeyd edir ki, devalvasiya iqtisadiyyatın dollarlaşma səviyyəsinin 84%-dən çox olduqda bu iqtisadi artıma mənfi təsir edir. Eləcə də, ölkənin xarici borcu çox olduqda milli valyutanın devalvasiyası iqtisadi artım tempini 1,6% azaldır [1. Səh.11].

Bu baxımdan, aparılan tədqiqatlar göstərir ki, valyuta məzənnəsinə təsir edən amilləri xarakterinə görə aşağıdakı kimi qruplaşdırmaq olar.

**Cədvəl 1**
**Valyuta məzənnəsinə təsir edən amillərin təsnifatı**

| Təsnifat əlaməti | Faktor növü |
|---|---|
| Təsir müddətinə görə | 1. Konyunkturaya əsasən (qısamüddətli),<br>2. Struktura əsasən (uzunmüddətli) |
| Valyuta məzənnəsinə təsir istiqamətinə görə | 1. Məzənnənin ucuzlaşması,<br>2. Məzənnənin bahalaşması,<br>3. Kompleks yanaşma(ucuzlaşma və ya bahalaşma) |

*Mənbə: [7. Səh. 72].*

Konyunktura amilləri əsasən qısa müddət ərzində fəaliyyət göstərir və onları proqnozlaşdırmaq çətindir. Konyunktur amilləri səciyyələndirən makrostatistik məlumatların qrupu genişdir. Onları aşağıdakı kimi göstərmək olar:

• Bütövlükdə iqtisadiyyatın vəziyyəti (iqtisadi artım, ÜDM, inflyasiya göstəriciləri və s.);

• İqtisadiyyatın ayrı-ayrı sahələrinin vəziyyəti (pul statistikası, rəsmi faiz dərəcələri, dövlət qiymətli kağızları üzrə gəlirlilik, istehsal sektorunun göstəriciləri, məşğulluq və əmək bazarı üzrə göstəricilər, beynəlxalq ticarət və s.);

• İstehlak tələbinin göstəriciləri (pərakəndə ticarət, tikinti və mənzil bazarı, istehlakçı əhvali-ruhiyyəsi və s.);

• İşgüzar fəaliyyət dövrünün göstəriciləri və s.

Onu da bildirək ki, təqdim olunan makrostatistik məlumatların sayı ölkədən ölkəyə dəyişə bilər. Konyunktura amillərinin xarakterik cəhəti ondan ibarətdir ki, qeyd edilən bu amillər rəsmi dərc olunana qədər valyuta bazarına və məzənnəyə təsir imkanlarına malikdirlər. Struktur amillər isə uzun müddət ərzində fəaliyyət göstərir və proqnozlaşdırıla bilir. Bura əsasən, dünya bazarlarında ölkə mallarının rəqa-

bətqabiliyyəti, ölkənin milli gəlirinin həcmi, dünya bazarlarındakı qiymətlərə münasibətdə daxili qiymətlərin dəyişməsi, maliyyə seqmentlərinin xüsusilə də, qiymətli kağızlar bazarının inkişaf dərəcəsi və s. amillər aid edilir. Bəzi struktur amillərin məzənnəyə təsirini nəzərdən keçirmək məqsədəuyğun olardı:

1. Ölkə mallarının rəqabətqabiliyyətinin dəyişməsi. Ölkə mallarının beynəlxalq bazarda rəqabət qabiliyyətinin artması ixracın həcminin artmasına şərait yaradır. İxrac həcminin artması ixrac gəlirlərinin artmasına və ölkəyə xarici valyutanın daxil olmasına səbəb olur. Milli valyutanın sabit məzənnəsinin tətbiq olunduğu dövrdə ölkəyə xarici valyutanın miqdarının artması tələb və təklif nisbətinin dəyişməsinə və milli valyutanın məzənnəsinin bahalaşmasına səbəb ola bilir. Milli valyutanın məzənnəsinin möhkəmlənməsi tendensiyası əgər, onun məzənnəsini xarici valyutalara nəzərən ucuzlaşdırmaq üçün tədbirlər görülmədikdə, uzun müddət davam edə bilər.

2. Milli gəlirdə dəyişiklik. Valyuta məzənnəsi ilə milli gəlirin dəyişməsi arasında asılılıq, düz mütənasibdir. Milli gəlirin həcminin azalması milli valyutanın xarici valyutaya nisbətdə məzənnəsinin aşağı düşməsinə səbəb olur, çünki bu, ölkənin iqtisadi vəziyyətinin pisləşməsini göstərir. Milli gəlirin artmasının isə valyuta məzənnəsinə təsiri müxtəlif istiqamətlərdə ola bilər:

• milli valyutanın ucuzlaşması və xarici valyutanın bahalaşması. İdxal olunan mallara tələbin artmasına və nəticədə ölkədən xarici valyuta axını ilə müşayiət oluna bilər;

• milli valyutanın möhkəmlənməsi və xarici valyutanın ucuzlaşması. Bu fenomen adətən daha çox üstünlük təşkil edir. Çünki milli gəlirin artması ölkənin iqtisadi vəziyyətinin yaxşılaşmasına və beynəlxalq ehtiyatların artmasına kömək edir, iqtisadiyyatın investisiya cəlbediciliyini artırır və ölkə iqtisadiyyatına xarici kapital axını üçün münbit şərait yaranır.

• Dünya bazarlarının qiymətlərinə nisbətən daxili qiymətlərin dəyişməsi milli valyutanın məzənnəsinin dəyişməsinə tərs mütənasibdir. Daxili qiymətlərin yüksəlməsi idxal mallarına və valyutaya tələbi artırır ki, bu da xarici valyutanın ölkədən qaçışına şərait yaradır. Belə halda xarici valyutanın məzənnəsi möhkəmlənir, milli valyutanın məzənnəsi isə ucuzlaşır. Daxili qiymətlərin ucuzlaşması beynəlxalq bazarlarda milli məhsullara tələbi artırır ki, bu da ixracın artmasına səbəb olur.

• Maliyyə bazarı seqmentlərinin inkişafı. Bu bazarın seqmentləri bir-biri ilə sıx şəkildə bağlıdır və investisiya istiqamətləri baxımından rəqabət aparır. Maliyyə seqmentlərinin inkişafı kapitalın sərbəst hərəkətinə şərait yaradır və valyuta bazarının sabitləşməsinə kömək edir.

Beləliklə, aparılan təhlillər göstərir ki, valyuta məzənnəsinin formalaşması çoxfaktorlu bir prosesdir. Müxtəlif xarakterli çoxlu sayda qarşılıqlı əlaqədə olan amillərin təsiri altında formalaşır. Həmçinin, qeyd etmək lazımdır ki, valyutanın məzənnəsi əsasən ölkədə qəbul edilmiş məzənnə rejiminin seçilməsindən də asılıdır. BVF-nin nizamnaməsinə və Yamayka pul sisteminin prinsiplərinə uyğun olaraq, hər bir ölkə milli valyutanın məzənnə rejimini müstəqil seçmək hüququna malikdir. Milli valyutanın məzənnəsi rejiminin seçilməsi ölkənin pul siyasətinin tərkib hissəsidir. Məzənnə rejimi valyuta məzənnəsinin müəyyən edilməsinin adətən bir üsuludur desək, fikrimcə, yanılmarıq. Bu baxımdan BVF-nin valyuta məzənnəsinin və pul rejimlərinin asılılığı ilə bağlı cədvələ baxmaq məqsədəmüvafiq olardı.

**Cədvəl 2**

**Valyuta məzənnəsi ilə pul rejimlərinin qarşılıqlı əlaqəsi**

| Pul siyasəti rejmləri / Valyuta rejimləri | İnflyasiyanın hədələnməsi | Valyuta məzənnəsinin hədələnməsi | Pul təklifinin hədələnməsi | Təsnifatlandırılmamış Pul Siyasəti Rejimləri |
|---|---|---|---|---|
| Sərbəst üzən məzənnə (Floating and Free Floating) | + | | + | + |
| Valyuta şurasına əsaslanan (currency board) | | + | | |
| Sabit məzənnə rejmi (crawling peg) | | | + | |
| Valyuta koridoru əsasında məzənnə rejimi (crawl-like arrangement) | + | + | | |
| Müəyyən edilməmiş məzənnə üfüqi ilə tənzimlənən üzən məzənnə (Conventional peg and Stablilized arrangement) | + | | + | + |
| digər valyutaya bağlanan (no separate legal tender) | | + | | + |
| faiz ətrafında dəyişən (pegged exchange rate within horizontal bands) | + | + | | |

*Qeyd: Cədvəl BVF-nin [5. Səh. 161-165] materialları əsasında müəllif tərəfindən tərtib olunub.*

Göründüyü kimi, pul siyasətləri rejimindən asılı olaraq valyuta rejimləri müəyyən edilir. Bütövlükdə demək olar ki, əksər ölkələrdə valyuta məzənnəsi bazar prinsipləri və dövlət tənzimlənməsinin təsiri altında formalaşır. Buna görə də müasir dövrdə valyuta məzənnələrinin seçilməsi makroiqtisadi tənzimləmənin effektiv alətinə çevrilmişdir. Effektiv makroiqtisadi siyasətin işlənib hazırlanması və həyata keçirilməsi optimal məzənnə rejiminin seçilməsi ilə birbaşa bağlıdır. Üzən və fiksə olunan valyuta məzənnələrinin isə öz üstünlükləri və mənfi cəhətləri vardır.

BVF-nin materiallarının tədqiqi göstərir ki, 192 ölkədə aşağıdakı kimi valyuta rejimləri fəaliyyət göstərir.

**Şəkil 1**

**Valyuta rejimləri**




*Mənbə: [5. Səh. 126-128].*

Beləliklə də, aparılan tədqiqatlar göstərir ki, valyuta məzənnəsi beynəlxalq valyuta-kredit münasibətlərinin mərkəzi elementlərindən biridir. Valyuta məzənnəsi çox mürəkkəb bir faktor kimi bir çox iqtisadi göstəricilərə təsir edir. Valyuta məzənnəsinin formalaşması mexanizmində dövlətdən və onun yürütdüyü pul siyasətinin rolu böyükdür. İnkişaf etmiş ölkələrin valyuta məzənnələrinin əksəriyyəti iqtisadi mühitdəki dəyişikliklərə uyğun olaraq dəyişir və daimi hərəkətdədir. Dövlət valyuta intervensiyaları, faiz dərəcələrinin dəyişməsi kimi pul-kredit tənzimlənməsi mexanizmləri vasitəsilə məzənnənin möhkəmlənməsinə təsir göstərə bilər. Valyuta məzənnəsi həm bütövlükdə dövlət iqtisadiyyatının inkişafının göstəricisi, həm də onun dünya arenasında cəlbediciliyinə və rəqabət qabiliyyətinə təsir edən amil kimi də çıxış edə bilir.

İqtisadi ədəbiyyatlarda əsasən iki məzənnə - üzən və fiksə olunan valyuta məzənnələri göstərilməklə BVF-nin metodikasında valyuta rejimləri aşağıdakı kimi göstərilmişdir.

**Cədvəl 3.**

**Valyuta rejimləri**

| Məzənnə rejimləri | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **1. Fiksə olunmuş məzənnə (hard peg)** | **13.2** | **13.1** | **13.1** | **12.6** | **13** | **12.5** | **12.5** | **12.5** | **12.5** |
| 1.1. digər valyutaya bağlanan(no separate legal tender) | 6.8 | 6.8 | 6.8 | 6.8 | 7.3 | 6.8 | 6.8 | 6.8 | 6.8 |
| 1.2. Valyuta şurasına əsaslanan (currency board) | 6.3 | 6.3 | 6.3 | 5.8 | 5.7 | 5.7 | 5.7 | 5.7 | 5.7 |
| **2. Yumuşaq məzənnə (Soft peg)** | **39.5** | **42.9** | **43.5** | **47.1** | **39.6** | **42.2** | **46.4** | **46.4** | **46.9** |
| 2.1.Ənənəvi məzənnə (Conventional peg) | 22.6 | 23.6 | 23.0 | 23.0 | 22.9 | 22.4 | 22.4 | 21.9 | 21.4 |
| 2.2.Sabit tənzimlənən üzən (Stablilized arrangement) | 8.4 | 9.9 | 11 | 11.5 | 9.4 | 12.5 | 14.1 | 13.0 | 12 |
| 2.3.Sabit məzənnə rejmi (crawling peg) | 1.6 | 1.0 | 1.0 | 1.6 | 1.6 | 1.6 | 1.6 | 1.6 | 1.6 |
| 2.4.Valyuta karidoru əsasında məzənnə rejmi (crawl-like arrangement) | 6.3 | 7.9 | 7.9 | 10.5 | 5.2 | 5.2 | 7.8 | 9.4 | 12.0 |
| 2.5. faiz ətrafında dəyişən (pegged exchange rate within horizontal bands) | 0.5 | 0.5 | 0.5 | 0.5 | 0.5 | 0.5 | 0.5 | 0.5 | 0.0 |
| ***3. Üzən məzənnə (Floating)*** | **34.7** | **34** | **34** | **35.1** | **37** | **35.9** | **34.4** | **34.4** | **32.8** |
| 3.1. Üzən məzənnə (Floating) | 18.4 | 18.3 | 18.8 | 19.4 | 20.8 | 19.8 | 18.2 | 18.2 | 16.7 |
| 3.2. Sərbəst üzən məzənnə (Free Floating) | 16.3 | 15.7 | 15.2 | 15.7 | 16.1 | 16.1 | 16.1 | 16.1 | 16.1 |
| **4. Digərləri (Other)** | **12.6** | **9.9** | **9.4** | **5.2** | **10.4** | **9.4** | **6.8** | **6.8** | **7.8** |

*Mənbə: [5. Səh. 12-15].*

Beləliklə, aparılan təhlillər göstərir ki, valyuta məzənnələrinin formalaşması mexanizmi birbaşa dövlətdən və onun pul siyasətindən asılıdır. İnkişaf etmiş ölkələrin valyuta məzənnələrinin əksəriyyəti dəyişir və daim inkişafda olur, iqtisadi vəziyyətin dəyişməsinə həssaslıqla reaksiya verir. Dövlət valyuta intervensiyaları, faiz dərəcələrinin dəyişməsi kimi pul-kredit tənzimlənməsi mexanizmləri vasitəsilə məzənnənin möhkəmlənməsinə təsir göstərə bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Fuad Qənbərov Məzənnə siyasəti: yeni çağırışlar və imkanlar Bakı-2021 s.295*

*2. А.Бланк, Е.Гурвич, А.Улюкаев (2006) Обменный курс и конкурентоспособность отраслей российской экономики. Вопросы Экономики, №6 с.4-24.*

*3. www.imf.org*

*4. Б.Е.Бродский Реальный обменный курс ру-*

*бля и экономический рост в России Вопросы Экономики, 2006, №4 с.35-51.*

*5. Annual Report on Exchange Arrangements and Exchange Restriction, 2020. P.386.*

*6. А в т о р ы: Н. Н. Мокеева; А. Е. Заборовская; А. И. Серебренникова; Н. Ю. Исакова и другие. Международные валютно-кредитные отношения, Екатеринбург, Издательство Уральского университета 2021 с.334.*

**XÜLASƏ**

Valyuta məzənnəsinin iqtisadiyyatdakı rolunu qiymətləndirmək çətindir. Valyuta məzənnəsinin dəyişməsi ölkənin qlobal iqtisadi məkandakı statusunu və eləcə də həm xarici, həm də daxili iqtisadi münasibətlərin inkişafına ciddi təsir edir. Milli valyutanın məzənnəsi iqtisadi inkişaf üçün olduqca vacib bir göstəricidir. Belə ki, valyuta məzənnəsi iqtisadiyyatının inkişafının göstəricisi, dünya arenasında cəlbedicilik amili və rəqabətqabiliyyətinə təsir edən amil kimi də çıxış edə bilir. Buna görə də onun tənzimlənməsi fiksə olanunan rejimlərdə vacibdir.

**Açar sözlər:** *valyuta məzənnəsi, rəqabətqabiliyyətlilik, iqtisadiyyatın tənzimlənməsi, valyuta rejimi və s.*

**РЕЗЮМЕ**

Трудно оценить роль обменного курса в экономике. Изменения обменного курса серьезно влияют на статус страны в мировом экономическом пространстве, а также на развитие как внешнеэкономических, так и внутренних экономических связей. Курс национальной валюты - очень важный показатель экономического развития. Таким образом, обменный курс может выступать индикатором экономического развития, фактором привлекательности на мировой арене и фактором, влияющим на конкурентоспособность. Поэтому его регулирование важно в фиксированных режимах.

**Ключевые слова:** *обменный курс, конкурентоспособность, экономическое регулирование, валютный режим и др.*

**SUMMARY**

It is difficult to assess the role of the exchange rate in the economy. Changes in the exchange rate seriously affect the country's status in the global economic space, as well as the development of both foreign and domestic economic relations. The exchange rate of the national currency is a very important indicator for economic development. Thus, the exchange rate can act as an indicator of economic development, a factor of attractiveness in the world arena and a factor affecting competitiveness. Therefore, its regulation is important in fixed regimes.

**Keywords:** *exchange rate, competitiveness, economic regulation, currency regime, etc.*

UOT 338

# KÖLGƏ İQTİSADİYYATININ YARANMA SƏBƏBLƏRİ VƏ ONUNLA MÜBARİZƏ ÜSULLARI

**CAVANŞİR BURHANZADƏ**
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun magistrantı*
*E-mail: cavanshirburhanzadeh@gmail.com*

## GİRİŞ

İqtisadiyyat bir elm kimi insanların öz həyat standartlarını necə yaxşılaşdıracaqlarını, onların daha yaxşı rifah halına malik olması üçün hansı üsul və vasitələrdən istifadə etməli olduqlarını araşdırır. İqtisadiyyat, dövlətin varlığının və onun təhlükəsizliyinin əsasını təşkil etdiyi kimi onun tənzimlənməsi də iqtisadiyyatın dayanıqlı inkişafının ən zəruri aspektlərindəndir. Məlum olduğu kimi, dövlət iqtisadiyyata birbaşa və dolayı yollarla müdaxilə edə bilər. Lakin dövlətin iqtisadiyyatı tənzimləmə rıçaqlarında maliyyə-kredit və büdcə-vergi mexanizmləri əsas yer tutur. Mərkəzi bankın həyata keçirdiyi monetar (pul-kredit) siyasət vasitəsi ilə dövlət iqtisadiyyatda pul təklifini artıra və ya azalda bilər. Həmçinin fiskal (büdcə-vergi) siyasət vasitəsi ilə vergitutma bazasında və vergi yükündə münasib dəyişikliklər edə bilər. Heç şübhəsiz ki, bütün bu mexanizimlər dövlətin daha yüksək iqtisadi səmərə əldə etməsinə hesablanmışdır. İqtisadi səmərənin təzahürü kimi büdcə daxilolmalarında artımı misal göstərə bilərik. Büdcəni formalaşdıran əsas mənbələrdən biri də vergi daxilolmalarıdır. Vergi siyasətinin tətbiqi dövlətlə yanaşı biznes mühitinin subyektləri baxımından da əhəmiyyət kəsb edir. Vergi yükünün aşağı olması sahibkarların vergi ödəmələrini stimullaşdırdığı kimi vergidən yayınma hallarının da minimuma enməsinə və kölgə iqtisadiyyatının azalmasına şərait yaradacaqdır.

## ƏSAS HİSSƏ

### Kölgə iqtisadiyyatı nədir?

Bir çox obyektiv və subyektiv səbəblərdən dövlətin, bəzi firma və təşkilatların qeyri-qanuni fəaliyyətlərinə göz yumması və ya nəzarət edə bilməməsi həmçinin bu təşkilatların dövlətin müəyyən etdiyi əksər qanunvericilk aktlarından və mükəlləfiyyətlərdən (buna vergi ödəmələri də daxildir) yayınma hallarının baş verdiyi iqtisadiyyata kölgə iqtisadiyyatı deyilir. Ədəbiyyatlarda iqtisadiyyatın bu halını ifadə etmək üçün “kölgə iqtisadiyyatı” termini ilə yanaşı, “qeyri-rəsmi iqtisadiyyat”, “gizli iqtisadiyyat”, “görünməz iqtisadiyyat”, “paralel iqtisadiyyat”, “qeyri-qanuni iqtisadiyyat”, “qara iqtisadiyyat” kimi anlayışlardan da istifadə olunur. Kölgə iqtisadiyyatı ilə bağlı ilk araşdırmalara XX əsrin 30-40-cı illərində rast gəlinir. Lakin ilk dəfə Kolumbiya Universitetinin professoru Phillip D. Cagan kölgə iqtisadiyyatını ölçməyə çalışmışdır. Bununla bağlı daha ciddi araşdırmalar isə XX əsrin 70-80-ci illərində baş vermişdir. 1977-ci ildə avstriyalı professor Robert P. Guttmannın apardığı tədqiqat nəticəsində ABŞ iqtisadiyyatında kölgə iqtisadiyyatının 195 milyard dollar həcmində olduğunu müəyyən etmişdir. Robert P. Guttmannın “The Subterranean Economy” (Yeraltı iqtisadiyyat) adlı məqaləsində bu sözləri diqqət çəkir: “Soyğunçuluq, şantaj, dələduzluq və iqtisadi motivli digər cinayətlərin bəşəriyyət qədər qədim olması ehtimalı var və vergilərdən və iqtisadi tənzimləmələrdən yayınmanın vergi və iqtisadi tənzimləmələrin tətbiqi ilə başlaması ehtimal oluna bilər. Beləliklə, kölgə iqtisadiyyatı, şübhəsiz ki, yeni bir fenomen deyil. Lakin iqtisadçılar son vaxtlara qədər buna çox diqqət yetirmirdilər” (Financial Analysts Journal, Noyabr/Dekabr 1977, səh. 24-27) [1]. 1980-ci illərə qədər iqtisadçılar tərəfindən çox da ciddi bir fenomen kimi qəbul olunmayan “kölgə iqtisadiyyatı” anlayışı Gutmannın bu tədqiqatlarından sonra bütün elm camiyyəsinin nəzərini öz üzərinə çəkməyi bacarmışdır. Belə ki, 1983-cü ildə ilk dəfə Qərbi Almaniyanın Bielefeld şəhərində kölgə iqtisadiyyatı ilə bağlı beynəlxalq konfrans keçirilmişdir. Kölgə iqtisadiyyatına demək olar ki dünyanın bütün ölkələrində rast gəlinir. İnkişaf etmiş ölkələrdə (İEÖ) ÜDM-in 10%-ə yaxın hissəsini təşkil etdiyi halda inkişaf etməkdə olan ölkələrdə (İEOÖ) bu göstərici 20-50% arasında dəyişir. Hətta bəzi cənubi Asiya və cənub-şərqi Asiya ölkələrində (Hindistan, Pakistan, Banqladeş, Vyetnam) bu göstəricinin 600%-ə çatdığı müşahidə olunmaqdadır. (Mavral, 2001: 171) [2]. Kölgə iqtisadiyyatına dar və geniş mənada baxmaq olar. Dar mənada kölgə iqtisadiyyatı dedikdə, sadəcə sənəd-

ləşmə və qanunvericilik baxımdan bir sıra bürokratik gözləmələrdən yayınma hallarını, həmçinin vergidən yayınma hallarını və bu kimi kiçik ölçülü qanun pozuntularını aid edə bilərik. Geniş mənada kölgə iqtisadiyyatı anlayışına narkotik ticarəti, qumar, silah qaçaqmalçılığı, qadın ticarəti, orqan ticarəti kimi daha böyük cinayətlər aiddir. İkincini ifadə etmək üçün daha çox "qara iqtisadiyyat" və "yeraltı iqtisadiyyat" tərifləri uyğun olar. Kölgə iqtisadiyyatının yaranma səbəbləri müxtəlif və çoxşaxəlidir. Bunlar içərisində əsas olanlar maliyyə, idarəetmə, sosial və hüquqi səbəblərdir. Bu sadaladığımız səbəblərə daha çox inkişaf etməkdə olan ölkələrdə rast gəlinir. Bununla belə, bütün bu səbəbləri bir-birindən ayrı dəyərləndirmək doğru deyil. Heç şübhəsiz ki, bunlar bir-biri ilə bağlıdır və hətta bir çox hallarda biri digərinin yaranmasına səbəb olur. Bəzən ölkənin siyasi quruluşu, iqtisadi sistemi və hətta bürokratiyanın özü də kölgə iqtisadiyyatı üçün əlverişli mühit rolunu oynayır. Kölgə iqtisadiyyatını az öncə də qeyd etdiyimiz kimi, bir neçə mənada anlaya və dəyərləndirə bilərik. Lakin dövlətin maliyyə strukturlarının "şah damarı" hesab olunan vergi sisteminə nəzərən onu qiymətləndirsək, yenə də bir neçə qrupda dəyərləndirmək lazım gələcəkdir. Bu baxımdan, dəyərləndirdiyimiz zaman kölgə iqtisadiyyatını, qanunsuz və kriminal fəaliyyətləri özündə cəmləşdirən yeraltı iqtisadiyyatı, həmçinin sadəcə vergidən, sosial ayırmalardan və digər dövlət mükəlləfiyyətlərindən yayınmağa çalışan iqtisadiyyat olaraq qruplaşdıra bilərik. İkincini də, öz növbəsində, yarı qeydiyyatlı iqtisadiyyat və heç vaxt qeydə alınmayan iqtisadiyyat olmaqla iki yerə ayırmaq olar. Bunu aşağıdakı qrafikdə daha aydın görə bilərik (Qrafik 1.).

**Qrafik 1. Kölgə iqtisadiyyatının tərkibi**




*Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.*

Əvvəl qeyd etdiyimiz yanaşmada dar və geniş mənalarda kölgə iqtisadiyyatına baxdıqda geniş mənada nəzərdə tutulan kölgə iqtisadiyyatının qeyri-qanuni fəaliyyətlərdən (Yeraltı fəaliyyətlər) təşkil olunduğunu gördük. Heç şübhəsiz ki, bu cür fəaliyyətlər qanun qarşısında kölgə iqtisadiyyatının digər növlərinə nəzərən daha ağır cinayət məsuliyyəti daşıyır. Çünki kölgə iqtisadiyyatının digər iki növü qanunla qadağan olunmuş fəaliyyətlərdən təşkil olunmur, yalnız dövlət mükəlləfiyyətlərindən (vergi yükü, sosial ayırmalar) yayınmağa çalışır. Yarı qeydiyyatlı iqtisadiyyat bütövlükdə kölgə iqtisadiyyatının ən geniş yayılmış forması hesab olunur. Kölgə iqtisadiyyatının yaranma səbəbləri müxtəlif olsa da, bu səbəblər bir-biri ilə sıx əlaqədədir. Kölgə iqtisadiyyatının yaranmasının əsas səbəblərinə qloballaşmanı, texnoloji yenilikləri, bank sistemini, vergi yükünü, sosioloji strukturu, siyasi quruluşu və s. aid edə bilərik. Qloballaşmanın bir çox sahələrdə yaratdığı əhəmiyyətli dəyişikliklər, qeyri-formal iqtisadiyyatın həcminin tədricən artmasına səbəb olur. Xüsusilə qlobal iqtisadiyyat transmilli cinayətkar qruplar üçün yeni imkanlar yarada bilər. Maliyyə tənzimlənməsinin ləğvi, təkmilləşdirilmiş nəqliyyat infrastrukturu, paylama şəbəkələrinin genişləndirilməsi və qanuni ticarətin həcminin artması kimi amillər cinayətkar fəaliyyətdən əldə edilən gəlirlərin hərəkətini və qazanc əldə etməyi asanlaşdıran fəaliyyətlərdir (BERDAL, SERRANO, 2002: 197) [3]. Qloballaşma əmək bazarına da təsirsiz ötüşmür. Belə ki, İEÖ-də sosial müavinətlərin yüksək olması, həmin ölkələrin əhalisinin sənayenin ağır sahələrində, həmçinin bir çox xidmət sahələrində işləməyə istəksiz yanaşmasına gətirib çıxarır. Belə olduğu təqdirdə, bu ölkələrdəki sahibkarlar İEOÖ-dən ucuz işçi qüvvəsi gətirərək yaranan boşluğu doldurmaqla yanaşı, həm də işçilərin bir çoxunu qanunsuz yollarla gətirdiklərinə görə həmin işçilər qeydiyyata da alınmırlar. Bu da, öz növbəsində, şirkətlərin maliyyə xərclərinin azalması, dövlətdə isə vergidən yayınma hallarının artması deməkdir. Kölgə iqtisadiyyatına təsir edən digər amillər vergi yükü və dövlət tənzimləmələridir. Schneider və Enste tərəfindən Beynəlxalq Valyuta Fondu (BVF) üçün hazırlanan "böyüyən kölgə iqtisadiyyatı" adlı araşdırmada kölgə iqtisadiyyatının böyüməsinin əsas səbəbi kimi vergi yükü göstərilir. Yuxarıda qeyd olunan araşdırmaya görə, vergi yükünün 10% artmasının kölgə iqtisadiyyatının 3% artmasına səbəb olduğu müəyyən edilmişdir. Federal

Ehtiyatlar Agentliyinin araşdırması da bunun vergi dərəcəsinin 1,5% artmasına səbəb olduğunu bildirir. (BARTLETT,2004) [4] Türkiyədə isə yüksək vergilər və sosial sığorta haqları işçiləri və işəgötürənləri qeyri-rəsmi işləməyə sövq edən mühüm amil kimi göstərilir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) ölkələrinin iştirak etdiyi razılaşmaya görə, iqtisadi inkişaf üçün ən əlverişli əmək qanunvericiliyi 4 baldan 0,2 balla ABŞ, 4 baldan 3,8 balla Türkiyə ən sərt qanunvericiliyə malik olub (GÜLOĞLU, 26) [5]. Xüsusilə inkişaf etməmiş və inkişaf etməkdə olan ölkələrdə iqtisadi tənzimləmələrin, məhdudiyyətlərin və bürokratiyanın inkişaf etmiş ölkələrə nisbətən daha çox olması qeyri-rəsmiliyin artmasında əsas faktordur. Bu səbəbdən, inkişaf etməmiş və inkişaf etməkdə olan ölkələrdə qeyri-formal iqtisadiyyatla mübarizə aparmaq üçün iqtisadi tənzimləmələrin və bürokratik proseslərin azaldılması tövsiyə olunur (İLGİN, NƏŞR NO: 2492) [6]. Gutmannın monetar üsulla apardığı ölçmələrdə 1976-cı il üçün ABŞ iqtisadiyyatında ÜDM-də kölgə iqtisadiyyatının payının 10%, 1981-ci il üçün 14-15%, 1993-cü il üçün isə 14% olduğu təxmin olunur (Ilgın, 1999: 1) [7]. Almaniyada məşğulluq üsuluna görə aparılan ölçmələrdə 1976-cı ildə 39,5%, 1978-ci ildə 37,5%; ÜDM-dəki fərqlərə görə 1968-ci ildə 8,9%, 1974-cü ildə 4,8%; proses həcm metoduna görə; 1976-cı ildə 17,5%, 1978-ci ildə 24%, 1980-ci ildə 27,5% kölgə iqtisadiyyatı müəyyən edilmişdir (Özsoylu, 1993: 45) [8]. Dilnot və Morris, gəlir və xərc diferensial metodundan istifadə edərək, İngiltərədə kölgə iqtisadiyyatının həcminin ÜDM-dakı payının təxminən 3% olduğu müəyyən etmişlər (Harding və Jenkins, 1989: 63-64) [9]. Macafeenin Böyük Britaniya milli gəliri gəlir və xərc təxminləri arasındakı fərqləri nəzərə alaraq aşkar müəyyən etdiyi kölgə iqtisadiyyatı dərəcələri 1977, 1978, 1980 və 1982-ci illərdə müvafiq olaraq 4,5%, 3,5%, 0,0% və 1,5% olmuşdur (Carson, 1984: 32) [10]. Metyuya görə, İngiltərədəki kölgə iqtisadiyyatı 1972, 1974, 1978, 1980 və 1981-ci illər üçün ÜDM-in müvafiq olaraq 5,5%-i, 2,5%-i, 7,8%, 12,1% və 15,9%-ni təşkil edir (Harding və Jenkins, 1989: 59) [11]. Son olaraq İEÖ-dən İtalyaya nəzər salsaq görərik ki, burada kölgə iqtisadiyyatının həcmi nisbətən daha çox olmuşdur. İtaliyada kölgə iqtisadiyyatına dair araşdırmalarında Martino 1975-ci il üçün sorğu metodu ilə ölçmədə ÜDM-də 25-35%, Saba 1974-cü il üçün pul metodları ilə ölçmədə ÜDM-də 25.3%, 1978-ci il üçün isə ÜDM-də 30% həcmində kölgə iqtisadiyyatının olduğunu hesablamışlar (Özsoylu, 1993: 45) [12]. İEOÖ-ə gəldikdə isə bu göstərici daha yüksəkdir. Peru iqtisadiyyatında ÜDM-da kölgə iqtisadiyyatının payı 29% təşkil edir. 1988-ci ildə Argentinanın 70 milyard dollarlıq ÜDM-nin 50,4 milyard dollarının kölgə iqtisadiyyatı olduğu müəyyən edilmişdir. Keniyada kölgə iqtisadiyyatı ÜDM-in 35%-ni təşkil edir (Main, 1989: 101) [13]. Braziliyada isə qeyri-rəsmi iqtisadi fəaliyyətlərin ümumi iqtisadi fəaliyyətin 50%-ni təşkil etdiyi iddia edilir (Monash, 1990: 36) [14]. Bütün bu tədqiqatları ümumiləşdirsək bu qənaətə gələrik ki, Fransa, Almaniya, Yaponiya, Norveç, İsveçrə və Böyük Britaniyada kölgə iqtisadiyyatı 0-10% ; Belçika, Kanada, İtaliya və ABŞ-da 10-20%; Hindistanda 10-50% ; Peruda 40% təşkil edir (Altuğ, 1994: 56-58) [15]. Qərbi Avropa ölkələrinin və ABŞ-ın vergitutma bazası və ümumilikdə vergi siyasəti ilə bağlı dərin təcrübəsi və tarixi keçmişi vardır. ABŞ və inkişaf etmiş Avropa ölkələrində vergi sistemi mürəkkəb olduğu qədər çoxşaxəlidir. Həmin ölkələrlə müqayisədə isə Azərbaycanın vergi sistemi daha anlaşılan və sadə olmaqla birlikdə vergi yükü Qərbi Avropa və ABŞ-la müqayisədə aşağıdır. Vergilər Nazirliyinin Media və Kommunikasiya Mərkəzinin vergi yükü ilə bağlı açıqlamasında deyilir:

"Bir sıra beynəlxalq təşkilat və qurum dünya ölkələrinin müxtəlif metodologiyalar əsasında hesablanmış illik vergi yükü barədə məlumatlar dərc etdirir. Dünya Bankının "Doing Business" hesabatı (ümumi vergi dərəcəsi), Heritage Fondunun "İqtisadi azadlıq indeksi" kimi məlumatlar da bu qəbildəndir. "Doing Business 2017" hesabatının vergilərin ödənilməsi indikatoru üzrə Azərbaycanın ümumi vergi dərəcəsi (o cümlədən sosial sığorta ödəmələri daxil olmaqla) 39,8% göstərilib. Həmin hesabatda Portuqaliya (39,8%), Niderland (40,4%), Türkiyə (41,1%), ABŞ (44%), Avstraliya (47,6%), Almaniya (48,9%), İspaniya (49%), Avstriya (51,6%), İtaliya (62%) və Fransa (62,8%) kimi inkişaf etmiş ölkələrin vergi yükü daha yüksək olmaqla əks etdirilib. Bu göstərici keçmiş sovet ölkələrindən Moldovada 40,4%, Litvada 42,7%, Rusiyada 47,4%, Estoniyada 48,7%, Ukraynada 51,9%, Belarusda 54,8%-dir. Bura sosial sığorta ödəmələri də daxildir. Heritage Fondunun 2017-ci il üzrə dərc etdirdiyi rəsmi "İqtisadi azadlıq indeksi"ndə isə Azərbaycanın vergi yükü (sosial sığorta ödəmələri nəzərə alınmadan) 14,2% olmaqla 28-ci yerdə göstərilib. Bu sıralamada vergi yükünün

səviyyəsinə görə Azərbaycan bir çox ölkələrdən daha əlverişli mövqeyə malikdir. MDB ölkələrindən Qazaxıstan (13,2%) bu sıralamada 20-ci yerdə qərarlaşıb. Hesabatın 2017-ci il üzrə göstəricilərinə əsasən, Özbəkistan 19,7%, Qırğızıstan 20,8%, Tacikistan 22,8%, Belarus 23%, Ermənistan 23,5%, ABŞ 26%, Latviya 27,8%, Türkiyə 28,7%, Litva 29,3%, Rusiya 35,3% vergi yükünə malikdir". Bununla yanaşı hüquqi şəxslərin ödədiyi mənfəət vergisi və fiziki şəxslərdən tutulan gəlir vergisi də inkişaf etmiş qərbi Avropa ölkələri və ABŞ-la müqayisədə Azərbaycanda daha aşağıdır. ABŞ-da mənfəət vergisi 34% gəlir vergisi isə 15-39% -dir. Həmin göstəricilər uyğun olaraq Almaniyada 42% və 19-53% İsveçdə 28% və 20-57%, İtaliyada 36% və 10-50% Böyük Britaniyada 33% və 20-40% təşkil etmişdir. Azərbaycanda isə mənfəət vergisi 20%, gəlir vergisi isə 14-25% civarında idi. Lakin, 2019-cu ildən etibarən Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərindən vergi 2019-cu il yanvarın 1-dən 7 il müddətində 8000 manatadək 0%, 8000 manatdan çox olduqda isə 14% gəlir vergisi tutulur. Bütün bu hallar, heç şübhəsiz ki, kölgə iqtisadiyyatının Azərbaycanda daha aşağı olmasına rəvac verən hallardır [16].

## NƏTİCƏ

Kölgə iqtisadiyyatını aşağı səviyyəyə çatdırmaq hər bir dövlətin əldə etmək istədiyi nailiyyətlərdən biridir. Bunun üçün respublikamızda kompleks tədbirlər görülməsində fayda var. Hal-hazırda əsas problemlərdən biri işsizlik məsələsidir. Torpaq islahatından sonra kənd əhalisinə pay torpaqları verilmişdir və həmin əhali işsiz əhali olaraq qeyd olunmur. Lakin məlumdur ki, respublikamızın rayonlarında lazımi infrastruktur yetərincə deyil. Həmçinin bölgələrimizdə əksər şəhərlər sənayeləşməmişdir. Məhz bu səbəbdən bölgələrdən sənaye şəhərlərinə (əsasən Bakı və Sumqayıt) güclü miqrasiya baş verir. Bu şəhər əhalisinin sayını artırır və özlüyündə ekoloji tarazlığa da ciddi ziyan vurur. Kəndlərin boşalması həmin ərazilərdə gələcəkdə mümkün aqrar potensialımızdan yararlanmağımıza imkan verəcək insan kapitalımızın itməsinə səbəb olur. Bunun üçün birinci növbədə ölkədə tüğyan edən bu daxili köç dalğasının qarşısı alınmalıdır. Bölgələrdə rayonların təbii-coğrafi xüsusiyyətləri nəzərə alınmaqla aqro-parklar təsis edilməli, həmin ərazilərdə əhalinin yaşamasını stimullaşdıracaq bir çox iqtisadi-sosial imtiyazlar tətbiq olunmalıdır. Kölgə iqtisadiyyatının yaranma səbəblərinin başında, heç şübhəsiz ki, vergidən yayınma halları durur. Azərbaycanda bunun səbəbinin vergi yükünün çoxluğu (Qərbi Avropa və MDB ölkələri ilə müqayisədə Azərbaycanda vergi yükü və sosial sığorta ayırmaları aşağıdır) yox, məhz minimum əməkhaqqının aşağı olmasıdır. Çünki bir çox dövlət orqanlarında dövlət qulluqçularının əməkhaqları 450-500 manat civarında təşkil edir. Belə olduğu təqdirdə, sahibkar da aşağı əməkhaqqı ilə işçi rəsmiləşdirməkdə meyilli olur. Bir çox hallarda işçinin aldığı əməkhaqqı müqavilədə göstəriləndən çox olur. Qısacası sahibkarlar işçilərin əksəriyyəti ilə minimum əməkhaqqı ilə əmək müqaviləsi bağlayırlar. Bu zaman kifayət qədər böyük bir məbləğ vergidən yayınır. Lakin onu da qeyd etməliyik ki, son dövrlərdə bu istiqamətdə təqdirəlayiq addımlar atılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 17 dekabr 2021-ci il tarixli Sərəncamına əsasən 2022-ci il yanvarın 1-dən minimum aylıq əməkhaqqı 300 manata çatdırılmışdır. Ümumiyyətlə, bu sahədə son dövrlərdə artan tendensiya müşahidə olunmaqdadır. Vergidən yayınma hallarının qarşısını almaq məqsədi ilə müəyyən inzibati metodların istifadə olunmasında da fayda vardır. Bir çox sahibkarlar daha çox qazanc əldə etmək məqsədi ilə işçilərin əksəriyyəti ilə əmək müqaviləsi bağlamır. Bununla yanaşı resurslarının müəyyən hissəsini gizlədir. Eyni zamanda vergilərini vaxtında və düzgün şəkildə ödəyən sahibkarlara daha çox imtiyazlar verilməlidir. Həmçinin yeni biznes fəaliyyətinə başlayan fiziki və hüquqi şəxslərə vergi orqanları tərəfindən vergi möhləti kimi stimullaşdırıcı təkliflər irəli sürülə bilər. Bütün bu tədbirlərin həyata keçirilməsi ilə vergi işinin təşkili daha obyektiv və şəffaf olacaq və kölgə iqtisadiyyatına ağır zərbə vuracaq. Ən əsası xalq-dövlət və dövlət-sahibkar münasibətlərinə müsbət mənada böyük təkan vermiş olacaqdır.

**Açar sözlər:** *kölgə iqtisadiyyatı, yeraltı iqtisadiyyat, kölgə iqtisadiyyatının tərkibi, vergi yükü.*

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Financial Analysts Journal, Noyabr/Dekabr 1977, səh. 24-27*

*2. MAVRAL, Ü. (2001), Karapara Kayıtdışı Ekonomi İlişkisi ve Türkiye'ye Yansımaları, Vergi Denetmenleri Derneği Yayını, Şafak Matbaacılık, Ankara, 295 s.*

*3. Mats Berdal Ve Monica Serrano, Transnational Organized Crime: International Secrurity Business As Usual, London: Lynne Rienner Publishers, 2002, P.197.*

*4. Bruce Bartlett, "Undeground Dwellers", National Review, 14 July 2004,*

*5. Güloğlu, A.G.M.. S.26*

*6. Yılmaz Ilgın, Kayıtdışı Ekonomi VE Türkiye'de Ki Boyutları, Ankara: DPT Yayınları, Yayın No:2492, S.24*

*7. ILGIN, Y. (1999), Kayıtdışı Ekonomi ve Türkiye'deki Boyutları, DPT Yayın No: 2492, Uzmanlık Tezi, Ankara.*

*8. ÖZSOYLU, A.F. (1993) "Gizli Ekonomi: Tanımı-Sebepleri-Türkiye'deki Boyutları," İktisat Dergisi, S. 335-336, ss. 35-58.*

*9. HARDING, P. and R. JENKINS. (1989), The Myth of the Hidden Economy, Open University Press, Milton Keynes, PI.*

*10. CARSON, C.S. (1984), "The Underground Economy: An Introduction," Surveyof Current Business, 64(5), pp. 21-37.*

*11. HARDING, P. and R. JENKINS. (1989), The Myth of the Hidden Economy, Open University Press, Milton Keynes, PI.*

*12. ÖZSOYLU, A.F. (1993) "Gizli Ekonomi: Tanımı-Sebepleri-Türkiye'deki Boyutları," İktisat Dergisi, S. 335-336, ss. 35-58.*

*13. MAIN, J. (1989) "How To Make Poor Countries Rich," Fortune, January, Vol.119, pp.101-106.*

*14. MONASH, P.E. (1990), "Brazilian Retailing," DM, November, pp.36-37.*

*15. ALTUĞ, O. (1994), "Kayıtdışı Ekonomi: Vergiye Karşı Başkaldırı", Görüş,Sayı 14, Mart, ss.56-58. 11*

*16.https://azertag.az/xeber/Azerbaycanda_vergi_yuku_bir_sira_Avropa_ve_MDB_olkelerinden daha asagi seviyyededir-1043520*


## The causes of shadow economy and methods of combating it


**Burhanzadeh Javanshir**
***Master's student of the Institute of Economics of the Ministry of Education of the Republic of Azerbaijan***
***E-mail: cavanshirburhanzadeh@gmail.com***



**SUMMARY**

The article explains the nature of the shadow economy and compares the indicators of the shadow economy in the countries of the world. Proposals are made to prevent the shadow economy.



**Keywords:** *shadow economy, underground economy, structure of shadow economy, tax burden.*


## Причины возникновения теневой экономики и методы борьбы с ней


**Бурханзаде Джаваншир**
***Магистрант Института Экономики Министерства Науки и Образования Азербайджанской Республики***
***Эл. почта: cavanshirburhanzadeh@gmail.com***



**РЕЗЮМЕ**

В статье объясняется природа теневой экономики и сравниваются показатели теневой экономики в странах мира. Вносятся предложения по предотвращению теневой экономики.



**Ключевые слова:** *теневая экономика, теневая экономика, структура теневой экономики, налоговая нагрузка.*

UOT 338

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ İNNOVASİYA PROBLEMİ VƏ HƏYATA KEÇİRİLƏN İNNOVASİYA LAYİHƏLƏRİNİN TƏHLİLİ

**CƏLAL ƏHMƏDZADƏ**
*Azərbaycan Dövlət İqtisadiyyat Universitetinin doktorantı*
*E-mail: celal.ehmedzade99@gmail.com*

## Giriş

İnkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasında da dövlət səviyyəsində innovasiya siyasətinin həyata keçirilməsinə böyük əhəmiyyət verilir. Qeyd edək ki, müasir innovasiya siyasəti dövlətin sosial-iqtisadi siyasətinin ayrılmaz tərkib hissəsi olmaqla, elm, texnologiya, elmi-texniki nailiyyətlərin həyata keçirilməsi sahəsində hakimiyyət orqanlarının fəaliyyətinin məqsəd və istiqamətlərini və formalarını müəyyən edir. Müvafiq siyasətin əsasını elmi, texniki, həmçinin konseptual və hüquqi əsaslar təşkil edir. Bu əsasları inkişaf etdirərkən, əsaslı müddəalar texnoloji istiqamətlərini və proseslərini əsas elm sahələrində həyata keçirmək üçün tədbirləri əhatə etməlidir. Bununla yanaşı, elmi-texniki inkişafın stimullaşdırılması, elm və texnikanın inkişafının prioritet istiqamətlərinin seçilməsi, lisenziya və patent hüquqlarının, intellektual mülkiyyət hüquqlarının qorunması, elmi infrastrukturun yenilənməsi, elmi kadrların mövcud tələblər səviyyəsinə qaldırılması və s. sisteminin təkmilləşdirilməsi zəruridir.

Ümumiyyətlə, iqtisadi ədəbiyyatda dövlətin innovasiya siyasətinin əsas məqsədləri aşağıdakılardır: innovasiya üçün iqtisadi, hüquqi və təşkilati şəraitin yaradılması, innovasiyaların təşviqinə, habelə bazar münasibətlərinin və innovasiya sahəsində sahibkarlığın inkişafına yardım göstərilməsi, innovasiyaya dövlət dəstəyinin genişləndirilməsi, innovasiyaların inkişafı üçün dövlət resurslarından istifadənin səmərəliliyinin artırılması və innovasiya potensialının artırılması. Yerli innovasiya məhsullarının beynəlxalq bazarlarda satılması və ölkənin ixrac potensialının inkişafı üzrə tədbirlərin həyata keçirilməsi və s. [1, s.33].

Müasir dövrdə strateji innovasiyaların modelləşdirilməsi, xüsusilə maliyyə təhlükəsizliyi və investisiyalarının cari problemlərinin həlli, müasir dövrün mühüm məsələləri kimi xarakterizə olunur. Buna görə də qlobal iqtisadi çağırışlar kontekstində innovasiya proseslərinin təşkili və strateji idarə olunması məsələləri vacibdir. Bu yanaşmalar arasında ilk növbədə, inkişaf etmiş ölkələrin innovasiya təcrübəsinə əsaslanan və milli iqtisadiyyatın inkişaf xüsusiyyətlərini nəzərə alan optimal strateji innovasiya sisteminin yaradılması mühüm şərtdir. İnnovativ inkişaf prosesləri milli iqtisadi sistemin hərəkətverici qüvvəsi olmalı və ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması üçün əlavə potensial formalaşdırmalıdır. Bununla bağlı dövlət tərəfindən innovasiya proseslərinin strateji aspektlərinin sistemli nəzərdən keçirilməsi məsələlərinə dair xüsusi yanaşmalar və strateji baxışlar nəzərdə tutulmalıdır [6, s.25].

Dövlətin investisiya siyasəti davamlı iqtisadi inkişafa, yeni iş yerlərinin yaradılmasına, yeni texnologiyalar əsasında sənayedə və kənd təsərrüfatında dərin struktur dəyişikliklərinə, bir sözlə, milli iqtisadiyyatın möhkəm əsasda formalaşması və inkişafına yönəldilməlidir [9].

## Əsas hissə

Bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın inkişafı və bu inkişafın təbiətinə görə dayanıqlı olması üçün əlverişli şəraitin yaradılması əsasən müasir ölkənin innovasiya fəaliyyətindən və dövlətin innovasiya siyasətindən asılıdır. Müasir dövrdə hər bir ölkənin inkişafında investisiyaların rolu xüsusi əhəmiyyət kəsb edir. İnvestisiyalar ölkə iqtisadiyyatında təhlükəsiz iqtisadi artımı və rəqabət qabiliyyətini təmin edir, əhalinin həyat səviyyəsinin yüksəlməsinə zəmin yaradır. İnvestisiyaların artımını təmin etmək üçün bazar infrastrukturunu genişləndirmək və yaxşılaşdırmaq və iqtisadi artımı təmin etmək, iqtisadiyyatın prioritet sektorlarına investisiyalar yönəltmək, iqtisadiyyatın strukturunda elmi-intensiv sahələrin payını artırmaq lazımdır [7, s.40].

Azərbaycan dövləti 2022-2030-cu illəri əhatə edən postpandemik və postmüharibə dövründə keyfiyyətcə yeni olan strateji inkişaf mərhələsinə qədəm qoyur. Bu strateji dövrdə yeni nəsil struktur və institusional islahatlar sayəsində, iqtisadi artımın müasir və davamlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya oriyentasiyasının və maliyyə sabitliyinin daha da möhkəmləndirilməsi və ölkə iqtisadiyyatının dəyərinin yaradılması qlobal

zəncirinə səmərəli inteqrasiya sayəsində Azərbaycan dövləti bu məqsəd üçün yeni məqsədlərə nail olmaq əzmində idi. "Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər", "Azərbaycan Respublikasının 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası" işlənib hazırlanmışdır. Bu strategiyanın həyata keçirilməsi ölkə iqtisadiyyatının imicində 2026-cı ilin sonuna qədər böyük dəyişikliklərə səbəb olacaq, iqtisadi artım tamamilə yeni keyfiyyət amilləri əsasında formalaşacaq, artım tempi xüsusilə prioritet sahələrdə sürətlənəcək, iqtisadiyyatın və məşğulluğun sabitliyi isə daha da möhkəmlənəcək. Özəl sektorun, o cümlədən mikro, kiçik və orta biznesin inkişafı yeni və daha effektiv stimullar və inkişaf mühiti hesabına sürətlənəcək, ölkə iqtisadiyyatında özəl və xarici investorların fəallığı artacaq, xammalın ixracı isə genişlənməyəcəkdir [3, s.8].

Əhalinin davamlı məskunlaşması ərazilərdə planlaşdırılan zəruri şəraitin yaradılması ilə dəstəklənəcək. Təhlükəsizlik və infrastruktur sistemindən azad edilmiş rayonların tam əhatəsinə nail olunacaqdır. Qabaqcıl şəhərsalmaya aid normaları nəzərə alaraq, regionda yaşayış və qeyri-yaşayış kompleksləri tikiləcək, müasir infrastrukturu olan "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyaları reallaşdırılacaqdır. Buna əsaslanaraq bütün region sosial-iqtisadi və mədəni infrastrukturla ən qabaqcıl standartlara uyğun şəkildə təchiz ediləcəkdir. Dövlət xidmətləri şəbəkəsi, xüsusilə də tullantıların idarə edilməsi üçün effektiv sistem yaradılacaq. Sosial xidmət infrastrukturu bərpa olunacaq. Nəticə olaraq ilkin strateji mərhələ kimi əhalini təhlükəsiz, ləyaqətli və dayanıqlı şəkildə yerləşdirməyə nail olunacaqdır [4].

Məlum olduğu kimi, Azərbaycan dövlətinin son illər qarşıya qoyduğu məqsədlərdən biri də innovativ inkişafdır və bu məqsədə çatmaq üçün bəzi addımlar atılmışdır. Ümumiyyətlə, bir çox ölkələr və təşkilatlar yeniliklərlə bağlı strategiyaların inkişaf etdirilməsindən narahatdırlar. Bunun əsas səbəbləri qlobal rəqabətlə mübarizə aparmaq, iqtisadi cəhətdən inkişaf etmək və sosial rifahın artırılması qabiliyyəti kimi makro məqsədlərə nail olmaqdır. Ölkədə innovasiya layihələrinə daha çox üstünlük verilirsə, bu ölkədə insanların yaşayış şəraiti bir o qədər yüksəkdir. Qlobal İnnovasiya İndeksi hər il ölkələrin innovasiya imkanları əsasında hazırlanır. Qlobal İnnovasiya

İndeksi yalnız ölkələrin innovasiya imkanlarının üzə çıxarılması üçün deyil, həm də onların güclü və zəif tərəflərini innovasiya siyasəti və təcrübələri vasitəsilə aydın şəkildə nümayiş etdirmək üçün nəzərdə tutulmuşdur. 2021-ci ildə Azərbaycan Qlobal İnnovasiya İndeksində 132 ölkə arasında 88,4-cü yeri tutub. Burada qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası yüksək və orta gəlirli qruplar sırasındadır.

**Qrafik 1. Qİİ-nin Azərbaycan üzrə yekun reytinqləri (2019-2021)**




*Mənbə: Global Innovation Index 2021 Tracking Innovation through the COVID-19 Crisis, WIPO, 2021, s.226*

Qlobal İnnovasiya indeksi hesabatında Azərbaycan 2021-ci ildə 80-ci yeri tutub və son üç ildə 4-cü yerdə qərarlaşıb. Belə tərəqqinin əsas səbəbi ölkənin innovasiyalara çıxış sub-indeksi, yəni innovasiyalar üçün resursların bloklanması ilə təsnifləşdirilməsidir. Yaradıcı nailiyyətlər, biliklər və texnoloji nailiyyətlər də innovativ indeksə aid olan bloklardır.

Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Fərmanı Azərbaycanın sosial-iqtisadi inkişafının 5 əsas milli prioritetini 2030-cu ilə qədər əhatə edir [2]. Bu, stabil artan rəqabətqabiliyyətli iqtisadiyyatdır - dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, insan kapitalının və müasir innovasiyaların rəqabət məkanı, işğal olunmuş ərazilərdən böyük gəlir, təmiz ətraf mühit və ölkənin yaşıl artım prioritetləri. Bu məqsədlərə nail olmaq üçün innovativ layihələr həyata keçirilməlidir. Xüsusilə işğaldan azad olunmuş ərazilərin bərpası prosesində innovativ yanaşmalara üstünlük verilməlidir. Əsasən əhalinin artımı və urbanizasiya prosesi, təbii enerji ehtiyatlarının azalması, çirkləndirici resurslardan həddindən artıq istifadə, qlobal iqlim dəyişikliyi, xidmət və məhsullara artan tələbat, iqtisadi, sosial və ekoloji cəhətdən dayanıqlı şəhər və kəndlərin yaradılması üçün innovativ yanaşmaların istifadəsinə tələbat yaradır [5, s.203].

**Cədvəl 1. İşğaldan azad edilmiş ərazilərdə innovasiya fəaliyyətləri**

| Sosial | Ətraf mühit və infrastruktur |
|---|---|
| Elektron səhiyyə;<br>Turizmdə yeniliklər;<br>Təhsildə yeniliklər;<br>Mədəniyyət və idman sahələrində yeniliklər;<br>Fövqəladə hallar və təhlükəsizlik sahələrində yeniliklər;<br>Vətəndaşların iştirakı ilə idarəçilik;<br>Xidmət və məhsullara çıxışın əlçatan olması;<br>Məlumatların əldə edilməsində əlçatanlıq | Şəhərsalmada yenilik olan "Ağıllı şəhər"/"Ağıllı kənd" layihələrinin tətbiqi;<br>İctimai infrastrukturların idarə edilməsində innovativ yollardan istifadə etmək;<br>"Ağıllı binalar" və "Ağıllı evlər";<br>Bina və evlərin idarəetməsinin avtomatlaşdırılması;<br>Karbon emissiyasının azaldılması üçün həllər;<br>Parkların və ictimai sahələrin idarə edilməsində yeniliklər;<br>Tullantıların toplanması və təmizlənməsində "Ağıllı həllər";<br>Əhalinin həyat keyfiyyətinin yüksəldilməsi. |
| **Enerji** | **Nəqliyyat və logistika** |
| "Yaşıl Enerji" innovativ layihəsi;<br>İctimai işıqlandırmada səmərəlilik;<br>Bərpa olunan enerji mənbələrindən və qurğularından istifadə. | Elektrikli avtomobillərdən istifadə;<br>Velosiped və elektrikli skuterlərdən istifadənin geniş yayılması;<br>"Ağıllı nəqliyyat sistemləri" |
| **İdarəetmə və iqtisadiyyat** | |
| Elektron Hökumət;<br>Yeni biznes modelləri;<br>Məşğulluq;<br>Elektron ticarət;<br>NFP ödəniş platformaları;<br>"Big Daha" və "Bulud Texnologiyaları"ndan istifadə | |

*Mənbə: Aslanova A.F., Hüseynli S.A., s.205*

## Nəticə

Son illər ərzində Azərbaycanda innovativ iqtisadi proseslər istiqamətində ciddi addımlar atılmışdır. Buna görə də yaxın zamanlarda Azərbaycanda dövlət innovasiya siyasətinin və innovasiya proseslərinin formalaşdırılmasına strateji yanaşmaları əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq lazımdır. Dünya iqtisadiyyatının, xüsusilə COVID-19 pandemiyası dövründə ciddi böhran yaşanmasına baxmayaraq, Azərbaycanın azad edilmiş ərazilərində iri infrastruktur layihələrinin həyata keçirilməsi onun güclü iqtisadi potensialından xəbər verir. Bununla da işğaldan azad edilmiş əraziləri texnologiya və innovasiya mərkəzinə çevirmək üçün bu sahələrdə innovativ layihələr həyata keçirilir. Bütövlükdə Qarabağda innovasiya fəaliyyətinin genişləndirilməsi müxtəlif sahələrin dirçəldilməsinə kömək edəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Abbaszadə M. Azərbaycanda müasir innovasiya siyasətinin ölkənin iqtisadi inkişafında rolu. Elm və İnnovativ Texnologiyalar Jurnalı, Nömrə 14, 2020. 32-45.*

*2. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 02.02. 2021-ci il tarixli Sərəncamı.*

*3. Azərbaycan Respublikasının 2022—2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası, 22 iyul 2022.*

*4. Aslanova A.F., Hüseynli S.A. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən innovasiya layihələrinin sosial-iqtisadi cəhətdən təhlili və qiymətləndirilməsi. Tikintinin iqtisadiyyatı və menecment, № 2, 2022, s.200-207.*

*5. Bağırov O. Azad edilmiş ərazilərdə bərpa prosesinin əsas istiqamətləri, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, 2020.*

*6. Mahmudova L.F. Azərbaycanda strateji innovasiya fəaliyyətinin investisiya maliyyə təminatının aktual məsələləri, Audit № 4, Cild 26, 2019, səh.24-36.*

*7. Sadıqlı Ş. Ölkədə investisiya mühitinin yaxşılaşdırılması, innovasiyaların tətbiqi və bu sahədə atılmış addımlar. "Statistika xəbərləri", № 3, 2017, s.39-47.*

*8. Global Innovation Index 2021 Tracking Innovation through the COVID-19 Crisis, WIPO, 2021, s.226*

*9. http://az.strategiya.az/news.php?id=148153.*


## XÜLASƏ


Azərbaycan dünya miqyasında sabit iqtisadiyyata malik olan dövlət və böyük maliyyə resursları ilə qlobal enerji təhlükəsizliyinin təmin edilməsində əsas geoiqtisadi və geosiyasi mövqe tutaraq strateji rol oynayır. Ölkəmiz həm regional, həm də beynəlxalq əməkdaşlıqlara mühüm töhfə verir, ölkəmizdə təşəbbüs və iştirakdan ötrü qlobal layihələrə uğurla imzalar atılır. Azərbaycanın sosial-iqtisadi inkişafının beş milli prioritetindən biri azad edilmiş ərazilərə Böyük Qayıdışdır. Ona görə də qələbə ilə başa çatmış 44 günlük İkinci Qarabağ müharibəsindən sonra dərhal həmin ərazilərdə bərpa və quruculuq işlərinə başlanıldı. Məqalənin məqsədi azad edilmiş ərazilərdə həyata keçirilən innovativ layihələri təhlil etmək və potensial təsir imkanlarını qiymətləndirməkdir. Məqalədə ölkəmizin iqtisadi sistemində innovasiya fəaliyyətinin formalaşdırılmasının konseptual əsasları, habelə innovasiya münasibətlərinin mahiyyəti və xüsusiyyətləri, azad edilmiş ərazilərdə həyata keçirilən innovasiya layihələrinin sosial-iqtisadi təhlili və qiymətləndirilməsi nəzərdən keçirilir.


**Açar sözlər:** *innovasiya, innovasiya layihələri,*

*“Ağıllı şəhər”, “Ağıllı kənd”, “Ağıllı kənd təsərrüfatı”, texnoparklar, yaşıl enerji*

## THE PROBLEM OF INNOVATION IN THE LIBERATED TERRITORIES AND THE ANALYSIS OF IMPLEMENTED INNOVATION PROJECTS

### SUMMARY

Azerbaijan plays a strategic role by taking an important geopolitical and geo-economic position in ensuring global energy security with a stable state and large financial resources on a global scale. Azerbaijan makes a significant contribution to international and regional cooperation, and global projects are successfully implemented with the initiative and participation of our country. One of the five national priorities of socio-economic development of Azerbaijan is a great return to the liberated territories. Therefore, after the 44-day second Karabakh War, which ended with victory, restoration and creative work began immediately in those areas. The purpose of the article is to analyze innovative projects implemented in the liberated territories and assess potential impact opportunities. The article considers the conceptual foundations of the formation of innovation activity in the economic system of our country, as well as the essence and features of innovation relations, socio-economic analysis and evaluation of innovation projects implemented in the liberated territories.

***Keywords:*** *innovation, innovation projects, Smart City, Smart Village, Smart agriculture, technoparks, green energy*

## ПРОБЛЕМА ИННОВАЦИЙ НА ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ ТЕРРИТОРИЯХ И АНАЛИЗ РЕАЛИЗУЕМЫХ ИННОВАЦИОННЫХ ПРОЕКТОВ

### РЕЗЮМЕ

Обладая стабильной экономикой в мировом масштабе, Азербайджан играет важную геополитическую и геоэкономическую роль в обеспечении глобальной энергетической безопасности с большими финансовыми ресурсами. Азербайджан вносит важный вклад в международное и региональное сотрудничество, по инициативе и при участии нашей страны успешно реализуются глобальные проекты. Одним из пяти национальных приоритетов социально-экономического развития Азербайджана является Большое возвращение на освобожденные территории. Поэтому после 44-дневной второй Карабахской войны, завершившейся победой, сразу же начались восстановительные работы на этих территориях. Цель статьи-проанализировать инновационные проекты, реализуемые на освобожденных территориях, и оценить возможности потенциального воздействия. В статье рассматриваются концептуальные основы формирования инновационной деятельности в экономической системе нашей страны, а также сущность и особенности инновационных отношений, социально-экономический анализ и оценка инновационных проектов, реализуемых на освобожденных территориях.

**Ключевые слова:** *инновации, инновационные проекты, “Умный город”, “Умная деревня”, “Умное сельское хозяйство”, технопарки, зеленая энергия.*

UOT 33:005

# PANDEMİYA ŞƏRAİTİNDƏ RƏQƏMSAL İQTİSADİYYATIN ROLU

**GÜLÇÖHRƏ SALEHZADƏ**
*Azərbaycan Dövlət İqtisad Universitetinin Dizayn məktəbi, baş müəllim*
*E-mail: salehzade.gulya@gmail.com*

Son illər Azərbaycanda internetdən istifadənin artması elektron ticarətin inkişafı üçün mühüm infrastruktur yaradır. Bu, onunla bağlıdır ki, internet innovasiyalara, bir çox biznes modellərində yeni idarəetmə üsullarının tətbiqinə yönəlmiş dəyişikliklərə məruz qalır. Onların vasitəsilə internet istifadəçiləri e-ticarətin mühüm hissəsinə çevrilirlər.

Sənədli telekommunikasiya 2010-cu illə müqayisədə 2018-ci ildə təxminən 6 dəfə, mobil telefon rabitəsi 3 dəfə, internet xidmətləri 17 dəfə, radio və televiziya yayımı 8 dəfə artıb. Son zamanlar informasiya texnologiyaları təkcə iqtisadi deyil, həm də sosial məkana öz təsirini göstərməkdədir. Son iki ayda pandemiyaya bənzəyən bir vəziyyətdə bütün insanlar internetə təkcə iqtisadi məsələlər üçün deyil, həm də sosial ünsiyyət üçün müraciət ediblər. Bu, bir daha göstərir ki, pandemiya dövründə informasiya texnologiyalarından istifadə artıb, ona görə də internet bir çox infrastrukturların - bank, səhiyyə, təhsil və s. fəaliyyətinə təsir göstərib.

2010-2018-ci illərdə Azərbaycan müəssisələrində internetə qoşulmaların və saytların payı 2,5 dəfə artıb. Həmin dövrdə internet vasitəsilə məhsul və xidmətlər üzrə sifarişlərin payı 2 dəfə, məhsul və xidmətlər üzrə sifarişlər isə 3 dəfə artıb. Bu, bir daha sübut edir ki, onlayn ticarət əməliyyatlarının həcmi artır Pərakəndə satıcılar həmçinin evdə alıcılar üçün alış-veriş təcrübəsinin necə yaradılmasına diqqət yetirirlər ki, bu da tam inteqrasiya olunmuş çoxkanallı strategiya tələb edir. Tədqiq olunan seçimlərə əlavə edilmiş reallıqdan (AR) istifadə edən uyğun alətlər daxildir.

2010-2018-ci illərdə İKT sektoruna investisiyaların 10% azalmasına baxmayaraq, Azərbaycanda İKT istehsalı 1,5 dəfə, idxal isə 4,9 dəfə artıb. ƏDV 56% artıb, investisiyaların həcmi 10% azalıb.

Göründüyü kimi, 2018-ci ildə İKT məhsullarının idxalının 2010-cu illə müqayisədə 390,4 faiz artması müqabilində İKT sektorunda əlavə dəyərin həcmi 55,3 faiz artaraq 1112 milyon manat təşkil edib. Həmçinin, İKT sektorunda çalışan işçilərin sayı 2010-cu illə müqayisədə 3,8 faiz artaraq 19 min nəfər təşkil edib. Beləliklə, ölkədə İKT məhsullarının idxalının artması elektron ticarətin inkişafını daha da sürətləndirir, həm İKT sektorunda əlavə dəyərin həcmini, həm də bu sektorda məşğulluğun səviyyəsini artırır.

Son illər Azərbaycanda internetdən istifadənin artması elektron ticarətin inkişafı üçün mühüm infrastruktur yaradır. Bu, onunla bağlıdır ki, internet innovasiyalara, bir çox biznes modellərində yeni idarəetmə üsullarının tətbiqinə yönəlmiş dəyişikliklərə məruz qalır. Onların vasitəsilə internet istifadəçiləri e-ticarətin mühüm hissəsinə çevrilirlər.

İnternet istifadəçilərinin etibarlılıq dəyəri, təhlükəsizlik xidmətləri, onlayn ödəniş sistemləri və çatdırılma kimi bir sıra meyarlar nəzərə alınmaqla bu yaxınlarda yaradılmış UNCTAD B2C Elektron Ticarət İndeksində Azərbaycanın 2019-cu il Elektron Ticarət İndeksi 61,8 olub. 2020-ci ildə UNCTAD B2C-nin məlumatına görə, Azərbaycan onlayn ticarətdə etibarlılıq dəyərinə malik ölkələr arasında 62-ci yeri tutub.

Təkcə 2020-ci ilin 11 ayı ərzində pərakəndə ticarət dövriyyəsi 35046,3 milyon manat, elektron ticarət dövriyyəsi isə 84111,1 milyon manat olmuşdur. 2020-ci ilin 11 ayı ərzində elektron ticarət dövriyyəsi pərakəndə ticarət dövriyyəsi ilə müqayisədə 2,4 dəfə artıb. Pandemiya şəraitində daha çox müştərilər onlayn ticarət imkanlarına alışıblar: yemək, geyim və ayaqqabı, elektrik malları, kompüter və mobil telefonlar, dərmanlar sifariş etmək (2).

Azərbaycanda elektron ticarətin inkişafına təsir edən amillər:

1) infrastrukturun olmaması,

2) poçt sisteminin zəifliyi,

3) elektron məkanda müştəri tələbatının ödənilməməsidir.

Elektron ticarətin inkişafı üçün bəzi xüsusiyyətləri nəzərə almaq lazımdır. Son illər Azərbaycanda internetdən istifadənin artması elektron ticarətin inkişafı üçün infrastruktur yaratmağa başlayıb. Elektron ticarət bir çox sahələrə (təhsil, reklam, məlumat mübadiləsi və s.) təsir edən və dəstəkləyən bütün fəaliyyətləri əhatə edir. Güclü informasiya infrast-

rukturunun, elektron ticarət əməliyyatlarının və müştərinin maliyyə məlumatlarının təhlükəsizlik sistemini, hüquqi tənzimləmə mexanizmlərini, yeni idarəetmə üsullarını, "müştəri tələbi – onlayn ticarət – malların reklamı – ödəniş üsulları" kimi müxtəlif biznes modellərini yaratmaq tələb olunur.

Onlayn satışla məşğul olan firmalar onlayn alış-veriş edən istehlakçıların davranışlarını nəzərə almalıdırlar. İstehlakçılar vaxta qənaət edərək onlayn alış-verişə daha çox meyil edirlər. Elektron ticarət sektoru baxımından Azərbaycanda istehlakçıların onlayn alış-veriş davranışının öyrənilməsi böyük əhəmiyyət kəsb edir (2).

2021-ci ildə dünyanın bir çox şirkətləri onlayn ticarətdə kiber hücumlara məruz qalmışlar. Ən çox hücuma məruz qalan sahə səhiyyə olmuşdur.

1 fevral 2022-ci ildə Cisco Talos 2021-ci ildə kibertəhlükəsizlik bazarında baş verən əsas hadisələr haqqında danışıb.

2021-ci il Cisco Talos Incident Response (CTIR) kibertəhlükə komandası üçün gərgin il olub. Özü ilə bir sıra spesifik informasiya təhlükəsizliyi problemlərini gətirən pandemiya fonunda o, bütün dünyada təşkilatlara təsir edən böyük təhlükəsizlik insidentləri ilə məşğul olarkən, artan fidyə proqramı hücumçuları ilə mübarizə aparmalı olub. Adi rüblük hesabat vermək əvəzinə, Cisco Talos bütün 2021-ci il üçün informasiya təhlükəsizliyi sahəsində tendensiyalar haqqında hesabat verir.

- Keçən ilin ən çox kiber hücumuna məruz qalan sahə səhiyyə olub.
- Ötən ilin əsas təhlükəsi ransomware (şifrələyicilər) olub.
- Çox vaxt hücumlar internetə çıxışı olan tətbiqlərin kompromisi və fişinqlə başladı.
- CTIR dörd əsas informasiya təhlükəsizliyi insidentləri ilə məşğul olub:
- SolarWinds təchizat zəncirinə hücum;
- Microsoft Exchange Server zəifliklərinin kütləvi şəkildə istismarı;
- REvil haker qrupunun İT həllər provayderi Kaseya-ya hücumu;
- Log4J zəifliyinin aşkarlanması.

E-ticarətin inkişafının təkmilləşdirilməsində əsas faktorlardan biri internetdir. İnternet şəbəkəsi, əhalinin internetə çıxışı və internetdən istifadə tezliyi üzrə göstəricilər aşağıda verilmişdir:

**Cədvəl 1: Respublikada internetdən istifadə tezliyi (2021)**

| İqtisadi rayonlar | Cəmi | o cümlədən: | | | |
|---|---|---|---|---|---|
| | | orta hesabla hər gün | həftədə ən azı bir dəfə | ayda ən azı bir dəfə | son 3 ayda bir dəfə |
| **Ölkə üzrə** | 100,0 | 82.0 | 15,3 | 1,7 | 1.0 |
| şəhər | 100,0 | 85.0 | 13,7 | 1,2 | 0,1 |
| kənd | 100,0 | 78,3 | 17,4 | 2,2 | 2,1 |
| **Bakı şəhəri** | 100,0 | 92,5 | 6.0 | 0,5 | 1.0 |
| **Abşeron** | 100,0 | 84,4 | 13,4 | 1,6 | 0,6 |
| **Gəncə-Qazax** | 100,0 | 78,4 | 17,4 | 2,8 | 1,4 |
| **Şəki-Zaqatala** | 100,0 | 75,4 | 17,9 | 5.0 | 1,7 |
| **Lənkəran** | 100,0 | 76.0 | 20,3 | 1,9 | 1,8 |
| **Quba-Xaçmaz** | 100,0 | 83,4 | 14,1 | 1,3 | 1,2 |
| **Aran** | 100,0 | 69.0 | 27,9 | 2,5 | 0,6 |
| **Yuxarı-Qarabağ** | 100,0 | 70,4 | 16,4 | 10,4 | 2,8 |
| **Dağlıq Şirvan** | 100,0 | 64,5 | 30,6 | 1,6 | 3,3 |
| **Naxçıvan Muxtar Respublikası** | 100,0 | 87,2 | 12,2 | 0,4 | 0,2 |

*Mənbə: https://www.stat.gov.az/ , 01.01.2022*

Dövlət ölkənin elektron ticarətə hazırlığına üstünlük verməlidir ki, daha çox yerli biznes sürətlə dəyişən iqtisadi mühitdə effektiv şəkildə iştirak edə bilsin. Əlverişli elektron ticarət ekosisteminin yaradılması rəqəmsal və ticarət infrastrukturunu təkmilləşdirmək, rəqəmsal ödəniş prosedurlarını sadələşdirmək və müvafiq hüquqi və tənzimləyici baza yaratmaq üçün hökumət siyasətlərində və biznes təcrübələrində dəyişikliklər tələb edir.

İnkişaf etməkdə olan ölkələrin biznesləri elektron iqtisadiyyatda iştiraka daha yaxşı hazır olmalıdırlar. Bu, kiçik biznesin daha sürətli rəqəmsallaşdırılmasını, rəqəmsal sahibkarlığa (yenidən hazırlıq daxil olmaqla) daha çox diqqət yetirilməsini, məlumatların toplanması və istifadəsi üçün daha yaxşı imkanların və rəqəmsal iqtisadiyyatda dəyərin yaradılması və saxlanması üçün daha güclü tənzimləyici çərçivənin yaradılmasını tələb edir.

Beynəlxalq ictimaiyyət, o cümlədən inkişaf tərəfdaşları, Birləşmiş Millətlər Təşkilatının agentlikləri və komissiyaları, regional iqtisadi icmalar və rəqəmsal inkişaf təşkilatları bütün imkanlardan istifadə etmək və riskləri minimuma endirmək üçün bir-biri ilə, eləcə də dövlətlər və özəl sektorla əməkdaşlığını artırmalıdırlar.

2020-ci il həm ümumilikdə Azərbaycan onlayn pərakəndə satışı, xüsusən də onlayn ticarət üçün

əlamətdar il oldu: COVID-19 pandemiyası e-ticarətin sürətli inkişafı və pərakəndə satışın əhəmiyyətli hissəsinin onlayn pərakəndə ticarətə keçidi üçün bir növ katalizator oldu. İstehlakçıların ənənəvi fiziki satış nöqtələrində alış-veriş etməkdən çəkindiyi yeni rəqəmsal reallığa uyğunlaşmaq və satış həcmi, aktiv alıcıların sayı və keyfiyyət baxımından rəqabət üstünlüyünü qorumaq üçün şirkətlər öz biznes proseslərini tez bir zamanda yenidən dizayn etməli olublar.

Pandemiyanın qlobal xarakteri və onun dünya ticarətinə təsiri (elektron ticarətin payının artması da daxil olmaqla) beynəlxalq əməkdaşlığı gücləndirməyə və onlayn alış və çatdırılma üçün vahid qaydaların daha da inkişaf etdirilməsinə kömək edə bilər. Mövcud böhranın reallıqları göstərdi ki, e-ticarət istehlakçılar üçün effektiv alət ola, həm daxili iqtisadi artım, həm də bütün beynəlxalq ticarət dövriyyəsi üçün iqtisadi mühərrikə çevrilə bilər.

Dövlət və özəl sektor e-ticarətin rəvan və fasiləsiz fəaliyyətini təmin etmək üçün mühüm addımlar atıb: müxtəlif ölkələrin müvafiq orqanları şəbəkə ötürmə qabiliyyətini artırmaq, ən aşağı qiymətə təkmilləşdirilmiş məlumat xidmətləri təqdim etmək, onlayn ödənişlər və onlayn ödənişlər üçün əməliyyat xərclərini azaltmaq üçün çalışıblar.

**Nəticə**

Pandemiya, ümumilikdə rəqəmsal texnologiyaların əhəmiyyətini vurğuladı və ekspert icmasına qlobal iqtisadiyyatın strukturunda bir sıra zəiflikləri göstərdi. Bu kontekstdə malların və xidmətlərin transsərhəd daşınmasının asanlaşdırılması, rəqəmsal uçurumun aradan qaldırılması və mikro, kiçik və orta sahibkarlıq üçün rəqabət şəraitinin bərabərləşdirilməsi üzrə ÜTT müzakirələrinin davam etdirilməsi vacibdir. Böhrana cavab verən vasitələrdən biri 2017-ci ildə qəbul edilmiş Ticarətin Asanlaşdırılması üzrə ÜTT Sazişinin həyata keçirilməsi ola bilər.

Azərbaycanda da e-ticarət pandemiya dövründə əhali arasında ən çox yayılan alqı-satqı vasitəsi oldu. Əvvəllər e-ticarətə etimad etməyən əhali təbəqəsi arasında bu ticarət növünə qarşı inam formalaşdı. Kartlar vasitəsilə nağdsız ödənişlərin sayı həm dünyada, həm də Azərbaycanda əhəmiyyətli dərəcədə artdı.

Bütün bu amillərin birləşməsi e-ticarət bazarına açıq bir təkan verdi, ehtimal ki, gələcək illərdə də bu bazar sürətlə inkişaf etməyə davam edəcək.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. "E-Commerce and E-Business," in Information and Communication Technology in Organizations: Adoption, Implementation, Use and Effects, 2012.*

*2. Barrot J., Grassi B. və Sauvagnat J. (2020). "Sectorel effects of social distancing", №11 (3), p.11-12*

*3. Berger E.J. E-commerce and supply chains: breaking old boundaries / Supply chain management. Ed. J.L. The Gutthorns. - M .: Infra-M, 2008.*

*4. Fischer M., Coogan A.N., Faltraco F., Thome J. (2020). "COVID-19 paranoia in a patient suffering from schizophrenic psychosis – a case report". Psychiatry Research, p. 288*

*5. Gao J., Zheng P., Jia Y., Chen H., Mao Y., Chen S., Wang Y. (2020). "Mental health problems and social media exposure during COVID-19 outbreak". PLoS ONE 15(4): e0231924, p.89*

*6. IMF (2021), Fiscal Monitoring Database of Country Fiscal Measures in Response to the COVID-19 Pandemic, International Monetary Fund, Washington, D.C., https://www.imf.org/en/Topics/imf-and-covid19/Fiscal-Policies-Database-in-Response-to-COVID-19*

*7. IMF. (2020). World economic outlook. Washington D.C: International Monetary Fund. 2020 April*

*8. World Health Organization (2021). Rational use of personal protective equipment for coronavirus disease (COVID-19) and considerations during severe shortages.*

**Pandemiya şəraitində rəqəmsal iqtisadiyyatın rolu**

**XÜLASƏ**

Pandemiya elektron iqtisadiyyata keçidi sürətləndirdiyinə görə elmi işdə e-ticarətdən daha geniş fayda əldə etmək üçün üç əsas maraqlı tərəfin daha çox səy göstərməsinin zəruriliyi qeyd olunur. Bununla belə, COVID-19 üçün effektiv peyvəndin və ya müalicənin olacağı ümidi ilə karantinlər və digər həddindən artıq məhdudiyyətlər uzunmüddətli perspektivdə davam etdirilə bilməz. İndi bütün dünyada hökumətlər müxtəlif sağlamlıq, sosial və iqtisadi narahatlıqları balanslaşdırarkən, qapanmaları və məhdudiyyətləri yüngülləşdirmək kimi ümumi problemlə üzləşirlər.

**Açar sözlər:** *Pandemiya, elektron, iqtisadiyyat.*

## The role of the digital economy in a pandemic

**SUMMARY**

As the pandemic accelerates the transition to an e-economy, the paper highlights the need for greater efforts by three key stakeholders to reap broader benefits from e-commerce. However, quarantines and other extreme restrictions cannot be sustained in the long term in the hope that there will be an effective vaccine or treatment for COVID-19. Governments around the world now face the common challenge of easing lockdowns and restrictions while balancing various health, social and economic concerns.

**Keywords:** *Pandemic, electronic, economy.*

## Роль цифровой экономики в условиях пандемии

**РЕЗЮМЕ**

Поскольку пандемия ускоряет переход к электронной экономике, в документе подчеркивается необходимость активизации усилий трех основных заинтересованных сторон для получения более широких выгод от электронной коммерции. Однако карантины и другие экстремальные ограничения не могут сохраняться в долгосрочной перспективе в надежде, что появится эффективная вакцина или лечение от COVID-19. Правительства во всем мире в настоящее время сталкиваются с общей проблемой ослабления блокировок и ограничений, одновременно уравновешивая различные медицинские, социальные и экономические проблемы.

**Ключевые слова:** *пандемия, электроника, экономика.*

UOT 334.724.6; 658.115

# BÜDCƏ İDARƏ, MÜƏSSİSƏ VƏ TƏŞKİLATLARINDA XƏRCLƏRİN TƏŞKİLİ

**ORXAN TALIBZADƏ**
*Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı*

*E-mail: talıbzadeorkhan@gmail.com*

Dövlət büdcəsi dövlət maliyyəsinin mühüm tərkib hissəsidir. Büdcə ingilis sözu olub, XVIII əsrdən maliyyə kateqoriyası kimi iqtisadi leksikona daxil olmuşdur.

Büdcə əsasən maliyyə göstəricilərinin birliyi - məcmusu deməkdir (vergilər dövlət krediti, dövlət xərcləri). Büdcə vasitəsilə vəsaitlərin cəlb olunması və xərclənməsi, bölgüsü həyata keçirilir.

Büdcə dövlətin əsas gəlir və xərclərinı özündə cəmləşdirir. O, dövlətin hüquqi qüvvəyə malik olan əsas maliyyə planını təcəssüm etdirir [4,101].

Milli iqtisadiyyatın inkişaf etdirilməsində, istehsahn stimullaşdırılmasında və həmçinin cəmiyyətin sosial inkişafında dövlət büdcəsinin çox böyük rolu vardır. Dövlət büdcəsinin rolu həm kəmiyyət, həm də keyfiyyət baxımından qeyd olunur. Kəmiyyət təsiri dedikdə, hansı istiqamətə nə qədər vəsait yönəldilməsi başa düşülür. Keyfıyyət təsiri isə iki cür təhlil edilir. Bir tərəfdən, vergilərin düzgün qurulması və vəsaitlərin səmərəli xərclənməsi, digər tərəfdən, büdcə vasitəsilə nəzarət. Hər ikisi iqtisadiyyata keyfiyyətcə təsir edir. Büdcə hər bir ölkədə iqtisadiyyatın ən mühüm tənzimləyicisi kimi çıxış etdiyindən, makroiqtisadi tənzimləmənin ən mühüm elementlərindən biri dövlət büdcəsidir.

Dövlətdə müəssisə, təşkilat idarə və əhali arasında yaranan maliyyə münasibətləri - büdcə münasibətləri adlanır. Büdcə münasibətləri mühüm xüsusiyyətlərə malikdir. Əvvəla onlar bölgü prosesi zamanı yaranır. Burada dövlət aparıcı iştirakçı olur. İkincisi, bu müsibətlər ümumdövlət tələbatının ödənilməsi üçün mərkəzləşdirilmiş pul vəsaiti fondlarının yaranması və istifadəsi ilə əlaqədardır [5,98].

Ölkənin büdcə fondunun yaradılması və istifadəsini özündə cəmləşdirən büdcə münasibətlərinin məcmusu dövlət büdcəsi anlayışını ifadə edir.

Dövlət büdcəsi aşağıdakı vəzifələri yerinə yetirir:

1. İctimai məhsulun və milli gəlirin yenidən bölgüsü;
2. İqtisadiyyatın dövlət tənzimlənməsi və stabilləşdirilməsi;
3. Sosial siyasətin maliyyə təminatı;
4. Mərkəzləşdirilmiş pul vəsait fondunun yaradılması və istifadəsinə nəzarət [5,178]

Dövlət büdcəsi öz vəzifələrini bölgü və nəzarət funksiyası vasitəsilə həyata keçirir.

Bölgü funksiyası vasitəsilə pul vəsaitlərinin dövlətin əlində cəmləşdirilməsi və ümum dövlət mənafeyinə istifadəsi həyata keçirilir. Bu funksiyanın məzmunu ictimai istehsalın müxtəlif sahələri arasında maliyyə ehtiyatlarının yenidən bölgüsü ilə müəyyən olunur. Maliyyənin digər həlqələrindən heç biri vəsaitlərin yenidən bölgüsünü büdcə kimi çoxçeşidli (sahələrarası, ərazilərarası və s.) və çox səviyyəli (respublika, şəhər və s.) həyata keçirmir. Büdcə daxilolmaları və xərc təyinatlı göstəricilərdə müvafiq olaraq öz əksini tapan büdcə vəsaitlərinin hərəkəti bölgü funksiyasının əsasını təşkil edir.

Nəzarət funksiyası maliyyə vəsaitlərinin dövlətin xəzinəsinə vaxtında və tam şəkildə daxil olmasını, büdcə vəsaitlərinin bölgüsünün düzgün aparılmasını və səmərəli istifadəsini öyrənməyə imkan verir [4,103].

İqtisadiyyatın bütün sahələrində pul hərəkətində, alqı-satqı əməliyyatlarında büdcə nəzarəti var, çünki bütün bu əməliyyatlar büdcənin gəlirlərini təşkil edir. Büdcəni idarə edən hökumət və digər orqanlar büdcənin icra olunmasına nəzarət edir. Bu orqanlar büdcənin icrası zamanı hər hansı əyriliyə və ya laqeydliyə yol verməməyə borcludurlar.

Büdcənin nəzarət funksiyası hədd qoymaq və ya məhdudlaşdırma prinsipinə əsaslanır ki, bu da iki baxımdan həyata keçirilir:

a) zaman baxımından məhdudlaşdırma;

b) məbləğ və qiymət baxımından məhdudlaşdırma [2].

Zaman baxımından məhdudlaşdırma. Bu, o deməkdir ki, dövlət büdcəsi müəyyən bir müddətdə məhdudlaşır. Bir qayda olaraq, büdcə müddəti bir il müəyyən edilir. Buna bəzən maliyyə ili də deyilir.

Dövlət büdcəsində əks olunan gəlirlər və xərclər qarşıdan gələn növbəti il üçün nəzərdə tutulur. Yəni həmin il büdcəyə gəlirlər daxil olacaq və həmin il nəzərdə tutulan dövlət xərcləri maliyyələşdiriləcək. Maliyyə ilinin sonunda büdcəni icra edənlər dövlət

xərcləri və gəlirlərinin miqdar və mənbələrinin proqnozlaşdırılan şəkildə icrası barədə hesabat verirlər. Maliyyə ili başlamamışdan əvvəl yeni maliyyə ilinin gəlir və xərcləri proqnozlaşdırılır. Bu proqnozlar əsasında növbəti ilin büdcəsi tərtib və təsdiq edilir.

Dövlət gəlirlərinin növlərini açıqladıqdan sonra ortaya yeni bir məsələ çıxır ki, bu da büdcəyə nəzərdə tutulan xərclərin maliyyələşdirmə mənbələrini müəyyən etməkdir. Bu mənbələr, ilk növbədə, büdcənin gəlir hissəsində əks olunur. Beləliklə, dövlət büdcəsində qarşıdan gələn bir il müddətində hansı xidmət proqramlarının reallaşacağı, bu proqramların maliyyə təminatının nədən ibarət olacağı və hansı orqanlar tərəfindən maliyyələşdiriləcəyi əvvəlcədən müəyyən edilir və məhdudlaşdırılır. Bütün bunlar tərtib olunarkən büdcə layihəsində öz əksini tapır və təsdiq olunaraq icraya verilir.

Müəyyən olunmuş məbləğdən artıq vəsait xərclənməsi va ya müəyyən olunmuş məbləğin, yaxud təxsisatın miqdarının dəyişdirilməsi yolverilməzdir. Büdcə qanunu qəbul olunmadan və səlahiyyət verilmədən heç bir dövlət xərci həyata keçirmək və gəlir toplamaq (vergi qanunlan qəbul olunmuş olsa belə) mümkün olmadığı kimi, büdcə qəbul olunarkən verilmiş səlahiyyətlərdə və təxsisatlarda dəyişiklik edilməsi də yalnız qanunverici orqanın səlahiyyətlərinə daxildir [5, 201].

Dövlətin hansı sahələri daha çox inkişaf etdirməsi marağında asılı olaraq sahələr üzrə ayrılan vəsaitlərin məbləği müxtəlif olur. İqtisadiyyatda inkişafa nail olmaq üçün, əsas etibarilə, istehsal sahələrinə daha çox vəsait ayrılması çox vacibdir.

Dövlət büdcəsinin həyata keçirilməsi üçün ən vacib olan şərtlərdən biri bu büdcənin dövlət orqanları tərəfidən mərkəzləşdirilmiş pul fondu kimi təsdiq edilməsidir [7, 182].

Büdcə hüququ - hüquqi normaların məcmusunu özündə əks etdirir. Büdcə hüququ əsasında dövlətin büdcə sistemi fəaliyyət göstərir və qurulur. Büdcənin tərtibi, müzakirəsi və təsdiqi zaman mərkəzi və yerli orqanların səlahiyyətləri müəyyən edilir. Dövlət və yerli hakimiyyət orqanlarının büdcə hüququ onlar arasında iqtisadi və idarəetmə funksiyalarına uyğun olaraq müəyyən edilir.

Büdcə hüququnun inkişaf etdirilməsi üç istiqamət üzrə aparılır. Bunlar: vergi hüququ, xərc hüququ və illik büdcəni təsdiqetmə hüququdur. Büdcə hüququ məsələsində, hər şeydən əvvəl, vergilərin ali məclislər və ya parlamentlər tərəfindən təsdiq edilməsinə baxılır. Vergi hüququ təsdiqləndikdən və nə qədər vergi yığmaq imkanı bilindikdən sonra büdcə xərclərinin maliyyələşdirilməsi, təsdiq edilməsi hüququnun açıqlanması mərhələsi gəlir. Büdcənin gəlir və xərclərinin təsdiq olunması prosesləri tam dinamik hala düşdükdən sonra illik büdcənin təsdiq edilməsi mərhələsi başa çatdırılır. İllik büdcənin təsdiq olunması mərhələsi çox məsuliyyətli bir mərhələdir. Bu zaman büdcənin icrasının təmin edilməsi kimi mühüm məsələ öz kəskinliyi ilə qarşıya çıxır.

Büdcə olmadan dövlət hakimiyyətinin fəaliyyət göstərməsi mümkün deyildir. Büdcənin gəlirləri və xərclər planlaşdırma qaydasında müəyyən edilir.

Büdcə planlaşması, dövlətin maliyyə siyasətinə uyğun olaraq, maliyyə planlaşmasının mühüm tərkib hissəsidir. Bu planlaşmanın iqtisadi mahiyyəti müxtəlif səviyyələrdə büdcə həlqələrinin tərtibi və icrası prosesində ölkənin sosial-iqtisadi inkişaf proqramı əsasında ictimai məhsulun dəyərinin və milli gəlirin maliyyə mexanizmi vasitəsilə bölgüsü və yenidən bölgüsündən ibarətdir.

Büdcənin planlaşdırılması vasitəsilə iqtisadi-sosial inkişaf proqramının göstəricilərinə, əmək və maliyyə ehtiyatlarından səmərəli istifadə edilməsinə fəal təsir göstərir.

Büdcənin planlaşdırılması prinsipləri bunlardır:

-büdcəyə aid olan məsələlərin vahid hüquqi normalarla tənzimlənməsi;

- büdcə vəsaitlərinin məqsədli yönəldilməsi;

- büdcənin gəlirləri və xərclərinin balanslaşdırılması;

- maliyyə göstəricilərinin sosial-inkişaf proqramının göstəriciləri ilə uyğunluğunun təmin edilməsi [6, 282].

Büdcə planlaşdırılması dövlət hakimiyyəti və idarəetmə orqanları tərəfindən həyata keçirilir. Büdcə planlaşdırılmasının əsasları Konstitusiya və dövlət qanunları vasitəsilə müəyyən edilir.

Büdcə planlaşdırılmasının əsas forması kimi büdcə prosesi büdcələrin tərtibi, müzakirəsi təsdiqi və icrası üzrə hakimiyyət orqanlarının qanunla müəyyən edilmiş fəaliyyətlərini əks etdirir.

Büdcə prosesinin məzmunu ölkənin dövlət və büdcə quruluşu ilə, dövlət orqanları və hüquqi şəxslərin büdcə hüquqları il müəyyən edilir. Büdcə prosesi büdcə fəaliyyətinin 4 mərhələsini əhatə edir:

- büdcə layihəsinin hazırlanması;
- büdcənin müzakirəsi və təsdiqi;
- büdcənin icrası;

- büdcənin icrası haqqında hesabatın tərtibi.

Büdcə prosesinin bütün mərhələləri bir-biri ilə əlaqəlidir və cəmiyyətin nəinki iqtisadi, həmçinin siyasi mədəniyyətini bilavasitə əks etdirir.

## NƏTİCƏ

Büdcə münasibətləri obyektiv münasibətlərə malikdir. Bu, onunla şərtlənir ki, hər il milli sərvətin müəyyən bir hissəsi təkrar istehsalın genişləndirilməsi, əhalinin sosial-mədəni tələbatının ödənilməsi, idarəetmə və müdafiə məsələlərinin həlli üçün dövlətin əlində cəmləşdirilməlidir.

**Açar sözlər:** *Büdcə, gəlir, dövlət, makroiqtisadi.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Abbasov Q.Ə., Səbzəliyev S.M., Daşdəmirov Ə.M., Quliyev V.M., Sadıqov Ə.A. «Mühasibat (maliyyə) uçotu» dərslik, Bakı, Azərnəşr, 2013*

*2. Azərbaycan Respublikası Dövlət büdcəsinin təsnifatı, Bakı, 1998-ci il.*

*3. Dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu, 18 May, 1999-cu il, №667-lq*

*4. Məmmədov S., Maliyyə, Bakı, Elm, 2017*

*5. Xankişiyev B.A., "Büdcə uçotu" Bakı, Elm,-2010*

*6. Xankişiyev B.A.. "Büdcə idarələri və müəssisələrdə mühasibat uçotu", Bakı,2005*

*7. Xankişiyev B.A., Maliyyə orqanlarında büdcə uçotu və nəzarəti, Bakı, UNEC, 2006*

**Талибзаде Орхан Афгаз оглы**
***Азербайджанский Государственный Экономический Университет***
***Докторант***
***Эл. почта: talibzadeorkhan@gmail.com***

## Организация расходов в управлении бюджетом предприятий и организаций

## РЕЗЮМЕ

По своей экономической природе государственные финансы представляют собой создание денежных средств государства и государственных предприятий и организаций и продолжение их экстенсивного воспроизводства, удовлетворение социально-культурных потребностей населения, обеспечение защиты страны, распределение части национального внутреннего продукта и национального богатства в целях управления обществом, или состоит из денежных отношений, связанных с распределением. Бюджетные отношения характеризуются большим разнообразием, так как эти отношения являются посредником между разными направлениями процесса распределения (между различными отраслями экономики, сферой общественной деятельности, отраслями народного хозяйства, между территориями страны) и охватывают все звенья хозяйства (республиканские, местные).По направлениям бюджетных отношений речь идет о методах ведения хозяйства и оказания социально-культурных услуг населению, а также о решении государством проблем, возникающих на исторических этапах развития бюджетных отношений.

**Ключевые слова:** *бюджет, доходы, государство, макроэкономика.*

**Talibzade Orkhan Afgaz oglu**
**UNEC doctoral student**
**E-mail: talibzadeorkhan@gmail.com**

## Organization of expenses in budget management, enterprises and organizations

## SUMMARY

According to its economic nature, state finance is the creation of cash funds of the state and state enterprises and organizations and the continuation of their extensive reproduction, meeting the socio-cultural needs of the population, ensuring the protection of the country, distributing a part of the national domestic product and national wealth for the purpose of managing society, or It consists of money relations related to distribution. Budget relations are characterized by great diversity, because these relations are a medium between different directions of the distribution process (between different sectors of the economy, the sphere of public activity, national economy sectors, between the territories of the country) and cover all the links of farming (republic, local). In the directions of budget relations, it is discussed about methods of economic management and provision of socio-cultural services to the population, as well as the state's solution to problems arising in the historical development stages of budget relations.

**Keywords:** *Budget, income, state, macroeconomic.*

UOT: 334.021: 330.1

# BİLİK İQTİSADİYYATININ ƏSAS XÜSUSİYYƏTLƏRİ VƏ İQTİSADİ XARAKTERİSTİKASI

**ŞƏBNƏM KƏRİMOVA**
*Bakı Dövlət Universitetinin doktorantı*
*E-mail: e.shebnem@mail.ru*

Bilik iqtisadiyyatı, sənaye iqtisadiyyatının və innovasiya iqtisadiyyatının yüksək mərhələsidir. Bilik iqtisadiyyatı məhz innovasiya xüsusiyyətilə fərqli bir iqtisadiyyatdır. İqtisadçılar çox vaxt bilik iqtisadiyyatının sinonimi kimi innovasiya iqtisadiyyatı terminini işlədirlər.

Bilik iqtisadiyyatı (knowledge economy) – yaradıcılıq, informasiyanın emalı və interpretasiyasının daxil olduğu bilik fəaliyyətlərinin üstünlük təşkil etdiyi müasir iqtisadiyyatdır. Bilik iqtisadiyyatı məşğulluq və məhsul buraxılışının proporsiyasını böyüdür. Təhsil, peşəkar xidmət, media, kommunikasiya, tədqiqat bu iqtisadiyyatın əsas ünsürləridir. (2)

Cəmiyyətin infomasiyalaşması dövründə informasiyanın formalaşması və istehsalı onun tam istifadəsi üçün vacib hesab olunur. “İnformasiya” anlayışı “informatio” latın sözündən yaranmış və hər hansı faktın, hadisənin, halın anladılması kimi başa düşülür. Geniş mənada informasiya maddi dünya və orada baş verən proseslər haqqında məlumat kimi təyin olunur. İnformasiyanın öyrənilməsi zamanı onun yaranmasının dəyişməsinin və insan fəaliyyətinin müxtəlif sahələrində istifadəsinin qanunauyğunluqları nəzərə almır. İnformasiyanı istehsalat və istifadə məhsulu kimi əşya məzmunu fərqləndirir. O çox müxtəlifdir və insan fəaliyyətinə xidmət edən növlərə bölünür: elmi, texniki, istehsalat, idarəetmə, iqtisadi, sosial, hüquqi və s. Bu informasiya növlərindən hər biri öz emal texnologiyalarına, məna dəyərinə, təqdim olunma və əksolunma formalarına, dəqiqliyə tələbə, faktların, halların, proseslərin əks olunmasının operativliyinə malikdir. Gələcək müzakirənin predmeti idarə etmə və iqtisadi informasiya olacaqdır, onun əsas xüsusiyyətləri aşağıdakılardır:

❖ Həqiqilik və tamlıq
❖ Qiymətlilik və aktuallıq
❖ Aydınlıq (5,101)

İnformasiya o zaman dəqiqdir ki, o işlərin vəziyyətini təhrif etmir. Dəqiq olmayan informasiya düzgün başa düşülməməyə və səhv qərarların çıxarılmasına səbəb ola bilər. İnformasiya o zaman tamdır ki, onu anlamaq və qərar qəbul etmək üçün bəs edir. İnformasiyanın tam olmaması qərarların qəbulunu dayandırır və ya səhvlərə səbəb ola bilər. İnformasiyanın qiymətliliyi onun vasitəsi ilə hansı məsələlərin həll edilməsindən asılıdır. Aktual informasiyanı daim dəyişən şəraitdə iş zamanı əldə etmək lazımdır. Qiymətli və aktual informasiya aydın olmayan sözlərlə ifadə olunmuşsa, o faydasız ola bilər. İnformasiya o zaman aydın olur ki, bu məlumatın nəzərdə tutulduğu insanların dili ilə ifadə olunmuşdur. Böyük mürəkkəb insan-maşın informasiya sistemlərinin birliyi cəmiyyət infrastrukturunun vacib tərkib hissəsidir. İnsan kollektivlərinin intellektual və maddi fəaliyyətinin müxtəlif növləri arasında əlaqələndirici bənd olaraq informasiya digər ehtiyyat növlərindən, əsasən də təbii ehtiyatlardan fərqli olaraq vaxt ötdükcə azalmır, əksinə onun həcmi daim artır, bununla da təcrübənin toplanması üçün şərait yaradır.

İnformasiya texnologiyaları dedikdə (İT) bütün fəaliyyət sahələrində informasiyanın yaradılması, emalı, saxlanılması və ötürülməsi üçün hesablama texnikasının və rabitə sistemləri vasitələrinin cəmini başa düşmək lazımdır. İT-ı informasiyanın istehlakçının ən rahat formada istifadə edə bildiyi və dərhal istifadə üçün rahat formada dəyişməsini təmin edir. Onlar informasiya ehtiyatlarından istifadə proseslərinin həm maddi, həm də qeyri-maddi istehsalda çətinliyini azaldır, informasiyanın ötürülməsinin və qəbul edilməsinin etibarlılığını və operativliyini yüksəldirlər. İT növbəti baza texnologiyalarına bölünürlər:

- mikroelement komponentlərin texnologiyaları;
- texniki təminat texnologiyaları;
- proqram təminatı texnologiyaları;
- kommunikasiyaların texnologiyaları (7,101)

İT-nın əsas komponentləri mikroprossesorlar, lokal və qlobal kompüter şəbəkələri, robot texnikası, xüsusiləşdirilmiş avtomatlaşdırılmış iş yerləri, proqramlaşdırılmış nəzarətçilərdir və s. İT çox tez təkmilləşir və bu labüd şəkildə idarəetmə funksiyalarında və metodlarında öz əksini tapır. Onların inkişafında aşağıdakı tendensiyaları qeyd etmək olar: əmtəə xüsusiyyətlərinin yaxşılaşdırılması və informasiya məhsullarının və xidmətlərinin mürəkkəbləşməsi, komponentlərin uyğunluğunun təmin edilməsi, sahibkar və istifadəçi arasında aralıq hissələrinin ləğvi, simsiz kompüter texnologiyalarının inkişafı, informasiya istehsal, yayımı və istehlak proseslərinin qlo-

ballaşdırılması, müxtəlif informasiya sistemlərinin qarşılıqlı nüfuz etməsidir. İstehsalat, paylanma, mübadilə və istehlak proseslərinə və xalq təsərrüfatının təşkilati-iqtisadi idarəetmə məsələlərinin həllinə xidmət edən informasiya idarəetmə informasiyası adlanır. O, iqtisadi, texnoloji, sosial, hüquqi, demoqrafik və digər məzmunlu müxtəlif məlumatlardır. İdarəetmədə fəal olan informasiya ən vacib ehtiyatlardan biri kimi çıxış edir.

Emal texnologiyasında istehsalat və təsərrüfat əməliyyatları, insanlar, məhsulun buraxılması, malların əldə olunması və satışı faktları haqqında ilk məlumatlar əmək predmeti rolunu oynayır, əldə olunan nəticə informasiyası ilə əmək məhsulu rolunu, bu informasiya idarəetmə qərarlarının təhlili və qəbulu üçün istifadə olunur. Bu gün dünya miqyasında biliyin çəkisinin əhəmiyyətli dərəcədə artması bir sıra obyektiv reallıqlardan doğur. Onların arasında ETT xüsusi yer tutur. İntensiv elmi-texniki inqilablarla müşahidə olunan müasir elmi-texniki tərəqqi istehsalda prinsipial köklü dəyişikliklər yaradır. İstehsalın texnikası, texnologiyası, təşkili formaları çox qısa müddətdə təkmilləşmələrə məruz qalır, emalın sürəti artır, istehsal daha çox mexanikləşir və avtomatlaşır, istehlakın kimyalaşması yüksəlir. Belə bir şəraitdə istehsalın aktiv elementi olan insana, ixtisaslı fəhləyə, mühəndisə qoyulan tələblər də artır. İnsanlardan daha çox bilik tələb olunur. Onlar yüksək texniki təşkilati səviyyəyə malik uyuşqanlı istehsaldan baş çıxarmağı, keyfiyyətli məhsul istehsal etməyi və onu bütün dünya ölkələrində reallaşdırmağı bacarmalıdırlar. (8,81)

Müasir dövrdə biliyin yeni iqtisadi rolu peşə və ümumi təhsilin yeni iqtisadi rolu ilə şərtlənir. İşçi qüvvəsinin ixtisas səviyyəsini yüksəltmək tələb olunur. Bu problemin əhəmiyyətini başa düşən ölkələr təhsilə yönəldilən kapitalın həcmini artırırlar. Məsələn, hazırda ABŞ-da hər il təhsilə çəkilən xərc 40,0 milyard dolları ötüb keçir. Müqayisə üçün qeyd edək ki, 1940-cı ildə bu rəqəm 3,2 milyard dollar, 1950-ci illərdə isə 8,8 milyard dollar təşkil edirdi. Təhsilə bu cür yüksək qayğının nəticəsində işçi qüvvəsinin keyfiyyət səviyyəsi yüksəlir, əmək daha məhsuldar olur, onun nəticəsi daha çox səmərə verir. Məşhur Amerika iqtisadçısı E.Denisonun apardığı tədqiqata görə İkinci Dünya müharibəsindən sonrakı dövrdə ABŞ və Qərbi Avropa ölkələrində əldə edilən iqtisadi inkişafın 10-32%-i texnika və texnologiyanın müxtəlif sahələrində elmi tədqiqatların nəticələrini istehsala tətbiq etməklə əldə etmişlər. ETT-nin sürətləndirilməsi insanların biliyinə də müsbət təsir göstərir. Son illər iqtisadi inkişafda biliyin böyük rol oynamasını dünyanın əksər ölkələrinin iqtisadçıları təkidlə qeyd edirlər. E.Denisonun verdiyi məlumata görə, ABŞ və Qərbi Avropada əldə edilən iqtisadi artımın 2- 15%-i təhsilin səviyyəsinin yüksəldilməsi hesabına baş vermişdir.(6)

Yeni biliklərin meydana gəlib inkişaf etməsi əslində istehsal prosesinin ayrılmaz hissəsinə çevrilmişdir. Yeni biliklər təcrübədə öz əksini maşın və mexanizmlərin yeni konstruksiyasında, işçi qüvvəsinin keyfiyyətində, səmərəli təşkilati qərarlarda, konstruksiyanın dərk edilməsində, sərfəli iqtisadi inkişaf modellərinin seçilməsində tapır. Bilik artımı material-enerji resurslarına qənaət etməyə, məhsulun enerji, material, fond və əmək tutumunun aşağı düşməsinə tam reallığı ilə səbəb olur. İstehsal resurslarından bilik resursunun fərqləndirici cəhətlərindən biri ondan ibarətdir ki, maşın və avadanlıqlardan fərqli olaraq bilik bir ölkədən dünyanın digər ölkələrinə daha tez yayıla bilir: müasir informasiya inqilabı buna şərait yaradır. Maşın və mexanizmlər kimi bilik də patentlər, lisenziyalar, məsləhətlər, "Nou-hau"lar şəklində satılır və alınır. Bilik yaradılır, yayılır və istifadə edilir. Bu tsikl daim təkrar olunur və proses yeni əsas üzrə davam edir. Daha doğrusu, əgər hər hansı bir dövlət iqtisadiyyatının inkişafını və əhalinin yaşayış səviyyəsini yüksəltmək istəyirsə, bilik tsiklini daim intensivləşdirməlidir.

Dünya iqtisadiyyatı baxımından bilik tsiklinin sürətlənməsi ümumi şəkildə iki istiqamətdə gedə bilər. Birinci istiqamət beynəlxalq təşkilatlar və qurumların bu sahədəki fəaliyyətləri ilə bağlıdır. Beynəlxalq təşkilatlar birliklərin yaradılması, toplanması, yayılması və onlardan istifadə olunması sahəsində elə problemləri həll etməlidirlər ki, onların həlli fərdi (kapital sahibləri üçün) o qədər də cəlbedici görünmür. Buna görə də beynəlxalq təşkilatların institutları, ilk növbədə, texnoloji geriqalmanın ləğv edilməsi sahəsində fəaliyyətini daha da mütəşəkkil edib, dünya iqtisadiyyatını beynəlxalq ictimai məhsullarla təmin etmək və biliyin ötürülməsində vasitəçilik funksiyasını yerinə yetirməklə məşğul olurlar. Burada idarəetmənin yaxşılaşdırılması tələb olunur ki, bunun üçün də dünyada baş verən informasiya inqilabı şərait yaradır. İkinci istiqamət dövlət orqanlarının rolu ilə əlaqədardır (4,185).

Dövlətlər rəhbərlik etdikləri ölkədə biliyin meydana gəlmə mənbələrini (ölkənin öz gücü ilə yaradılan biliklər və kənardan "gətirilən" biliklər) və onların arasındakı nisbəti düzgün istiqamətləndirməlidirlər. Bundan başqa, biliyə olan bazar tələbatı aşağı düşə bilər, onda dövlətin bu işə qarışması zəruridir.

Ona görə ki, ölkədəki texniki biliksizliyi aradan qaldırmaq üçün dövlətin həmişə imkanları tapıla bilər. Məsələn, dövlət əhalinin savadlanmasını insanların bütün ömrü boyu həyata keçirə bilən təhsil sistemi işləyib hazırlaya bilər. Dövlət biliklər üzrə informasiyaları da idarə etməli, onların keyfiyyətinə nəzarəti gücləndirməlidir.

**Nəticə**

-Biliklərə əsaslanan iqtisadiyyatın həyata keçirilməsi üçün ölkə daxilindəki müəssisələrin fəaliyyəti elektronlaşdırılsın.

-Proseslərə uyğun olaraq məlumat vaxtında və dəqiq şəkildə informasiya sisteminə daxil edilsin.

Bu tədqiqatda bilik iqtisadiyyatının iqtisadi proseslərdə görünən müsbət təsirini sübut etməklə elm və texnologiyanın və eləcə də tətbiqi proqramların inkişafı nəticəsində daha təsirli bir iqtisadi fəaliyyət əldə etməyin mümkünlüyü sübuta yetirilir.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Becker G.S. (2014) Human Capital. N.Y.: Columbia University Press, 1964.*

*2. Benhabib, J., Spiegel, M.M. (2018). "Therole of human capital in economic development: Evidence from aggregate cross-country data". Journal of Monetary Economics 34, 143–173.*

*3. Bowlus A. J. Robinson C. (2008) HumanCapital Prices, Productivity and Growth // Centre and the Canadian Social Sciences and Huma nities Research Council. July 2008 55 p.*

*4. Denison E. (2015) Trends in American Eco nomic Growth, 1929-1982. Washington, 1985 220 p.*

*5. Fisher I. (2010) The theory of interest, asdetermined by impatience to spend income and opportunity to invest it. New York, xxvii pages, 3 leaves, 566 pages.*

*6. French, Eric. 2015. "The Effects of Health,Wealth, and Wages on Labour Supply and Retirement Behaviour". Review of Economic Studies 72 (2): 395-427.*

*7. Haq M. (2017) Reflections on Human De velopment. Oxford University Press, Aug 17, - Business & Economics - 288 pages.*

*8. Hamilton K. and Liu G. (2014) Humancapital, tangible wealth, and the intangible capital residual// Oxford Review of Economic Policy, Volume 30, Number 1, 2014, pp. 70-91.*

*9. Hansen W. (2020) Lee. Education: Inco me and Human capital/ Studies in income and wealth (Том 35) ed. N.B.E.R, 1970, 320 pp.*

*10. Lucas R.E. (2018) On the mechanics ofeconomic development Journal of Monetary Economics 22 (1988) 3-42. North-Holland.*

**Bilik iqtisadiyyatının əsas xüsusiyyətləri və iqtisadi xarakteristikası**

**XÜLASƏ**

Hazırda sosial-iqtisadi sistemlərin idarə olunmasında bilik məhsulu olan innovasiya texnologiyalarından geniş istifadə edilməsi məsələsi aktualdır. Bunun üçün nəhəng verilənlər həcminin düzgün seçilməsi və sistemləşdirilməsi problemi aşkara çıxır. Bundan başqa bilik bir məhsuldur, onun ölçülməsi iki yanaşma ilə aparılır. Bunlardan biri biliyin istehsalına çəkilən xərclər, digəri isə satılan biliyin bazarda dəyəridir. İnnovasiya texnologiyaları əsasında ölkə, region və müəssisələr üçün texniki, iqtisadi, sosial fiziki mühitdə imkanlar yaranır. Bunlarla yanaşı, innovasiya texnologiyalarının istehsalı, istehsalat, təhsil, elm sferalarında tətbiqi və insanlar tərəfindən qəbul edilməsi üzrə sosial-iqtisadi problemlər də mövcuddur.

**Açar sözlər:** *elektron, bank, rəqəmsallaşma, texnologiya.*

**Основные черты и экономические характеристики экономики знаний**

**РЕЗЮМЕ**

В настоящее время актуален вопрос широкого использования инновационных технологий, являющихся продуктом знаний в управлении социально-экономическими системами. Для этого раскрывается проблема правильного отбора и систематизации огромного количества данных. Кроме того, знания — это продукт, который измеряется двумя подходами. Одна из них - стоимость производства знаний, а другая - рыночная стоимость проданных знаний На основе инновационных технологий возникают возможности в технико-экономической, социальной и физической среде для страны, региона и предприятий. Кроме того, существуют социально-экономические проблемы в производстве, применении инновационных технологий в производстве, образовании, науке и их освоении людьми.

**Ключевые слова:** *электроника, банковское дело, цифровизация, технологии.*

UOT 336; 336.11

# BİZNESİN MALİYYƏ-KREDİT İNFRASTRUKTURUNUN MÖVCUD VƏZİYYƏTİ

**ƏLİ OSMANLI**
*Azərbaycan Dövlət İqtisad Universiteti, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi, magistr*

*E-mail: azerosmanlı@gmail.com*

## Giriş

Beynəlxalq müstəvidə biznesin inkişafı daha sürətlə davam edir, çünki dövlət orqanları kiçik müəssisələrə böyük əhəmiyyət verir və dövlət səviyyəsində dəstəkləyirlər. İnkişaf etmiş ölkələrdə iri, kiçik və orta sahibkarlığın əməkdaşlıq mövqeyi təşviq olunur, onların fəaliyyəti bir-birini tamamlayır, yalnız ayrı-ayrı sahələrin ixtisaslaşma sektorunda və son inkişaflarda [8, s.78].

İnkişaf etmiş ölkələrdə kiçik biznes hazırda davamlı iqtisadi inkişaf üçün əsas rolunu oynayan orta sinif tərəfindən inkişaf etdirilir. Avropadakı kiçik biznes AB-nin sosial-iqtisadi genişlənməsinin əsasını təşkil edir. Avropa Birliyində 23 milyondan çox kiçik və orta biznes krediti alınaraq, ümumi dövriyyənin və əlavə dəyərin yarısından çoxunu təmin edir. Avropada kiçik sahibkarlıqda çalışanların sayı təxminən 70% -dir və bu, ümumi dövriyyənin 57% -ni və əlavə dəyərin 53% -ni təşkil edir.

Amerika Birləşmiş Ştatlarında 20 milyondan çox firma fəaliyyət göstərir. Təxminən 5 milyon firma - Avropa Birliyi olmayan ölkələrdə - Kanada, Avstraliya, Yeni Zelandiya, Asiya (Yaponiya istisna olmaqla), Orta Şərq və Afrika, Çində 4.3 milyondan çox kiçik və orta biznes və 27.9 milyona yaxın firma vardır. Bu, ÜDM-in təxminən 60% -ni təşkil edən ölkədəki ümumi müəssisə sayının 99% -ni təmsil etməkdədir.

BMT-nin statistikasına görə, qlobal iqtisadi sistemdə kiçik və orta bizneslər dünyadakı işləyən əhalinin təxminən yüzdə 50-si üçün işəgötürənlərdir. Fərqli ölkələrdə biznes sahəsində istehsalın dəyəri ÜDM-in 33%-i ilə 67% arasındadır.

Periodik böhranlar zamanı, o cümlədən, iqtisadiyyatın yenidən qurulması və post-sənaye genişlənməsinə keçid dövründə məşğulluğun daim azalması ilə sənayenin milli sahələrində istehsalın azalması müşahidə olunur. Belə hallarda, kiçik və orta biznes sahələrinin müstəsna xüsusiyyətlərindən biri açıq şəkildə ifadə olunur - passiv bölgələrdə sosial gərginliyi xeyli azaldan yeni iş yerlərinin sürətli bir şəkildə yaranması burada başlıca xüsusiyyətdir.

Bu göstəricilər hər bir dövlətin siyasi və sosial-iqtisadi həyatının biznes sahələrindəki əsas rolunu göstərir, çünki müəssisələrin böyük əksəriyyəti kiçik miqyaslı sektorda fəaliyyət göstərir, çox sayda iqtisadi fəal əhali toplanır və ÜDM-in təxminən yarısı istehsal olunur.

Beynəlxalq təcrübədən danışarkən, qeyd etmək lazımdır ki, 1000 nəfərə düşən biznes quruculuğu sayına görə, Estoniya və Çexiya kimi Şərqi Avropa ölkələri birinci yerdədir. Bu ölkələrdə hər min nəfərə düşən kiçik və orta biznes sahələrinin sayı müvafiq olaraq 71 və 88 nəfərdir. Bu ölkələrdə kiçik və orta sahibkarlığın yüksək inkişafı həm də bazar iqtisadiyyatına keçid dövründə həyata keçirilən özəlləşdirmə siyasəti ilə sıx bağlıdır. Belə ki, burada həyata keçirilən kiçikmiqyaslı özəlləşdirmə siyasəti əsasən iaşə və kiçik müəssisələrdə aparıldığından, əhalinin mümkün qədər çox iştirakı üçün bizneslərin sayı kifayət qədər çoxdur. Bu baxımdan, Malta Avropa ölkələrini qabaqlayır [2, s.78].

Bundan əlavə, bir çox Avropa ölkəsində bu göstərici ÜDM-in 50 faizini, ABŞ, Yaponiya, Almaniya kimi ölkələrdə kiçik sahibkarlıq müəssisələrinin payı ümumi sayının 99 faizini keçir. Yaponiyada 880 min sənaye müəssisəsindən yalnız 4 minində 300-dən çox, 700-də 1000-dən çox işçi vardır. AB ölkələrində 500-dən çox işçisi olan müəssisələrin sayı isə 12 mini keçmir.

Fəaliyyət növünə görə Avropa və Asiyada kiçik sahibkarlıq iqtisadiyyatın demək olar ki, bütün sahələrini əhatə edir [6,s.368).

Qərbdə kiçik biznes sahələrinin genişləndirilməsi sürətlə inkişaf edir, çünki dövlət orqanları kiçik müəssisələrə böyük diqqət ayırır və dövlət səviyyəsində onları stimullaşdırırlar. Kiçik və orta bizneslərin inkişafı ilə keçmiş inkişaf etməkdə olan dövlətlər də böyük bir iqtisadi sıçrayış əldə etmişdir [4,s.89].

Avropadakı kiçik biznes sahələri sözügedən bölgənin sosial-iqtisadi genişlənməsinin əsasını təşkil edir. Avropa Birliyində 23 milyondan çox kiçik və orta səviyyəli biznes müəssisəsinə kredit verilir, bu da ümumi dövriyyənin və əlavə dəyərin yarısından çoxunu verir. Avropada kiçik müəssisələrdə işləyən-

lərin sayı təxminən 70% -dir və bu, ümumi dövriyyənin 57% -ni və əlavə dəyərin 53% -ni təşkil edir. Bunun sayəsində Avropa Birliyi sərhədləri daxilində kiçik biznes sahələrinin stimullaşdırılması siyasəti həyata keçirilir. Bu siyasətin əsas məqsədi ölkənin maraqlarını və biznes fəaliyyətlərini tarazlaşdırmaq, sözügedən fəaliyyət üçün əlverişli şərait yaratmaq və kiçik müəssisələrin rəqabət qabiliyyətini artırmaqdır. Sənayedə inkişaf etmiş dövlətlərdə biznesin genişlənməsinin xarakterik xüsusiyyəti onun dövlət tərəfindən stimullaşdırılmasıdır.

Kredit - bank sferası ölkənin banklarından və digər kredit idarələrindən ibarətdir. Ölkənin maliyyə sisteminə maliyyə fəaliyyətini həyata keçirən və tənzimləyən dövlət maliyyə institutları da (təşkilatlar və idarələr) aiddir. Maliyyə sisteminin ayrı-ayrı sferaları (bölmələrə) və həlqələri bir-birindən hər bir həlqənin fəaliyyət xüsusiyyətləri, pul vəsaitləri fondlarının bölüşdürülməsi və istifadəsi metodları ilə və deməli, onların maliyyə sistemindəki rolu ilə fərqlənir. Buna görə də respublikanın maliyyə sisteminin inkişafında müasir maliyyə-kredit institutlarının rolunun müəyyənləşdirilməsi zərurəti meydana çıxır.

İlk növbədə müasir maliyyə-kredit institutlarının əməliyyatlarının təsnifatı verilməlidir. Bu təsnifat maliyyə-kredit institutlarının əməliyyatlarının xarakterindən asılı olaraq müxtəlif istiqamətlərdə aparıla bilər. Burada ilk növbədə bank və kredit təşkilatlarının əməliyyatlarını göstərə bilərik.

Bankların əməliyyatları üç yerə ayrılır:

1. Passiv əməliyyatlar.
2. Aktiv əməliyyatlar.
3. Vasitəçilik əməliyyatları.

Passiv əməliyyatlar banklar tərəfindən vəsaitlərin cəlb olunması və onun resurslarının formalaşması üzrə əməliyyatlardır. Bu əməliyyatların köməyi ilə banklar mənfəət əldə etmək məqsədi ilə kredit verilməsi, qiymətli kağızlara sərmayə qoyuluşu və s. üçün vəsait toplayırlar. Bankların passiv əməliyyatları nəticəsində onların resursları formalaşır [5,s.78].

**Sxem 1: Biznesin əsas struktur sxemi**




*Mənbə: "Biznesin Təşkili və İdarə edilməsi" dərslik, "İqtisad Universiteti" nəşriyyatı. Bakı 2011.*

Bu sxemin izahı olaraq deyə bilərik ki, bizneslə məşğul olan sahibkar hər hansı bir məhsul istehsal etmək üçün lazım olan xammal və materialları ticarət vasitəsi ilə alır və müəssisənin xammala olan ehtiyacını ödəyir. İkinci mərhələdə isə lazımı materialla təmin olunan müəssisə fəaliyyətə başlayır və məhsul istehsal edir. Nəhayət, üçüncü mərhələdə müəssisədə istehsal olunan məhsullar satış bazarına çıxarılır.

Müəssisənin əsas fəaliyyətinin quruluşu sadə şəkildə bu cür aparılır. Satılan məhsullardan əldə olunan gəlirlər müəssisənin maliyyə bölməsində cəmlənir və xərclər hesablanaraq ümumi gəlirdən çıxılır. Qeyd edək ki, məhsulun qiymətini təyin etmək üçün ona çəkilən xərclərin məcmusunu, yəni məhsulun maya dəyərini hesablamaq lazımdır. Bütün xərclər çıxıldıqdan sonra yerdə qalan vəsait müəssisənin mənfəəti hesab olunur. Müəssisənin mənfəəti geniş təkrar istehsala, əmək kollektivinin əməyinin stimullaşdırılmasına və s. üçün istifadə olunur. Bu da müəssisənin uğurlu inkişafına zəmin yaradır.

Biznesi həm kommersiyada, həm də istehsalatda görmək mümkündür. Ümumi şəkildə göstərsək, bizneslə qeyd edilən əlamətlərə malik şəxslər məşğul ola bilər.

- Respublikanın fəaliyyət qabiliyyətli şəxslər hesab edilən bütün vətəndaşları;
- Vətəndaşlığından asılı olmayaraq bütün şəxslər (xarici vətəndaşlar);
- Mülkiyyətindən asılı olmayaraq bütün şəxslər.

Biznes anlayışı sahibkarlıq anlayışı ilə yaxın mənalı anlayışdır. Lakin onları tam olaraq eyniləşdirmək olmaz. Bu iki anlayış arasında ən böyük ortaq xüsusiyyət isə hər ikisinin əsas fəaliyyətinin gəlir, qazanc, mənfəət əldə etmək istiqamətində yönəlməsidir.

Biznesdə fəaliyyətdən öncə bir sıra araşdırmalar və analitik işlər görərək öz fəaliyyətini daha da stimullaşdırmaq lazımdır. Həmin yerinə yetirilməsi vacib amillərə aşağıda qeyd edilənlər aid edilir.

➢ İlk növbədə, öz təcrübə və potensialını, əhalinin tələbatlarını, bazarda analoji sahədə rəqabətlilik dərəcəsini müəyyən edərək, əsas fəaliyyət istiqamətini müəyyənləşdirmək;

➢ Öz əhatə dairəsini və işçi kadrlarının müəyyən edilməsi, lazımı çatışmayan kadrların tapılması;

➢ Biznes-tsikl dövriyyəsinə başlamaq üçün lazım olan maliyyə vəsaitlərini, nizamnamə kapitalının həcmini müəyyən edərək fəaliyyətə başlamaq üçün zəruri resursları müəyyənləşdirmək.

Fəaliyyətə başlamazdan əvvəl sahibkar adətən SWOT təhlili adlanan metod vasitəsi ilə öz fəaliyyət mexanizmlərində təhlil apara, müəssisə və ya firmanın güclü və çatışmayan tərəflərini, həmçinin istehsal imkanlarını müəyyən edə və mövcud olan təhlükələ-

ri göz qabağına gətirə və onlardan yaxa qurtara bilər [8,s.78].

SWOT sözü ingilis mənşəli sözlərin baş hərflərinin birləşməsindən əmələ gəlmişdir və aşağıdakı kimi izah oluna bilər.

**Sxem 2: Biznes sahələrində SWOT analiz**




*Mənbə: Hümbətova S.İ., Quliyeva İ.Q. "Biznesin (müəssisənin) qiymətləndirilməsi", Bakı 2015.*

SWOT analizi vasitəsi ilə şirkətin qarşılaşa biləcəyi təhlükələrin müəyyən edilməsi, zəif tərəflərin göz önünə gətirilməsi, xarici, eyni zamanda daxili imkanların müəyyən edilməsini reallaşdırmaq olar.

1. Sahibkarlıq fəaliyyəti iqtisadiyyata və eyni zananda maliyyə bazarının vəziyyətinə müsbət təsir etdiyini nəzərə alaraq dövlət tərəfindən sahibkarlıq fəaliyyətinin inkişaf etməsi üçün bir sıra tədbirlərin həyata keçirilməsi vacib bir məsələdir. Dövlətin bu sahədəki görülməsi vacib olan tədbirlərinə misal olaraq aşağıdakı bəndlərdə verilənləri göstərə bilərik.

2. Sahibkarların uğurlu fəaliyyətini təmin etmək, onların fəaliyyətinin daha güvənli təşkil edilməsi üçün onların hüquqi mühafizəsi mexanizmini yaxşılaşdırmaq;

3. Sahibkarlıq fəaliyyətində inkişafa mane olan risk amili dərəcəsinin azaldılması, həmçinin qeyri-müəyyən halların aradan qaldırılması;

4. Sahibkarlıq fəaliyyəti ilə məşğul olanların gəlirlərinin artırılması, onların bu sahəyə marağının təmin edilməsi, eyni zamanda bir sıra dövlət güzəştlərinin həyata keçirilməsi.

## Nəticə

Biznes fəaliyyətinin xarici auditi ixtisaslaşdırılmış audit təşkilatlarının yaradılmasını tələb edən bir sıra xüsusiyyətlərə malikdir. Məsələ burasındadır ki, müxtəlif bizneslərin və digər maliyyə və kredit təşkilatlarının yoxlamaları zamanı həm kredit sisteminin özü, həm də xidmət göstərən iqtisadiyyatın iqtisadi fəaliyyətinin müxtəlif aspektləri nəzərə alınır. Yoxlamaların nəticələri göstərdi ki, biznes qurumlarının uğurlu fəaliyyətinin vacib şərti həm biznesin, həm də maliyyə məsələlərində mühasibat və hesabatların etibarlılığının təmin edilməsi, gözlənilən nailiyyətlərin əldə edilməsinə mane olan səbəbləri müəyyənləşdirmək və aradan qaldırmaqda qarşılıqlı maraqlardır.

Biznesin maliyyə-kredit infrastrukturunun inkişafı mövzusunda hazırlanan dissertasiya işində maliyyə bazarının təhlili, onun inkişafına təsir göstərən müsbət və mənfi halların müəyyən edilməsi və təhlili nəticəsində aşağıda göstərilmiş nəticə və təklifləri qeyd etmək olar:

-Ölkədə maliyyə bazarının inkişaf etdirilməsi istiqamətində bir neçə tədbirlər və islahatlar həyata keçirilmişdir. Bu tədbirlərə misal olaraq maliyyə bazarının əsas tərkib hissəsi olan qiymətli kağızlar bazarının normativ-hüquqi bazasının formalaşdırılmasını misal göstərmək olar. Qiymətli kağızlar bazarına dövlət nəzarətinin gücləndirilməsinə və bu sahənin inkişaf etdirilməsinə dövlət diqqəti artırılmalıdır;

-Dövlət tərəfindən qiymətli kağızların, səhmlərin buraxılmasının sürətinin artırılması, fond bazarının inkişaf xüsusiyyətləri üzrə qərb iqtisadiyatına inteqrasiya edilməsi təşkil edilməlidir;

-Respublikanın ticarət dövriyyəsinin əsasını neft-qaz ehtiyatlarının ixracı təşkil edir. Ölkənin maliyyə ehtiyatlarının formalaşmasında əsas payı biznes sahəsindən əldə edilən gəlirlər təşkil edir. Dünya bazarındakı mövqeyindən asılı olmayaraq ölkə iqtisadiyyatının tükənən və eyni zamanda bərpa olunmayan ehtiyatlar üzərində qurulması məqsədəuyğun deyildir. Təklif edirik ki, ölkənin xarici ticarət əlaqələrinin obyekti kimi qeyri-neft sektorunda biznes qurumlarında ticarət dövriyyəsində payının artırılmasına şərait yaradılsın;

-Kredit bazarının iştirakçıları olan bankların inkişaf etməsinə mane olan amillər əsasən girovlar və faiz dərəcələrinin yüksək olmasıdır. Bu zaman istənilən bir biznes fəaliyyəti ilə məşğul olan sahibkar çatışmayan maliyyə ehtiyatı üçün banklara müraciət etdikdə qeyd edilən amillər onların kredit vasitəsi ilə maliyyələşməsinə mane olur. Kredit risklərinin artırılmasına səbəb kredit götürən tərəfin aşağı dəqiqlikli məlumatlarının mövcudluğu və zəif korporativ idarəetmənin olması çıxış edir. Həmçinin kreditorların dövlət tərəfindən hüquqi müdafiəsi zəif olduğundan bu risk dərəcələri bir qədər də artmış olur. Kreditlərin verilməsi ilə bağlı ətraflı məlumatlar toplayan qurumlar (kredit büroları) yaradılmalıdır ki, gələcəkdəki riskli halların vaxtında qarşısını almaq mümkün olsun. Həmçinin, fikrimizcə, respublikamızda Qərb təcrübələrindən istifadə edərək Korporativ İdarəetmə İnstitutlarının yaradılması ilə ölkədə sahibkarlıq fəaliyyətinin və korporasiyaların inkişafında əsaslı irə-

liləyişlər əldə ediləcəkdir.

Onu da qeyd etmək lazımdır ki, ölkəmizin maliyyə bazarındakı və kredit sektorundakı geriliyinin səbəblərindən biri də informasiya təminatının aşağı səviyyədə olmasıdır. Bu geriliyin aradan qaldırılması və mövcud bazar infrastrukturunun optimallaşdırılması ölkə iqtisadiyyatının canlanmasında müsbət rol oynayacaqdır. Xarici inkişaf etmiş ölkələrin sınaqdan keçirilmiş maliyyə siyasətinin tətbiqi ilə ölkənin maliyyə bazarının dayanıqlı inkişafını təmin etmək lazımdır.

Banklarda sahibkarlara uzunmüddətli kreditlərin müxtəlif güzəştlərlə verilməsinə dövlət nəzarətinin artırılması, kredit bazarının tənzimlənməsi və kreditlərin verilməsi və ödənilməsində qeyri-müəyyənlik hallarının aradan qaldırılması kredit sektorunun inkişaf etməsinə səbəb olacaqdır.

**Açar sözlər:** *KOB, Dünya Bankı, müəssisə, qlobal, tendensiya, ÜDM, böhran, BMT.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. AR DASSKK. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa kömək proqramı (1997-2000-ci illər). Bakı, 1997, 20 səh.*

*2. AR DASSKK. Azərbaycan Respublikasında sahibkarlığın inkişafının vəziyyəti və problemləri. Bakı, 2011, 11 səh.*

*3. AR Prezidentinin Fərmanı. Kiçik və orta sahibkarlığa dövlət köməyi haqqında, Bakı, 2015, 12 səh.*

*4. Azərbaycan Respublikası Dövlət Antinihisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi (AR DASSKK). Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq. Bakı Araz 2010, 188 səh.*

*5. Mehtiyev A.S. (2011), Azərbaycan sənayesində kiçik müəssisələrin formalaşması və inkişafı məsələləri. İqtisad elmləri, namizədlik dissertasiyası. Bakı, 1550 səh.*

*6. Uludağ İ. (2016), Gömrük Birliyi Sürəcində KOBİ-lar və risk sərmayəsi şirkətlər modeli. İstanbul, 225 səh.*

*7. Переверзев М., Лунева А. (2017), «Предпринимательство и бизнес». Москва. Инфра-М 560 стр.*

*8. Рзаева С., Рамазанов М. (2013), «Экономика» Баку., Инфра-М. 546 стр.*

*9. Сташков С., Мрочковский Н. (2012), «99 инструментов продаж. Эффективные методы получения прибыли» Санкт - Петербург., Инфра-М., 368 стр.*

## ТЕКУЩЕЕ ПОЛОЖЕНИЕ ФИНАНСОВО-КРЕДИТНОЙ ИНФРАСТРУКТУРЫ БИЗНЕСА

### РЕЗЮМЕ

В большинстве развитых стран мира различные предприятия находятся в авангарде экономического роста и развития занятости. Так, по данным Всемирного банка, доля индивидуальных предприятий и предпринимательской деятельности в валовом внутреннем продукте в развитых странах составляет более 50 и 60 процентов соответственно. В статье рассматривается быстрая адаптация малого и среднего бизнеса и делается вывод о том, что крупный масштаб практически всех секторов государственного рынка создает условия для стабильного экономического роста и обеспечивает стабильность политического климата. Одна из причин успешного расширения направлений бизнеса заключается в том, что крупное производство не против малого и среднего бизнеса.

**Ключевые слова:** *МСП, Всемирный банк, предприятие, глобальный, тренд, ВВП, кризис, ООН.*

## THE CURRENT SITUATION OF THE FINANCIAL-CREDIT INFRASTRUCTURE OF THE BUSINESS

### ABSTRACT

In most of the developed countries of the world, various businesses are at the forefront of economic growth and employment development. So, according to the World Bank, the share of individual businesses and entrepreneurial activities in the Gross Domestic Product in developed countries is more than 50 and 60 percent, respectively. The article examines the rapid adaptation of small and medium-sized businesses and finds that the large scale of almost all sectors of the public market creates conditions for stable economic expansion and ensures the stability of the political climate. One of the reasons for the successful expansion of business areas is that large-scale production is not against small and medium-sized businesses.

**Keywords:** *SME, World Bank, enterprise, global, trend, GDP, crisis, UN.*

UOT 339.1, 339.9

# DÜNYA İQTİSADİYYATINDA KADR POTENSİALININ İNKİŞAFINA QOYULAN İNVESTİSİYA

**VƏFA MEHDİYEVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, magistr*

*E-mail: mehdizade.vefa@mail.ru*

## GİRİŞ

Bazar iqtisadiyyatında mövcud olan gərgin rəqabət, çox vaxt qeyri-müəyyənlik və risk ilə xarakterizə olunur. Xarici və daxili təsir amilləri investisiya problemlərini həll edərkən qərarların qəbul olunması, bir çox halda riskli məsələ hesab olunur. Bu məsələ dünya iqtisadiyyatında kadr potensialının inkişafına qoyulan investisiyada da öz təsirini göstərir. Bu gün kadr potensialının inkişafına qoyulan investisiya prosesinin təşkili, daxili iqtisadiyyatın inkişafını və fəaliyyətinin təminində əsas rol oynayır. İnvestisiya istehsal resurslarının imkanlarını artırmağa imkan verən kapitalın həcminin artması, istehsal xərcləri ilə bağlı bütün məsrəflərlə yanaşı, kadrların hazırlanması, yerləşdirilməsi məsələsi aktual məsələlərdən hesab olunur [1].

Bu sahədə investisiyaların iqtisadi səmərəliliyini, daxili və xarici amillərin təsiri altında dəqiq vəzifələrini müəyyən etmək lazımdır. Kadr potensialının hazırlanması məsələsi bu baxımdan az əhəmiyyət kəsb etmir. Təkcə aktiv iqtisadi sahələrin dəyərini müəyyən etmək deyil, həm də müəssisə üçün maksimum gəlir təmin etməklə yanaşı, investoru sərfəli təkliflə maraqlandırmaq vacibdir. Kadr potensialının inkişafına qoyulan investisiyanın idarə edilməsi öz xarakterinə görə uzunmüddətli perspektivlə bağlıdır. İnvestisiya prosesinin hər bir mərhələsinin müddəti ilə, investisiyalar nəticəsində istifadəyə verilmiş istehsal güclərindən uzun müddət istifadə edilməsi ilə bağlıdır. Bu sahədə dövlət nəzarətinin olması əhəmiyyətli hesab olunur.

Bu gün dünya iqtisadiyyatı birliyi qloballaşma, qlobal pandemiya və qlobal böhran şəraitində elmi - texniki tərəqqinin yüksək inkişaf mərhələsinə qədəm qoyub. Sosial-iqtisadi inkişaf modellərini bilik iqtisadiyyatı təşkil edir. Yüksək bilik, bacarıq və intellektual qabiliyyətə malik olan kadr potensialının inkişafı aktual məsələlərdən hesab olunur. Kadr potensialı təşkilatların həm ölkə daxilində, həm də dünya miqyasında rəqabət qabiliyyətinin əsasını təşkil edir.

Dünya iqtisadiyyatının inkişafı insan kapitalından asılıdır, məhz bu baxımdan dünya iqtisadiyyatında ən qiymətli iqtisadi resurs kadr potensialı hesab olunur. İstənilən resurs kimi insan kapitalının da özünə məxsus inkişaf xüsusiyyətləri vardır.

**Şəkil 1.**
**İnsan kapitalının əsas elementlərinə daxil olan sahələr**




*Qeyd: Şəkil müəllif tərəfindən tərtib olunub.*

Yüksəkixtisaslı işçilər olmadan qeyri-maddi aktivləri yaratmaq və ya səmərəli istifadə etmək olmur. İnnovasiyalar və istehsalın sonrakı artımı kadr potensialından asılıdır. Yüksəkixtisaslı kadrlar qeyri - maddi aktivlərin əsas komponenti və eyni zamanda şirkətin uğurunu şərtləndirən əsas amildir.

İnsan kapitalı sənayeləşmə və ya xidmət iqtisadiyyatına keçid kimi iqtisadiyyatların texnoloji tərəqqi və struktur transformasiyalarının uğurunu şərtləndirir. İnsan kapitalına investisiyanın həcmini artırmaq məqsədi sürətlə aparılmasıdır. Adam Smit "kapital təkcə maşın və alətlərdən, gəlir gətirən binalardan və torpaqdan deyil, bu sahədə fəaliyyət göstərən işçilərdən də asılıdır".[4]

Yaxşı planlaşdırılmış investisiyanın istehlakdan çox, insan kapitalına qoyulması beynəlxalq təcrübədə öz əksini tapmışdır. Beləliklə, investisiyalar mexaniki alətlərin səmərəliliyini artırdığı kimi, insan alətlərinin səmərəliliyinin artırılmasında və gələcək

gəlirlərin istehsalına töhfə verdiyi təcrübələr əsasında müəyyənləşdirilmişdir. İnsan kapitalına qoyulan investisiyanın gələcək bir vasitə olduğunu 1928-ci ildə iqtisadçı Artur Sesil Piqou "Dövlət Maliyyəsi üzrə Tədqiqat" əsərində qeyd etmişdi. [3]

Müasir dünya iqtisadiyyatı sisteminin fərqli xüsusiyyəti insan kapitalının əhəmiyyətinin artmasıdır. İnsan kapitalına qoyulan investisiyanın nəticəsi olaraq, kənd təsərrüfatında, sənayedə uğur qazanma mümkün olmadığı inkişaf etmiş ölkələrin təcrübəsində bilinməkdədir.

İqtisadi sahələrdə kadr potensialına qoyulan investisiyanın nəticəsi olaraq, elmi-texniki tərəqqinin inkişafı sürətlənmişdir. Texnologiyaların inkişaf tempinin sürətlənməsi, bəzi sahələrdə insan kapitalının inkişafına mənfi təsir etmişdir. Bu, onunla izah olunur ki, yeni texnologiyalar insanların əl əməyini sıradan çıxardaraq, məhsul istehsalını asanlaşdırmaqla yanaşı, əmək bazarında tələb, təklifdə fərqliliklər yaradır.

Mintzer yazırdı ki, şəxsi insan kapitalının toplanması fərdi iqtisadi artıma (gəlirin artması) gətirib çıxarır, eyni zamanda müvafiq sosial və ya milli aqreqatlar da. O, insan kapitalının artımının iqtisadi artımın həm şərti, həm də nəticəsi olduğunu vurğulayıb. İnsan kapitalı təkcə mövcud biliklərin ötürülməsini deyil, həm də innovasiya və texniki dəyişikliklərin mənbəyi kimi çıxış edən, bütün istehsal amillərini hərəkətə gətirən və qlobal iqtisadi artımı təmin edən yeni biliklərin formalaşmasını əhatə edir.

Mintzer əməkhaqqının təhsildən və iş təcrübəsindən asılılığını da təhlil etdi - bu əlaqə onu əks etdirir ki, yaş artdıqca insan gəlirini (əməkhaqqını) artırmağa kömək edən biliklər toplayır, lakin pensiya yaxınlaşdıqca təhsilə qoyulan investisiyalar azalır və onların gəliri azalır. Məktəbdə təhsil müddəti ilə gəlirin nisbi səviyyəsi arasındakı əlaqəni əks etdirən tənlik Mintzerin adını daşıyır və iqtisadiyyatda ən çox istifadə edilənlərdən birinə çevrilmişdir.

## Azərbaycan Respublikasında insan kapitalının formalaşması və inkişaf göstəriciləri

Elmi - texniki tərəqqinin sürətli inkişafı insan kapitalına mənfi və müsbət yöndən təsir göstərmişdi. Elm və təhsil hər bir dövlətin sosial-iqtisadi inkişafının əsasıdır. Elmi - texniki tərəqqi maddi və ya intellektual məhsulların alınmasını təmin edərək, dünya iqtisadiyyatının əsasını təşkil edir. Elmi - texniki tərəqqinin inkişafına qoyulan investisiya müxtəlif ölkələrdə fərqli həyata keçirilir. Belə ki, bəzi ölkələrin dünya bazarına çıxması üçün yeni texnologiyalara tələbatın durmadan artmasına baxmayaraq, yeni texnologiyaların istehsalına fərqli yanaşılır. Məhz bu baxımdandır ki, yeni dövrün tələblərinə cavab verən, yüksəkixtisaslı kadr potensialının hazırlanması Azərbaycan Respublikasının dövlət siyasətinin tərkib hissəsidir [5].

Azərbaycan Respublikasının yüksək inkişaf tempi, təhsilin və elmin dünya standartları səviyyəsinə qalxması üçün bu mövzu ölkəmizdə də aktual məsələlərdən hesab olunur. Ölkənin milli təhsil konsepsiyasının müasirləşdirilməsi, kadr potensialının hazırlanmasının vacib məsələ olduğunu müəyyənləşdirən əsas amillərdən hesab olunur. Respublikada qeyri-neft sektorunun inkişaf məsələsinin gündəmdə olması, dövlət səviyyəsində aparılan işlər bu baxımdan əyani sübutdur.

**Cədvəl 1**

**Azərbaycan Respublikasında elmin əsas göstəriciləri [7]**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Tədqiqat və işləmələri yerinə yetirən təşkilatların sayı | 140 | 140 | 145 | 141 | 135 | 137 | 133 | 132 | 127 |
| Tədqiqat və işləmələrlə məşğul olan heyətin sayı, nəfər | 21 573 | 22 358 | 23329 | 23093 | 22527 | 20580 | 20179 | 20790 | 20522 |
| Dövlət büdcəsindən elmə çəkilən xərclər: milyon manat | 116,7 | 117,0 | 124,2 | 113,2 | 110,2 | 109,8 | 117,8 | 122,3 | 143,6 |
| Tədqiqat və işləmələrə çəkilən daxili xərclər: | 117,3 | 122 | 123,8 | 120,9 | 124,7 | 129,9 | 147,5 | 163,9 | 162,5 |
| Tədqiqat və işləmələrdə istifadə olunan əsas vəsaitlər, milyon manat | 88 | 107,2 | 122,2 | 114,2 | 129,5 | 157,4 | 149,1 | 162,8 | 159,5 |

Cədvələ nəzər saldıqda bir çox tədqiqat və işləmələrə çəkilən daxili xərclər və tədqiqat və işləmələri yerinə yetirən təşkilatların sayı və tədqiqat və işləmələrlə məşğul olan heyətin sayı arasında təzad olduğunu görürük. Belə ki, 2012-ci ilə nisbətən, 2020-ci ildə 13 tədqiqat müəssisəsinin azaldığının şahidi oluruq. Bu azalmanı birbaşa tədqiqat və işləmələrlə məşğul olan heyətin sayında da görmüş oluruq. Belə ki, 2012-ci ilə nisbətən, 2020-ci ildə tədqiqat və işləmələrlə məşğul olan heyətin sayı 1051 nəfər azalma baş vermişdi.

Elm, texnologiya, istehsal və texnologiyanın vəhdətinin səmərəliliyinin yüksəlməsi, yeni biliklərin meydana çıxması və onun yeni texnologiyalarda və ya məhsul istehsalında istifadəsini şərtləndirir. Azərbaycan Respublikasının yeni dünya bazarlarına çıxışı texnoloji artım, məhsulların yaradılmasında, istehsalçıların aparıcı mövqe tutmasında mühüm yer

tutur. Bu baxımdan, innovativ inkişafın istiqamətlərini aktuallaşdırır. Dünya iqtisadiyyatında kadr potensialının tutduğu mövqe və inkişaf istiqamətləri yüksəkdir. "Davamlı İnkişaf Məqsədləri" sənədində 2015-2030-cu illərdə bütövlükdə dünya və ayrı-ayrı dövlətlərin dünyanın inkişafı prosesinin davamlılığını təmin etmək məqsədi ilə, gələcək hədəflərin reallaşması məqsədi ilə qəbul edilibdir [8].

Hazırda respublikada elmi-tədqiqat potensialı müasirləşdirilir. Son 5 ildə elmin müxtəlif sahələri üzrə tədqiqatlarda əqli mülkiyyətin rolu və nəşrlərin sayı artmışdır. Qlobal Rəqabətlilik İndeksində ölkəmiz "Əqli mülkiyyətin qorunması" göstəricisi üzrə 140 ölkə sırasında 71-ci yerdən 30-cu yerə irəliləmiş, yaradıcı iqtisadiyyatın ÜDM-dəki payı 3,5% -dən 5,3%-ə yüksəlmişdir [2].

## NƏTİCƏ

Dünyanın iqtisadi cəhətdən inkişaf etmiş dövlətləri arasında iqtisadi inkişafa nail olunması Azərbaycan Respublikası üçün müəyyənedici amildir. İqtisadiyyatın innovativ inkişafı üçün kadr potensialının inkişaf etdirilməsi, yeni yaranan iqtisadi sahələrə yüksək ixtisaslı mütəxəssislərin cəlb edilməsi böyük əhəmiyyət kəsb edir. Əmək məhsuldarlığının və məşğulluğun tənzimlənməsi məsələsi kadr siyasətinin əsasını təşkil edir. Azərbaycan Respublikasında bazar iqtisadiyyatı şəraitində ölkənin kadr potensialının inkişafını stimullaşdıran mexanizmlərdən kifayət qədər istifadə edilmir.

İnkişaf etmiş ölkələrlə müqayisədə, respublikada işçi qüvvəsinin mobilliyinin aşağı olması, bəzi iqtisadi sahələrdə kadr çatışmazlığı, bəzi sahələrdə isə işləmək üçün tələb olunan gənc mütəxəssislərin marağının azalmasına, kadr axıcılığına səbəb olur. Yüksəkixtisaslı mütəxəssislərin tələbatını təmin etməklə kadr potensialının inkişafını stimullaşdırmaq olar [6].

Yeni elmi-texniki tərəqqiyə cavab verən yüksək ixtisaslı kadr potensialının hazırlanması üçün insan resursları potensialının inkişafının stimullaşdırılması tələb olunur. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həll olunması lazımdır:

- yüksəkixtisaslı kadr potensialının inkişafı üçün innovasiyaların tətbiq olunması sahəsində xarici və yerli təcrübəni təhlil etmək;
- Azərbaycan Respublikasında mütəxəssislər üçün prioritet ehtiyaclar haqqında məlumatları təhlil etmək və ümumiləşdirmək;
- yüksəkixtisaslı mütəxəssisləri sənayelərə cəlb etməklə, innovasiya iqtisadiyyatının kadr potensialının inkişafında təsirini aşkara çıxarmaq;
- yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasında maliyyə vəsaitlərinin həcminin hesablanması.

Göstərilən bu məsələlərin həll olunması, gələcəkdə Azərbaycan Respublikasında yüksəkixtisaslı mütəxəssislərə olan tələbatı təmin etməklə, kadr potensialının inkişafına nail olmaq olar. Azərbaycan Respublikası dünya iqtisadiyyatına inteqrasiyanın yüksək səviyyədə həyata keçirilməsi üçün bütün yaranmış imkanlardan istifadə edir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Щетинин В., Человеческий капитал и неоднозначность его трактовки // Мировая экономика и международные отношения. - 2001. - №12. - С.47.*

*2. Azərbaycan - 2026, qüdrətli dövlət və yüksək rifah cəmiyyəti, "Azərbaycan Respublikasının 2022 - 2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", səh. 83. 5478ed13955fb35f0715325d7f76a-8ea_3699216.pdf*

*3. ARTHUR CECIL PIGOU, 1877-1959, By YUICHI SHIONOYA, Assistant Professor of Econowic PlanningHJeco0060100200.pdf*

*4. Hasan Ali Yücel Klassiklər filmi L, Adam Smit. Xalqların sərvəti/ tərcümə. Bakı: " İqtisad Universiteti" nəşriyyatı, 2010, 827 s.*

*5. Ç.İsmayılov, Ə.Abdullayev, G.Qurbanova, X. Hüseynova, E.Zeynalova, F.Nağıyev, M.Seyidzadə, A.Həsənov. Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2018. – 252 səh.*

*6. Creative Economy 2030: Imagining and Delivering a Robust, Creative, Inclusive, and Sustainable Recovery Edited by Tetsushi Sonobe, Nicolas J. A. Buchoud, Jonathan Tan Ghee Tiong, Seungju Baek, Nella Sri Hendriyetty, and Erica Paula Sioson, 339 p.*

*7. https://stat.gov.az/source/education/*

*8. Azərbaycan - 2026, qüdrətli dövlət və yüksək rifah cəmiyyəti, "Azərbaycan Respublikasının 2022 - 2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", səh. 83. b0acede9fbde0bfd42ebb0c28a-16bf5c_3858975.pdf*


## XÜLASƏ


